RUSLAN RƏHİMLİ

# AZƏRBAYCAN-RUSİYA MÜNASİBƏTLƏRİNDƏ ŞİMALİ QAFQAZ FAKTORU

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI – "ELM" – 2009

Ruslan Hilal oğlu Rəhimli

# AZƏRBAYCAN-RUSİYA MÜNASİBƏTLƏRİNDƏ ŞİMALİ QAFQAZ FAKTORU (1991-1997)

*Monoqrafiyada 1991-1997-ci illərdə Şimali Qafqazda yaranmış etnosiyasi vəziyyət, bu regionda ortaya çıxmış problemlərin tarixi kökləri, müstəqilliyin əldə edilməsindən sonra Azərbaycan-Rusiya münasibətlərinin xarakteri, SSRİ-nin iflasından sonra Şimali Qafqazda yaranan yeni etnosiyasi vəziyyətin mahiyyəti, əsas xüsusiyyətləri, Qafqaz evi və Qafqazın digər ictimai – siyasi təşkilatları, etnik separatizm problemləri və milli ayrı-seçkilik cəhdləri, Rusiya - Çeçenistan münaqişəsi və bu münaqişənin regiondakı münasibətlərə təsiri, müasir dövr Azərbaycan-Rusiya münasibətləri kontekstində Şimali Qafqazda yaranan problemlərin səbəbləri öyrənilir, yeni etnosiyasi reallıqlar araşdırılır.*

*Monoqrafiyadan ali məktəb tələbələri, bakalavr və magistrlər, elmi tədqiqatçılar öz təhsil və araşdırmalarında istifadə edə bilərlər. Kitab eyni zamanda geniş oxucu kütləsi üçün də nəzərdə tutulmuşdur.*

***Kitab Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyəti və Azərbaycan Milli Elmlər Akademiyasının Gənclərin İntellektual İnkişaf Mərkəzinin birgə təşəbbüsü və Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin maliyyə dəstəyi ilə çap olunmuşdur.***

***Müəllif kitabın çapına verdiyi dəstəyə görə Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin Rəisi Cənab Raqif Abbasova və Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri və Azərbaycan Milli Elmlər Akademiyasının Gənclərin İntellektual İnkişaf Mərkəzinin rəhbəri f.-r e.n. İlqar Orucova minnətdarlığını bildirir.***

Elmi redaktor: t.e.d. Aydın Balayev

Rəyçilər: t.e.d. Rauf Hüseynov, t.e.n. Məryəm Oruclu

Elmi məsləhətçi: t.e.n. Əliağa Məmmədli

**İSBN 978-9952-453-17-1**

Ruslan Rəhimli. Azərbaycan-Rusiya münasibətlərində Şimali Qafqaz faktoru, "Elm" 2009, 199. səh

Monoqrafiya Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun "Etnososiologiya" şöbəsində hazırlanmışdır. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi Şurasının 19 oktyabr 2007-ci il tarixli, 9 saylı qərarına əsasən çapa məsləhət bilinmişdir.

$\frac{0503020907}{655(07)-2009}$ **Qrifli nəşr**

**© Ruslan Rəhimli, 2009**

## Mündəricat


GİRİŞ.....................................................................5

**I. SSRİ-nin iflasının Şimali Qafqazda yaranmış etnosiyasi proseslərə təsiri**

1.1 Şimali Qafqazda etnosiyasi vəziyyətə təsir edən tarixi amillər ........................................................23
1.2 SSRİ-nin iflasında etnik faktorun rolu ..................35
1.3 XX əsrin 90-cı illərinin əvvəllərində Şimali Qafqazda milli oyanış prosesi...............................................45
1.4 Çeçenistanın mustəqillik uğrunda mübarizəsi...........58
1.5 Qafqaz evi və Qafqaz xalqlarının digər ictimai-siyasi təşkilatları........................................................68

**II.Müstəqillik əldə etdikdən sonra Azərbaycan-Rusiya münasibətlərinin təşəkkülü prosesində etnosiyasi faktorun rolu**

2.1 Etnosiyasi faktorun müstəqilliyin ilkin mərhələsində Azərbaycan-Rusiya münasibətlərində yeri..................91
2.2 Etnik separatizm problemləri və milli ayrı-seçkilik cəhdləri...........................................................103

**III. Şimali Qafqazda yaranan yeni etnosiyasi reallıqların Azərbaycana təsiri (1994-1997)**

3.1 Rusiya-Çeçenistan müharibəsinin başlanması.........131
3.2 Şimali Qafqazda etnosiyasi gərginliyin yaranması nəticəsində Rusiya-Azərbaycan münasibətlərinin kəskinləşməsi...........................................................134
3.3 Rusiya-Çeçenistan müharibəsinin başa çatması və regionda yaranmış yeni etnosiyasi vəziyyətin xarakteri...147

NƏTİCƏ..............................................................180
РЕЗЮМЕ..............................................................188
SUMMARY............................................................190
ƏDƏBİYYAT SİYAHISI.........................................192




## G İ R İ Ş

SSRİ-nin süqutundan (1991) sonra Qafqaz bölgəsi özünün ən mürəkkəb və məsuliyyətli dövrünü yaşayır. İnsan və təbii ehtiyatlar baxımından zəngin, etnik cəhətdən isə rəngarəng olan Qafqaz geostrateji cəhətdən əlverişli bir mövqedədir. Region dənizlərə çıxışı olmaqla yanaşı, Avropa ilə Asiya arasında körpü rolunu da oynayır. Böyük iqtisadi layihələrin həyata keçirildiyi bölgənin qitələrarası tranzit dəhlizi kimi əhəmiyyəti bir qədər də art mışdır. Qafqazın əlverişli və vacib mövqedə olması onu dünyanın diqqət mərkəzinə çevirib.

Hələ XX əsrin əvvəllərində Azərbaycanın regiondakı əhəmiyyətli mövqeyi haqqında Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən olan Məhəmməd Əmin Rəsulzadə «Azərbaycan Cümhuriyyəti» əsərində yazırdı: «Bakı yalnız dünyanın nəzərini cəlb edən petrol mənbələrinə malik deyil. Kaspi dənizinin ən mühüm bir limanına malikdir. Bura İran, Türikiyə və Rusiya ilə Avropanı əlaqələndirən mühüm bir ticarət mərkəzidir. İkinci bir İstanbuldur.» *(Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti B., 1990)*

Əlbəttə ki, dünyanın aparıcı dövlətlərinin diqqət mərkəzində olan bir regiona münasibətdə maraqlar da çoxtərəfli və müxtəlifdir. Fərqli siyasətlərin qarşılaşması və bunların xarakteri bölgədəki vəziyyətə birbaşa təsir edən faktordur.

Sovetlər İttifaqı iflasa uğradıqdan sonra Qərb dövlətləri də Qafqazda öz nüfuz dairəsini genişləndirməyə çalışır. Bu baxımdan ABŞ və Avropanın böyük dövlətləri regionun kommunikasiya sistemləri və yanacaq-energetika kompleksi üzərində nəzarət imkanlarını artırırlar. 1994-cü ildən başlayaraq bu siyasət aktiv surətdə həyata keçirilməyə başlayıb. Qərb ölkələri Qafqaz regionunda investisiya, böyük iqtisadi layihələrdə iştirak etmək siyasətindən, demokratik cəmiyyətlər formalaşdırmaq üsullarından istifadə etməklə möhkəmlənməyə, nüfuzunu artırmağa çalışır. Lakin bununla yanaşı regionda hərbi –siyasətin aktivləşməsi də bir reallıqdır. Qafqaz ölkələrinin NATO-nun «Sülh naminə tə-

rəfdaşlıq» proqramına və Avropanın nüfuzlu qurumlarına qəbulu Qərb siyasətinin burada aparıcı mövqeyindən xəbər verir. Dünyanın başlıca «güc mərkəzlərinin» Qafqaza olan maraqları bir tərəfdən müsbət, digər tərəfdən mənfi meyllərin yaranmasını şərtləndirir. İqtisadi və kommunikasiya layihələrinin həyata keçirilməsi bölgənin iqtisadi dirçəlişinə və infrastrukturun formalaşmasına böyük təkan verir. Qafqazın beynəlxalq miqyasda gedən proseslər çərçivəsində inkişaf etməsi demokratiya və insan inkişafı baxımından region üçün xüsusilə əhəmiyyətlidir. Lakin digər tərəfdən böyük dövlətlərin Qafqazda nüfuzlarını artırmaq uğrunda mübarizəsi burada yeni qarşıdurmaların və konfliktlərin yaranmasına və inkişaf etməsinə şərait yaradır.

Danılmaz faktdır ki, milli-siyasi zəmində baş verən ərazi münaqişələrinin böyük əksəriyyəti Qafqazın payına düşür və bu region postsovet məkanında ən münaqişəli bölgədir. Cənub-Şərqi Avropada Balkanlar, keçmiş SSRİ ərazisində isə Qafqaz "barıt çəlləyi" hesab olunur. Qafqazda etnosiyasi proseslərin yönümünə sovet rejiminin iflasının böyük təsiri olmuşdur. Təxminən ikiyüzə qədər etnosu və azsaylı xalqları özündə birləşdirən bir quruluşun, SSRİ-nin dağılması bütün postsovet məkanında milli münaqişələrin yaranmasına və yaxud yenidən qızışmasına təkan verdi. Sovetlər birliyinin iflasından sonra digər sahələrdə olduğu kimi milli münasibətlərdə də problemlərin mənfi istiqamətdə inkişafına şərait yarandı. Daha dəqiq desək, etnosiyasi problemlər Sovet İttifaqının əsaslarını sarsıtdı və onun dağılması prosesində katalizator rolunu oynadı. SSRİ-nin dağılmasını ona görə ən yeni tarixin mütərəqqi hadisələrindən hesab etmək olar ki, sovet siyasi rejiminin təzyiq və qorxusu altında yaşayan millətlər öz müqəddəratlarını azad surətdə təyinetmə imkanı əldə etdilər və milli suverenliyə nail olmaq yolunda onlar üçün əlverişli şərait yarandı. Çar Rusiyası kimi Sovet dövləti də «xalqlar həbsxanası» idi, burada dövlətin maraqları millətlərin mənafe və maraqlarından daha üstün mövqedə dayanırdı. Etnoslara qarşı həyata keçirilən qeyri-dəqiq, milli heysiyyatlara toxunan siyasət



SSRİ-də etnik münaqişələrin hələ 80-cı illərin əvvəllərindən aktivləşməyə başlamasına əlverişli şərait yaratmışdı və bu, özünü müxtəlif formalarda büruzə verirdi. Təkcə 80-cı illərin sonlarından 90-cı illərin əvvəllərinə qədər olan dövrdə SSRİ-də yüzdən artıq münaqişə qeydə alınmışdır.

Qafqazda etnosiyasi konfliktlərin əksəriyyətinin siyasi vasitələrlə, dinc yollarla həlli elə də böyük effekt vermədiyindən buradakı münaqişələr müharibə həddinə qədər yüksəldi. Buna sübut olaraq erməni-azərbaycanlı, abxaz-gürcü, osetin-gürcü, osetin-inquş, rus-çeçen müharibələrini göstərmək olar.

Ümumilikdə etnik münaqişələr, etniklərarası gərginliklər müasir dünyada geniş yayılıb və daha qabarıq şəkildə özünü büruzə verir.

Qeyd edək ki, yer kürəsində 2000-dən 4000-dək xalq, millət və etnik qrup yaşayır. Dünya əhalisinin 3.2 faizi sayı 1 milyon nəfərə qədər olan minlərlə etnik birlikdən ibarətdir. Əhalisinin sayı minə qədər olan yüzlərlə müxtəlif etnik qruplar mövcuddur ki, bu qruplar da əhalisinin əksəriyyətini bir etnos təşkil edən müxtəlif ölkələrdə yaşamaq məcburiyyətindədirlər. Bu etnik rəngarənglik çox zaman böyük etnosiyasi problemlərin, etnik münaqişələrin yaranmasına səbəb olur. Dünyada 4000-dək xalq, millət, etnik qrupun olması bir o qədər də psixologiya, etnomədəniyyət, etnik şüur, mentalitet, həyat və davranış tərzinin olması deməkdir.

«Dünya problemlərini öyrənən Stokholm Beynəlxalq institutunun hesablamalarına görə 90-cı illərin ortalarında bütün konfliktlərin üçdə iki hissəsi etniklərarası münaqişələr olub» [67, s.229]. Amerikalı tədqiqatçı Samuel Hantinqtonun dünyada gedən millətçilik, etnizm barədə fikirləri də bu konteksdə böyük maraq doğurur. Onun fikrincə, «XXI əsrin başlanğıcı heç də liberal demokratiyanın deyil, etnizm və millətçiliyin triumfu kimi xarakterizə olunacaq» [135, s.34]. Bu baxımdan SSRİ-nin süqutu da etnik konfliktlərin çoxalması və kəskin xarakter almasına, radikal millətçiliyin inkişafına gətirib çıxardı. «Hesablamalara görə postsovet məkanında 180 etnoərazi mübahisələri qeydə alınıb, 1996-cı

ilə qədər 140 ərazi iddiası öz aktuallığını saxlayıb» [67, s.241].

Qeyd etmək lazımdır ki, Şimali Qafqazda etniklərarası, etnosiyası, dini-siyasi gərginlik ocaqları daha çoxdur. Bu bölgədə ərazi iddiaları və etnoərazi münaqişələrinin böyük əksəriyyətinin köklərini çar hökuməti və ondan sonrakı sovet rejimi dövründə yerli xalqların kütləvi deportasiyasında, sərhəd dəyişikliklərində, süni surətdə aparılan ərazi mübadilələrində axtarmaq olar. Bu isə Şimali Qafqaz xalqları arasında həll edilməsi gələcəkdə müşkülə çevriləcək düşmənçiliyin yaranması ilə nəticələnib və SSRİ-nin dağılmasından sonra da problemlər aradan qalxmayıb. Bu siyasətin nəticəsində regionda yaranan etnosiyasi problemlər ərazi iddialarının və siyasi statusla bağlı məsələlərin əsası hesab oluna bilər.

Milli münasibətlərin gərginləşməsinə etnos və etnik qrupların elitar təbəqəsinin hakimiyyətə yiyələnmək uğrunda mübarizəsini və regionda davam edən suverenləşmə prosesini də misal göstərmək olar. Digər tərəfdən Şimali Qafqazın sosial-iqtisadi cəhətdən geridə qalması əlavə gərginliklərin baş verməsinə səbəb olur. Mütəxəssislərin rəyinə görə Rusiya Federasiyasında sosial-iqtisadi cəhətdən ən ağır vəziyyət Adıgey, Dağıstan, İnquşetiya, Kabardin-Balkar, Qaraçay-Çərkəz, Şimali Osetiya, Çeçen respublikalarındadır. Qaçqınların daha çox yerləşdiyi Dağıstan, İnquşetiya, Şimali Osetiya və Çeçen respublikalarında işsizlərin sayı RF - in digər subyektləri ilə müqayisədə daha yüksək səviyyədədir [93].

Bölgənin polietnik tərkibi də etnosiyasi münasibətlərin mürəkkəbliyinə səbəb olan faktorlardandır. Qafqazda yüzdən artıq etnosun və etnik qrupun mövcudluğu regionun etnik rəngarəngliyinə sübutdur. Məsələn, təxminən iki milyona qədər əhaliyə malik olan Dağıstanda yüzdən artıq etnos məskunlaşıb. Burada elə etnik qruplar var ki, onların hər birinin sayı 2-3 min nəfərdir.

Qafqaz Qərbdən Qara və Azov, Şərqdən Xəzər dənizləri, Şimaldan Rusiya, Cənubdan isə Türkiyə və İranla sərhəddir. Qafqazın ümumi ərazisi 440 min kv. km-dir. Qafqazda 128 etnosu təmsil edən 40 mln-dan çox əhali yaşayır. Böyük Qafqaz sıra dağları Qafqazı iki hissəyə ayırır. Şimali Qafqazın ərazisi 254, 3 min kv. km, Cənubi Qafqazınki isə 186, 4 min kv. km-dir. Şimali Qafqaza Dağıstan, İnquş, Çeçenistan, Kabardin-Balkar, Şimali Osetiya, Qaraçay-Çərkəz, Adıgey Respublikaları, Krasnodar və Stavropol diyarları və Rastov vilayəti daxildir. Cənubi Qafqaz isə Azərbaycan, Gürcüstan və Ermənistan Respublikalarından ibarətdir.

Şimali Qafqaz Rusiya Federasiyasının 2,1 faiz ərazisini təşkil edir və Rusiyanın 12 iqtisadi rayonu arasında Şimali Qafqaz əhalisinin sayına görə üçüncü yerdə dayanır.

Burada başlıca yeri üç dil ailəsi - Altay, İber-Qafqaz və Hind-Avropa dil ailələri tutur. Qafqaz xalqları arasında Altay dil ailəsinin türk qrupuna azərbaycanlılar (azəri türkləri), tatarlar, kumıklar, qaraçaylar, balkarlar, noqaylar daxildirlər.

İber-Qafqaz dil ailəsi üç qrup ilə təmsil olunur. Bunlar kartvel qrupu (bura daxildir: gürcülər, acarlar, hevsurlar, psavlar, tusinlər, svanlar, meqrellər, lazlar), adıq-abxaz qrupu (bura daxildir: kabardinlər, adıgeylər, abxazlar, çərkəzlər), nax-dağıstan qrupudur (bura daxildir: çeçenlər, inquşlar, avarlar, darginlər, laklar, kubaçilər, ləzgilər, tabasaranlar, saxurlar). Hind-Avropa dil ailəsinin İran qrupuna daxildir: osetinlər, kürdlər, dağ yəhudiləri, tatlar. Ermənilər isə Hind-Avropa dil ailəsində müstəqil qrup təşkil edir.

Şimali Qafqazda azsaylı etnik qruplara aiddir:- abazexlər, andiylar, arçinlər, assiriyalılar, botlixlər, buduqlar, almanlar, didoylar, ingiloylar, qaytaqlar, kalmıklar, qrızlar, türkmənlər, ubıxlar, udinlər, xınalıqlar, qafqaz qaraçıları, şapsuqlar.

Ahıska türkləri və Krım tatarları Şimali Qafqazın Krasnodar diyarında məskunlaşıblar.

Şimali Qafqazda erməni icması da yaşayır və onlar bu ərazilərə XIX əsrin əvvəllərində Türkiyə və İrandan köçürülüb və yaxud miqrasiya ediblər. Onlar Şimali Qafqazda Terek hövzəsində, Donun aşağı hissələrində, Kuban

vilayətində, Qara dəniz sahillərində yerləşiblər.

Osetinlər və Mozdok kabardinlərindən başqa Şimali Qafqaz xalqlarının böyük əksəriyyəti islam dininə sitayiş edir.

Qeyd etmək lazımdır ki, SSRİ hökumətinin hakimiyyətdə olduğu illərdə Qafqazda baş verən etnosiyasi proseslər, xalqlar arsında olan münasibətlər, milli problemlərin ilkin səbəbləri və xüsusiyyətləri, onların ictimai-siyasi inkişafa təsiri obyektiv şəkildə tədqiq olunmayıb. Ona görə ki, rəsmi ideologiya ölkədə hər hansı etnik problemin mövcudluğunu apriori olaraq inkar edib. Lakin SSRİ-də etnik sahədə problemsizlik illuziyası yaradılsa da, ölkədə milli problemlər həmişə olub və məhz bu proseslər sovet hakimiyyətinin varlığına zərbə vurub.

Beləliklə, SSRİ-nin iflası və milli müstəqilliyin gerçəkləşməsi elmin digər sahələrində olduğu kimi milli münasibətlərə də yeni bucaqdan baxışı zərürətə çevirdi. Postsovet məkanında, konkret olaraq Qafqazda baş verən etnosiyasi proseslərin, milli siyasətin və bunların dövlətlərarası münasibətlərə təsirinin öyrənilməsinə təbii tələbat yarandı. Bu kontekstdə Şimali Qafqazda etnosiyasi vəziyyətin Azərbaycan-Rusiya münasibətlərinə təsiri məsələlərinin tədqiq edilməsi böyük əhəmiyyət kəsb edir.

Müasir dövrdə Qafqazda baş verən etnosiyasi proseslərin xarakteri, Şimali Qafqaz xalqları və onların milli-siyasi aspektdə mövcud vəziyyəti, Qafqazda yaranan etnik münaqişələr və milli-siyasi sahədə ortaya çıxan problemlərin regiondakı proseslərə təsirinin araşdırılması müasir etnoqrafiya, etnopolitologiya və tarixşünaslığın qarşısında duran mühüm problemlərdən biridir.

Monoqrafiyanın 1991-1997-ci illəri əhatə etməsinin bir sıra əsaslı səbəbləri var. 1991- ci il böyük bir tarixi mərhələnin başlanğıcıdır və həmin ildə SSRİ süquta uğradı və sovet rejiminin idarəçiliyi altında yaşamağa məcbur edilən millətlər, eləcə də Qafqaz xalqları azadlığa qovuşdular.





Bu ildən etibarən müstəqil Azərbaycan və Rusiya dövlətləri yarandı və hər iki ölkə arasında etnosiyasi aspektdə problemlər də elə bu dövrdən etibarən aktivləşməyə başladı.

Azərbaycan və Rusiya arasındakı əlaqələrdə meydana çıxan problemlər və anlaşılmazlıqlar bir çox sahələri əhatə edirdi və səbəbləri də fərqli idi. Belə problemlərdən Azərbaycanı parçalamağa cəhd göstərən «Sadval» təşkilatının himayə edilməsi, Rusiyada, xüsusilə Dağıstanda onun fəaliyyətinə əlverişli şərait yaradılması və süni olaraq «ləzgi məsələsinin» ortaya atılmasını, Şimali Qafqazda Rusiya ilə Çeçenistan arasında yaranan münaqişə nəticəsində Rusiyanın Azərbaycana qarşı tutduğu sərt mövqeni, təzyiq kompaniyasını, Azərbaycana qarşı yaradılan blokadanı göstərmək olar.

Azərbaysan üçün problemli məsələlərdən hesab olunan qondarma «ləzgi məsələsi» əslində Rusiyada, SSRİ-nin iflası ərəfəsində yaranmışdı. «Ləzgi məsələsinin» mahiyyətində Azərbaycanın şimal, Dağıstanın cənub əraziləri hesabına Ləzgistan dövlətinin yaradılması ideyası dayanır. Qeyd edək ki, ləzgi ekstremistlərinin separatçılıq əməllərinə Rusiyada birmənalı münasibət olmayıb və Rusiya bu məsələ ilə əlaqədar ikili standartlardan istifadə edib. Bu baxımdan Rusiyanın «ləzgi məsələsində» tutduğu mövqe, qondarma «ləzgi probleminin» tarixi, xarakteri və Azərbaycan-Rusiya münasibətlərinə təsiri, Azərbaycanın bununla bağlı həyata keçirdiyi tədbirlər, milli-siyasət məsələlərinin bu kontekstdən tədqiq edilməsi münasibətlərin etnosiyasi tərəfdən öyrənilməsi və bir sıra məsələlərə aydınlıq gətirilməsi baxımından gərəkli ola bilər.

Azərbaycan-Rusiya arasında gərginlik yaradan digər məsələ birinci Rusiya-Çeçenistan müharibəsi (1994-1996) ilə bağlıdır. Doğrudur, Rusiya ilə Çeçenistan arasında başlayan müharibənin Azərbaycana birbaşa təsiri olmasa da müharibə ilə bağlı bütün Qafqaz regionunda yaranan şərait Azərbaycan üçün də problemlər yaratdı. Burada Rusiyanın tutduğu mövqeni xüsusilə qeyd etmək lazımdır. Rusiya - Çeçenistan müharibəsi elə ilk mərhələdən Azərbaycana qarşı sərt ittiham kompaniyası ilə müşaiyət olundu. Rusiya rəsmiləri Azərbaycanı Çeçenistana yardım göstərməkdə günahlandırdılar və tezliklə təbliğat kampaniyası real təzyiqlərlə əvəzləndi. Belə ki, I Rusiya-Çeçenistan müharibəsinin başlaması ilə Azərbaycana qarşı sərhəd blokadası tətbiq edildi. Hətta Rusiya ilə Azərbaycan arasında dəniz əlaqələri də kəsildi və Azərbaycan gəmilərinə Volqa-Don kanalı vasitəsi ilə dünya okeanına çıxmaq qadağan edildi.

Rusiyanın Azərbaycana qarşı tutuduğu sərt mövqe I Rusiya-Çeçenistan müharibəsinin bütün gedişi dövründə davam etdi. Münasibətləri aydınlaşdırmaq və problemi aradan qaldırmaq yönümündə çoxsaylı ikitərəfli danışıqlar real nəticə vermədi və blokada şəraiti I Rusiya-Çeçenistan müharibəsinin sonuna qədər uzandı.

1996-cı ildə Rusiya ilə Çeçenistan arasında müharibənin sona çatması, 1997-ci ildə tərəflər arasında imzalanan müqavilə Qafqazda yeni siyasi şəraitin yaranmasına səbəb oldu və Azərbaycan-Rusiya-Çeçenistan arasında regional əməkdaşlıq üçün də böyük imkanlar yarandı. Şimali Qafqaz respublikalarından keçən Bakı-Novorossiysk kəməri vasitəsilə ilkin Xəzər neftinin daşınması haqqında Azərbaycan-Rusiya-Çeçenistan arasında saziş imzalandı. Bu saziş "Əsrin müqaviləsi" çərçivəsində yeni bir üçtərəfli əməkdaşlığın əsasının yaradılması demək idi. Artıq 1997-ci ildə Rusiyanın Azərbaycana qarşı tətbiq eğdiyi blokada rejimi aradan götürüldü, Azərbaycanla Rusiya arasında yeni dostluq və əməkdaşlıq müqaviləsi imzalandı.

Beləliklə, I Rusiya-Çeçenistan müharibəsinin Azərbaycan-Rusiya münasibətlərinə təsiri, müharibənin başa çatması ilə regionda yaranan şərait, Şimali Qafqaz nəqliyyat kommunikasiyalarının təhlükəsizlik məsələləri, Azərbaycan-Rusiya arasında əməkdaşlığın yeni mərhələsinin araşdırılması müasir Azərbaycan tarixşünaslığı üçün böyük əhəmiyyət kəsb edir.

Əsər Şimali Qafqazda yeni reallıqların tədqiq edilməsi və regiondakı problemlərin hərtərəfli və sistemli şəkildə öyrənilməsinə xidmət edir.

Bu baxımdan monoqrafiya regiondakı etnosiyasi mürəkkəbliyi və problemləri öyrənməklə yanaşı Azərbaycan-Rusiya münasibətlərində etnosiyasi amillərin oynadığı rolu, etnosiyasi çətinlikləri doğuran şəraiti və buna gətirib çıxaran səbəbləri də araşdırır.

Sovet sistemi elə bir ideoloji-siyasi mexanizm yaratmışdı ki, burada milli problemlərin mövcudluğu inkar edilir, bütün millətlər və etnik birliklər arasında dinindən, dilindən və etnik mənsubiyyətindən asılı olmayaraq qardaşlığın və əbədi dostluğun mövcudluğu bildirilirdi. Bununla yanaşı Sovet hökuməti xalqlar və müttəfiq respublikalar arasında real etnosiyasi münasibətlərin tədqiq edilməsinə imkan verməyib və bu da SSRİ ərazisində gedən etnosiyasi proseslərə aydınlıq gətirilməsinə, milli-etnik problemlərin obyektiv olaraq öyrənilməsinə mane olub.

XX-əsrin 80-ci illərinin sonlarından başlayaraq artıq SSRİ ərazisində etnik problemlərin aktuallığı dərk edilməyə başlandı. Etnosiyasi münasibətlərə dair yeni elmi-tədqiqat işlərinə, milli münasibətlər sahəsində elmi-nəzəri monoqrafiyalara və bu sahə ilə əlaqədar müxtəlif səpgili araşdırmalara ehtiyac yarandı. Şimali Qafqazda yaranan etnosiyasi vəziyyətin Azərbaycan-Rusiya münasibətlərinə təsiri mövzusu konkret olaraq öyrənilməsədə Azərbaycan-Rusiya münasibətləri, regiondakı etnosiyasi durum, milli münasibətlər, etnik problemlər haqqında müxtəlif səviyyəli elmi əsərlər yazılıb.

Problemin öyrənilməsində H.Əliyevin «Müstəqilliyimiz əbədidir» kitabı [37] böyük əhəmiyyət daşıyır. Kitabda Azərbaycanın yeni müstəqillik qazandıqdan sonra qonşu dövlətlərlə münasibətləri, Azərbaycan-Rusiya münasibətlərinin yeni mərhələdə xarakteri, siyasi görüşlər, müqavilələr, Qafqazdakı problemlər, regiondakı vəziyyət haqqında ətraflı məlumatlar əldə etmək olar. Bu sırada «Müstəqillik yolu» [36], «Heydər Əliyev və Azərbaycanda milli siyasət» [57], «Дипломатия мира» [84] kitablarını da göstərmək olar.



H.Orucovun «Heydər Əliyev və Azərbaycanda milli siyasət» kitabında Azərbaycan dövlətinin azsaylı xalqlara qarşı münasibəti, H.Əliyevin hakimiyyətə gəlməsindən sonra aparılan milli siyasət məsələləri ətraflı olaraq araşdırılmışdır. H.Orucov qeyd edir ki, «Ermənistandan qovulan kürdlər, ruslar, ukraynalılar başqa yerə yox, məhz Azərbaycana gəldilər, keçmiş sovetlər birliyindən deportasiya olunan ləzgilər Dağıstana deyil, Azərbaycana pənah gətirdilər» [57, s.73]. Müəllif H.Əliyevin 1993-cü ildə hakimiyyətə gəlməsindən sonra milli siyasət sahəsində vəziyyəti belə qiymətləndirir: «Bütün sahələrdə olduğu kimi, milli münasibətlər sahəsində də təxribatlara, naşılıqlara son qoyuldu. Ölkə əhalisinin iradəsi, enerjisi hesabına qorunub saxlanan milli birlik ilk dəfə məhz Heydər Əliyevin dövründə və onun sayəsində sarsılmaz xarakter qazandı» [57, s.31].

Azərbaycan tarixçiləri və politoloqlarından Q.Cavadov, M.Qasımov, H.Orucov, V.Quluzadə, R.Mustafayev, A.Abbasbəylinin əsərləri də problemin öyrənilməsi ilə gərəkli ola bilər.

V.Quluzadənin «Gələcəyin üfüqləri» kitabında Rusiya-Çeçenistan münaqişəsi nəticəsində Rusiya ilə Azərbaycan arasında yaranmış kəskin münasibətlərə toxunulmuşdur. Burada Rusiyanın Azərbaycana qarşı təzyiqləri, bölgədəki münaqişələrin həllinə mane olan məsələlər şərh edilmişdir. Müəllif yazır: «Oroznı separatçılarına kömək barədə ittihamlara, Azərbaycan XİN-in çeçenpərəst və antirusiya məzmunlu təşviqat vərəqələri çap etməsinə», başqa dövlətin daxili işlərinə müdaxiləyə gəldikdə isə bütün bunlar uydurmadan başqa bir şey deyil. Çeçenlərin Rusiya mənbələrindən hansı yolla silah əldə etməsi elə Rusiya kütləvi informasiya vasitələrinin özündə geniş işıqlandırılmışdır» [46, s. 251].

Q.Cavadovun «Azərbaycanın azsaylı xalqları və milli

azlıqları» adlı kitabında [34] qondarma ləzgi məsələsi müəyyən qədər araşdırılıb. Burada ləzgilərin azərbaycanlılarla eyni dərəcədə hüquqları və azadlıqlarının olduğu, ləzgilərin ictimai həyatın bütün sahələrində - elm, mədəniyyət, incəsənət, dövlət və hakimiyyət strukturlarında təmsil olunmaları xüsusilə vurğulanır. Ümumilikdə tədqiqat əsərində ləzgi xalqının separatçı və ekstremist ünsürlərlə əlbir olmadığı, Azərbaycan dövlətçiliyini dəstəklədiyi göstərilir.

A.Abbasbəylinin «Azərbaycan mənim ürəyimdir» [2], R.Mustafayevin «Fikir azaddır» [52] kitablarında Qafqaz evi məsələsinə, Azərbaycan və Gürcüstan prezidentlərinin Qafqazda sülh uğrunda apardıqları siyasətə xüsusi yer ayrılmışdır.

SSRİ-nin iflasına təkan verən və bu iflası tezləşdirən etnosiyasi problemlər, SSRİ-də, sonradan isə postsovet məkanında baş verən etnik münaqişələr, milli münasibətlər sahəsində çoxsaylı problemlər haqqında Rusiyalı alimlər İ.Krupnik, V.Tişkov, E.Pain, V.Zotov, A.Kuznetsov, A.Jarnikov, A.Avtorxanov, Y.Etinger, R.Landa, H.Hüseynov, D.Draqunski, V.Sergeyev, D.Malışeva, V. Deqoev, V.Belozerov və s. elmi-tədqiqat əsərlərini misal göstərmək olar.

A.Avtorxanov özünün «Империя Кремля» əsərində [63] SSRİ-də milli problemlərin yaranma tarixi, səbəbləri, Çar Rusiyası və sonradan bolşeviklərin xalqlara qarşı apardığı milli siyasət, bütün bunların doğurduğu nəticələr haqqında geniş təhlillər aparır. Avtorxanov Qafqaza dair Rusiyanın işğalçılıq niyyətlərindən, xalqların deportasiyası, milli ərazi bölgülərinin millətlərin maraqlarından kənar həll olunması məsələlərini qeyd edir. Tədqiqatçı milli problemlərin köklərini milli siyasətin düzgün aparılmamasında görür.

D.Malışeva SSRİ-ni bürüyən etnosiyasi problemlər, etnik münaqişələrin tarixi və səbəbləri haqqında apardığı tədqiqatında göstərir ki, milli problemlər sovet siyasi rejiminin apardığı düzgün olmayan siyasətinin nəticəsidir. Milli



problemlərin millətlərin mənafeyindən kənarda həll olunması, yaxud ört-basdır edilməsi gələcək konfliktlərin əsasını qoyub. O yazır ki, hazırda MDB - də baş verən konfliktlərin çox hissəsinin kökləri 80-ci illərə gedib çıxır [110, s. 31].

SSRİ-nin əsaslarını sarsıdan etnik millətçilik problemləri barədə İ.Krupnik, V.Tişkov, V.Zotovun tədqiqatları da maraq doğurur. Məsələn, İ.Krupnik SSRİ-də milli problemlər haqqında yazır:- «Etnik zəmində toqquşmalar, təqiblər, milli zorakılığın tətbiqi milli məsələni dramatikləşdirən və uçuruma yuvarlayan bir element kimi ortaya çıxdı. Milli zorakılığın tətbiqi xalqların dövlətə və bir-birlərinə olan inamını qırıb, şübhə, qorxu yaranıb» [97, s. 4].

Amerikalı sovetoloq Zbiqnev Bzejinskinin «Postkomunist millətçiliyi» əsəri də problemin öyrənilməsi baxımından əhəmiyyətlidir. O yazır:- «Kommunizm özünü beynəlmiləl bir doktrina elan etməsinə baxmayaraq xalqın beynində millətçilik hissini gücləndirmişdi» [133, s. 2].

Artıq SSRİ-nin dağılmasından sonra milli münasibətlər və etnosiyasi problemlər sahəsində daha geniş səpgidə elmi tədqiqatlar aparılmağa başladı, bu barədə daha cəsarətli və obyektivliyə yaxın elmi əsərlər meydana çıxdı. Postsovet dövründəki milli məsələlər, etnik konfliktlər bir sıra tədqiqatçıların əsas tədqiqat obyektinə çevrildi. Bunlardan V.Lısenkonu, D.Malışevanı, K.Qadjıyevi, A.Zdravomıslovu göstərmək olar.

V.Lısenko MDB ərazisindəki konfliktlərin səbəblərinin milli sərhədlərin müxtəlif vaxtlarda dəyişdirilməsində və yaxud ərazidə etnik yerləşmənin düzgün olmamasında axtarır. O, yazır:- «Bir çox hallarda konfliktlərin səbəbləri ərazidə etnik yerləşmənin düzgün olmamasında və yaxud bunun süni surətdə yaradılmasındadır. Ərazi mübahisələrinin səbəbləri ayrı-ayrı dövrlərdə sərhədlərin dəyişdirilməsidir» [102, s. 148]. Postsovet məkanında millətlərarası münaqişələr konseptual şəkildə A.Zdravomıslovun «Межнациональные конфликты в постсоветском пространстве» əsərində [87] təhlil edilmişdir. Burada sovet siyasi rejiminin dağılması

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI
5438

ilə və ondan sonra ortaya çıxan etnosiyası münaqişələr, etnik zəmində baş verən toqquşmalar, müharibələr ayrı-ayrılıqda, ətraflı və sistematik şəkildə öyrənilib. Əsərdə həmçinin Qafqazdakı etnosiyası vəziyyət araşdırılır, Cənubi və Şimali Qafqazdakı etnosiyası vəziyyətin təhlili bütünlükdə olmasada, məsələlərə müəyyən qədər aydınlıq gətirilməsinə imkan yaradır. Burada Osetin – İnquş və Rusiya - Çeçenistan münaqişələri geniş təhlil edilir və bu da tədqiqat əsərindən müəyyən qədər bəhrələnməyə imkan verir. Bizim üçün maraqlı cəhətlərdən biri də odur ki, əsərdə ermənilərin 1992-ci il fevralın 26-da Qarabağda azərbaycanlılara qarşı törətdiyi Xocalı söyqırımına yer ayrılmış, burada azərbaycanlıların kütləvi surətdə qətliamı, Rusiyanın Xankəndində yerləşən 366-cı motoatıcı alayının ermənilərə bu məsələdə yaxından kömək göstərməsi aydın şəkildə verilmişdir.

Şimali Qafqazdakı etnosiyası problemlər A.Malaşenkonun bir sıra tədqiqatlarında araşdırılmışdır. Əlbəttə Malaşenko öz əsərlərində Şimali Qafqazda baş verən hadisələrdə radikal islamçı təriqətlərin və ümumiyyətlə İslamın proseslərə təsirini göstərir və konfliktləri əsasən bu aspektdən araşdırır. Onun «Исламские ориентиры Северного Кавказа» əsərində [106] əsasən islamın Qafqazda oynadığı rol, regiondakı proseslərə təsiri məsələləri göstərilib. Qeyd edək ki, Malaşenkonun əsərlərində Qafqazda etnosiyası problemlərin öyrənilməsinə yardımçı olacaq ətraflı məlumatlar da var. Bu baxımdan onun D.Treninlə birlikdə hazırladıqları «Время Юга: Россия в Чечне Чечня в России» [107] əsəri çox əhəmiyyətlidir. Burada Rusiya - Çeçenistan konflikti dövründə Rusiyanın Azərbaycana qarşı yürütdüyü siyasət, Azərbaycanın çeçen yaraqlılarına öz ərazisində yer verməsi, Azərbaycanın çeçen yaraqlıları üçün plasdarma çevrilməsi ittihamları və bu ittihamların nəticəsində Azərbaycanın blokada vəziyyətinə salınması məsələləri öz əksini tapıb. Əsərdə Rusiya - Çeçenistan konflikti ətraflı tədqiq



olunub. Rusiyada yaranmış islamafobiya və qafqazafobiya məsələlərinin də əsərdə öz əksini tapması böyük maraq doğurur.

I Rusiya - Çeçenistan müharibəsi L.Usmanovun «Непокаренная Чечня» əsərində [131] ətraflı təhlil edilmişdir və problemin öyrənilməsində gərəkli ola bilər. Burada göstərilir ki, Rusiya - Çeçenistan müharibəsinin başlanmasının səbəblərindən biri də Çeçenistandan keçən kommunikasiya vasitələrinə Rusiyanın sahib çıxmaq istəyi idi. Xəzər neftini daşıyacaq Bakı-Novorossiysk kəməri Çeçenistandan keçdiyindən Rusiya bu kəmər üzərində nəzarəti bərpa etməyə çalışırdı.

I Rusiya - Çeçenistan müharibəsi «Россия-Чечня: цеп ошибок и преступлений» əsərində də ətraflı öyrənilib. Burada müharibənin başlanmasından sonuna qədər bütün proseslər xronoloji ardıcıllıqla və ətraflı şəkildə öz əksini tapıb.

Çeçen münaqişəsi E.Pain və A.Popovun «Чеченская политика России с 1991 по 1994 гг» məqaləsində [121] araşdırılır və müharibəyə qədərki vəziyyət ətraflı tədqiq olunur.

Qafqazda yaranmış etnosiyası vəziyyət D.Malışevanın «Проблемы безапасности на Кавказе» [108], A.İqnatenko, A.Salminin «Конфедерасия народов Кавказа в политическом контексте Кавказского региона» [88], O. Bubenokun «Межетнические конфликты на Центральном Кавказе: предпосылки развитие и прогнозы на будушщее» [71], A.Skokovun, M.Botaşevin, V.Çernousun, S.Sıxoskiyin, Q.Lapidusun, A.Borovun, K.Dzamixovun elmi əsərlərində tədqiq olunur.

K.Qadjiyevin tədqiqatlarında Qafqaz məsələsi geniş araşdırılır. Onun «Геополитические перспективы Кавказа в «стратегии России» [75], «Геополитика Кавказа» [73] əsərlərində Qafqazdakı münaqişələr, onların xarakteri, Qafqazın geopolitik durumu, Rusiyanın Qafqaz siyasəti geniş təhlil

olunur.

SSRİ-nin iflasından sonra yeni müstəqillik qazanmış Azərbaycan və Rusiya arasında sərhəddə yaranmış gərginliklər haqqında «Россия и мусульманский мир» jurnalında yazılanlara diqqət yetirək: - «Şimal sərhəddində yeni zastavalar, kömrük posiları yaradıldı (1992-1993-cü illər nəzərdə tutulur - R.R). Rusiya ilə Azərbaycan arasında demək olar ki, düşmənçilik münasibəti yarandı» [123, s. 81]. Amerikalı politoloq A.Koen «Narahatlıq üçün əsas: Rusiyanın Cənubi Qafqazdakı siyasətinin son tendensiyaları» adlı məqaləsində [96] Rusiyanın XX-ci əsrin 90-cı illərinin əvvəllərindən etibarən Azərbaycana qarşı təziyqlərini əsaslı şəkildə göstərmişdir. Rusiya-Azərbaycan münasibətləri Rusiyanın siyasətinin ziddiyyətlərinə əyani misal ola bilər. Bir tərəfdən biz tərəfdaşlarıq, siyasi baxımdan Rusiya Azərbaycanın ərazi bütövlüyünü müdafiə edir. Digər tərəfdən isə bu ölkədən Azərbaycanın ərazisinin 20 faizinin işğal etmiş Ermənistana qeyri-leqal yolla bir milyard dollarlıq qanunsuz silah, o cümlədən uzaq mənzilli C-300 raketləri göndərilir, onunla hərbi-siyasi ittifaq yaradılır.

A.Quşer, E.Kisriev İ.Maksakov və digər tədqiqatçıların yazılarında Dağıstanda yaranmış efnosiyasi vəziyyət, Dağıstan xalqları arasındakı münasibətlər təhlil olunur. Lakin bir sıra tədqiqatçılar, məsələn, A.Quşer ləzgilər haqqında yazarkən qondarma «ləzgi faktoru» ifadəsindən istifadə edir və məsələni şişirtməyə çalışır. Bu baxımdan Fizik-professor Q.Əbdürəhimovun «Кавказская Албания-Лезгистан» kitabı bütünlüklə yalan və tarixin saxtalaşdırılmasından ibarətdir. Kitabda tamamilə yanlış olaraq iddia edilir ki, Azərbaycanda ləzgilərin hüquqları tapdalanır, «siyası, sosial-iqtisadi, mədəni sahələrdə diskriminasiya» [62, s. 4] var. Əbdürəhimov Dağıstanın cənub, Azərbaycanın şimal bölgələri hesabına Ləzgistan dövlətinin yaradılmasını əsaslandırmağa cəhd edir. Burada müəllif hətta ermənilərin Qarabağa olan iddialarına haqq qazandırır və göstərir ki, «bu suveren respublikaya (yəni Azərbaycana - R. R) ermənilər lazım deyil, biz ləzgilər də lazım deyilik» [62, s. 5].

I Rusiya-Çeçenistan müharibəsi dövründə Rusiyanın Azərbaycana qarşı tətbiq etdiyi blokada rejiminin araşdırılması, neft faktoru, kommunikasiyalar məsələsinin öyrənilməsi baxımından bəzi müəlliflərin məqalələri maraq doğurur. Rusiya Federasiyasında yerləşən Avrasiya agentliyinin direktoru, rusiyalı şərqşünas K.Tarasov bu haqda yazır:- «Çeçenistanda müharibə Rusiyaya Zaqafqaziyada öz təsirini saxlamaq və Xəzər nefti üzərində nəzarət etmək üçün həqiqətəndə hər şeydən vacibdir [66, №5].

Beləliklə, ayrı-ayrı müəlliflərin problemin bəzi aspektlərini öyrənən tədqiqat işlərini məsələnin hərtərəfli öyrənilməsində, nəticələrin çıxarılmasında gərəkli hesab etmək olar. Lakin qeyd edək ki, dissertasiyanın əsas xəttini təşkil edən Şimali Qafqazda yaranmış etnosiyası vəziyyətin Azərbaycan-Rusiya münasibətlərinə təsiri məsələləri kompleks şəkildə tədqiq edilməyib, bu sahəni müasir tarixşünaslıqda yeni bir tədqiqat sahəsi adlandırmaq olar.

Monoqrafiyada ilk dəfə olaraq Şimali Qafqazda etnosiyasi vəziyyət Azərbaycan-Rusiya münasibətləri kontekstində öyrənilir.

Tədqiqat işində:

- Şimali Qafqazda etnosiyasi vəziyyətə təsir edən tarixi amillər, XX əsrin 90-cı illərinin əvvəllərində Şimali Qafqazda milli oyanış prosesi və bununla bağlı yaranan problemlər araşdırılır;
- Şimali Qafqaz respublikalarında etnosiyasi vəziyyət və bunun ümumilikdə Qafqazda baş verən hadisələrə təsiri öyrənilir;
- Müstəqilliyin ilkin mərhələsində Azərbaycan-Rusiya münasibətlərində etnosiyasi faktorun rolu və onun ikitərəfli əlaqələrə təsiri tədqiq edilir;
- Azərbaycan-Rusiya münasibətlərində etnik separa-

tizm problemləri və milli ayrıseçkilik cəhdləri, Azərbaycanın şimal bölgəsində etnosiyasi problemlərin, separatizmin yaradılmasına olan cəhdlər araşdırılır;

- I Rusiya-Çeçenistan müharibəsi nəticəsində Şimali Qafqazda yaranan yeni etnosiyasi vəziyyət təhlil edilir;

- I Rusiya-Çeçenistan müharibəsinin Azərbaycana olan təsirləri, bunula bağlı Rusiya-Azərbaycan arasında olan münasibətlərin xarakteri öyrənilir;

- Regiondakı etnosiyasi vəziyyətin və milli münasibətlərin kommunikasiyalar və sərhədlər probleminin yaranmasında oynadığı rol tədqiq edilir;

- I Rusiya-Çeçenistan müharibəsinin başa çatması nəticəsində Qafqazda yaranmış yeni etnosiyasi vəziyyət araşdırılır.



# I. SSRİ-NİN İFLASININ ŞİMALİ QAFQAZDA YARANMIŞ ETNOSİYASİ PROSESLƏRƏ TƏSİRİ

## 1.1. Şimali Qafqazda etnosiyasi vəziyyətə təsir edən tarixi amillər

Müasir dövrdə Qafqazda yaranmş gərgin etnosiyasi vəziyyət və etnik münaqişələrin böyük tarixi kökləri və səbəbləri var. Bu səbəblər içərisində Çar Rusiyası, İran və Osmanlı İmperiyasının bu region uğrundakı çoxəsrlik mübarizəsi və onun nəticələri, Rusiyanın Qafqaz regionunu bütövlükdə öz nüfuz dairəsində saxlamaq məqsədilə yürütdüyü özünəməxsus milli siyasəti göstərmək olar. Qafqazda yaşayan xalqlar bu üç dövlətin Qafqaz maraqlarının reallaşdırılmasında hədəfə çevrilərək böyük və çoxlu sayda müharibələrlə qarşılaşdılar. Bu baxımdan Qafqaz xalqlarının tarixdəki yeri və rolu da xeyli dərəsədə Çar Rusiyası, İran və Osmanlı İmperiyasının rəqabətində müəyyənləşdi. Bütün bunları əsaslandırmaq üçün Rusiyalı mütəxəssis V. Deqoev qeyd edir ki, «XVI əsrdən etibarən Moskva dövləti, İran, Türkiyə (onun təəbəliyində olan Krım xanlığı ilə birlikdə) arasında, bir neçə əsr ərzində Qafqaz xalqlarının taleyini həll edən «güc üçbucağı» yarandı» [83, s. 310].

Rusiya imperiyasının siyasətində Qafqaz məsələsinin aktuallaşması XVII əsrin əvvəllərinə təsadüf edir. Konkret olaraq Qafqaz Rusiya üçün vacib xarici siyasət problemi kimi I Pyotrun 1722-ci ildəki Xəzər yürüşündən sonra ortaya çıxdı. XVIII əsrin sonlarında isə Qafqaz problemi Rusiya xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil edirdi. V. Çernous və S. Sixoskinin bu məsələ barədə fikirlərinə diqqət yetirək:- «Rusiyanın Şərq siyasətində Qafqaz amili XVI əsrin ortalarından başlayaraq daima aktuallaşsa da, Qafqaz məsələsi Şərq məsələsi kimi beynəlxalq əlaqələr sistemində geopolitik problem olaraq XVIII əsrdə yarandı» [132, s.37-38].

Geopolitik maraqlar zonasında olan Qafqaza Çar Ru-

siyası, Osmanlı İmperiyası, İrandan başqa Fransa və İngiltərə də iddiaçı idilər. Lakin Çar Rusiyası XVIII əsrin 60-cı illərindən etibarən Qafqaza yiyələnmək uğrunda daha açıq mübarizəyə başladı və öz rəqiblərini sıxışdırdı. Rusiya-Türkiyə müharibələrində (1768-1774., 1787-1791, 1806-1812 və 1828-1829-cu illər) və Rusiya-İran (1804-1813, 1826-1828-ci illər) müharibələrində Rusiyanın qazandığı qələbələr ona Şimali Qafqazın müəyyən hissəsini ələ keçirməsinə, Cənubi Qafqazda isə mövqelərini möhkəmləndirməsinə şərait yaratdı.

Qafqazın Rusiyaya birləşdirilməsi üçün ideoloji əsas da hazırlanmışdı. Güya ki, Rusiyanın yeganə məqsədi Qafqazın xristian xalqlarını məhv edilməkdən qorumaq, onların himayəçisi funksiyasını yerinə yetirmək idi. Bunu məsələnin dini - mənəvi tərəfi hesab etmək olar. Əslində isə Rusiyanın Qafqaz planlarında hərbi-siyasi maraqlar üstünlük təşkil edirdi. Geopolitik baxımdan Rusiya Qafqazdan platsdarm kimi istifadə etdi. Osmanlı İmperiyasına, İrana, İngiltərəyə, Fransaya qarşı mübarizə apararaq Qafqaza yiyələnən Rusiyanın dünyanın hegemon dövlətinə çevrilməsi məsələsi daha da reallaşdı. «Rusiya-İran, Rusiya-Türkiyə müharibələrinin Rusiya üçün qələbə ilə bitməsi, Qafqazda dağlıların müqavimətinin qırılması, Şərq (Krım) müharibəsinin nəticəsində Qafqazın Rusiya imperiyasına birləşdirilməsi beynəlxalq miqyasda tanındı və Qafqaz məsələsi xarici siyasət problemindən daxili geopolitik problemə çevrildi» [132, s. 38]. Hərçənd ki, Rusiyanın Qafqazı istila etməsi prosesi böyük və ağır müharibələrlə müşaiyət olundu. Belə ki, Qafqaz xalqları Rusiyaya asanlıqla, yaxud öz istəkləri ilə tabe olmadılar və ciddi müqavimət göstərdilər. Qafqaz xalqları Çar Rusiyasının işğalçılıq siyasətini qəbul etmədilər və könüllü olaraq vassala çevrilmədilər. Həm Cənubi, həm də Şimali Qafqazda ruslara qarşı üsyanlar, çıxışlar, müharibələr oldu. 1785-ci ildən Çeçenistanda Şeyx Mənsurun rəhbərliyi ilə dağlıların başladığı mübarizə 1817-1861-cü illər (əslində müharibə 1864-cü ildə Çərkəzin alınması ilə başa çatdı



- R.R) müharibəsi ilə davam etdi. O vaxt Qafqaza çar Rusiyası ordusunun üçüncü hissəsi göndərilmişdi. Lakin Rusiyanın Şimali Qafqaz siyasəti heç də uğurlu olmadı. Cənubi Qafqazdan fərqli olaraq burada ruslar heç kimə tabe olmayan, kiçik hissələrə parçalanmış, bir-biri ilə münaqişə və silahlı mübarizə aparan icmalarla qarşılaşdılar. Bu icmalar müxtəlif din, dil və etnik qruplara mənsub idilər və sosial-mədəni baxımdan inkişaf etməmişdilər. Onların həyat tərzi, adət-ənənələri, psixologiyası rus kolonizatorlarının məntiq və qavrayışı üçün qəbuledilməz idi.

Rusiya imperiyası Qafqazın ilhaqı prosesində müstəmləkəçiliyin «parçala və hökm sür» klassik prinsipindən geniş surətdə istifadə etdi. İşğaldan sonra Qafqazın inzibati ərazi bölgüsü milli amilləri qətiyyən nəzərə almadan aparıldı və bu da ayrı-ayrı etnosların hüquqlarının kobud surətdə pozulmasına gətirib çıxardı. Rusiya imperiyasına birləşdirildikdən sonra Qafqaz xalqları siyasi muxtariyyatdan məhrum oldular. Bütün Şimali Qafqaz əraziləri Stavropol quberniyası, Kuban, Ter, Dağıstan vilayətlərinə bölündü, hərbi idarəetmə yaradıldı. Çar hökumətinin Qafqazda rusların sayını süni surətdə çoxaltmaq siyasəti vəziyyəti daha da gərginləşdirdi. Beləki, məsələn, Qafqaz müharibəsindən sonra Rusiya imperiyası Ter vadisindən (Şimali Qafqazda, inquşların yaşadığı ərazilər - R. R) inquşları köçürərək, bu yerlərdə kazak stanitsalarını yerləşdirdi. Kazakların bu ərazidə və qonşu dağlıq bölgədə yerləşdirilməsi inquşları iki yerə, dağlıq və düzənlik (Nazran bölgəsi) hissələrə parçaladı [90]. Bundan sonra inquşların məskunlaşması üçün torpaq çatışmazlığı yarandı. Nəticədə inquşlarla kazaklar arasında düşmənçilik yarandı və XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərinə qədər münaqişə aradan qalxmadı.

Qeyd etmək lazımdır ki, Rusiya imperiyası dövründə, sonradan isə bolşevik hakimiyyətinin ilk illərində Qafqazda mövcud olan etnik problemlərə dini aspektdən yanaşılması tendensiyası da yaranmışdı. Düzdür, Şimali Qafqaz xalqları arasında dini dəyərlər bir çox hallarda etnik amilləri üstələy-

irdi. Bu vəziyyət bir sıra hallarda rus müstəmləkəçilərinin maraqlarına uyğun gəlsə də, işğalçılar üçün bu siyasətin mənfi tərəfləri də az deyildi. Belə ki, müsəlman faktoru islam dininə sitayiş edən Qafqaz millətləri üçün birləşdirici amilə çevrilirdi. Beləliklə, 1917-ci il fevral inqilabından sonra Şimali Qafqaz müsəlman xalqlarının müstəmləkəçiliyə qarşı mübarizəsi Cihad mübarizə formasında inkişaf etdi. 1917-ci ilin mayında Qafqaz dağlı xalqlarının I qurultayı islam dövlətinin yaradılması ideyasını bir tələb kimi irəli sürdü. Sonradan belə bir dövlət «Şimali Qafqaz Əmirliyi» adı altında İmam Uzun-Hacı tərəfindən yaradıldı. Bir tərəfdən tam müstəqillik, digər tərəfdən muxtariyyat tələbləri irəli sürüldü.

Ümumiyyətlə, 1917-ci il fevral inqilabından sonra Şimali Qafqazda bir neçə müstəqil dövlət qurumları var idi. Bunlardan Dağlılar Federasiyasını və Kazak ərazilərini göstərmək olar.

Bolşevik hakimiyyətinin ilk illərində müsəlman məsələsinə bir qədər ehtiyatlı yanaşıldı. Ona görə ki, Qafqaz və Türküstan xalqları istiqlaliyyət uğrunda mübarizə aparırdı və İslam ordusunun formalaşdırılması prosesi başlamışdı. Bütün bunlar bolşeviklər üçün qorxulu bir faktora çevrilmişdi və buna görə də müsəlman xalqlarının rəğbətini qazanmaq lazım idi. Beləliklə inqilabçılar məcburiyyət qarşısında qalaraq bir sıra aksiyalar həyata keçirdilər. Məsələn, 1917-ci ilin dekabrında sovet hökuməti çar hakimiyyətinin müsəlmanlardan müsadirə etdiyi «Osmanın Müqəddəs Quranı» nın geri qaytarılması haqqında qərar verdi. Bir sıra müsəlman abidələri, məscidlər Qafqazda yaşayan müsəlman xalqlarına qaytarıldı. 1918-ci ildən yerlərdə «Müsəlman komissarlığı» adlı qurumlar yaradıldı. Bu təşkilatlar çərçivəsində bolşeviklər «müsəlman qurultayları» keçirirdilər. Müsəlman qurultaylarında irəli sürülən milli müstəqillik, əqidə və dini azadlıqların verilməsi kimi vədlər isə yerinə yetirilmədi.

Sovet hakimiyyətinin ilk illərində bolşeviklərin müsəlman millətlərinə qarşı işğalçılığı siyasi metodlarla davam edirdisə, 1919-cu ildən başlayaraq artıq hərbi yola üstünlük verildi. Buna da səbəb müsəlman xalqlarının bolşeviklərə müqavimət göstərməsi, onların milli-mənəvi, dini dəyərlərlə alver etməsinə etirazı idi.

Qafqazda etnosiyasi tarazlıq Sovet hakimiyyətinin ilk illərindən pozulmağa başladı. 20-30-cu illərdə inzibati-ərazi dəyişiklikləri ilə xarakterizə olunan islahatlar, xalqlara qarşı repressiyalar, deportasiyalar, ədalətsiz ərazi bölgülərini milli münaqişələrin əsasını qoyan əsas faktorlar kimi qeyd etmək olar. Yaranan narazılıqlar isə böyük problemlərə çevrilərək nəticədə SSRİ-nin əsasını sarsıtdı. «Zamanın dərinliyinə, 1930-cu illərin birinci yarısı-ortalarına doğru qayıdarkən biz, məhvetmə siyasətinin işə düşməsi, milli ziyalılar və administrativ kadrlara qarşı kütləvi repressiyalar, qolçomaq elan edilmə, aclıq, milyonlarla kəndlinin sürgün edilməsi mərhələsinə qədəm qoyuruq» [100, s.7].

Sözdə xalqların, milli azlıqların özünütəsdiq hüquqlarını dəstəkləyən bolşevik liderləri reallıqda unitar dövlət tərəfdarları idilər. 1922-ci ildə imzalanan İttifaq müqaviləsindən sonra müttəfiq respublikalara, muxtar vilayətlərə verilən hüquqlar kağız üzərində qaldı. 20-ci illərin ikinci yarısından sonra yaranan inzibati-amirlik sistemi federalizm prinsipini inkar etdi və Stalinin unitar dövlət ideyasının reallaşdırılmasına başlanıldı. Ümumiyyətlə «bu dövrdən etibarən milli-ərazi muxtar qurumlarının inkişafı və bu qurumların xalqların həqiqi özünüidarəetməsinə çevrilməsi prosesi tormozlandı» [100, s. 9]. Ümumdövlət maraqlarının müdafiə olunması adı altında müttəfiq respublikaların müstəqilliyi minimum səviyyəyə endirildi, unitar mərkəzçilik federativ quruluşu əvəz etdi. 1924-cü il SSRİ Konstitusiyası ilə respublikaların bir sıra səlahiyyətlərinə məhdudiyyətlər qoyuldu. Bununla da Rusiya müttəfiq respublikaları və orada yaşayan xalqları özünə tabe etdi. Müttəfiq respublikalara Konstitusiya ilə verilən ayrılmaq hüququ Lenin nəzəriyyəçiləri tərəfindən belə xarakterizə edilirdi - müttəfiq

respublikalara verilən hüquqları ər və ya arvadın ayrılmaq kimi demokratik hüquqları ilə müqayisə etmək olar, lakin bu, ayrılmaq üçün çağırış demək deyil. «Kazarma sosializmi» yaradılması «sosialist milləti» nin formalaşmasını tələb edirdi. Hələ əsası Lenin tərəfindən qoyulan «sosialist milləti» ideyasını Stalin özününküləşdirmişdi. Bu ideyanın həyata keçməsi üçün bir çox planlar reallaşdırıldı. «Sosialist milləti» nin yaranması ilə SSRİ-də millətlər, xalqlar, etnik azlıqlar anlayışları aradan qalxmalı, köhnə xalqların əvəzində yeni vahid sosialist milləti formalaşdırılmalı idi. Stalinin düşüncələrinə görə, «ümumdünya proletariat diktaturasının ikinci mərhələsində» millətlər tamamilə ləğv olacaq və ümumbəşəri dil formalaşacaqdı. Bu prosesə mane ola biləcək hər bir şey məhv edilməli idi. Stalin kəndi milli varlığın qorunub saxlandığı yer adlandırdı. Yəni kəndlərdə milliyyət məsələsinin aradan çıxmaması və yaxud gələcək üçün qorunub saxlanması Sovet hökumətini narahat edirdi, bunun qarşısını almaq üçün isə kəndlər və kəndlilər məhv edilməyə başlandı. 1933-cü ildən Rusiya, Ukrayna, Belorusiya, Don, Qafqaz, Qazağıstan və Orta Asiya kəndlərinə qarşı aparılan məqsədyönlü siyasət nəticəsində aclıq və səfalət kəndlərlə yanaşı demək olar ki, kəndliləri də məhv etdi. Sonradan Stalin «yerli millətçilik» ideyasını ortaya atdı. Yerlərdə kütləvi repressiyalar başlandı. Bu siyasətin məqsədi millətlərin milli özünüdərk, milli təəssübkeşlik hissini məhv etmək, millətlərin bir millət olaraq formalaşmasının qarşısını almaq və ümumi sovet millətinin formalaşmasına optimal şərait yaratmaq idi.

Stalin repressiyaları – xalqların sürgün edilməsi, milli ərazilərin yerdəyişməsi və yaxud bir xalqın yaşadığı tarixi ərazidə başqa xalqların nümayəndələrinin yerləşdirilməsi (bununla xalqlar süni surətdə bir neçə hissəyə parçalandılar - R. R), məcburi vahid ünsiyyət vasitəsinin bərqərar edilməsi, milli respublikalarda etnik tərkibin dəyişdirilməsi xalqların böyük hissəsinin fiziki məhv edilməsi ilə nəticələndi.

Qafqaz xalqları 30-40-cı illər repressiyalarının əsas hədəfinə çevrildilər. Cənubi Qafqazda əsasən azərbaycanlılar və ahıska (məshəti) türkləri deportasiya və milli qırğınlara məruz qaldılar. Azərbaycanlılar öz tarixi etnik ərazilərindən-Qərbi Azərbaycandan (indiki Ermənistan), ahıska türkləri isə əvvəlcə Gürcüstandan, sonradan isə Özbəkistandan məcburi qaydada köçürüldülər.

Qeyd etmək lazımdır ki, azərbaycanlılar həm Çar Rusiyası, həm Sovet hakimiyyəti, həm də ermənilərin təcavüzkarlığı nəticəsində XIX və XX əsrlərdə bir neçə dəfə deportasiya olundular, azərbaycanlıların əsrlər boyu yaşadıqları ərazilərə ermənilər məskunlaşdırıldılar. Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrindən sonra çar Rusiyası İrandan və Türkiyədən erməniləri İrəvan xanlığı ərazisinə köçürərək burada bir erməni vilayəti yaratmağa başladı. Dehharqandakı (İran) sülh danışıqlarında (Rusiya-İran arasında, 1827) belə qərara alındı ki, ermənilər İrandan İrəvana, Naxçıvana, Qarabağa köçürülsün. Çar Rusiyasının Qafqazdakı hərbi canişini Paskeviç İrəvan müvəqqəti idarəsinə yazdığı məktubda göstərir ki, köçkünləri (yəni erməniləri-R.R.) "əsasən İrəvan və Naxçıvan, qalanlarını isə Qarabağda yerləşdirsinlər". (18. İ.Enikolopov " Qriboedov i Vostok. İzdatelstvo "Ayastan" Eravan, 1974, 156 str., 119 str.")

XX əsrdə azərbaycanlılar bir neçə dəfə – 1905-1907, 1918-1920, 1948-1953, 1988-1989-cu illərdə Ermənistan ərazisindən, 1988-ci ildən başlayaraq isə Azərbaycanda Dağlıq Qarabağ və ona bitişik rayonlardan kütləvi surətdə qovuldu və milli qırğınlara məruz qaldılar. Deportasiya və milli qırğınlar hesabına ermənilər əlbəttə ki, demoqrafik vəziyyəti öz xeyirlərinə dəyişmək niyyəti güdüblər. Lakin bir fakt danılmazdır ki, ermənilərin azərbaycanlılara qarşı kütləvi deportsiyasının nəticəsində belə yerli xalq olan azərbaycanlılar say etibarı ilə ermənilərdən üstün idi. "1916-cı il yanvarın 1-nə olan məlumata görə İrəvan qəzasında 74,2 min nəfər (48%), Zəngəzur qəzasında 119 min nəfər (va ya 53,3%), Yeni Bəyazid qəzasında 50,7 min nəfər, Sürməli qəzasında 45 min nəfər azərbaycanlı olmuşdur" (19. İ.Məmmədov,

S.Əsədov "Ermənistan azərbaycanlıları və onların acı taleyi" Deportasiya. Toplu. Azərbaycan ensiklopediyası. NPB. Bakı. 1998. 448 s. səh. 131)

Azərbaycanlıların Ermənistandan deportasiyası Sovet hakimiyyəti illərində də davam etdirilib və bu aksiya Sovet rəhbərliyinin birbaşa planları nəticəsində həyata keçirilib. 20-30-cu illərdə kommunist rejiminin qərarlaşması və möhkəmlənməsi dövründə on minlərlə azərbaycanlı repressiyaya məruz qaldı, Orta Asiya və Qazaxıstana sürgün edildi. II Dünya müharibəsindən sonra SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il və 10 mart 1948-ci il tarixli qərarları ilə azərbaycanlılar Ermənistanda, əsrlər boyu yaşadıqları doğma yurdlarından kütləvi surətdə (100 min nəfərdən çox) deportasiya edildilər, onların bir çoxu Kür-Araz ovalığının isti iqlim şəraitinə dözə bilməyərək həlak oldular. Ermənistan ərazisində etnik təmizləmə açıq və gizli formada davam etdirildi. (20. Deportasiya 1998 səh.7.)

Sovet rəhbərliyi Ermənistandan köçürülən azərbaycanlıların Dağlıq Qarabağda yerləşdirilməsinin qəti əleyhinə çıxdı. Ona görə ki, Dağlıq Qarabağda azərbaycanlılar say etibarı ilə erməniləri üstələyə bilərdi. Ermənistanı azərbaycanlılardan təmizləyən Sovet hökuməti Dağlıq Qarabağda da azərbaycanlıların demoqrafik üstünlüyünün qarşısını aldı və yaxud Dağlıq Qarabağı azərbaycanlılardan təmizlədi. "Dağlıq Qarabağda yaşayan 132 (549 nəfər) azərbaycanlı ailəsi "daxili köçürmə" adı altında qonşu Xanlar rayonuna köçürüldü. Bütün bünların nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi azərbaycanlılardan təmizləndi" (21. Deportasiya 1998.səh. 7 )

Ermənistandakı azərbaycanlı əhaliyə qarşı kütləvi təzyiqlərin yeni mərhələsi 1960-cı illərdən başlandı. Hələ SSRİ hökumətinin güclü siyasi sistemə malik olduğu dövrdə Ermənistanda milli hissləri qızışdıran, təcavüzkar millətçiliyi təbliğ edən, yeni-yeni ərazilər əldə etmək iddiasını irəli sürən, azərbaycanlılara, ümumiliklə türklərə qarşı kin və nifrət hisslərini oyadan çıxışlar edilməyə başlandı. «1965-ci il aprelin 23-24-də Yerevanda «erməni genosidinin» 50 illiyinin qeyd edilməsi, qisas almaq, Qarabağa, Naxçıvana, Türkiyə ərazilərinə sahib olmaq şüarlarının irəli sürülməsi Ermənistanda azərbaycanlılara qarşı kütləvi təzyiqlərin güclənməsinə səbəb oldu. Bu təzyiqlər nəticəsində 350-500 min nəfər azərbaycanlı yavaş-yavaş öz doğma yurdlarını yenə tərk etdi» (22. İ.Vəliyev "Qaçqınlıq" Bakı Göytürk nəşriyyatı, 1996, 104 səh., səh.6). 1987-1988-ci illərdə azərbaycanlılar Ermənistan ərazisində növbəti dəfə deportasiyaya və milli qırğınlara məruz qaldılar. 1989-cu ilə qədər Ermənistanda yaşayan azərbaycanlı əhali bütünlüklə bu ölkədən çıxarıldı.

1988-1989-cu illərdə azərbaycanlıların (Ermənistanda) tərk etdikləri ərazi 9,800 kv.km-dən çoxdur. (23. İ.Məmmədov, S.Əsədov "Ermənistan azərbaycanlıları və onların acı taleyi". Deportasiya. Səh. 141).

1990-cı ilin sentyabrında Azərbayncandan olan SSRİ xalq deputatları SSRİ Ali Sovetinin sessiyasına ilk dəfə olaraq "Ermənistandan azərbaycanlıların zorla qovulması haqqında" sənədlə müraciət etdilər. (Baku qəzeti, 23 sentyabr 1990). Lakin SSRİ rəhbərliyi heç bir qəti tədbir görmədi. Hətta 1989-cu ildə SSRİ hökuməti 40-cı illərdə deportasiya edilmiş xalqların hüquqlarının bərpası haqqında qərar qəbul etsə də 1948-1953-cu illərdə Ermənistandan deportasiya edilən azərbaycanlılar həmin xalqların siyahısına daxil edilmədi.

Beləliklə, XX əsrin sonunda azərbaycanlılar Qərbi Azərbaycanda yaşamaq hüququndan məhrum edildilər və bu əraziləri birdəfəlik itirdilər.

Cənubi Qafqazda ən kütləvi deportasiyaya məruz qalan türk xalqlarından biri də ahıska türkləridir. Sovet hökuməti II dünya müharibəsinin sonlarında sərhədlərin təhlükəsizliyini təmin etmək adı altında 1944-cu ilin noyabrın 14-də Gürcüstanın 5 rayonundan ahısxa türklərini Orta Asiya və Qazağıstana sürgün etdi. Bu köçürmə əməliyyatına Axalsix, Adigey, Aspinza, Axalkələk və Boqdanovka rayonlarının

təxminən 115 min nəfər əhalisi məruz qaldı. (24. Voprosı istorii yurnalı, M. 1991, №9-10).

Qafqazda oxşar repressiyalar Şimali Qafqaz xalqlarına qarşı da baş verdi. 1943-cü il noyabrın 2-də Qaraçay muxtar vilayətinin bütün əhalisi (təxminən 70 min nəfər) Orta Asiya və Qazağıstana sürgün edildi [63]. Qaraçay şəhərinin adı dəyişdirildi və 1957-ci ilin yanvarına qədər bu şəhər Kluxori adlandı. Vilayətin böyük hissəsi Gürcüstan SSR-nin tərkibinə qatılaraq Kluxori rayonu yaradıldı. Gürcüstan SSR Ali Sovetinin qərarı ilə 1944-cü ilin oktyabrın 4-dən bütün yaşayış yerlərinə gürcü adları verildi.

Qaraçaylardan sonra kalmıklar da repressiyalara məruz qaldılar. 1943-cü ilin dekabrın sonlarında 230 min kalmık SSRİ-nin Şərq rayonlarına köçürüldü [63]. Kalmık MSSR ləğv edildi və onun ərazisi RSFSR-in Həştərxan, Rostov, Stalinqrad vilayətlərinin tərkibinə qatıldı. Ərazidəki bütün kalmık adları dəyişdirildi və bu yerlərə rus adları verildi və mərkəzi şəhər Elistanın adı dəyişdirilərək Stepnoy adlandırıldı.

Şimali Qafqazda yaşayan türk xalqlarından biri olanı balkarlar da 40-cı illərdəki repressiyaların əsas hədəfinə çevrildilər. 1944-cü il martın 8-də 40 mindən çox balkar Qazağıstan və Qırğızıstana sürgün edildi [63]. Kabardin-Balkar MSSR-in adı dəyişdirilərək Kabardin MSSR adlandırıldı və ərazinin bir hissəsində yer adları dəyişdirildi. 1944-cü ilə qədər mövcud olan və balkarların yaşadıqları inzibati rayonlar reabilitasiya dövründən (1957-ci il) sonra da bərpa edilmədi.

1944-cü il fevralın 23-dən, yəni Çeçen-İnquş MSSR-in ləğv edilməsindən etibarən, martın 9-na qədər çeçen və inquşlar öz yaşadıqları tarixi ərazilərdən Qazağıstan və Qırğızıstana sürgün edildilər. Sürgünün əsas səbəblərindən biri kimi ikinci dünya müharibəsinin davam etdiyi bir dövrdə sovet rəhbərliyinin bu xalqlara inamının olmaması hesab olunur və onların almanlarla birlikdə sovet hökumətinə qarşı vuruşa biləcəkləri ehtimalının yüksək olması göstərilir. Sovet hökumətinin rəsmi məlumatlarına görə o dövrdə Çeçen-İnquş MSSR-dən Vaynax milliyyətinə aid olan 496 min insan, yəni Qazağıstana 411 min (85 min ailə), Qırğızıstana isə 85,5 min (20 min ailə), sürgün edildi. Qeyri-rəsmi məlumatlara görə isə departasiya olunanların sayı 650 min nəfər idi. SSRİ Ali Sovetinin qərarı ilə Çeçen - İnquş MSSR ləğv edildi, onun əvəzində isə Qroznı vilayəti yaradıldı. Vilayətin cənub-qərbindəki dağlıq hissə Gürcüstan SSR-in Duşet və Kazbek rayonlarına daxil edildi. Digər rayonlar Şimali Osetiya MSSR-in tərkibinə birləşdirildi. Muxtar respublikadan kənarda yaşayan çeçen və inquşlar da deportasiyanın qurbanı oldular.

Sürgün bütün çeçen-inquşlara aid edildi. Sürgün illərində çeçenlər təxminən 300-310 min nəfər itirdilər, bu isə çeçenlərin ümumi sayının 45 faizi demək idi [63]. Qeyd etmək lazımdır ki, deportasiya edilən xalqlara qarşı əsl genosid törədildi. 1948-ci il noyabrın 26-da SSRİ hökuməti tərəfindən belə bir fərman verildi ki, hansı xalqlar sürgün ediliblərsə onlar bir daha öz yerlərinə qayıda bilməzlər. Bu isə sürgünə məruz qalan xalqlara əlavə bir zərbə oldu.

Dağıstanın Auxov və Xasavyurt rayonlarında yaşayan çeçen-akınlar da (30 min nəfər) sürgün edildilər və Auxov rayonunun adı dəyişdirilərək Novolak rayonu adlandırıldı. «1944-cü il iyun ayının 1-nə qədər Auxov, Xasavyurt rayonlarının çeçenlər yaşayan kəndlərində Kulin rayonundan laklar, Kazbek rayonundan avarlar, Mahaçqala və digər qəsəbələrdən kumuklar, ayrı-ayrı xalqların nümayəndələri zor gücünə yerləşdirildi» [79, s. 53].

Ümumiyyətlə deportasiya illərində Çeçen-İnquşetiyanın boşaldılmış rayonlarına digər xalqların nümayəndələri, ruslar, ukrayınlar, osetinlər, avarlar, darqinlər, laklar yerləşdirildi. Analoji siyasət Qaraçay, Balkar, Kalmık və Şimali Qafqazın digər bölgələrində də aparıldı. SSRİ Ali Sovetinin 1957-ci il 9 yanvar tarixli qərarına görə çeçen - inquş, balkar, qaraçay, kalmık xalqlarının muxtariyyatları yenidən bərpa olundu.

Günahsız xalqların reabilitasiya olunmaları ilə yanaşı

ortaya yeni problemlər də çıxdı.

1957-ci ildə bərpa edilmiş Çeçen - İnquş MSSR-a 140 min nəfər departasiya olnmuş insanlar qayıtdı. Bir sıra dağlıq kəndlərdə onların yerləşməsinə qadağa qoyuldu və onlar məcbur olub düzən ərazilərdə və kazak stanisalarında məskunlaşdılar. Ona görə k, SSRİ hökuməti departasiya olunan millətlərin yaşadıqları ərazilərə rusları və digər slavyan milliyyətinə ad olan insanları, kazakları yerləşdirmişdi. Digər tərəfdən bu ərazilərdə kazak stanisaları yaradılmışdı. Bu isə öz tarixi torpaqlarından didərgin salınmış xalqların qəzəbinə səbəb olur, etniklərarası düşmənçiliklərin yaranmasına səbəb olurdu. Belə ki, 1957-ci ildə Qroznıda çeçen talanları və böyük çaxnaşmalar baş verdi. Hakimiyyət strukturları hiddətlənmiş xalqı çətinliklə sakitləşdirə bildilər.

Məsələn, inquşlar tələb etməyə başladılar ki, onların ərazisinin Şimali Osetiya MSSR - a verilmiş 1000 kv. km-lik bir hissəsi geri qaytarılmalıdır. Lakin Terek çayının sağ sahilindəki həmin tarixi inquş əraziləri yenidən bərpa edilən Çeçen - İnquş MSSR-ın tərkibinə qatılmadı. Priqorodnı adlanan bu rayon inquşlarla osetinlər arasında mübahisəli ərazi olaraq qaldı. 1973-cü ilin yanvarında inquşlar öz tarixi torpaqlarının geri qaytarılması, Şimali Osetiya ərazisində olan inquş kəndlərinin taleyi, İnquşetiya məsələsinin həll edilməsi üçün Qroznıda mitinqlərə başladılar. Bu mitinqlərin aktiv iştirakçılarına qarşı müəyyən sanksiyalar, cəzalar tətbiq edildi. «Şimali Osetiya MSSR ərazisində yaşayan inquşlarla osetinlər arasında münasibətlər daha da gərginləşdi. 1981-ci ilin oktyabrında etnik zəmində toqquşmanın baş verməməsi üçün Orcanikidze şəhərinə qoşun yeridildi» [90, s. 29]. Milli – ərazi mübahisələrini SSRİ hökuməti zor gücünə həll etsədə, bu müvəqqəti xarakterli idi və müəyyən bir dövrdən sonra yenidən qızışırdı. Ona görə ki, xalqın milli mənlik, milli təəssübkeşlik hissi həmişəyaşardır və heç bir sovet xalqı ideyası, beynəlmiləlçilik prinsipi xalqların öz tarixi ərazilərindən məhrum olması, hüquqlarının tapdanması üçün əsas ola bilməz. Dediklərimizə sübut odur ki, məsələn, 1989-cu ildə inquşlarla osetinlər arasında milli-ərazi məsələsində münasibətlər yenidən korlandı və hadisələr silahlı toqquşma səviyyəsinə qədər yüksəldi. 1989-cu ilin 9-10 sentyabrında Qroznıda keçirilən inquş xalqının II qurultayında İnquşetiya MSSR-in yaradılması, Şimali Osetiya MSSR tərkibində olan inquş torpaqlarının geri qaytarılması və digər məsələlər müzakirə edildi. Qurultayda İnquşetiya MSSR-in 6 inzibati rayondan ibarət olması haqqında məsələ qaldırıldı. Bu rayonlar Nazran, Malqobəy, Qalaşkin, Qarabulaq, Sunjen və Bazarkin (Şimali Osetiya MSSR Priqorodnı rayonunun bir hissəsi) idi. Qurultayda İnquşetiya MSSR-in paytaxtının Şimali Osetiya MSSR-in mərkəzi şəhəri olan Vladiqafqazda yerləşdirilməsi haqqında qərar qəbul edildi. Bir şəhərdə iki vilayətin paytaxtının yerləşdirilməsinin mümkün olduğu bildirildi. Qeyd edək ki, 1921-1924-cü illərdə Dağlılar MSSR-in tərkibində olan Osetin və İnquş dairələrinin inzibati mərkəzləri Vladiqafqaz olub. Şəhərin sağ sahilində inquşların inzibati-idarəetmə orqanları yerləşib. Beləliklə hazırda inquşlar Vladiqafqazın sağ sahilini öz əraziləri hesab edirlər. Qurultay Sov. İKP MK və SSRİ Ali Sovetinə müraciət qəbul etdi. Müraciətdə bildirildi ki, 1934-cü ilə qədər mövcud olan sərhədlər çərçivəsində respublika formalı inquş muxtariyyatının bərpa edilməsi məsələsinə baxılsın. Lakin inquşların tələbləri yerinə yetirilmədi və təbii ki, osetin-inquş münaqişəsi də öz həllini tapmadı. 1990-cı il fevralın 23-də inquşlar Qroznıda toplaşaraq muxtariyyat hüquqlarını tələb etdilər. 1990-cı ilin martında Nazranda da nümayişlər keçirildi.

## 1.2 SSRİ-nin iflasında etnik faktorun rolu

80-cı illərin ikinci yarısından etibarən SSRİ-də milli məsələ ictimai-siyasi həyatın vacib bir tərəfi kimi ortaya çıxdı. SSRİ rəhbərliyinin 1985-ci ildən etibarən həyata keçirməyə başladığı dövlət və cəmiyyət həyatının yenidən qurulması siyasəti qapalı sistem olan sovet siyasi sistemində

köklü dəyişikliklərin aparılmasına gətirib çıxartdı. Cəmiyyətin siyasi həyatının demokratikləşdirilməsi, iqtisadiyyatın liberallaşdırılması, beynəlxalq və dövlətdaxili proseslərə yeni yanaşma ön plana çəkildi. Lakin sovet rəhbərliyinin bir sıra daxili və xarici faktorları nəzərə almaması siyasi və iqtisadi sistemin islahatına yönələn yenidənqurma siyasətinin dövlət ərazisində müxtəlif kortəbii proseslərin getməsinə, mərkəzdənqaçma meyllərinin güclənməsinə şərait yaratması ilə nəticələndi. SSRİ-də mövcud olan və uzun illər ərzində gizli saxlanılmış, «dondurulmuş» bir çox problemlər üzə çıxdı, yenidənqurma siyasəti dövlətin məhvini sürətləndirdi. SSRİ hakimiyyəti ilə xalqlar arasında olan münasibətlər korlandı, milli münasibətlərdəki zahiri sakitlik pozuldu. Etnosların öz aralarındakı münasibətlərdə də köklü problemlər yarandı, ictimai-siyasi həyatda milli məsələ kütlələri aktivləşdirdi, çoxmillətli dövlət quruluşunun daimiliyi və dəyişməzliyi, milli problemlərin yoxluğu prinsipi puç oldu.

Artıq 80-ci illərin əvvəllərindən etibarən SSRİ-də milli dirçəliş böyük vüsət almağa başladı. Sovet İttifaqında yaşayan millətlər və azsalı xalqlar, etnik birliklər sosial-siyasi, ərazi, milli-mədəni, dini məsələlərdə onlara qarşı edilən tarixi ədalətsizliklərin qarşısını almaq və bunlardan birdəfəlik qurtarmaq uğrunda aktiv siyasi fəaliyyətə başladılar.

Milli və regional dəyərlər bütün ictimai-siyasi strukturlara sirayət etdi və özünə yer tapdı. Milli şüurun formalaşması milli-azadlıq hərəkatlarına təkan verdi, millətçilik və regionçuluq mütəşəkkil bir cərəyana çevrildi. Qeyd etmək lazımdır ki, milli inkişaf prosesində sağlam millətçiliklə yanaşı, radikal millətçilik və eyni zamanda, neqativ bir element kimi regionçuluq da inkişaf etdi. Rusiyalı alim İ.Krupnik bu məsələyə münasibətdə bildirir ki, «1989-cu il regional düşüncənin qələbə çaldığı il kimi bitdi» [95, s. 4].

Etnik zəmində toqquşmalar, təqiblər milli məsələni kəskinləşdirən bir element kimi ortaya çıxdı. D. Malışevanın bu haqdakı fikirləri maraqlıdır. O yazır:- «SSRİ-nin iflası və yeni müstəqil respublikalarda milli-dövlət quruculuğu sahəsində çətin proseslər əvvəllər İttfaq mərkəzinin (Moskvanın – R.R.) dəmir əli ilə müvəffəqiyyətlə yatırılan və qəddarcasına küncə sıxılan mövqe fərqliliyini üzə çıxardı. Burada söhbət milli-etnik zəmində baş verən işgəncələrdən, millətlər daxilindəki qarşıdurmadan (regional və klan əlamətlərinə görə olan qarşıdurma), ərazi mübahisələrindən, separatizmdən, muxtarlaşma hərəkatlarından gedir» [109, s. 31].

Artıq 1989-cu ildə SSRİ Xalq deputatları I qurultayının qəbul etdiyi əsasnamə və M.S.Qorbaçovun 1989-cu il iyulun 1-də televiziya ilə etdiyi çıxış SSRİ-də milli problemin mövcudluğunu və kəskin xarakter aldığını təsdiq etdi. Sov. İKP MK-nin 1989-cu il sentyabr Plenumu və MK-nin «Müasir şəraitdə partiyanın milli siyasəti» adlı Platformasının elan edilməsi SSRİ-nin mövcud olmasının milli məsələnin həllindən xeyli dərəcədə asılı olduğunu bir daha təsdiq etdi. Platformada göstərilirdi ki, milli məsələ axır vaxtlar kəskin xarakter alıb, bu məsələ ilə bağlı problemlərin həllinin dövlətin gələcəyi üçün böyük əhəmiyyəti var.

SSRİ-nin dağılması prosesini tezləşdirən əsas amillərdən biri də milli siyasətin düzgün tənzimlənməməsi oldu. Milli maraqlara, milli heysiyyatlara toxunmadan xalqların mənafelərinin ədalətli, demokratik qaydada təmin olunmasının əvəzində dövlət avtoritar rejimin gücündən istifadə edərək millətlərin yox, hakimiyyətin maraqlarını təmin edirdi. Sivil dünya qaydalarına, demokratik prinsiplərə uyğun metodlardan istifadə etmədən, məsələn, referendumlar, sorğular keçirilmədən, ictimai rəy öyrənilmədən hər hansı bir xalq, etnik azlıq haqqında qərarlar çıxarılırdı. Beləliklə də inzibati-bürokratik metodlardan istifadə milli problemlərin daha da kəskinləşməsinə şərait yaratdı. Rusiyalı alim R.Landa bu haqda yazır: - «Milli problemlərin həllində, iqtisadi, sosial və digər problemlərin həllində olduğu kimi, inzibati-bürokratik metodlar üstünlük təşkil edib» [101, s. 42].

SSRİ-də millətçilik gizli formada olsa da belə, hər za-

man inkişaf etmişdir. 1989-cu ildə Sov. İKP MK partiyanın etnik tərkibini aşkarladı. 1990-cı ildə isə Sovet İttifaqının mövcud olduğu dövr ərzində hakimiyyət orqanlarında çalışmış şəxslərin tərcümeyi-halları açıqlandı. Nəticələr rusların (68%) digər xalqlara nisbətdə SSRİ hakimiyyət orqanlarında daha çox yer aldığını sübut etdi. Tədqiqatlar müəyyən etdi ki, 1970-80-cı illərdə qeyri-rus millətlərinin nümayəndələrinin partiya sıralarına cəlb edilməsi 20-ci illərə nisbətdə xeyli azaldılıb. Bu məsələlər V.Tişkov tərəfindən araşdırılmışdır və onun gəldiyi nəticələr maraq doğurur. «Bizim Siyasi büronun (Prezidium), Təşkilat bürosu və KP MK Katibliyinin 1919-1990-cı illər ərzində olan 193 üzvünün və üzvlüyə namizədlərinin çap olunmuş bioqrafiyalarının təhlilindən sonra hesablamalarımız kommunist liderlərinin etnik tərkibinin bu cür olduğunu ortaya çıxardı».

*Cədvəl. 1*

ruslar - 131
ukraynalılar - 17
yəhudilər - 12
latışlar - 7
beloruslar - 6
gürcülər - 5
özbəklər - 2
azərbaycanlılar - 2
ermənilər - 2
almanlar - 2
polyaklar - 2
qazaxlar - 1
tatarlar – 1
finlər - 1
bolqarlar – 1 [127, s. 33]



SSRİ-də hakimiyyətdə rusların çoxluq təşkil etməsi faktları onu sübut edir ki, qeyri-rus millətlərinə münasibətdə ayrıseçkilik edilib, onlara etibar olunmayıb, belə demək mümkünsə, sovet - rus millətçiliyi inkişaf edib.

İngilis antropoloqu Ernest Gelnerin «Millət və Millətçilik» əsərində göstərdiyi fikirlər SSRİ-nin süqutunun bir tərəfdən də milli problemlərdən, millətçiliyin baş qaldırmasından asılı olduğunu sübut etməkdə gərəkli ola bilər. Gelner bildirir ki, «millətçilik - hər şeydən əvvəl siyasi və milli-mədəni dəyərlərin üst-üstə düşməsini tələb edən siyasi prinsipdir. Bu prinsipin pozulması, millətin və onun mədəniyyətinin inkişafına təminat verən siyasi və dövlət institutlarının çatışmazlığı millətçi hisslərin baş qaldırmasına və böyük etiraz aksiyalarına səbəb olur. Bu cür pozuntuların mövcud olduqları yerdə münaqişələr qaçılmaz olur» [77, s. 120]. Gelnerə görə millətçilik heç də geridə qalmış cəmiyyətə xas deyil, millətçilik yüksək savadlılıq, informasiya vasitələri və kommunikasiyaların, milli intellektual elitaların yaranışı şəraitində ixtisaslı kadrlara tələbat olduğu dövrdə də yarana bilər. Əgər cəmiyyət sənayeləşmə dövründə millətçiliyə hazırdırsa, onun inkişafının qarşısını almaq mümkün deyil. «Kütlələr mümkün olanlarla, onların milli mədəniyyətlərinin vəziyyəti arasında uyğunsuzluğu, onların milli mədəniyyətlərinin siyasi hakimiyyət tərəfindən təmin olunmadığını hiss edəndə milli oyanış baş verir. Bu mərhələdə millətçilik aqressiv olur» [77, s. 127]. Qeyd edək ki, Sovet cəmiyyəti də aktiv sənayeləşmə dövrünü yaşayırdı, savadlılığın və milli elitaların səviyyəsi yüksək idi. Milli mədəniyyətlər dövlət hakimiyyət institutlarının köməyinə ehtiyac duyurdu, yaxud ondan asılı vəziyyətdə idi.

SSRİ-nin dağılması səbəbləri haqqında bütövlükdə götürüldükdə üç əsas versiya mövcuddur. 1) Sovet İttifaqı beynəlxalq qəsd nəticəsində dağıldı; 2)Sovet İttifaqı imperiya idi və vüsət alan milli-azadlıq hərəkatlarının nəticəsində, imperiya siyasətinin iflasa uğraması səbəbindən dağıldı; 3) Sovet İttifaqı yüksək siyasi eşalonda baş verən haki-

miyyət uğrunda mübarizə nəticəsində dağıldı [87, s. 39-40]. SSRİ-nin iflasına dair K.Qadjıyevin də fikirləri maraqlıdır: - «Sovet İttifaqı imperiyanın daxili imkansızlığından irəli gələn özünəqəsd etdi. Bütün böyük imperiyalar və dövlətlər təkcə xaricdən təzyiq nəticəsində yox, daxildən müflisləşmə nəticəsində dağılırlar» [75, s. 277].

SSRİ-nin iflasından danışarkən dövlət və hakimiyyət orqanlarında çalışanların səriştəsizliyi və məsuliyyətsizliyi məsələlərini də qeyd etmək lazımdır. Artıq 80-ci illərin ikinci yarısından etibarən bu amil özünü daha çox büruzə verdi. Bu barədə M. Qorbaçovun fikirlərinə diqqət yetirək:- «Sovet İttifaqı Kommunist Partiyası rəhbərliyində və dövlət aparatında iş qabiliyyətinin, tələbkarlığın, intizam və məsuliyyətin zəifləməsi getdikcə daha açıq şəkildə özünü göstərirdi» [78, s. 17]. Lakin qeyd etmək lazımdır ki, elə Qarbaçov özü, hakimiyyətə gəldikdən sonra kommunist ideyalarına sadiq, işgüzar, dövlət strukturlarında böyük iş təcrübəsi olanları hakimiyyətdən uzaqlaşdırdı.

SSRİ-də milli münaqişələrin gizli formadan açıq formaya keçəcəyi, konfliktlərin daha da kəskin xarakter alacağını bəzi politoloqlar qabaqcadan proqnozlaşdırmışdılar və bu fikirlər öz təsdiqini sonrakı proseslərdə tapdı. Məsələn, amerikalı sovetoloq Zbiqnev Bzejinski özünün «Postkommunist millətçiliyi?» əsərində SSRİ-də milli problemlərin daha da çoxalacağı və vüsət alacağı haqqında yazır: - «böyük əminliklə proqnozlaşdırmaq olar ki, yaxın gələcəkdə Şərqi Avropa ölkələri kimi Sovet İttifaqı da məlum münaqişələrlə müqaisədə daha kəskin milli konfliktlər meydanına çevriləcək» [133, s. 2]. MDB ərazisində konfliktlər və bunların etnik xarakteri haqqında V.Lısenkonun fikirləri maraqlıdır. O münaqişələri iki qrupa bölür - İttifaq hakimiyyəti ilə olan konfliktlər və millətlərarası konfliktlər. «Bunların əsasları kimi xaricdə kompakt areal şəklində etnik yayılmanın artması (36 faiz), qohum xalqların konsalidasiyası (7 faiz), yaxud əksinə, onların ayrılmasını göstərmək olar. Ərazi iddiaları müxtəlif vaxtlarda sərhədlərin dəyişdirilməsinə əsaslanır (inqilaba qədər sərhədlər 5 faiz, 1924-cü ilə qədər 11 faiz, 1945-ci ilə qədər 26 faiz, 4 faiz sərhəd isə ikinci dünya müharibəsi vaxtı ilhaq olunub).» [102, s. 148].

Yenidənqurma dövründə SSRİ ərazisindəki ilk milli çıxışlar və dövlətə qarşı tələblərin açıq formada irəli sürülməsi 1986-cı ilin dekabrında Alma-Atada tələbələrin nümayişi, elə həmin ildə Yakutiyadakı hadisələr və 1987-ci ildə Moskvadakı Qırmızı meydanda Krım tatarlarının aclıq aksiyası ilə başladı. Artıq 1988-ci ildə Dağlıq Qarabağda təcavüzkar erməni separatizmi böyk vüsət almağa başladı və DQ-ın Ermənistana birləşdirilməsi məsələsi qaldırıldı. 1989-cu ildə Abxaziyanın Rusiya Federasiyasının tərkibinə daxil olmaq qərarının nəticəsində gürcü-abxaz konflikti ortaya çıxdı. Cənubi Osetiyanın Gürcüstandan ayrılmaq tələblərinin nəticəsində separatizm dalğası genişləndi. Gürcüstanın digər etnosiyasi problemi Cavahetiyadır. Qeyd edək ki, Gürcüstanın Cavahetiya bölgəsində etnik ermənilər yaşayır və buradakı etnosiyasi gərginliyin, separatizmin yaranmasında ermənilərin xüsusi rolu var. Gürcü tədqiqatçı D.Darçiaşvili Gürcüstanda separatizm haqqında yazarkən erməni separatizmini xüsusilə qeyd edir. «Gürcüstan hakimiyyəti Ermənistanı Cavahetiyada kompakt halda yaşayan ermənilər arasında separatist əhval-ruhiyyənin yaranmasını dəstəkləməkdə şübhəli bilir və ittiham edir» [82, s. 181]. Gürcüstanda Gavahetiya problemi ilə yanaşı Acarıstan problemi də uzun bir dövr öz aktuallığını saxlamışdı.

1988-90-cı illərdə Pribaltikada və Qafqazda milli müstəqillik uğrunda genişlənən milli hərəkatlar 1989-cu ildə Tbilisiyə, 1990-cı ildə Bakıya, 1991-ci ildə isə Vilnüsə Sovet qoşunlarının yeridilməsi, 1989-1991-ci il Moldova ilə Dnestryanı bölgə arasında milli-ərazi konfliktinin yaranması, 1989-cu il Fərqanə, Oş, 1990-cı il Tacikistan hadisələri, milli qırğınlar SSRİ-nin dağılması ərəfəsində milli-ərazi, siyasi-statusla bağlı ən böyük münaqişələr idi.

Dağlıq Qarabağ probleminin ortaya çıxması ilə SSRİ-nin dağılması prosesi sürətləndi. Bu münaqişə həm də İttifaq ərazisində milli-siyasi konfliktlərin yaranması və yaxud

yenidən qızışmasına təkan verdi. Qeyd edək ki, ermənilərin Azərbaycana qarşı təcavüzkar separatizmi 1987-ci ilin sonlarından aktivləşdi. 1988-ci il fevralın 20-də Azərbaycan SSR DQMV XDS-nin növbədənkənar sessiyası «Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetləri qarşısında DQMV-nin Azərbaycan SSR-in tərkibindən Ermənistan SSR-in tərkibinə verilməsi barədə təqdimat haqqında» qərar qəbul etdi. 1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Soveti DQMV XDS-nin xahişi ilə əlaqədar DQMV-nin Ermənistan SSR-nin tərkibinə keçməsi haqqında qərar çıxardı. 1989-cu il dekabrın 1-də Ermənistan Azərbaycanın ərazi bütövlüyünü bir daha pozaraq DQ-ın Ermənistanın tərkibinə daxil edilməsi haqqında qərar qəbul etdi. Ondan sonra, 1990-cı ilin mayında DQ-dən Ermənistan parlamentinə 12 deputat seçildi.

Ermənilərin azərbaycanlılara qarşı, sonradan müharibə ilə müşaiyət olunan mübarizəsi Azərbaycanın əraziləri hesabına «Böyük Ermənistan» yaratmaq ideyasının reallaşdırılmasına xidmət edirdi. Bu da Qafqazda böyük bir etnosiyasi münaqişənin yaranmasına gətirib çıxardı. Ermənilərin təcavüzkar separatizm, terrorizmlə müşaiət olunan mübarizəsi SSRİ-də etnosiyasi vəziyyəti kökündən dəyişdi, sovet rəhbərliyinin milli məsələləri həll etmək gücündə olmadığını bir daha sübut etdi. Dağlıq Qarabağ münaqişəsinin yaranmasında daxildə və xaricdə yaşayan təcavüzkar-millətçi ermənilərin, onların təşkilatlarının, sovet rəhbərliyinin ermənilərə havadarlıq etməsinin və yaxud bu məsələdə fəaliyyətsizliyinin rolu böyükdür. Ermənilərin bu istiqamətdə apardığı işlər həm xaricdə, həm də İttifaq çərçivəsində intensiv şəkildə davam etdi. Ermənistanda Qarabağ Komitəsi, Dağlıq Qarabağda isə Krunk təşkilatı yaradıldı. SSRİ-də milli məsələ ilə bağlı özbaşınalıq o səviyyəyə çatmışdı ki, SSRİ rəhbəri M.Qorbaçovun iqtisadi məsələlər üzrə köməkçisi, erməni milliyətindən olan akademik A.Aqanbekyan 1987-ci ildə Fransada Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin labüd olduğu bəyanatını vermişdi. 1985-ci ildə SSRİ-də Zori Balayanın «Ocaq», 1986-cı ildə isə Beatris Qasparyan Briku adlı Fransa ermənisinin Parisdə «İyirminci əsrin erməniləri» adlı türklərə nifrət hissi ilə dolu kitabı çapdan çıxmışdı.

Dağlıq Qarabağ ermənilərinin öz sosial vəziyyətlərinin ağırlığı, Azərbaycanda milli mədəniyyətlərini inkişaf etdirə bilməmələri haqqında çıxışlarının heç bir əsası ola bilməzdi. Ona görə ki, Qarabağ və Azərbaycanın digər bölgələrində yaşayan ermənilərin yaşayış səviyyəsi azərbaycanlılara nisbətdə daha yüksək idi. Onlar daha çox güzəştlərdən və üstünlüklərdən istifadə ediblər. Milli mədəniyyətlərini, tarixini, elmini inkişaf etdirmək üçün ermənilərə Azərbaycan hökuməti tərəfdən əlverişli imkanlar yaradılıb.

Rusiyalı tədqiqatçı A.Yamskovun bu haqdakı fikirlərinə diqqət yetirək: "Dağlıq Qarabağda olduğu kimi Azərbaycanın digər rayonlarında yaşayan ermənilər öz dillərini, milli mədəniyyətlərini real olaraq inkişaf etdirmək və istifadə etmək, öz dillərində məktəb proqramı çərçivəsində orta təhsil almaq və sair hüquqlara malik idilər. Problem muxtar vilayətdə yaşayan ermənilərin azərbaycanlılardan pis yaşamasında deyil. Əksinə bir çox parametrlərə görə ermənilər azərbaycanlılardan hətta çox yüksək səviyyədə yaşayıblar" (32. Yamskov A.N. "Межнациональные конфликты в Закавказе: предпосылки возникновения и тенденсии развитис"- Полис.1991 № 2). Yamskovun DQ problemi haqqında qərəzli fikirləri çoxdur, lakin bu alim öz fikirlərində həqiqəti etiraf etmək məcburiyyətində qalıb.

Qeyd edək ki, DQMV erməniləri pedaqoji instituta, teatra, rəqs kollektivinə, idmanı inkişaf etdirmək üçün Azərbaycanın birinci dəstəsində çıxış edən futbol komandasına malik idi. Dağlıq Qarabağda erməni dilində televiziya verilişləri efirə çıxırdı, qəzet, jurnal çap olunurdu. «İzvestiya» qəzetinin 1988-ci il 25 mart tarixli sayında göstərilirdi ki, Dağlıq Qarabağ vilayəti mənzillə təchizat sahəsində Azərbaycanın digər yerlərini orta hesabla 1,4 dəfə geridə qoyur. Başqa sahələrdə də vilayətdə vəziyyət hər iki İttifaq respublikalarından (yəni Azərbaycan və Ermənistandan-R.R.) yaxşıdır. Göründüyü kimi ermənilərin Azərbaycanda

sıxışdırılması haqqında o dövrdəki çıxışlar və bəyanatlar cəfəngiyyatdan başqa bir şey deyildi. Bu, sadəcə olaraq erməni təcavüzkar seperatizmi, terrorizmi vasitəsi ilə Azərbaycanın tarixi Dağlıq Qarabağ bölgəsini ondan qoparmaq və Böyük Ermənistan ideyasının reallaşdırılması üçün bir bəhanə idi.

Beləliklə, SSRİ-nin dağılması ilə bir dövrdə Şimali və Cənubi Qafqaz respublikalarında və burada yaşayan xalqlar arasında etnosiyasi şərait dəyişdi. Qafqazda daha çox etnosiyasi vəziyyətin gərginləşməsi ilə xarakterizə olunan hadisələr baş verdi. Buna səbəb SSRİ-dən miras qalan milli-ərazi, siyasi-statusla bağlı problemlər, yeni etnik münaqişələrin yaranması, milli-azadlıq hərəkatları və yaxud kiçik xalqların suverenlik uğrunda mübarizəsi, regional ictimai-siyasi təşkilatların fəaliyyəti oldu. Yeni yaranmış münaqişələrlə yanaşı SSRİ vaxtından, hətta Çar Rusiyası dövründən qalan milli-ərazi, sərhəd, siyasi statusla əlaqədar problemlər etnosiyasi vəziyyəti bir qədər də mənfi istiqamətə yönəltdi.

«Rusiya Etnosiyasi Tədqiqatlar Mərkəzinin hesablamalarına görə 1988-ci ildən 1991-ci ilə qədər keçmiş SSRİ ərazisində 150-dən çox konflikt baş verib, bunlardan 20-si insan tələfatı ilə nəticələnib» [110, 10 январь, 1992].

Keçmiş SSRİ-ərazisində etnosiyasi münaqişələrin əsas tipləri kimi göstərmək olar:

- Parçalanmış etnosların birləşdirilməsi ilə xarakterizə olunan ərazi münaqişələri (Burada konfliktin əsas xarakteri (mənbələri) hökumətlə separatçı qüvvələr, milli azadlıq qrupları arasında daxili siyasi və yaxud hərbi toqquşmalardır. Burada separatçı qüvvələrin qonşu dövlətlərin hərbi - siyasi dəstəyini almasını da qeyd etmək olar);
- Etnik azlığın müstəqil dövlət yaratmaq məqsədilə öz müqəddəratını təyin etmək hüququnu reallaşdırmaq cəhdləri nəticəsində yaranan münaqişələr;
- Deportasiya olunmuş xalqların ərazi hüquqlarının bərpası ilə xarakterizə olunan münaqişələr;
- Hər hansı bir dövlətin qonşu dövlətin müəyyən ərazisinə iddiası ilə bağlı yaranan münaqişələr;



- Sovetlər vaxtı milli maraqları nəzərə alınadan aparılan ərazi dəyişdirmələri nəticəsində yaranan münaqişələr;
- Deportasiya olunmuş xalqların digər respublikalarda uzun illər yaşaması, yerli xalqlarla yaranan torpaq-ərazi, etnik-mədəni, sosial və s sahələrdə yaranan problemlər;
- Xalqların öz müqəddaratını təyinetmə hüququnun (dövlətin ərazi bütövlüyünün saxlanması şərtilə) pozulması, yaxud nəzərə alınmaması, yerli (titullu) xalqın digər azsaylı xalqlar üzərində sosial – siyasi üstünlüyə nail olması cəhdləri nəticəsində yaranan münaqişələr;
- Bir dövlətin vətəndaşlarının digər dövlətin ərazisində diskriminasiyası nəticəsində yaranan münaqişələr;
- Bir dövlətin ərazisində yaşayan müxtəlif milli azlıqlar arasında linqivistik mübahisələrin (dövlət dili məsələsində) yaranması nəticəsində ortaya çıxan münaqişələr.

Etnosiyasi konfliktlərin bir xüsusiyyəti də var ki, burada bir münaqişə vəziyyəti bir neçə situasiyalarda özünü büruzə verə bilər.

## 1.3 XX əsrin 90-cı illərinin əvvəllərində Şimali Qafqazda milli oyanış prosesi

80-ci illərin ikinci yarısından başlayaraq cəmiyyətdə aşkarlıq və demokratiya elementlərinin yaranması nəticəsində SSRİ xalqları arasında milli özünüdərk prosesi yüksək templə inkişaf etməyə başladı. Milli özünüdərk ilk əvvəl milli mədəniyyətə, dilə, tarixə münasibətdə özünü göstərdi. Qafqaz xalqları da sovet siyasi rejiminin onların milli dəyərlərinə qoyduğu qadağa və ruslaşdırma siyasəti ilə barışmaq istəmirdilər. Qeyd etmək lazımdır ki, millətlərin elitar təbəqəsi hesab olunan ziyalılar, yazıçılar, şairlər, mədəniyyət və elm xadimləri milli dirçəlişə dəstək verdilər və bu prosesin önündə getdilər. «Böyük qardaş» özünə rəva bildiyi şeyləri məsələn, Knyaz İqoru, Aleksandr Nevskini, Dmitri Donskoyu, Suvorovu, Kutuzovu, Naximovu və sairlərini qəhraman kimi tərənnüm edirdisə və bu məsələdə ruslara heç bir məhdudiyyət yox idisə, Qafqaz xalqlarına Şeyx Mənsuru və Şamili tərənnüm etmək, onlar haqqında həqiqətləri bil-

mək belə qadağan idi. Bu şəxsiyyətlər sovet ideologiyasının prinsip və tələblərinə uyğun qiymətləndirilirdi. Ümumiyyətlə, Rusiya və Qafqaz xalqlarının münasibətlərinə Şamil hərəkatına münasibət kontekstində baxmaq daha düzgün olar.

Sovet tarixçiləri Qafqaz müharibəsini marksist ideologiyası baxımından dərk edirdilər və onu marksist metodları ilə öyrənirdilər. Qafqaz müharibəsinə çarizmin müstəmləkə zülmü və Rusiya hökuməti tərəfindən müdafiə edilən yerli feodalların özbaşnalığına qarşı milli-azadlıq mübarizəsi kimi baxılırdı. Burada maraqlı cəhət ondan ibarət idi ki, mübarizə aparan tərəflər mədəni-etnik xüsusiyyətlərinə görə deyil, sosial-sinfi əlamətlərinə görə bir-birindən fərqləndirilirdi. Güya ki, yerli istismar olunan siniflər (yəni dağlılar - R. R) istilaçılara və onların müttəfiqlərinə, burjuaziyaya qarşı mübarizə aparırlar. Artıq XX-ci əsrin 30-cu illərində Qafqaz müharibəsinə baxışlarda yaranan fərqli cəhətlər üzə çıxmağa başladı və bu müharibəni milli-azadlıq mübarizəsi kimi qiymətləndirənlərin sayı çoxaldı. Əlbəttə ki, bunun əsasında yenə də marksist-leninçi nəzəriyyə dayanırdı. 40-cı illərin əvvəllərindən başlayaraq Qafqaz müharibəsinə partiya-ideoloji baxışlar dəyişdi. Burada bir sıra səbəblər var ki, bunlardan biri də sovet xalqının müharibədən çıxması və bununla bağlı düşmənə qarşı mənəvi birliyinin yaranması idi. Belə bir vəziyyətdə Şamil Rusiya qəhrəmanları ilə bir cərgədə dayana bilməzdi. İ.Deqoev bu haqda yazır:- «marksist-leninçi nəzəriyyənin ən korrekt müəyyənedici faktları bir faktı inkar edə bilmədilər ki, Qafqaz müharibəsində dağlılar və ruslar bir-birlərini öldürüblər və İmamın da bu məsələdə məsuliyyəti var. Bundan başqa Şamilin qəhrəman obrazı Şimali Qafqaz xalqlarının milli (millətçi) özünüdərkini stimullaşdırdı və bu, onlar üçün həm konsolidasiya faktoru, həm də mərkəzi partiya-sovet (rus) hakimiyyətinə münasibətdə müxalifətçi tendensiyalar idi» [83, s. 310]. Moskva millətlərarası münasibətləri hər an qızışdıra biləcək prosesləri ciddi nəzarətdə saxlayırdı. Sovet siyasətçiləri hiyləgər metoda da əl atdılar. Bu ondan ibarət idi ki, artıq çarizmin işğalçı siyasətindən danışmaq yasaq edildi, Rusiya və Qafqaz xalqları arasında dostluq, siniflərin birliyi, mədəni, məişət, etniklərarası ailə-nigah münasibətləri ön cərgəyə çıxdı və üstünlük təşkil etdi.

Stalinin ölümündən sonra Şamil hərəkatına münasibət dəyişdi. 1956-57-ci illərdə XIX əsr Qafqaz müharibəsi böyük bir diskussiyaya çevrildi. Cəmiyyətdə yaranmış azad fikirlilik atmosferi Şamil hərəkatına da öz təsirini göstərdi və hərəkata münasibətdə ikitirəlik yarandı. Şamil tərəfdarları hərəkatın antimüstəmləkəçi və antifeodal cəhətlərinin yüksək qiymətləndirilməli olduğunu və Şamilin müsbət obrazının yaradılmasını bildirdilər. Şamil əleyhidarları isə Şamil hərəkatının sinfi mübarizəsinin davamlı olmadığını və onun açıq feodal-klerikal xarakterini göstərirdilər. Şamilin Qafqazın Rusiyaya birləşdirilməsinə qarşı çıxış etməsi pislənilirdi. 80-ci illərin birinci yarısından etibarən Moskva artıq dağlıların hərəkatını özü istədiyi formalarda təqdim etməyə çətinlik çəkməyə başladı. Hələlik gizli şəkildə də olsa bu məsələdə mübahisələr gedirdi. Şamil tərəfdarları Qafqaz müharibəsi ilə Asiya və Afrika xalqlarının milli-azadlıq mübarizəsi arasında oxşarlığın olduğu fikirlərini ortaya qoydular. Artıq Qafqaz xalqlarında milli özünüdərk prosesi aktivləşmə mərhələsində idi və onlar Şamilin quldur kimi cəmiyyətə təqdim olunması, Rusiyanın müdafiə olunan tərəf, dağlıların isə aqressor kimi göstərilməsi ilə barışmaq istəmirdilər. Bu onların milli heysiyyatına toxunurdu. 1985-ci ildən sovet cəmiyyətinin liberallaşmaya başlaması xalqların öz maraqları uğrunda daha cəsarətli çıxışlar etməsinə şərait yaratdı. Cəmiyyətdə Şamilin reabilitasiya olunması kompaniyasına başlanıldı, İmam artıq yenidən dağlı xalqlarının kultuna çevrildi. Şamil Şimali Qafqaz xalqlarının qəhrəmanı, Qafqaz müharibəsi isə milli-azadlıq mübarizəsi kimi təqdim olunmağa başladı. Şamilin kütləvi şəkildə ədəbiyyatda, kinoda, kütləvi informasiya vasitələrində təbliğ olunması, ona Mahaçqala və Qimrıdə (Şamilin doğma aulu) heykəllər qoyulması, Dağıstanın bir neçə şəhərinin və kəndinin, həmçinin paytaxtın adının ona verilməsi məsələsi təklif edildi. 1980-si illərin sonu 1990-cı illərin əvvəllərində Şamil sepa-

ratçı əhval-ruhiyyəli siyasətçilər üçün yeni imperiya mərkəzi ilə azadlıq mücadiləsində bayraq və ruhlandırıcı bir simvola çevrildi.

Azərbaycanlı alim Heydər Hüseynov bəzi Rusiyalı həmkarlarından fərqli olaraq Şeyx Şamili Qafqazın milli qəhrəmanı kimi qiymətləndirir.

SSRİ-nin dağılması Rusiyada ideoloji və dini-mənəvi sahədə problemlərin yaranması ilə nəticələndi. Bir tərəfdə qafqazafobiya, digər tərəfdə isə rusofobiya yarandı. Artıq Şamil hərəkatı dağlıların rus istilaçılara qarşı qəhrəmanlıq obrazına və hərəkətverici qüvvəsinə, Qafqaz müharibəsi isə Şimali Qafqaz xalqları üçün ideoloji bir əsasa çevrildi.

XX-əsrin 90 - cı illərinin əvvəlləri Simali Qafqaz regionunda etnosiyasi gərginliyin artması ilə müşahidə olundu. Etnik və konfessional dəyərlər insani və yaxud vətəndaş dəyərlərindən üstün mövqeyə keçdi. Kütləvi işsizlik, korrupsiya və rüşvətxorluq, ərazi mübahisələrinin həll edilməməsi millətlərarası münasibətlərin kəskinləşməsinə, separatizmin yaranmasına, ictimai-iqtisadi və siyasi sahələrin kriminallaşmasına gətirib çıxardı. SSRİ-nin iflasından sonra Şimali Qafqazda yaşayan xalqlar arasında mövcud olan milli-ərazi, siyasi-statusla bağlı problemlər, torpaq mübahisələri potensial münaqişələrin qızışması üçün mümkün şərait yaratdı.

Qeyd etmək lazımdır ki, Şimali Qafqaz bütün keçmiş SSRİ ərazisində ən güclü münaqişə potensialının formalaşdığı bir bölgədir. Əsasən də millətlərarası konfliktlər burada ön cərgədədir. Rusiyalı alim K.Qadjiev Qafqazın «balkanlaşması» nı qeyd edərək yazır: - «Şimali Qafqaz respublikaları qarşısında anoloji kəskin problemlər dayanır. Bu regionun balkanlaşması tezisinin tərəfdarları Çeçenistanı misal göstərirlər» [75, s. 23].

Rusiyalı tədqiqatçı A. Duqin Qafqazda milli azadlıq hərəkatını Türkiyə, Səudiyyə Ərəbistanı vəhhabiləri, sufizmin təsiri ilə yaranan dini hərəkat ilə əlaqələndirir. Onun konsepsiyasına görə Rusiya vəhhabizmi ləğv etmək üçün Şimali Qafqazda İran şiəliyinin güclənməsinə şərait



yaratmalıdır *(Дугин А. Основы Геополитики.М.,1999)*. Göründüyü kimi Rusiyalı mütəxəssis problemi əsas hədəfindən yayındırmağa və müasir dövr Qafqaz milli azadlıq hərəkatını arxa plana keçirərək, onu dini hərəkat kimi qələmə verməyə çalışır. Qafqazda isə Rusiya və onun sələfləri SSRİ və Çar Rusiyasının yaratdığı milli problemlər, millətlərarası mübahisələr və onlar üçün yaradılmış əsaslar son nəticədə Şimali Qafqazda millətlərin əks reaksiyası ilə nəticələndi və xalqlar öz azadlıqları, milli problemlərinin həlli uğrunda mübarizəyə başladılar.

Şimali Qafqazda ərazi mübahisələrinin səbəbləri ayrı-ayrı dövrlərdə sərhədlərin dəyişdirilməsidir. Təkcə Şimali Qafqazda Sovet hakimiyyəti illərində sərhədlər on dəfələrlə yenidən dəyişdirilib. Bir sıra hesablamalara görə bu ərazi dəyişdirilmələri regionun 36 nöqtəsində yüksək gərginlik zonası yaradıb. Burada bir çox münaqişəli ərazilər vardır ki, bunlara eyni zamanda iki və daha çox xalq, yaxud respublika iddia edir. Bəzi millətlər respublikadaxili sərhədlərlə bir-birindən ayrılıb, qohum millətlər və ya eyni bir millət bir neçə respublikanın ərazisində yaşamağa məcbur edilib. Məsələn, Şimali Qafqazda kabardinlər, çərkəzlər, adıgeylər vahid etnik birlik təşkil edirlər və bu xalqlar mədəniyyət və dini baxımdan da bir-birinə yaxındırlar. Hazırda isə adıgeylər üç respublika ərazisində Adıgey, Qaraçay-Çərkəz və Kabardin-Balkarda yaşayırlar. Qeyd edək ki, qaraçaylar və balkarlar qohum xalqlardır və onlar arasında dil fərqləri də yoxdur. Lakin Rusiyanın imperiya maraqlarına xidmət edən milli siyasəti nəticəsində balkarlar və qaraçaylar ayrı-ayrı respublikalarda yaşamağa məcbur ediliblər. Noqaylar da üç respublika ərazisində - Dağıstan, Qaraçay-Çərkəz və Stavropol vilayətində yaşayırlar. Osetinlər isə Cənubi və Şimali Osetiya ərazilərində məskunlaşıblar. Həm Cənubi, həm də Şimali Osetiya ərazisi münaqişə zonası hesab edilir.

Bir fakta diqqət yetirək ki, Qafqazda böyük və qohum xalqların birliyini Sovet hakimiyyəti özü üçün təhlükə hesab edirdi. Bu birliyi dağıtmaq məqsədilə köçürmə siyasətindən,

sərhəd dəyişdirmələrindən istifadə olundu. Məsələn, Şimali Qafqazda ortaq mədəniyyət, dil, dini baxımdan qohum olan türk xalqlarının eyni bir muxtar qurum çərçivəsində inkişafına imkan verilmədi, əksinə, onlar bir neçə yerə parçalandı. Adıqdilli xalq hesab olunan kabardinlərlə türkdilli balkarlardan ibarət respublikanın təşkil edilməsi bolşeviklərin qohum xalqların konsolidasiyasının qarşısını almaq, onları assimilasiyaya uğratmaq məqsədilə edildi. Güman ki, kabardinlərin çoxluq təşkil etdiklərinə görə balkarları assimilasiyaya uğradacağına ümid edilirdi. Anoloji situasiya qonşu Qaraçay-Çərkəzdə də baş verdi. Adıqdilli xalqlara qarşı da bu metoddan istifadə olundu.

Ümumiyyətlə Qafqazda türkdilli xalqlar təqiblərə daha çox məruz qalıblar. Bunlar Şimali Qafqazda balkarlar, qaraçaylar, noqaylar, kumıklar, Cənubi Qafqazda azərbaycanlılar və ahısxa türkləridir. Bunun bir neçə səbəbi var. Ruslar monqol - tatar yürüşlərindən başlayaraq XV əsrə qədər türklərin əsarətində olublar. Bu fakt rusları hər zaman qorxu altında saxlayaraq onlarda qisasçılıq hisslərinin güclənməsinə və türk ərazilərini işğal etməsinə gətirib çıxarıb. Türklərə qarşı cavab tədbirlərini onlar artıq beş əsrdir ki davam etdirirlər. «1552-ci ildə Kazanın İvan Qroznunun qoşunları tərəfindən işğal edilməsindən başlayaraq, XIX yüzilliyin sonlarına qədər («ağ general» Skobelevin Türküstandakı qələbələrinədək) tədricən cənubdakı islam dininə mənsub türkdilli xalqların Şimali rus-xristianlar tərəfindən tabe etdirilməsi prosesi getdi. Dörd yüz il ərzində Rusiya dövlətinin Volqa və Oka sahillərindən Krım və Xəzər sahillərinə, Qafqaz dağlarına və Türküstan səhralarına qədər genişlənməsi davam etdi» [106, s. 9]. Beləliklə türklərin Volqa-Ural və Qafqazda böyük üstünlük təşkil etməsi və kompakt halda yaşaması Rusiya üçün təhlükəli faktor hesab olunur. Onların burada pərakəndə halda yaşaması və digər xalqlarla münaqişəli vəziyyətdə olması Rusiyanın milli siyasətinin bir tərəfidir.

Şimali Qafqazda balkar məsələsi də gündəlikdədir. Balkarlar onlara qarşı edilən ədalətsizliklərin aradan qaldırılmasına, itirilmiş ərazilərinin reabilitasiyasına çalışırlar. 90-cı illərin əvvələrindən balkarlar və kabardinlər arasında tarixi sərhədlər məsələsində ziddiyyətlər yaranmağa başladı. Yenidənqurma illərində Kabardin-Balkarda «Nıqış» və «Birlik» ictimai təşkilatları mübarizə aparırdı. 1990-cı ilin iyulunda Balkar milli hərəkatı «Tere», yaxud «Balkar forumu» da yarandı ki, bu da balkarların ümumimilli təşkilatına çevrildi. 1991-ci il noyabrın 17-də Balkar forumunun qurultayında Rusiya Federasiyasının tərkibində Balkar respublikasının yaradılması haqqında deklarasiya qəbul edildi. «1991-1992-ci illərdə balkar və kabardin kəndləri sakinləri arasında, torpaq və məişət zəminində bir neçə münaqişə qeydə alındı. 1992-ci ilin mayında Yeni Balkariya kəndinin sakinlərinə qarşı bandit hücumu oldu...Kabardin xalqının qurultayının Kabardin respublikasının yaradılması haqqında qərarından sonra (1992-ci il yanvar) vəziyyət daha da kəskinləşdi» [126, s. 125].

1990-cı ilin əvvəllərində çərkəzlərin «Camaat» adlı təşkilatı Qaraçay-Çərkəzdə Çərkəz muxtariyyatının yenidən bərpası üçün 70 min imza topladı. Rusiyalı alim M. Botaşev öz araşdırmasında Qaraçay-Çərkəzdə müstəqilliyini elan etmiş yeddi muxtar qurumun adını çəkir. Bunlar «Qaraçay, Çərkəz, Abazin, Noqay, Zelençuk-Urup, Batalpaş respublikaları və Batalpaş kazak bölgəsi idi» [70, s.35]. Qaraçay-Çərkəzdə əsas problemləri sadalayarkən bunları göstərmək olar: - Qaraçay və Noqaylar tələb edirlər ki, şəhərin, yəni Çerkeskin adı dəyişdirilsin, bir millətin adı ilə şəhər adlana bilməz. Noqayların tələbi isə budur ki, onların 1957-ci ildə Adıq-Habl rayonu adlandırılaraq Çərkəz respublikasına verilmiş İkon-Halk rayonu geriyə qaytarılsın. Bir məsələyə diqqət yetirmək lazımdır ki, Mərkəzi Qafqazda potensial konfliktlər öz miqyasına görə rus - çeçen müharibəsini geridə qoya bilər. Lakin bir fərqlə, yerli xalqlar bu dəfə mərkəzi hakimiyyətlə deyil bir-birilərilə vuruşacaqlar. Subregionun müsəlman çoxluğu ilə xristian azlığı arasında toqquşma da inkar edilmir. Bu isə öz növbəsində RF-in qonşu vilayətləri və Cənubi Qafqaz dövlətlərinə neqativ təsir edə bilər. Cənu-

bi osetinlərlə gürcülər, şimali osetinlərlə inquşlar arasında baş verən hərbi münaqişələr, Qaraçay-Çərkəzdə və Kabardin-Balkarda etnoslar arasında qarşıdurma, etnosiyasi gərginlik regionun gələcəyi haqqında bədbin fikirləşməyə əsas ola bilər.

Bir sıra tədqiqatçılar repressiyaya məruz qalan xalqların Şimali Qafqazda əlavə gərginlik yaradacaqlarını qeyd edirlər. Şimali Qafqazda gərginlik yaradan əlavə faktor repressiyaya məruz qalan xalqların reabilitasiyası problemidir, xüsusilə ərazi reabilitasiyası məsələsi daha ciddidir. Şimali Qafqazın çoxmillətli respublikalarından hesab olunan Dağıstanda da milli münasibətlər kifayət qədər gərgindir. Respublikanın daxili etnosiyasi xüsusiyyətləri və geopolitik vəziyyəti onu regionda potensial münaqişə ocağına çevirib. Dağıstan post-sovet məkanı respublikaları arasında etnosların və etnoqrafiq qrupların say tərkibi baxımından öndə gedir. Təsadüfi deyil ki, onu qədim «bibliya Vavilonu» [122, s. 80] ilə müqayisə edirlər. Etnik rəngarənglik baxımından unikal bir yer hesab olunan Dağıstanda ümumilikdə 30-dan artıq yerli xalq yaşayır. Respublika əhalisinin 28 faizini avarlar təşkil edir. Avarların da tərkibində andiy, arçin axvas, bahulal, bejtin, botlix, genuj, qodaberin, qunzib, didoy, karatin, tindin, xvarşin və çamalin dillərində danışan 14 etnos var. Əhalinin 16,2 faizini təşkil edən darginlərin tərkibində də kubaçin və qaytaq etnosları fərqləndirilir. Dağıstanda digər etnosların say göstəriciləri belədir:

- kumıklar 13 faiz
- ləzgilər 12,5 faiz
- ruslar 7,1 faiz
- laklar 5 faiz
- tabasaranlar 4,7 faiz
- çeçenlər 4,5 faiz
- azərbaycanlılar 4,3 faiz
- noqaylar 1,6 faiz
- rutullar 0,8 faiz
- aqullar 0,8 faiz



- tatlar 0,4 faiz
- saxurlar 0,3 faiz [93]

Dağıstan xalqları üç dil ailəsinə aid edilir. Şimali Qafqaz dil ailəsinə avarlar, darginlər, ləzgilər, laklar, tabasaranlar, rutullar, aqullar, saxurlar və çeçenlər; türk dil ailəsinə kumıklar, noqaylar və azərbaycanlılar; hind-avropa dil ailəsinə ruslar və iran dil qrupunda danışan tatlar aiddir. Respublika əhalisi üç ənənəvi dinə-islam, xristianlıq (ruslar) və iudaizmə (tatlar) sitayiş edir.

Dağıstanda etnosiyasi vəziyyətə etnik, sosial-siyasi, dini-mənəvi faktorlar ayrı-ayrılıqda təsir göstərir və bunların da konfliktogen situasiyanın ortaya çıxmasında öz rolu var. Qeyd edək ki, yenidənqurma illərində bütün sovet məkanında olduğu kimi Dağıstanda da millətçilik respublikanın siyasi və ictimai həyatında öz mənfi təsirini göstərməyə başladı. Dağıstanlı alim E. Kisriyevin bu barədə fikirləri maraq doğurur:- «Millətçiliyin yüksəlişi inkişaf edən böhran və sonra kommunist rejiminin iflası dövründə davam etdi. Keçid dövründə hakimiyyət uğrunda çətin mübarizədə ayrı-ayrı Dağıstan xalqlarının milli hərəkatları böyük əhəmiyyətə malik oldu və respublikanın çoxmillətli strukturu müəyyənedici siyasi faktora çevrildi. Heç bir siyasi rola malik olmayan və böyük imperiyanın milli siyasətinin obyekti hesab edilən millətçilər siyasi prosesin əsas «subyektinə» çevrildilər» [93, s. 144]. Kisriyev bildirir ki, millətdaxili birlik və millətlərarası qarşıdurma Dağıstanda daimi təsiredici gücdür və o cəmiyyətə bir çox formalarda təsir edir [93, s. 144].

Dağıstan xalqları arasında narazılıqların əsasları XX əsrin 30-40-cı illərində qoyulmuşdu. Məsələn, 1944-cü il deportasiyaları dövründə sürgün edilən çeçen-akınların yaşadıqları ərazilərə dağlıq bölgələrdən lak və avarların güc yolu köçürülməsi yenidənqurma illərində çeçen-akınlarla lak və avarlar arasında münaqişənin yaranması ilə nəticələndi. Ümumiyyətlə 1952-ci ildən etibarən Dağıstanın dağ ərazilərində yaşayan xalqlarının düzən ərazilərə köçürülməsinə

başlanıldı. Özü də bu proses hakimiyyət tərəfindən planlı şəkildə aparıldı. Düzən torpaqları dağ əhalisi arasında bölüşdürüldü. Artıq 70-ci illərin əvvəllərindən gəlmələrlə, yəni dağ əhalisi - avarlar, darginlər, ləzgilər, laklar, tabasaranlar, aqullar, rutullar, saxurlarla yerlilər, yəni düzən əhalisi - noqaylar, kumıklar, çeçen-akınlar, azərbaycanlılar, ruslar arasında sosial gərginliklər yaranmağa başladı. Düzən bölgələrdə yeni çoxmillətli kəndlərin yaranması ilə etnik vəyiyyət bir qədər də mürəkkəbləşdi. Düzən yerlərdə yaşayan xalqların sıxışdırılması prosesi bu yerlərdə yaşayan xalqların öz hüquqları uğrunda mübarizəsi ilə nəticələndi. Təsadüfi deyil ki, sovet siyasi rejiminin çökməsi mərhələsində ilk milli təşkilatlar çeçen-akınlar, kumıklar və noqaylar arasında yarandı. Respublika hakimiyyətinə qarşı dağ əhalisinin düzən yerlərə köçürülməsinin qarşısının alınması, ərazilərin geriyə qaytarılması ilə yanaşı siyasi və iqtisadi tələblər də irəli sürüldü. Konkret olaraq Xasavyurtda avarlar və kumıklar arasındakı etnik münaqişə barədə Dağıstanlı politoloq Maqomed Maqomedovun sistemləşdirməsinə diqqət yetirək:- «1) avar-köçkünlərin, yerli əhalinin etirazlarına səbəb olan, həm şəhərdə, həm də rayonda say etibarilə üstünlük təşkil etməsi; 2) Xasavyurtda və rayonda avar etnoqrupunun nümayəndələrinin qalib gəldiyi hakimiyyət uğrunda mübarizə; 3) dini qarşıdurma: şəhərdə cümə namazları kumıklar və avarlar tərəfindən ayrı-ayrı məscidlərdə yerinə yetirilir. Kumıkların ayrıca cümə məscidləri Mahaçqalada da fəaliyyət göstərir» [103, s. 69]. Laklar da kumıklar yaşayan tarixi ərazilərə məskunlaşdırılıblar ki, bu fakt da kumık və laklar arasında əlavə gərginliyə səbəb olur.

Dağıstan hakimiyyəti ilə ləzgilər arasında etnosiyasi sahədə bir sıra problemlər vardır. Ləzgilər Dağıstanın cənub bölgəsində Ləzgistan muxtar qurumunun yaradılmasına çalışırlar. Bu ideya uğrunda mübarizə 90-cı illərin əvvəllərində daha intensiv xarakter aldı. Ləzgilərlə mərkəzi Mahaçqala hakimiyyəti arasında digər problem cənub bölgəsində iqtisadiyyatdan əldə edilən bütün gəlirlərin ləzgilərə çatmalı olması və onların problemlərinə sərf edilməsi məsələsindədir. Cənub bölgəsində hakimiyyət postlarına ləzgilərin yerləşdirilməsi bir tələb kimi irəli sürülür. Respublikanın şimal ərazilərində çeçen mənşəli çeçen-akınlar yaşayırlar. Demək olar ki, bu bölgə Dağıstan rəhbərliyindən daha çox çeçenlərin nəzarətindədir. «İzvestiya» qəzetinin 1995-ci il 8 fevral tarixli sayında «Dağıstan ərazisi yeni müharibə plasdarmına çevrilə bilər» başlıqlı yazıda çeçen-akınlarla bərabər dargin və avarların da birinci Rusiya-Çeçenistan müharibəsi dövründə çeçenlərin auxov batalyonunun tərkibində vuruşduğu iddia edilir.

Ümumiyyətlə Dağıstanda etnoslar arasında münasibətləri dini aspektdən təhlil etmək daha düzgün olardı. Ona görə ki, Dağıstan dini-konfessional müxtəliflik baxımından mürəkkəb bir yerdir. Burada çoxlu sayda təriqətlər mövcuddur ki, bu da xalqlar arasında dərin sərhədlər yaradır. Dağıstan xalqları əsasən islam dininə sitayiş edir, lakin təriqətdə fərqlilik vardır. Ümumiyyətlə Şimali Qafqaz xalqları islamın sünni cərəyanına sitayiş edirlər. Dağıstanda sufi islamı daxilində şəziliyə təriqəti əsasən Şərqi Dağıstanda daha geniş yayılmışdır. Qərb və mərkəzi bölgələrdə yaşayan kumıklar və noqaylar hənifəlik təriqətinə sitayiş edirlər. Cənub bölgəsində yaşayan azərbaycanlılar isə şiə müsəlmanlarıdır. Respublikada 15 mürid qardaşlığı qeydə alınmışdır.

Ənənəvi islam Dağıstan xalqları arasında demək olar ki, zəifləyib. Bu da ondan irəli gəlir ki, 1989-cu ildə Şimali Qafqaz müsəlmanlarının I qurultayında Müsəlmanların Dini İdarəsi (MDİ) parçalandı, onun birliyini qoruyub saxlamaq mümkün olmadı. MDİ-nin əvəzinə 7 müstəqil dini idarə yarandı. Dağıstanda da Dağıstan Müsəlmanlarının Dini İdarəsi (DMDİ) yekdil formada çıxış edə bilmədi və 1992-ci ilin fevralında Dağıstan müsəlmanlarının III qurultayında vahid DMDİ - nin yerində kumık, dargin, avar (asaylar), lak və ləzgi dini idarələri yarandı. Lakin sonradan bu idarələr mərkəzləşdirildi və dini idarələri koordinasiya edən şura formalaşdırıldı. İ.Dobaev öz araşdırmasında göstərir ki,

«Dağıstanda DMDİ rəhbərliyində əsasən avarlardır. DMDİ-nin əsas ideoloqu nəqşbəndi və şaziliyə təriqətlərinin şeyxi, avar Səid Çirkeyskidir (Səid Əfəndi Asayev). Onun on mindən çox müridi vardır ki, bunların da yarı hissəsi aktivdir. DMDİ rəhbərliyi və respublikada hakimiyyət strukturundakıların çoxu şeyxin müridləridir» [85, s. 50]. DMDİ-nin nəzarətində «Assalam» adlı qəzet var və bu qurum televiziyaya və radioya da çıxış əldə edir. Demək olar ki, DMDİ yuxarı hakimiyyət orqanlarından lazımi dəstək alır. Dobaevin yazdığına görə dini idarə ictimai-siyasi proseslərdə aktiv rol oynayır və hətta bu proseslərə təsir etmək imkanlarına da malikdir [85, s. 50]. Qeyd edək ki, dargin, kumık, ləzgi və avar dini qurumunun müəyyən hissəsi DMDİ-yə qarşı müxalif mövqedə dayanır və onun legitimliyini tanımır.

Dağıstanda ictimai-siyasi həyatı, etnik və dini mühiti gərginləşdirən digər bir faktor vəhhabilikdir. Vəhhabilik Şimali Qafqazda, xüsusilə Dağıstanda geniş yayılıb. Burada təmiz islam tərəfdarları XX-əsrin 80-90-cı illərin əvvəllərindən çoxalmağa başladı. Rusiyalı mütəxəssis A. Kudryavsev öz araşdırmasında qeyd edir ki, «90-cı illərdə vəhabilik Dağıstanda parlaq bir sosiomədəni fenomenə çevrildi» [99, s. 117]. Hələ 80-ci illərdə Dağıstanlı ilahiyyatçı alim, milliyyətcə avar Bahautdin Kebedov (Bahautdin Məhəmməd) Qızılyurtda vəhhabiliyi təbliğ edən ilk məktəbi yaratdı. Burada Dağıstanla yanaşı Çeçenistandan, Qaraçay - Çərkəzdən olan gənclər də təhsil alırdılar. Vəhhabizmin respublikada geniş yayılmasında İslam Dirçəliş Partiyası və onun ilk sədri olmuş Əhmədkadi Axtayev böyük fəallıq göstərdi. Qeyd edək ki, Ə. Axtayev də milliyyətcə avar idi.

Dağıstanda vəhhabilik bir sıra etnoslar arasında daha geniş yayılıb. Məsələn avarlar, darginlər, çeçen-akınlar, laklar yaşayan bölgələrdə bu dini cərəyan yüksək templə inkişaf edib. Bir sıra mütəxəssislər bunun səbəbini etnosların siyasi hakimiyyətdən narazı olmasında axtarırlar. İslam fundametalizmi respublika hakimiyyətindən narazı olan avar, ləzgi, lak etnik qrupları arasında yayılmağa başladı.



Vəhabiliyin əsasən Qızılyurt, Xasavyurt, Kazbek, Buynaksk, Qunib və həmçinin Mahaçqalada böyük sosial bazası mövcuddur. Qızılyurt şəhəri və Pervomaysk kəndi (Xasavyurt rayonu) vəhhabiliyin əsas yayılma mərkəzləri hesab olunur. Respublikanın əksər kənd və şəhərlərində camaat adlı vəhabi icmaları formalaşdırılıb.

1994-cü ildə vəhhabilər sufi təriqətləri şeyxləri ilə münaqişəyə girdilər və hadisələr mənfi istiqamətdə o dərəcə inkişaf etdi ki, cəmiyyətdə dini parçalanma yarandı, məscidlərdə imamlar əhalini islamın düşmənləri hesab etdikləri vəhhabiləri öldürməyə çağıran çağırışlar etdilər.

Dağıstanda vəhhabiliyin böyük vüsət almasına səbəb olan faktorlar müxtəlifdir. Bu bir tərəfdən sovet siyasi sisteminin iflasa uğraması nəticəsində Dağıstan kimi islam dini təriqətlərinin dərin kök saldığı bir respublikada dini azadlığın və dini fəaliyyət sərbəstliyinin yaranması, ərəb ölkələrindən vəhhabi ideologiyasının Qafqaza sürətlə ixrac olunması və burada islam dövləti yaradılması ideyasının reallaşdırılması cəhdləri, vəhhabizmin həm ideya-siyasi həm də hərbi müstəvidə regionda möhkəmləndirilməsi məqsədilə xaricdən külli miqdarda vəsaitin daxil olması, digər tərəfdən ağır iqtisadi vəziyyət, kütləvi işsizlik, korrupsiya, narkomaniya və cinayətkarlığın artması, Rusuya qoşunlarının Çeçenistana yeridilməsi və müharibənin sonradan dini xarakter alması idi. Çeçen silahlı qüvvələri tərkibində vəhhabilərin nəzarətində olan «Camaat» adlı islam batalyonu yaradılmışdı. Bu silahlı qruplaşmanın tərkibində Dağıstandan (əsasən çeçen-akınlar, avarlar, darginlər), İnquşetiyadan, Qaraçay-Çərkəzdən könüllülər vuruşurdular. Çesenlərin qələbəsi ilə vəhhabilərin Dağıstana nüfuz etməsi daha da gücləndi, burada islam dövləti yaratmaq məsələsi qətiləşdi. Dağıstan vəhhabiləri ilə çeçen vəhhabiləri arasında əlaqələrin genişlənməsi və aktivləşməsi Dağıstan hakimiyyətinin 1995-ci ildə Dağıstanda vəhhabiliyə qarşı irimiqyaslı cəza tədbirlərinin görülməsi ilə nəticələndi.

İ.Dobaevin Dağıstanda vəhhabiliyin səbəbləri haqda

fikirləri maraq doğurur. O yazır:- «Onun (yəni vəhhabiliyin - R. R) kökləri respublikanın (Dağıstanın) sosial-iqtisadi reallıqları, ənənəvi adətlərə dözülməz bağlılıq, ənənəvi islam mollaları və şeyxləri arasında düşkünlükdən bəhrələnir» [85, s. 58-59]. Qeyd edək ki, Dağıstanda etnosiyasi vəziyyətə sosial-siyasi faktorlar da təsir edir. Rusiya Federasiyası regionları arasında həyat səviyyəsinə görə Dağıstan axırıncı yerlərdən birini tutur. Rusiyanın ən varlı subyektləri ilə müqayisədə respublika səkkiz dəfə geri qalır. Bunlarla yanaşı milli gəlirlərin bölüşdürülməsi məsələsində də problemlər var. Yəni milli gəlir düzgün bölüşdürülmür və bunun da nəticəsində əhalinin böyük hissəsi aşağı səviyyədə yaşayır. Məsələn, Kisriyevin hesablamalarına görə, Dağıstanda 200 soyadı vardır ki, bunlar da böyük resurslara malikdirlər və respublikada daxili siyasi münasibətlərin sistemini müəyyənləşdirirlər. Bu təxminən 1000 ailə (6500-qədər insan), respublika əhalisinin 0,3 faizi deməkdir [93, s. 145]. M.Barisov da öz tədqiqatında əsasən cənubi Dağıstanda sosial-iqtisadi vəziyyətin ağırlığını göstərir və bunun da digər problemlərin ortaya çıxmasına əlverişli imkanlar yaratdığını əsaslandırır [72, s.7].

## 1.4. Çeçenistanın mustəqillik uğrunda mübarizəsi

SSRİ - nin iflası ilə bir mərhələdə başlayan milli oyanış prosesi Şimali Qafqazdan da yan keçmədi. Burada müstəqilləşmə prosesi iki formada özünü büruzə verirdi-tam müstəqillik və Rusiya Federasiyası tərkibində suverenlik. Məsələn, çeçenlər RF tərkibində yaşamaq istəmədiklərini bəyan edərək tam müstəqilliyə üstünlük verdilər. Artıq 1989-cı ildən çeçenlərin başladığı müstəqillik uğrunda mübarizə 1991-ci ildə inquşların iştirakı olmadan müstəqil Çeçenistan dövlətinin yaradılması ilə başa çatdı. Lakin Çeçenistandan fərqli olaraq digər Şimali Qafqaz respublikaları Adıgey, Kabardin-Balkar, Qaraçay-Çərkəz, Şimali Osetiya-Alaniya, Dağıstan, İnquşetiya respublikaları RF tərkibində



qalmağa üstünlük verdilər.

Çeçenlərin tam müstəqillik tələbləri nəticəsində Şimali Qafqazda ortaya çıxan Rusiya-Çeçenistan münaqişəsi ümumilikdə Qafqaz regionunda qeyri-stabil vəziyyəti bir qədər də mürəkkəbləşdirdi. Qafqazda etnosiyasi vəziyyəti kökündən dəyişən bu münaqişə yarandığı vaxtdan (1991-ci il) etibarən Azərbaycan-Rusiya münasibətlərinə də təsir etdi, Çeçenistanla bağlı gərgin etnosiyasi vəziyyət Azərbaycana böyük problemlər yaratdı. Buna görə də Çeçenistanda başlayan milli-azadlıq hərəkatı, bunun doğurduğu nəticələr, Qafqazdakı etnosiyasi proseslərə, dövlətlərarası əlaqələrə təsirinin öyrənilməsi böyük əhəmiyyət kəsb edir.

80-cı illərin sonlarından Sovet rejiminə qarşı çıxış edən Şimali Qafqaz xalqları arasında çeçenlər əsas aparıcı qüvvəyə çevrildilər.

1989-cu ilin iyununda Çeçen-İnquş MSSR-da "Stela Ad" jurnalının redaktoru olmuş Zəlimxan Yandarbiyev "Bart" komitəsini yaratdı. Bu komitə 1990-cı ilin fevralın 12-də Vaynax Demokratik Partiyasına çevrildi. Qeyd edək ki, bu partiya yarandığı ilk vaxtlarda Çeçen-İnquş MSSR-a SSRİ tərkibində müttəfiq respublika statusu verilməsi uğrunda mübarizə aparıb və müstəqillik hərəkatının ilk hərəkətverici qüvvəsi olub.

1990-cı ildən fəaliyyətə başlayan və təşəbbüsü ələ alan Çeçen Xalqının Ümummilli Konqresi radikal millətçiləri özündə birləşdirdi və digər təşkilatlarla müqayisədə daha nüfuzlu qüvvəyə çevrildi. Bu təşkilat Çeçenistanın tam müstəqilliyi məsələsini mübarizəsinin əsası kimi irəli sürdü. «Çeçenistanın müstəqilliyi tarixi 1991-ci ilin yayından, Vaynax Demokratik Partiyasının əsasında çağırılan Çeçen Xalqının Ümummilli Qurultayının Çeçen-İnquşetiyanın ərazisində müstəqil Çeçenistan respublikasını elan etməsi ilə başlayır» [121, s. 19].

1991-ci ilin sentyabrından Çeçenistanda milli-azadlıq hərəkatı həlledici mərhələyə keçdi. Çeçen Xalqının Ümummilli Konqresinin rəhbəri Cöhər Dudayev 1991-ci il

sentyabrın 6-da Çeçenistan parlamenti və Nazirlər kabinetinin buraxıldığını bəyan etdi. Konqresin III Qurultayı Çeçenistanın müstəqilliyini elan etdi və təşkilatın İcraiyyə komitəsi bu vaxtdan etibarən dövlətin Ali orqanı oldu.

Qeyd etmək lazımdır ki, Çeçenistanda milli hərəkata təkan verən hüquqi şərait də yaranmışdı. Bu dağılmaqda olan SSRİ-nin son hüquqi islahatları nəticəsində mümkün olmuşdu. Belə ki, Sovet rəhbərliyi reallıqla barışaraq milli məsələ ilə bağlı siyasətinə yenidən baxdı və yeni qərarlar qəbul etdi. Hələ 1990-ci ildə SSRİ Ali Soveti «Öz milli - dövlətlərində yaşayan və yaxud belə birliklərə malik olmayan SSRİ vətəndaşlarının azad milli inkişafı haqqında» qanun qəbul etmişdi. 1990-cı il iyunun 12-də isə RSFSR Ali Soveti «RSFSR-nin dövlət suverenliyi haqqında» bəyannamə qəbul etdi. Bu bəyannamədə SSRİ-nin müstəmləkə vəziyyətində yaşayan xalqlarının suverenlik və müstəqillik hüquqlarının tanınması, bərpa edilməsi məsələsi geniş qeyd edilirdi. Bəyannamənin preambula və 4-cü, 5-ci hissələrində muxtar respublikalara öz suverenliklərini elan etmələrindən tutmuş, müstəqil quruluşlarını yaratmağa qədər geniş hüquqlar verildi. Bu hal SSRİ dövründə RSFSR - ə zorla birləşdirilən respublikalara da şamil edildi. Formal da olsa xalqlar müstəmləkə statuslarını dəyişdirmək şansları qazandılar, milli dövlət qurumlarını yaratmaq üçün hüquqi baza yaradıldı. RSFSR Ali Soveti suverenlik istəyi ilə çıxış edən hər bir respublikanın suverenliyini tanımağa başladı və milli regionlardakı kommunist liderləri verilmiş hüquqlardan kənara çıxmamaq şərtilə, yəni RSFSR tərkibində qalmaqla suverenlik aktlarını qəbul etdilər.

Beləliklə, Çeçen-İnquş MSSR Ali Soveti RSFSR-in qəbul etdiyi (1990, iyun) Bəyannaməyə ciddi surətdə əməl edərək 1990-cı il noyabrın 27-də Çİ MSSR-ın statusunu dəyişərək, onu İttifaq statuslu Çeçen-İnquş respublikası elan edib və "Çeçen-İnquş respublikasının Dövlət suverenliyi haqqında" Akt bəyan edilib. Bu qərar RSFSR Ali Soveti tərəfindən qəbul edilib. Bu aktın qəbul olunmasından iki



gün əvvəl, 1990-cı il noyabrın 25-də Çeçen Xalqının Ümummilli Konqresinin qurultayında bütün Çeçen-İnquş respublikasında min nəfərdən çox nümayəndənin, İttifaqdaxili və xarici diasporun iştirakı ilə Çeçen Respublikasının müstəqil inkişaf yolu bəyan edilib. Müxalifət tam müstəqillik yolunu tutub və üç rəqiblə - SSRİ, RSFSR rəhbərliyi və yerli kommunistlərlə mübarizəyə başlayıb. Çeçenlərdən fərqli olaraq inquşlar Rusiya Federasiyası tərkibində qalmağa üstünlük verdilər. 1991-ci ilin sentyabrında İnquş xalqının III qurultayı inquş torpaqlarının Rusiya Federativ respublikası tərkibində qalmasını qərarlaşdırdı.

Beləliklə 1991-ci il oktayabrın 27-də 26 xarici müşahidəçinin iştirakı ilə Çeçenistan respublikasında icra və qanunverici hakimiyyət orqanlarına seçkilər keçirildi. Çeçen xalqı öz Prezidentini 90,1 faiz və Parlamentini 72 faiz səslə seçdi. Çeçenistanın ilk prezidenti Cöhər Dudayev oldu. E. Pain və A. Popov öz birgə araşdırmalarında yazırlar:- «RSFSR Xalq deputatları Qurultayının bu seçkiləri tanımaması qərarı gecikmiş görünürdü, Çeçenistanda iş görülmüşdü. Onun tarixində birinci dəfə olaraq Ümumxalq seçkili prezident meydana gəlmişdi» [121, s. 23]. RSFSR Xalq deputatları Qurultayının bu seçkiləri tanımaması qərarı kecikmiş görünürdü və artıq Çeçenistanda iş görülmüşdü. Onun tarixində birinci dəfə olaraq ümumxalq seçkili prezident meydana gəlmişdi.

## İçkeriya Çeçen Respublikası
## Нохчийн Республика Ичкерия
## Noxçiyn Respublika Içkeriya





| 1991-ci ildə yaradılmış İÇR-in bayrağı | 1991-ci ildə yaradılmış İÇR-in gerbi |
|---|---|




Milli deviz: *«Azadlıq yaxud ölüm!*

*(l Marşo ya jożalla)»*

**Milli himn:** [illegible]

| | |
|---|---|
| Müstəqillik tarixi: | 1 noyabr 1991-ci il (Rusiya tərəfdən tanınmayıb) |
| Rəsmi dil: | Çeçen dili |
| Paytaxt: | Cövhər (Qroznı) |



| | |
|---|---|
| Böyük şəhərləri: | Qroznı, Qudermes, Arqun, Urus Martan, Şali |
| İdarəçilik forması: | Dünyəvi respublika |
| Ərazisi: | 19 300 km² |
| Sərhədləri | İnquş, Şimali Osetiya, Dağıstan və Gürcüstan respublikaları və Stavropol diyarı |
| Əhalisini sayı:<br>• (2009)<br>• Sıxlıq (2005) | 1 238,4 nəfər<br>76 nəfər/km² |
| Milli valyuta: | Rubl (Naxar) |

2002-ci il Ümumrusiya siyahıyaalınmasına görə Çeçenistanda 96 etnos yaşayır

| Xalq | 2002-ci ilə görə sayı |
|---|---|
| Çeçenlər | 1031,6 (93, 5%) |
| Ruslar | 40,6 (3,7 %) |
| Kumıklar | 8,9 (0,8 %) |
| Avarlar | 4,1 |
| Noqaylar | 3,6 |
| İnquşlar | 2,9 |
| Tatarlar | 2,1 |
| Türklər | 1,7 |
| Sayı 1000 nəfərdən çox olan xalqlar göstərilib | |

Çeçenistanda 130 teyp var. Teyp bir neçə nəsl icmasından ibarət, yaxud konkret şəxs tərəfindən formalaşdırılan və ya hər hansı bir məşğuliyyətin adı ilə adlandırılmış nəsl-qəbilə birliyidir.

1991-ci ilin noyabr ayında Çeçenistan Respublikası ərazisinə atılan Rusiya desant qüvvələri darmadağın edildi və bu, Rusiyanın Çeçenistandakı siyasi məğlubiyyətinin davamı oldu. Demək olar bütün 1992-ci ili Moskva çalışdı ki, Çeçenistandan danışmasın, elə bil o heç mövcud deyildi. Bu siyasət Çinin Tayvana olan münasibətini xatırladırdı, yəni siz özünüzü müstəqil dövlət hesab edirsiniz lakin, biz isə sizi tanımırıq və başqalarına da imkan vermərik, ancaq toxunmayacağıq. Rusiyanın bu «susmaq siyasəti» əslində Çeçenistanın müstəqil dövlət olmasını daha da reallaşdırdı. Müstəqilliyi qətiləşdirən hüquqi baza da yaradıldı. 1992-ci il martın 12-də Çeçenistan Respublikası öz Konstitusiyasını qəbul etdi. Bu o vaxt edilmişdi ki, Rusiya Federasiyası hələ öz Konstitusiyasını qəbul etməmişdi. 1992-ci il martın 31-də Moskvada Rusiya xalqlarının və Federasiyaya daxil olan respublikaların yeni statusunu müəyyənləşdirən Federasiya müqaviləsi imzalandı. Bu müqaviləyə əsasən RSFSR ləğv edildi, onun yerində - Rusiya Federasiyası yaradıldı. RSFSR prezidenti vakant qalmış Rusiya Federasiyası prezidenti postunu tutdu. Rusiyalı tədqiqatçı Aleksandr Krasnov yazır:- «Qorbaçovu devirərək əsas məqsədinə çatan Yeltsin komandası indi «suverenlik məsələsini unutdu» və tədricən «bölünməz aspektə» istiqamətləndi» [95, s.13]. Çeçenistan Respublikası Federasiya müqaviləsini imzalamadı. Tatarıstan və Başqırdıstan da Çeçenistan kimi eyni hərəkətlər edərək bu müqaviləyə imza atmadılar. Lakin Tatarıstanla Başqırdıstanın inadı çox çəkmədi və 1992-1993-cü illərdə onlar da Federasiya müqaviləsini imzaladılar.

Faktiki müstəqil olan Çeçenistan respublikası Federasiya müqaviləsini imzalamamaqla öz müstəqilliyini bir daha təsdiq etdi. Bir faktı qeyd edək ki, Çeçenistan Respublikası digər postsovet ölkələri ilə müqayisədə Rusiya qoşunlarını öz ərazisindən daha tez çıxardı. 1992-ci il mayın 26-da Çeçenistan Respublikası Rusiya hökuməti ilə Rusiya qoşunlarının ÇR ərazisindən çıxarılması və silahın bölünməsi haqqında müqavilə imzaladı. 1992-ci il iyulun 7-nə kimi Rusiya silahlı qüvvələri Çeçenistan Respublikasını tərk etdilər. Bu fakt onu deməyə əsas verir ki, əgər Rusiya hökuməti öz qoşunlarını qarşılıqlı müqavilə əsasında ÇR ərazisindən çıxarıbsa, demək bu ölkənin müstəqilliyini müəyyən dərəcədə tanıyıb. Əks təqdirdə Rusiya öz ərazisi hesab etdiyi Çeçenistandan əsgərlərini hökumətlərarası müqavilə əsasında çıxarmazdı.

Çeçenistan Respublikasının müstəqilliyini təsdiq edən başqa bir fakt odur ki, Rusiya Çeçenistanla sərhədləri qorumaq məqsədilə sərhəd postları yaratdı. Müstəqil Çeçenistan Respublikasını Dağıstandan ayıran, Rusiya-Çeçenistan sərhəddində yerləşən 10 post Rusiya Daxili Qoşunlarının Dzerjinski adına Moskva xüsusi təyinatlı motoatıcı diviziyasının əsgərləri tərəfindən təşkil edildi.

1992-ci ilin oktyabrından qızışmağa başlayan osetin-inquş münaqişəsi Rusiya-Çeçenistan münasibətlərini kritik həddə çatdırdı. 1992-ci il noyabrın 10-da İnquşetiya ərazisinə daxil olan Rusiya qoşunları Çeçenistan respublikasının sərhədlərinə yaxınlaşdılar. Rusiya qüvvələri ilə Çeçen qüvvələrinin qarşı-qarşıya dayanması genişmiqyaslı müharibə təhlükəsi yaratdı. 1992-ci il noyabrın 10-da ÇR prezidenti C.Dudayev Çeçenistan ruspublikası ərazisində fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. C.Dudayev səfərbərlik haqqında da əmr verdi və 15 yaşından 55 yaşına qədər bütün kişi əhalisi səfərbərliyə alınmağa başladı. "Münaqişə zonasına təcili olaraq RF-ın o vaxtki baş naziri Yeqor Qaydar gəlib. O, ÇR baş nazirinin müavini Y.Mamadayevlə görüşərək onunla qouşunların bir-birindən ayrılması razılığına gəlib." (Е.Паин, А.Попов. "Чеченская политика России с 1991 по 1994 гг." - Мировая экономика и месдународные отношения. - 1995, №5, с. 27.)

Qroznıda, Nazranda və Vladiqafqazda Çeçenistan, Rusiya və İnquş respublikası nümayəndələrinin iştirakı ilə məsləhətləşmələr keçirilib.

Münaqişə dövründə Çeçenistan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi, eyni zamanda siyasi əlaqələr tamamilə kəsilməmişdi. Hökumət, parlament üzvləri və ayrı-ayrı siyasətçilər arasında münasibətlər və qarşılıqlı əlaqələrin olduğunu inkar etmək olmaz. 1992-ci ilin noyabrından 1994-cü ilin yayına qədər olan dövr çeçen böhranı tarixinə hətta «diplomatik cəhdlər epoxası» kimi də daxil ola bilər.

1993-cü ilin yanvarında ÇR Parlamentinin dəvətilə Rusiya nümayəndə heyəti Qroznıda olub. Nümayəndə heyətinə Millətlər palatasının sədri R.Əbdülətipov və baş nazirin müavini S.Şaxray rəhbərlik ediblər. O vaxt hətta RF-la ÇR arasında səlahiyyətlərin bölgüsü haqqında müqavilənin hazırlanması üçün protokol da imzalanıb. Lakin sonradan bütün bunlara görə prezident C.Dudayev Y.Mamadayevi, parlament rəhbərlərini günahlandırıb. Bununla da Rusiya ilə Çeçenistan arasında münasibətlərin qurulmasına, daha doğrusu Rusiya siysətçilərinin Çeçenistanı ələ keçirmək üçün apardıqları "bic siyasətə" nöqtə qoyulub.

Münaqişənin gərgin olduğu vaxtlarda da, 1993-cü ildə Rusiya Federasiyası Çeçenistana Federal büdcədən 10,5 mld. rubl vəsait ayırmışdı.

1993-cü ili Rusiya-Çeçenistan münasibətlərini, Rusiyadakı hakimiyyət qalmaqalı səbəbindən sakit dövr adlandırmaq olar. Əlaqələrin dondurulmasının bir səbəbi də Rusiya prezidentinin Çeçenistan prezidenti ilə görüşdən yayınması olub. Moskvada Çeçen prezidenti ilə birbaşa danışıqlardan qaçmağa cəhd ediblər. Dudayevin rəsmi danışıqlar aparmağa razılıq verdiyi yeganə federal rəhbər Rusiya prezidenti idi.

1993-cü il dekabrın 12-də Rusiya Federasiyasının Konstitusiyası təsdiq edildi. Bu konstitusiyada göstərilirdi ki, Çeçenistan Respublikası Rusiya Federasiyasının subyektidir (65-ci maddə). RF Konstitusiyasında Çeçenistan Respubulikasının Rusiya Federasiyasının subyekti olduğunun qeyd edilməsi Çeçenistan Respublikası vətəndaşları arasında heç bir rəy sorğusu, referendum keçirilmədən edildi. Digər tərəfdən, Çeçenistan Respublikası 1992-ci ildə RF Konstitusiyasının təsdiq edilməsi üçün keçirilən ümumrusiya referendumunda iştirak etməmişdi. Çeçenistan Respublikası 1993-cü il 12 dekabr RF Dövlət Dumasına seçkilərdə də iştirak etmədi və Rusiyanın Ali hakimiyyət orqanlarına öz nümayəndələrini göndərmədi. Beləliklə, Çeçenistan Respublikası 1991-ci ildən 1994-cü ilin sonuna, I Rusiya-Çeçenistan müharibəsinə qədər tamamilə müstəqil olaraq yaşadı və bu respublikanın Rusiya ilə heç bir hüquqi və siyasi bağlılığı olmadı. Çeçenistan Rusiya ilə ancaq bərabərhüquqlu səviyyədə əməkdaşlıq etməyə hazır olduğunu bildirirdi və siyasətini də bu istiqamətdə qururdu.

Əlbəttə Rusiya ilə əlaqələri kəsilən və demək olar ki, təcrid vəziyyətində qalan Çeçenistan regionda özünə tərəfdaşlar toplamağa, Şimali Qafqaz və Cənubi Qafqaz respublikaları ilə daha yaxın əlaqələr qurmağa çalışırdı. Blokada vəziyyətindən çıxmaq, respublikanın iqtisadi ehtiyaclarını ödəmək üçün Cənubi Qafqaz ölkələri - Azərbaycan, Gürcüstanla əlaqələrin qurulmasının Çeçenistan üçün böyük əhəmiyyəti ola bilərdi. Beləliklə, Çeçenistan Qafqazda ilk diplomatik əlaqələrini Gürcstanla qurdu. «Gürcüstan prezidenti olarkən Zviad Qamsaxurdiya özünün 1992-ci il 13 mart tarixli fərmanı ilə Çeçenistanın dövlət müstəqilliyini tanıdığını bəyan etmişdi» [56, s. 216]. Qeyd edək ki, Z. Qamsaxurdiya ilə C. Dudayev arasında şəxsi münasibətlər də var idi və bu şəxsi münasibətlər Gürcüstan-Çeçenistan arasında ölkələrarası əlaqələrin inkişafına kifayət qədər təsir etdi.

1992-ci ildə Çeçenistan Azərbaycanda da öz nümayəndəliyini yaratdı və əlaqələrin hərtərəfli səviyyədə inkişaf etdirilməsi xəttini tutdu. Azərbaycanla Çeçenistan arasında münasibətlər bir sıra ictimai təşkilatlar çərçivəsində inkişaf etdi. Qafqaz evinin yaradılması strateji xətti üzrə Azərbaycanla Çeçenistan yekdil fikrə gəldilər və hər iki tərəfin

rəsmi səviyyədə razılığı ilə Qafqaz evi yaradıldı. Bu təşkilat daxilində fəaliyyətdə rəsmi dövlət nümayəndələri də iştirak edirdilər. İctimaiyyətin qabaqcıl nümayəndələri, nüfuzlu şəxslər, din xadimləri arasında geniş əlaqələr mövcud idi.

Rusiya ilə Çeçenistan arasında münasibətlərin aydın olmadığı və münaqişə vəziyyətinin mövcudluğu şəraitində Çeçenistanla siyasi əlaqələrin qurulması Azərbaycanın dövlət maraqlarına uyğun gələ bilməzdi, bu hal Rusiya ilə onsuz da yaxşı olmayan münasibətləri daha da kəskinləşdirə bilərdi. Bu cür vəziyyətdə düzgün seçim xalqlar arasında əlaqəlrin qeyri-rəsmi yollarla, məsələn, ictimai təşkilatlar vasitəsilə inkişaf etdirilməsi idi. Burada «Qafqaz evi» təşkilatını və onun qarşılıqlı əlaqələrdəki rolunu qeyd etmək lazımdır.

## 1.5. Qafqaz evi və Qafqaz xalqlarının digər ictimai - siyasi təşkilatları

Qafqaz respublikaları öz istiqlaliyyətlərini elan etdikləri 90-cı illərin əvvəllərindən etibarən "Qafqaz evi" ideyası yenidən aktuallaşdı. Qafqazda ortaya çıxan milli-etnik zəmində problemləri yalnız birlikdə həll etmək, birləşmə yolu ilə aradan qaldırmaq ehtiyacı da yarandı.

1992-ci ildə artıq İçkeriya Çeçen Respublikasının prezidenti C.Dudayevlə Qafqaz Dağlı Xalqları Assambleyasının (Konfederasiya) rəhbərliyi arasında ciddi fikir ayrılığı ortaya çıxmışdı. Bunun başlıca səbəblərindən biri çeçen liderinin keçmiş Gürcüstan Prezidenti Z.Qamsaxurdiya ilə dostluq etməsi və Z.Qamsaxurdiyanın əksər Şimali Qafqaz xalqlarının ümumi düşməninə çevrilməsi idi. Konfederasiya liderləri C.Dudayevi Çeçenistanda olan Gürcüstan eks-prezidentinin təsiri ilə tədricən Şimali Qafqaz xalqları konfederasiyası ideyasından imtina etməkdə və ümumqafqaz birliyinə meyl etməkdə günahlandırdılar. Həqiqətən də 1992-ci ilin ortalarından etibarən C.Dudayev Qafqaz birliyi ideyasına meyl etməyə başladı və bu da səbəbsiz deyildi. C.Dudayev Çeçenistanın Rusiyaya qarşı mübarizəsinin çətinliyini və məsələnin hərbi-iqtisadi tərəfinin problemə çevriləcəyini dərk edirdi. Yaranmış belə bir situasiyada isə Azərbaycan və Gürcüstanın dəstəyi ilə Çeçenistan nəinki Türkiyəyə, habelə, bütün müsəlman dünyasına çıxış imkanı əldə edə bilər, Qafqaz ölkələrinin birliyi Rusiyanın təzyiqinə davam gətirər, milli-etnik aspektdə baş verən ixtilafların qarşısı alına bilərdi.

"Qafqaz evi" ideyasının gerçəkləşməsi Azərbaycan, Gürcüstan və Çeçen diplomatiyasının tarixi xidməti, Qafqazın bütövlüyü uğrunda gedən gərgin mübarizənin qanunauyğun nəticəsi idi.

Beləliklə, artıq 1992-ci ildən etibarən «Qafqaz evi» ideyası aktiv şəkildə reallaşdırılmağa başlandı. 1992-ci il sentyabrın 4-5-də C.Dudayevin təşəbbüsü ilə Qroznıda "Qafqaz evi" qurumu iştirakçılarının "Dəyirmi masa" görüşü keçirildi. Azərbaycan nümayəndə heyətinin də iştirak etdiyi tədbirdə "Qafqaz xalqları və dövlətlərinə, ictimai, dini təşkilat və birliklərinə, siyasi partiya və hərəkatlarına" müraciət qəbul edildi.

Müraciət bütün Qafqaz xalqlarını "Qafqaz evinin" yaradılması uğrunda mübarizəyə səfərbər olunmağa çağırır və bu yönümdə qarşıya konkret vəzifələr qoyurdu. "Dəyirmi masanın" əsas nailiyyətlərindən biri "Qafqaz evi" ideyasını təşkilatlandırmaq üçün işçi qrupun yaradılmasını nəzərdə tutan Bəyannamənin qəbulu oldu. Bəyannaməyə əsasən yaradılacaq işçi qrup iştirakçı dövlətlərin nümayəndələrindən təşkil olunmalı və həmin qrup "Qafqaz evi" təşkilatının yaradılması üçün lazım olan bütün sənədləri hazırlamalı idi. Bəyannaməyə görə, "Qafqaz evi" çərçivəsində iki orqanın - Qafqaz Xalqları Ali Dini Şurası və Qafqaz Vahid İnformasiya Mərkəzinin yaradılması nəzərdə tutulurdu.

"Dəyirmi masa" görüşündə Azərbaycanı təmsil edən Şeyxülislam Hacı Allahşükür Paşazadə Ali Dini Şuranın sədri, Hacı Məhəmməd Alsabekov isə sədrin müavini seçildilər.

Qəbul olunan kommunikedə hər bir Qafqaz xalqının təhlükəsizliyinin qarantı olacaq və müstəqil inkişafa imkan verəcək «Qafqaz evi» nin yaradılmasına çağırış səsləndi. Burada deyilir: - «Qafqaz evi» dəyirmi masasının iştirakçıları «Qafqaz xalqlarının problemlərini müzakirə edərək, onların sülhə, həmrəyliyə və müstəqilliyə hamılıqla can atdıqlarını nəzərə alaraq, siyasi və iqtisadi inteqrasiya üçün əlverişli şərait yaratmaq yolunda Qafqaz xalqları və dövlətlərinin birləşdirilməsinin vacibliyini dərk edərək, demokratiya prinsiplərinə və beynəlxalq hüquqa əsaslanaraq:

1. «Qafqaz evi» dəyirmi masasının çağırılmasını Qafqaz xalqlarını birləşdirmək yolunda vaxtında atılmış mühüm addım hesab etdiklərini;

2. Qafqaz xalqları və dövlətləri Konfederasiyasının yaradılmasını zəruri saydıqlarını;

3. Beynəlxalq hüquq prinsiplərinə, xalqların öz müqəddəratını təyin etmə hüquqlarına, bir-birinin daxili işlərinə qarışmamaq, insanın əsas hüquq və azadlıqlarına riayət prinsiplərinə sadiq olduqlarını;

4. Öz azadlığı və müstəqilliyi uğrunda mübarizə aparan Qafqaz xalqlarını müdafiə etdiklərini;

5. Bütün mübahisəli məsələləri ədalət və humanizm prinsiplərinə əsaslanaraq yalnız dinc vasitələrlə həll etməyə çalışacaqlarını bildirərək;

6. Qafqazın kollektiv təhlükəsizliyi vahid sisteminin yaradılmasını;

7. Qeyri-Qafqaz dövlətlərinin bütün silahlı qüvvələrinin Qafqaz ərazisindən tezliklə çıxarılmasını zəruri hesab edərək;

8. «Qafqaz evi» çərçivəsində Qafqaz Ali Dini Şurasını;

9. Məsləhət Şurasını, onun daimi fəaliyyət göstərən



bürosunu və Qafqazın vahid informasiya mərkəzini yaratdıqlarını bəyan edirlər» [56, s. 223-224].

«Dəyirmi Masa» iştirakçılarının qəbul etdikləri bəyannamənin bir bəndində göstərilir ki, Qafqaz dövlətlərinin də Konfederasiyasının yaradılması vacibdir. Böyük siyasi əhəmiyyəti olmasına baxmayaraq həmin bəndin Bəyannamədə əks olunması hadisələrin sonrakı inkişafına mənfi təsir göstərdi.

"Dəyirmi masa" görüşündən sonra, 1992-ci il sentyabrın 27-də "Qafqaz evi" Beynəlxalq Forum kimi qeydə alındı və İçkeriya Çeçen Respublikasının prezidenti Prezidenti C.Dudayev Forumun sədri təsdiq olundu.

Forumun Nizamnamə və Proqramı hazırlandı ki, burada Qafqaz xalqlarının birləşməsi yolları, mexanizmi, Proqramın reallaşmasının qanuni əsasları, regionda yeridiləcək ümumi siyasi konsepsiya, habelə, "Qafqaz evi" qurumunun strukturu öz əksini tapmışdı. Nizamnaməyə görə "Qafqaz evi" aşağıdakı orqanlardan təşkil olunmalı idi:

-"Məsləhət Şurası (qurumun iştirakçısı olan dövlətlərin nümayəndələrindən təşkil olunurdu);

-"Ali Dini Şura (iştirakçı ölkələrin dini rəhbərlərini birləşdirirdi);

-"Təhlükəsizlik Şurası (dövlət başçıları, xarici işlər nazirləri səviyyəsində yaradılması nəzərdə tutulan bu orqana rəhbərliyi C.Dudayev öz üzərinə götürmüşdü);

-"Qafqaz ictimai-siyasi quvvələr İttifaqı (dövlətlərarası – millətlərarası - münasibətlərin hüquqi əsaslarını işləyib hazırlamalı və Qafqaz siyasətinin həyata keçirilməsinə nəzarət etməli idi);

-" Qafqaz evi İcra bürosu (qəbul ediimiş qərarların icrası ilə məşğul olmalı və ictimai-siyasi quvvələr ittifaqına nəzarət etməli idi).

C.Dudayev 1993-cü ilin martında və 1994-cü ilin fevralında Forumun Məsləhət Şurasının iki müşavirəsini

keçirməyə nail olsa da, rus-çeçen müharibəsinin başlanması Qafqaz respublikalarının yeni görüşünün keçirilməsi planını reallaşdırmağa imkan vermədi. Lakin Çeçenistanda başlanmış iş Azərbaycanda və Gürcüstanda davam etdirildi. Belə ki, 1993-cü il yanvarın 21-23-də Bakıda "Qadınlar "Qafqaz evi"ndə sülh uğrunda" Beynəlxalq qadınlar konfransı keçirildi. Konfransda Ermənistan istisna olmaqla bütün Qafqaz ölkələri təmsil olundular. Beynəlxalq konfrans qadınların Qafqaz xalqlarına "Müraciəti" ilə başa çatdı. Burada da Qafqazı bürümüş milli- etnik münaqişələrin aradan qaldırılması üçün başlıca yol kimi "ümumqafqaz evi"nin yaradılması ideyası təcəssüm olunmuşdu.

Beləliklə «Qafqaz evi» bir təşkilat olaraq Çeçenistan respublikasında ictimai birlik kimi yaradıldı və bu qurum demək olar ki, Qafqazın ictimai-siyasi inteqrasiya tələbatlarını ödəmək üçün təşkil edildi. 1992-ci ildə yaranan «Qafqaz evi» təşkilatı əslində yeni bir birlik olmayıb XX əsrin əvvəllərində mövcud olmuş «Azad Qafqaz» hərəkatının varisi hesab edilir. «Azad Qafqaz» ideyası XIX əsr Qafqaz müharibələri gedişində ortaya çıxıb və dağlı xalqlarının Rusiya imperiyasına qarşı birləşməsini özünün əsas məqsədi kimi nəzərdə tuturdu.

Həqiqətəndə «Qafqaz evi» kimi yeni bir təşkilatın yaradılmasına böyük ehtiyac var idi. Ona görə ki, Qafqazda mövcud olan regional təşkilatlar məsələn, Qafqaz Dağlı Xalqları Assambleyası, Türk Xalqları Assambleyası Qafqaz xalqlarını və ölkələrini bir mərkəzdə birləşdirmək üçün zəif idilər. Onlar bütün regionu əhatə edən məsələlərlə məşğul ola bilmir, daha lokal səviyyədə çıxış edirdilər.

«Qafqaz evi» geniş anlamda həm bütün Qafqaz xalqlarının, həm də respublikalarının vahid mərkəzi, birliyi kimi yaradıldı. Azərbaycan da «Qafqaz evi» ndə iştirak etdi və bu qurumda nüfuzlu yerlərdən birini tutdu.

«Qafqaz evi» nin əsas şərtlərindən biri olan Qafqaz dövlətləri konfederasiyasının yaradılması məsələsində fikir ayrılığı oldu. Çeçenistan rəhbəri C.Dudayev 1992-ci ildə keçirilən Qafqaz forumunda Qafqaz dövlətləri konfederasiyasının yaradılmalı olduğunu bildirdi, lakin Gürcüstan tərəfi bununla razılaşmadı. Tədbirdə iştirak etmiş Zviad Qamsaxurdiyanın dediklərinə diqqət yetirək:- «Qafqaz dövlətləri konfederasiyası yox, Qafqaz xalqları birliyi yaradılsın. Çünki xalqların çoxu öz dövlətlərini hələ qura bilməyiblər» [51, 8 sentyabr, 1992].

Azərbaycan nümayəndə heyəti də Qafqaz dövlətlərinin deyil, xalqlarının birliyi ideyasına üstünlük verdi və bununla da Qafqaz dövləti ideyasını məqbul hesab etmədi. Azərbaycan nümayəndə heyətinin üzvü, dövlət müşaviri Arif Hacıyev forumda çıxışında bildirdi ki, «Qafqaz evi» Qafqaz dövlətlərinin yox, Qafqaz xalqlarının birliyi şəklində öz təcəssümünü tapsın. Azərbaycan dövləti bu ideyanı həyata keçirmək üçün əlindən gələni əsirgəməyəcək [51, 8 sentyabr, 1992]. Azərbaycan hakimiyyətinin Qafqaz dövləti ideyasının həyata keçirilməsinin tərəfdarı olmadığı A.Hacıyevin forumdan bir neçə gün sonra verdiyi müsahibədə bir daha təsdiqlənir:- «Təklif olunur ki, vahid Qafqaz dövləti yaradılsın, onun vahid parlamenti, vahid qanunverici və icraedici orqanları fəaliyyət göstərsin. Bu necə baş tuta bilər ki, Qafqazda və Şimali Qafqazda elə xalqlar var ki, hələ tam suveren deyillər. Dövləti olmayan bir xalq imzalanacaq sənədə necə qol qoya bilər? Həmin ideyanı necə həyata keçirə bilər?» [51, 8 sentyabr, 1992].

Qeyd edək ki, Qafqaz dövlətləri birliyinin yaradılması ideyası hələ Qafqaz evi forumunun keçirilməsindən əvvəl, 1991-ci ildə Çeçenistanda irəli sürülmüşdü. «1991-ci il dekabrın 12-də Qafqaz dövlətləri birliyinin yaradılmasına çağırış olub. Bu məqsədə çatmaq üçün mövcud olan və öz müstəqilliyini bəyan edən Qafqaz dövlətlərinin, siyasi partiyaların, ictimai birliklərin, Ağsaqqallar Şuralarının, Qafqaz xalqlarının müstəqilliyinə çalışan hərəkatların, xeyriyyə fondlarının və hətta Qırmızı Xaç və Qızıl Aypara cəmiyyətlərinin əməkdaşlığı nəzərdə tutulub» [88, s. 100].

Lakin Qafqaz Dövlətləri Birliyi ideyası real şəraitə uyğun gəlmirdi və Qafqaz respublikaları belə bir siyasi qurumun yaradılması üçün hazır deyildilər. Ona görə ki, Qafqazda aparıcı dövlətlər olan Cənubi Qafqaz respublikalarının ərazilərində böyük münaqişələr mövcuddur. Etnik, siyasi statusla bağlı konfliktlərin nəticəsində Qafqaz xalqları arasında qarşıdurma yaranıb. Qafqaz birliyi ideyasına bir zərbə kimi Ermənistanın rolunu xüsusi qeyd etmək lazımdır. Ermənistan Qafqazda təcavüzkar dövlət olmaqla yanaşı Qafqaz xalqlarının birliyini ənənəvi olaraq pozmağa çalışır. Hər zaman Rusiyaya sığınan Ermənistan XX əsrin əvvəllərində olduğu kimi əsrin sonunda da ümumqafqaz məsələsində öz pozuculuq missiyasını yerinə yetirdi. Digər tərəfdən Çeçenistanla Rusiya arasında status məsələsi həll edilməmiş qalırdı və bu respublika ilə hər hansı bir siyasi inteqrasiya və yaxud siyasi müqavilə Rusiya ilə açıq rəqabətə girməyə bərabər idi. Ümumilikdə Qafqazın özündə böyük bir parçalanma mövcuddur. Məsələn bəzi Şimali Qafqaz ölkələri Rusiya tərkibində olduqları üçün Rusiyanın dövlət maraqlarından çıxış etməyə məcburdurlar.

"Qafqaz evi" qurumunun fəaliyyətinin təcəssüm olunduğu əsas orqanlardan biri də Ali Dini Şuradır. Qafqazda milli-etnik zəmində baş verən münaqişələrin dini məzmuna malik olmamasına baxmayaraq Dini Şura ümumqafqaz əməkdaşlığının genişlənməsində mühüm rol oynayıb. Məhz onun fəaliyyəti nəticəsində 1992-ci il oktyabrın 17-də Qroznıda, noyabrın 24-25-də isə Bakıda din xadimlərinin konfransları keçirildi. Din xadimlərinin Bakı konfrası ümumi Qafqaz əməkdaşlığı tarixində mühüm yer tutur. Konfransın işində Ermənistan nümayəndələri, Stavropol və Bakı metropoliti Kedeon, Avropa yəhudiləri Bakı sinaqoqunun ravvini Reb Alkon Fridman və başqaları iştirak edirdilər. Konfrans Qafqaz xalqları Ali Dini Şurası Haqqında əsasnaməni qəbul etdi və Şuranın strukturunu müəyyənləşdirərək təstiq etdi. Konfrans habelə Qafqaz din xadimlərinin qurultayının



çağırılmasını hazırlamaq üçün təşkilat komitəsi yaratdı və onun səlahiyyətlərini müəyyənləşdirdi.

1992-ci ildə «Qafqaz evi» Ali Dini Şurasının konfransının yekununda regionun xalqlarına və hökumətlərinə müraciət qəbul edildi. Müraciətdə Qafqazda millətlərarası münasibətlərin kəskinləşməsi və bundan yaranan narahatlıq qeyd olunur. Burada göstərilir ki, «vəziyyət ağırdır, Qafqaz od içindədir, o, uzaq keçmişə – sonubilinməz konfliktlər, düşmənçilik, qan intiqamı əsrinə atılıb. Millətlərarası münasibətlərin qızışması bizim millətlərə dərd və zülm gətirir» [68, 27 noəbrğ, 1992]. Qafqazda münaqişələrin aradan qaldırılması, bunun üçün Qafqaz xalqlarının səylərinin birləşdirilməsi, Qafqazda münaqişələrin hərbi yolla həllindən çəkinmək kimi məsələlər müraciətdə öz əksini tapdı. Burada deyilir:- «Biz Qafqazın bütün xalqlarına və hökumətlərinə müraciət edirik, sərhədlərin dəyişdirilməsinə, hər hansı bir münaqişənin, mübahisəli məsələnin həllində silah işlədilməsinə ümumqafqaz maratoriumunun qoyulmasına çağırırıq. Qafqaz xalqları keçmiş düşmənçilikləri unudub öz səylərini birləşdirməlidirlər. Səmimi qardaş səylərimizi birləşdirərək Qafqaz evini yarada bilərik və burada hər bir subyekt milliyyətindən, dinindən asılı olmayaraq özünü böyük Qafqaz ailəsinin bir üzvü kimi hiss edə bilər» [68, 27 noəbrğ, 1992].

Qafqaz din xadimləri Qafqaz xalqlarının Ali İslam Şurasının yaradılmasını təklif etsələr də yekunda Qafqaz evində dini qurumun Qafqaz xalqlarının Ali Dini Şurası adı altında yaradılması variantı qəbul edildi. Bu, Qafqazın bütün din xadimlərinin, dini qüvvələrinin birləşdirilməsi, dini ayrıseçkiliyə yol verilməməsi məqsədilə edildi. «Qafqaz evi» ndə müsəlman birliyi yox, dinlərin birliyi əsas məqsəd kimi nəzərdə tutuldu. Əlbəttə ki, İslam dini amilindən istifadə etmədən Qafqaz xalqlarının inteqrasiyasına nail olmaq çətin olardı. Ona görə ki, Qafqazda əksər xalqlar islam dininə sitayiş edirlər və burada müsəlmanların

birliyinin dərin kökləri var. Hələ XIX əsr Qafqaz müharibələri vaxtı Çar Rusiyasına qarşı vuruşan dağlıları İslam dini birləşdirirdi. O dövrdə Ruslara qarşı Qazavat elan edildi və müharibə müqəddəs müharibə (Cihad) adlandı. «Qafqaz xalqlarının vəhdətini təmin edən amillərdən biri ənənələrin ümumiliyi, mənəvi keyfiyyətlərin oxşarlığıdır. Bu cür birliyə nail olunmasında din amilini də inkar etmək olmaz. Qafqaz bütün dünyəvi dinlərin-islamın, xristianlığın, iuduazmin və buddizmin təmsil olunduğu bölgədir. Qafqaz xalqlarını birləşdirəcək ideoloji özül kimi islam dininin dirçəlişinə xüsusi əhəmiyyət verilir» [60, s. 389]. Digər dinlər «Qafqaz evi» ndə əməkdaşlığa cəlb olundular. Bunu Qafqaz evinin təşkil etdiyi konfranslarda bütün dinlərin nümayəndələrinin, dini liderlərinin təmsil olunması faktı təsdiq edir.

Qafqaz evi məsələsində dini aspektləri nəzərdən keçirdikdə İÇR prezidenti C.Dudayevin bu barədə dediyi fikirlərə nəzər yetirmək maraqlı olar:- «...Şimali Qafqazın nüfuzlu adamlarının fikirləri ilə də maraqlanmışam. Məsələ ondadır ki, Qafqaz evinin qurulması üçün ən müxtəlif konsepsiyalar irəli sürülür. Bəziləri bu ideyanı Qafqaz xalqlarının islami birliyi ilə əlaqələndirir. Mən də o fikirdəyəm ki, bəli, din xalqlarımızın mədəni və siyasi həyatında böyük rol oynayır. Ələlxüsus da Şimali Qafqazda. Şimali Qafqaz xalqları üçün islam çar Rusiyasının imperialist siyasəti ilə mübarizədə həmişə dayaq nöqtəsi olub. Dini birlik və yekdillik hissi dünyəvi həyatda bir-birindən ayrı düşmüş xalqları heç vaxt tərk etməyib. Lakin bu konsepsiyanın tərəfdarları bir məsələni unudurlar. Qafqazda müsəlmanlarla yanaşı digər dinlərə mənsub xalqlar da yaşayırlar. Bu, reallıqdır. Ona görə də Qafqaz evini «Din evi» nə çevirə bilmərik. Biz elə etməliyik ki, Qafqaz xalqlarını birləşdirməklə buradakı bütün konfessiyaların iştirakı təmin edilsin və onlar bu işdə mühüm rol oynasın» [56, s. 202].

I Rusiya-Çeçenistan müharibəsi başlananda Qafqaz Xalqları Ali Dini Şurasının sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə beynəlxalq təşkilatlara, Rusiya prezidenti Boris Yeltsinə və RF Dövlət Dumasına müraciət etdi. Rusiya prezidentinə göndərilən məktubda deyilirdi: – «Rusiya Qafqazda silah gücünə deyil, ağlın gücünə hörmət qazana bilər. Və məhz indi, Çeçenistan Respublikası üzərində qara buludların toplaşdığı, tammiqyaslı müharibə təhlükəsinin yarandığı bir vaxtda Rusiya keçmişdə Qafqaz xalqları barəsində yol verilmiş tarixi ədalətsizliyi aradan götürməyə səmimiyyətlə can atdığını nümayiş etdirə bilərdi» [56, s. 209].

Qafqaz evi ideyası sonradan Azərbaycan və Gürcüstan dövlət başçıları Heydər Əliyev və Eduard Şevardnadze tərəfindən inkişaf etdirildi. Bu ideya «Qafqazda sülh uğrunda» ideyası ilə əvəzləndi. 1996-cı ilin martın 8-də Azərbaycan Prezidenti H. Əliyevin Gürcüstana etdiyi rəsmi səfərdə 14 yeni sənəd imzalandı. Bu sənədlərdən biri də «Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında bəyannamə» dir. Bu sənəd “Tbilisi bəyannaməsi” də adlanır. " Tbilisi bəyannaməsi" üç dildə - Azərbaycan, gürcü və rus dillərində tərtib olunmuş, giriş və altı bənddən ibarətdir. Sənədin giriş hissəsində dövlət başçıları regionda davam etməkdə olan münaqişələrdən və illər ərzində formalaşmış siyasi, iqtisadi və mədəni əlaqələrin qırılmasından ciddi narahatçılıq keçirdiklərini bildirir, hamı tərəfindən qəbul olunmuş beynəlxalq hüquq normalarını, Birləşmiş Millətlər Təşkilatı və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının məqsəd və prinsiplərini rəhbər tutaraq Qafqazda möhkəm sülhün və sabitliyin bərqarar olmasına hərtərəfli kömək göstərmək, xalqlar arasındakı dostluq və əməkdaşlıq münasibətlərini genişləndirmək və inkişaf etdirmək, milli ədavəti aradan qaldırmaq üçün aşağıda qeyd edilən məqsədləri reallaşdırmaq naminə birgə fəaliyyət göstərəcəklərini bildiriblər.

Burada göstərilir:

1. Dövlətlərin suverenliyinin beynəlxalq aləmdə tanınmış

sərhədlər daxilində bərpası, onların ərazi bütövlüyünün təmin olunması, qaçqınların təhlükəsizliyi və daimi yaşayış yerlərinə qaytarılmasına təminat verilməsi;

2. İnsanların hüquq və başlıca azadlıqlarına, o cümlədən, milli azlıqlara mənsub insanların hüquqlarına hörmət;

3. Nəqliyyat və digər kommunikasiya əlaqələrinin inkişafı sahəsində əməkdaşlıq və onların təhlükəsizliyi;

4. Qafqazın nadir təbiətinin qorunması, təbii fəlakət və silahlı münaqişələrin nəticələrinin aradan qaldırılması. beynəlxalq turizmin inkişafı sahəsində hərtərəfli əməkdaşlıq;

5. Etnik və konvension dözümlülük, Qafqazın - dünyanın bu zəngin qoruğunun mədəni və dil rəngarəngliyinə hörmət bəsləmək və onu qorumaq;

6. Beynəlxalq layihələrin fəal şəkildə dəstəklənməsi. xarici investisiyaların cəlb olunması.

Bəyannaməyə uyğun olaraq, Qafqaz ümumi evinin insan hüquq və azadlıqlarına, dini və etnik mənsubiyyətindən asılı olmayaraq milli azlıqlara hörmət əsasında yaradılması nəzərdə tutulur. Bəyannamə Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın bərqərar olması haqqında imzalanmış bir sənəddir və digər Qafqaz ölkələri üçün açıq elan olundu. H. Əliyev və E. Şevardnadze «Ümum Qafqaz evi» ideyasının inkişaf etdirilməsi üçün böyük cəhdlər göstərdilər. Tbilisi bəyannaməsini Qafqaz birliyinin yaradılmasında yeni bir istiqamət hesab etmək olar. «Tbilisi deklorasiyasını imzalayaraq iki ölkənin prezidentləri üzərlərinə Qafqazda ümumi və ədalətli sülhün əldə olunması kimi məsuliyyətli missiyanı götürdülər» [84, s. 295].

Qafqaz milli-azadlıq hərəkatı tarixində ilk dəfə idi ki, dövlət başçıları səviyyəsində belə bir mühüm sənəd imzalandı. Təsadüfi deyildir ki, həmin sənəd Rusiya və Ermənistan siyasi dairələrinin ciddi narahatçılığına səbəb oldu. Bəyannamənin açıq saxlanmasına baxmayaraq, Rusiya və Ermənistan həmin sənədə qoşulmadılar.



1996-cı ildə Azərbaycanla Gürcüstan arasında bağlanan müqavilə və 1997-ci ilin fevralında Gürcüstan Prezidenti E.Şevardnadzenin Azərbaycana rəsmi səfəri zamanı imzalanan sənədlər ümum Qafqaz evi ideyasının gerçəkləşməsi üçün mühüm əsaslar yaratdı.

Tbilisi bəyannaməsinin ortaya çıxmasından sonra Rusiya Qafqazda inteqrasiya prosesindən kənarda qalmamaq və təşəbbüsü ələ almaq üçün yeni ideya irəli sürdü. RF Prezidenti B.Yetsin ilk dəfə olaraq Qafqaz respublikaları, Şimali Qafqaz qurumları başçılarının iştirakı ilə Qafqaz görüşü keçirmək proqramı ilə çıxış etdi. Rusiyanın narahatlığı təsadüfi deyildi, ona görə ki, " Tbilisi bəyannaməsi" nin 1-ci və 2-ci maddələri Ermənistanın bəyannaməyə qoşulması yolunu bağlayırdı və bununlada Rusiyanın regiondakı strateji müttəfiqi olan Ermənistan təklənirdi, digər tərəfdən Rusiya Qafqazda "əsas aparıcı fiqur, söz sahibi" funksiyasını əldən verirdi. Yaranmış vəziyyət Rusiyanı şübhəsiz ki, cavab tədbiri görməyə vadar edəcəkdi və B.Yeltsinin məlum bəyanatı məhz bununla bağlı idi. Beləliklə də " Tbilisi bəyannaməsi"nın alternativi kimi "Kislovodsk bəyannamə"si meydana gəldi.

Rusiyanın Kislovodsk şəhərində Qafqaz respublikaları, diyar və vilayət rəhbərlərinin iştirakı ilə Azərbaycan, Gürcüstan, Ermənistan və Rusiya Federasiyası dövlət başçılarının «Qafqazda millətlərarası barışıq, sülh, iqtisadi və mədəni əməkdaşlıq uğrunda» bəyannamə imzalandı. Bəyannamə Qafqazın dinc, müharibəsiz bir bölgəyə çevrilməsi ideyasını özündə əks etdirdi. Bəyannamədə görüş iştirakçılarının məqsədləri ümumi şəkildə dolğun ifadə olunmuşdu. Burada göstərilirdi ki, Qafqaz bizim ümumi evimizdir, onu öz tarixləri ilə fəxr edən və gələcəyə inamla baxan insanların yaşadıqları dinc, tərəqqi edən regiona çevirmək bizim borcumuzdur. Lakin qarşıya qoşulmuş bu məqsədin reallaşdırılması yolları göstərilməmişdi. "Kislovodsk bəyannaməsi" konkret proqram əvəzinə, "əmin-amanlıq, sülh

və iqtisadi əməkdaşlıq uğrunda mübarizəni" ön plana çəkir, daha ciddi olan, "tərkisilah problemi"ni isə tamamilə unudurdu. Təsadüfi deyildir ki, Kislovodsk görüşündə " Tbilisi bəyannaməsi" demək olar ki, xatırlanmadı. " Tbilisi bəyannaməsi" Qafqazı münaqişə və müharibələrdən qurtarmağın konkret yollarını müəyyənləş-dirdiyi halda, "Kislovodsk bəyannaməsi" bütövlükdə Qafqazın münaqişə və problemlərini "konservləşdirməyə" çağırır, yaranmış "status-kvonu" qoruyub saxlamağı nəzərdə tuturdu. Rusiyanın bu şəkildə Qafqazı öz nüfuz dairəsində saxlamaq cəhdi regionda "Rusiyadan uzaqlaşmaq" proseslərini gücləndirən "katalizator" rolunu oynayırdı.

1996-cı il Azərbaycan, Gürcüstan, İnquşetiya, İçkeriya və Dağıstan nümayəndələri Mahaçqalada Qafqaz Parlament Assambleyası yaratmaq haqqında razılığa gəldilər.

Qafqaz evi ideyasının reallaşmasına Avropa təsisatları da dəstək verdilər. Avropa Şurası Parlament Assambleyasının Cənubi Qafqaz münaqişələrinə dair 1119 saylı 1997-ci il qətnaməsində deyilir ki, Qafqaz evi ümumi evdir, insanlar dinc yaşamalı, region tərəqqi edən ölkəyə çevrilməlidir.

Qafqaz birliyinin əldə olunması və münaqişələrin aradan qaldırılması üçün bəzi müəlliflər Qafqaz ümumi bazarının yaradılmasını bir vasitəsi kimi qiymətləndirirlər. Məsələn, A.Abbasbəyli qeyd edir ki, «Qarşılıqlı mənfəət, könüllülük, iqtisadi əməkdaşlıq hər bir xalqın və dövlətin bərabərliyi Qafqaz ümumi bazarının hərəkətverici qüvvələri ola bilərdi. Belə tədbirlərin həyata keçirilməsi Qafqazda rüsumsuz və vizasız zona yaradılmasına gətirib çıxarardı ki, burada bir növ «Şengenov» beynəlxalq əməkdaşlıq zonası əmələ gələrdi. Bunu etməklə Qafqaz xalqları və dövlətləri müharibəni öz münasibətlərindən biryolluq çıxarardılar» [2, s.257]. R.Mustafayev də öz əsərində qeyd edir ki, dinc yanaşı yaşamanın yeni demokratik sistemləri hazırlan-malıdır [52, s.208]. Əlbəttə bu fikirlərlə prinsipial olaraq razılaşmaq olar. Beynəlxalq praktikada münaqişələrin həll yollarından biri də iqtisadi inteqrasiya, qarşılıqlı iqtisadi əməkdaşlıq mühitinin yaradılmasıdır. Qarşılıqlı iqtisadi əməkdaşlıq və sülh şəraiti Qafqaz birliyinin formalaşması və inkişaf etməsi üçün də əsas ola bilər. Lakin iqtisadi əməkdaşlıq məsələləri Qafqazdakı milli problemlərin ədalətli həll olunmasına mane olmamalı əksinə qarşılıqlı inam mühiti yaratmalıdır.

Qafqazda inteqrasiya ilə yanaşı parçalanma prosesi də gedirdi. Parçalanmanın əsas aparıcı qüvvələri bir tərəfdən, bir o qədər aşkar formada olmasa da Rusiya, digər tərəfdən isə tamamilə açıq və aşkar formada Ermənistan idi. Parçalanma meylləri haqqında Rusiyalı tədqiqatçı D.Malışeva yazır ki, «Azərbaycan və Gürcüstanın imzaladığı «Qafqazda sülh» paktı o dövr üçün Rusiyanın maraqlarına cavab vermirdi. Rusiya Cənubi Qafqaz liderlərinin təşəbbüsünü ələ almaq üçün 1996-cı ilin iyunun 3-də Zaqafqaziya dövlət başçılarının və Şimali Qafqaz ölkələri rəhbərlərinin Kislovodsk görüşündə çeçen nümayəndə heyətinin Qafqazda təhlükəsizlik və əməkdaşlıq təşkilatının (ATƏT-ə oxşar qurum) yaradılması və ona beynəlxalq status verilməsi təklifini dəstəklədi» [108, s. 47].

Azərbaycan Qafqazın müsəlman ruspublikaları içərisində iqtisadi, siyasi, milli-mədəni güc mərkəzi rolu oynamaq imkanına malikdir. Böyük ehtimalla demək olar ki, Rusiya bu faktdan ehtiyatlanır. Ona görə ki, Şimali Qafqaz xalqlarının böyük bir hissəsi müsəlmanlardır. Digər tərəfdən burada türk xalqları da əksəriyyət təşkil edir. Müstəqillik uğrunda mübarizə aparan çeçenlər də müsəlmandırlar və ən azı müsəlman azərbaycan və müsəlman çeçen xalqları arasında dini birlik mövcuddur. Bu yerdə Aleksey Malaşenkonun fikirlərinə diqqət yetirək:- «Müsəlman Şimali Qafqazının həm Rusiyaya, həm də müsəlman dünyasına «ikili mənsubiyyəti»ni qəbul etmək lazımdır. Bu fakt da Rusiya Federasiyasının daxili və xarici siyasətdə müəyyən düzəlişlər etməsinə gətirib çıxara bilər. Rusiya Şimali Qafqaz müsəlman birliyi ilə onların xarici dindaşları arasında müxtəlif səviyyə-

li əlaqələrin inkişafını nəzərə almaq məcburiyyətində qalacaq (hansı ki, bu Moskvanın narahatlığına səbəb olur)» [106, s.157].

Qafqaz birliyinin nəzəri cəhətdən formalaşması, lakin inkişaf etməməsinin əsas səbəblərindən biri ermənilərin Qafqaz xalqları və ölkələrinin kansolidasiyasının yaradılmasına mane olan fəaliyyətidir. Ermənilər belə hesab edirlər ki, Qafqaz regional təhlükəsizlik sisteminin formalaşdırılmasında Rusiya, İran və Türkiyənin mütləq mənada iştirakı olmalıdır. Əslində ermənilər bu ideyanı irəli sürməklə Qafqazda pozuculuq fəaliyyəti ilə məşğul oldular və Qafqaz birliyinin qarşısını almağa çalışdılar. Qafqaz geosiyasi və etnosiyasi cəhətdən elə bir bölgədir ki, burada Rusiya, İran və Türkiyənin maraqları heç vaxt üst-üstə düşə bilməz. Bu ölkələrdən hər birinin Qafqazda özünəməxsus maraqları var və bu maraqlar heç də hər zaman eyni bir xətdə kəsişmir. Digər tərəfdən ermənilərin Şimali Qafqazda ərazi maraqları da var. Məsələn hələ 1992-1993-cü illərdə Şimali Qafqazda yaşayan bir qrup erməni təşkilat yaradaraq onu milli azadlıq cəbhəsi adlandırmışdı. Burada təşkilatlanmış ermənilər iddia edirdi ki, Şimali Qafqaz Ermənistanın tərkib hissəsidir. Onlar bildirirdilər ki, Şimali Qafqazın «Böyük Ermənistan» la birləşdirilməsi mümkün olmadığından Rostov, Krasnadar və Stavropol vilayətlərinin tərkibində erməni muxtariyyatı yaradılma-lıdır. Ermənilər öz iddialarını rəsmi surətdə vilayət rəhbərliklərinə də göndəriblər. Ermənilərin «təşəbbüs qrupu» Dağlıq Qarabağda aparılan mübarizə metodundan Şimali Qafqazdada istifadə etməyin məqsədəmüvafiq olduğunu bildirirdi. Təşəbbüs qrupu belə qərara gəlmişdi ki, Şimali Qafqazın hər bir yaşayış məntəqəsində erməni milli azadlıq cəbhəsinin yaradılması sahəsində təşkilati iş genişləndirilsin. Habelə son dərəcə zəruri halda yerli erməni gənclərə gizli müharibə aparmağı öyrətmək üçün Şimali Qafqaza təlimatçılar göndərilməsi haqqında ASALA-nın Yunanıstandakı və İrandakı rəhbərlərinə müraciət edilsin. Şimali Qafqaz ermənilərinin ərazi iddiaları haqqında Rusiya KİV-lərində bu məlumatlar böyük narahatlıqlarla



verildi və beləliklə ermənilər ikinci cəbhəni Şimali Qafqazda açmağa cəhd göstərdilər.

Qeyd etmək lazımdır ki, Qafqaz xalqlarının bir mərkəzdə birləşdirilməsi və onların gücündən Qafqazda mövcud olan problemlərin, əsasən milli-ərazi münaqişələrinin aradan qaldırılmasında istifadə edilməsi hələ SSRİ-nin mövcud olduğu illərdə, 80-i illərin sonlarından yaranmağa başlamışdı. İlk belə təşkilatlardan olan və Qafqaz xalqlarının birliyini, əməkdaşlığını öz strategiyasının əsası hesab edən Qafqaz Dağlı Xalqları Assambleyası 1989-cu ildə yaradıldı. Assambleyanın yaradılmasına təkan verən əsas hadisə gürcü-abxaz münaqişəsinin qızışması oldu. «Gürcüstan hökumətinin Suxumidə fövqəladə vəziyyət elan etməsindən sonra, bir qrup görkəmli abxaz ictimai xadimi, Şimali Qafqaz xalqlarının abxazlarla tarixi və mədəni yaxınlığını nəzərə alaraq kömək üçün onlara müraciət etdi» [98, s. 2].

1989-cu il avqustun 25-26-da Abxaziya Xalq Forumu «Aydıqlar»- ın təşəbbüsü ilə Suxumidə dağlı xalqlarının I-ci qurultayı keçirildi və Qafqaz Dağlı Xalqları Assambleyası yaradıldı. Assambleya ilkin fəaliyyətində öz məqsədlərini yenidənqurma ideologiyasından bəhrələnərək müəyyənləşdirdi, qəbul olunan nizamnamədə də Qafqazın dağlı xalqlarının səylərinin Sov. İKP-nin siyasətinin yerinə yetirilməsi üçün birləşdirildiyi göstərilmişdi. Həmçinin nizamnamədə xalqlar arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi, konfliktlərə gətirib çıxara biləcək mübahisəli məsələlərin həll edilməsi, Qafqaz xalqlarının fəaliyyətini əlaqələndirəcək bir mərkəzə çevrilmək bəndləri də var idi. Əlbəttə ki, Assambleya Qafqazda baş verən münaqişələrin həll edilməsində aparıcı qüvvəyə çevrilməyi, bununla da Qafqazda güc mərkəzi kimi formalaşmağı qarşısına məqsəd qoydu.

1990-cı ilin oktyabrında Nalçikdə (Kabardin-Balkar) Dağlı Xalqları Assambleyasının ikinci qurultayı keçirildi. Qafqazın ictimai-siyasi həyatında baş verən dəyişikliklər Assambleyanın da öz mövqeyində dəyişikliklər etməsinə səbəb oldu. Şimali Qafqaz xalqlarının suverenlik şüarları ilə

çıxış etmələri, milli-azadlıq hərəkatlarının geniş vüsət alması, Zviad Qamsaxurdiyanın Gürcüstanda hakimiyyətə gəlməsi ilə qızışan gürcü-abxaz və gürcü-osetin münaqişələri Qafqazda yeni reallıqları ortaya çıxarmışdı.

Belə ki, Qafqaz Dağlı Xalqları Assambleyası Çeçenistanla həmrəylik nümayiş etdirərək bu respublikanın müstəqilliyini tanıdı. 1991-ci ilin noyabrında Suxumidə keçirilən dağlı xalqlarının üçüncü qurultayında Assambleya Qafqaz Dağlı Xalqları Konfederasiyasına çevrildi. Qafqaz Dağlı Xalqları Konfederasiyası öz sələfindən fərqli olaraq ictimai birlik statusundan imtina etdi və özünü Şimali Qafqaz xalqlarının siyasi təşkilatı elan etdi.

Şimali Qafqaz xalqlarının konfederasiyasını əsrin əvvəllərində mövcud olmuş konfederasiyanın tarixi varisi hesab etmək olar. Qafqaz xalqlarının Konfederasiyası ideyası ilk dəfə 1917-ci ildə, Qafqaz dağlılarının birləşmiş İttifaqı yarananda meydana çıxdı və 1918-ci ildə Dağlılar Respublikasının elan edilməsilə bu ideya reallaşdı.

Beləliklə Konfederasiyanın rəhbəri Musa Şanibov region xalqlarının vahid dövlətini yaratmağa, Qafqazda milli-mədəni, sosial və siyasi problemlərin həll edilməsinə nail olunacağı bəyanatını verdi (1991-ci il). Qafqaz Dağlı xalqları Konfederasiyasının tərkibini çeçenlər, kabardinlər, çərkəzlər, adıgeylər, abxazlar, abazinlər, osetinlər, avarlar, laklar, ləzgilər, darginlər, çeçen-akınlər, inquşlar, qaraçaylar, şapsuqlar təşkil edirdi. 1991-ci ilin payızından etibarən təşkilatı Çeçenistan prezidenti Cövhər Dudayev öz himayədarlığı altına aldı və bu hal da yeni təşkil olunan Konfederasiyanın mövqeyinin radikallaşmasına səbəb oldu. Konfederasiyanın parlamentinin sədri Çeçenistan respublikası parlamentinin beynəlxalq məsələlər üzrə komitəsinin sədri Yusif Saslanbəyov seçildi. Konfedera-siyanın özünümüdafiə qüvvələri əsasən çeçenlərdən ibarət idi.

Assambleyanın konfederasiyaya çevrilməsi Gürcüstanın və Şimali Qafqazın Rusiya Federasiyası tərkibində qalmağa qərar vermiş respublikalarının rəhbərlərinin etirazı ilə qarşılandı. Gürcüstan ondan ehtiyat edirdi ki, abxazların və osetinlərin konfederasiyada təmsil olunmaları Abxaziyanın və Cənubi Osetiyanın Gürcüstandan ayrılmasına gətirib çıxara bilər. Şimali Qafqaz respublikalarının rəhbərləri Qafqaz Dağlı Xalqları Konfederasiyasının siyasi bir quruma çevrilməsindən, konfederasiyanın qəti olaraq formalaşacağı təqdirdə respublikalarla Rusiyanın əlaqəsinin kəsiləcəyindən, sərhədlərin dəyişdiriləcəyindən, bütün bunların nəticəsində isə hakimiyyət postlarını itirəcəklərindən ehtiyat etdilər. Konfederasiya rəhbərlərinin sərhədlərin dəyişdirilməsi məsələsinə baxışları onu nəzərdə tuturdu ki, Konfederasiya çərçivəsində Şimali Qafqaz respublikaları ayrıla məsələn, Çeçen-İnquşetiyanın iki respublikaya ayrılması kimi, və yaxud ərazisində qohum xalqlar yaşayan respublikalar birləşə bilərlər.

Qeyd etmək lazımdır ki, Konfederasiya bir çox xalqların problemlərini həll etdi və bəzi münaqişələri aradan qaldırmağa da nail oldu. Məsələn, hələ Assambleyanın yarandığı ilk illərdə Dağıstanda (1989-1990) çeçen-akınlarla laklar, Cənubi Osetiyada (Sxinvalidə) gürcülərlə osetinlər arasında yaranmış ilk böyük münaqişələr aradan qaldırıldı. Osetinlər inquşlarla və gürcülərlə milli-ərazi, siyasi status məsələlərində problemlərini, inquşlar osetinlərlə (Priqorodnı rayonu məsələsində - R. R), çeçenlərlə (Sunjen, Malqobəy rayonları məsələsində - R.R) olan ərazi konfliktlərini Konfederasiyanın gücü ilə və bu qurum çərçivəsində həll etməyə çalışdılar. Konfederasiya 1992-ci ilin fevralında Şimali Qafqaz xalqlarına müraciətində Qafqaz xalqları arasında konfliktlərə morotorium qoyulmasına çağırdı. Gürcü - abxaz münaqişəsində Konfederasiya abxazlara kömək etdi və gürcülərə qarşı konfederasiyaya daxil olan xalqların nümayəndələrindən ibarət (Çeçenistandan, Dağıstandan, Kabardin-Balkardan, Qaraçay-Çərkəzdən, Adıgeydən və Cənubi Osetiyadan) könüllülər döyüşdü. Gürcüstan prezidenti Zviyad Qamsaxurdiya dağlı xalqlarının düşməni adlandırıldı və Konfederasiya abxaz və osetinlərin mübarizəsinə qoşuldu. 1992-ci il avqustun 18-də Konfederasiyanın Parlamenti Qroznıda fövqəladə sessiya keçirdi və Gürcüsta-

nın hərəkətləri pislənildi. Rusiya rəhbərliyi də Gürcüstana silah verməkdə günahlandırıldı. M.Şanibov və Y.Saslanbəyovun imzaları ilə Abxaziya ərazisinə könüllülər göndərmək haqqında fərman verildi və Tbilisi «fəlakət zonası» elan edildi. Bu dövrdə Konfederasiya faktiki olaraq Moskvanın siyasi mənafelərinə xidmət etdi.

Konfederasiyada adıgey xalqlarının nüfuzu və abxazlarla etnomədəni yaxınlığının abxazların mübarizə-sinin uğur qazanmasında rolu danılmazdır. Şimali Qafqaz respublikalarının hökumətləri Konfederasiyanın fəaliyyətini pisləsələr də açıq formada bu qurumla rəqabətə girmədilər və könüllülərin toplanması məsələsində neytral mövqedə dayandılar. Rəsmi olaraq Çeçenistan da neytrallığını saxladı.

Bir sıra ləzgi ekstremistləri Qafqaz Dağlı Xalqları Konfederasiyasından istifadə etməyə çalışdılar. «Böyük Ləzgistan» dövləti yaratmağa hələ 1990-cı ildən çalışan ekstremistlər Azərbaycan Respublikasının şimal rayonlarına ərazi iddiası irəli sürdülər. Qeyd edək ki, ləzgi milli hərəkatları Qafqaz Dağlı Xalqları Konfederasiyasına 1992-ci ilin yanvarında qəbul edildilər. Beləliklə ləzgi təşkilatları Konfederasiyanın prinsiplərindən yararlanaraq və bunları əldə əsas tutaraq ortaya atdıqları «Ləzgistan dövləti» ideyasını reallaşdırmağa çalışdılar. «Ləzgistan respublikasının Milli Şurası elan edib ki, Ləzgistan respublikasının şərti, müvəqqəti sərhədləri ləzgilərin müasir dövrdə kompakt yaşadığı ərazilər, həm də onlarla birgə eyni zolaqda yaşayan Dağıstan və Azərbaycan xalqlarının yaşadığı ərazilər hesab olunur» [88, s. 99]. Konfederasiya tərkibində ləzgilərin bu cür çıxışları, ekstremist ünsürlərin Azərbaycanın suverenliyini pozan bəyanatlar verməsi yeni münaqişə üçün şərait yaratdı. Lakin onların Konfederasiyanı təxribata cəlb etmək cəhdləri, «Ləzgistan dövləti» yaratmaq məqsədi ilə təşkilatdan dəstək almaq niyyətləri baş tutmadı.

Konfederasiyada çeçenlərin özünəməxsus yeri və rolu oldu. Rusiyadan qəti olaraq ayrıldıqları üçün çeçenlərin bu qurum tərkibində qarşıya qoyduqları məqsədlər də fərqli idi. Çeçenlər Konfederasiyanın Rusiyadan ayrı, müstəqil bir



dövlət olması üçün çalışdılar. A. İqnatenko, A. Salmin bu məsələ barədə yazırlar:- «Çeçenistanın müstəqil yaşaması üçün digər Qafqaz respublikalarının da azadlığı vacib idi. Çeçenistanın müstəqilliyini qoruyub saxlaması üçün digər Şimali Qafqaz respublikaları da Rusiya Federasiyası tərkibindən çıxmalı idilər. Ona görə də Qafqaz Dağlı Xalqları Konfederasiyası formasında dövlət quruluşunun yaradılması ideyasının onların (yəni çeçenlərin - R. R) qəti müdafiəsi ilə qarşılanması başa düşüləndir» [88, s. 98]. Rusiyalı mütəxəssis K. Qadjiyevin də bu barədə fikri maraq doğurur:- «Qafqaz Dağlı Xalqları Kofedarasiyasının dağlı xalqlarının milli dövlətlərinin konfederasiyasına çevrilməsi ilə Çeçenistan geopolitik təcriddən çıxa bilərdi» [75, s. 24].

Konfederasiyanın Çeçenistan respublikasının siyasi kursunu müdafiə etməsi bu qurumu Rusiyanın rəqibinə çevirmişdi. Hələ 1991-ci ilin noyabrında RSFSR- in rəhbəri Boris Yeltsinin Çeçen-İnquşetiyada fövqəladə vəziyyət elan etməsi haqqında fərmanından sonra Konfederasiyanın «çeçen inqilabını» müdafiə etdiyini elan etməsi və Çeçenistanı müdafiə etmək üçün silahlı könüllülər göndərməyə hazır olduğunu bildirməsi bu qurumun Rusiyanın Qafqaz siyasətinə qarşı çıxış etdiyinə sübutdur.

Konfederasiyaya münasibətdə Rusiyanın mövqeyi dəyişkən və qeyri-müəyyən oldu. Məsələn, 1992-ci il sentyabrın 23-də Konfederasiyanın prezidenti Musa Şanibov Nalçikdə həbs edilsədə, sonradan azadlığa buraxıldı. Maraqlıdır ki, Gürcüstanın ərazi bütövlüyünü tanıyan Rusiya öz ərazisindən abxaz separatçılarına kömək üçün könüllülərin axınının qarşısını almadı. Yəni Rusiya Konfederasiyadan müəyyən dövrlərdə öz maraqları üçün istifadə etdi. Digər tərəfdən, Rusiya bu quruma qarşı çıxdı, çünki Moskva yeni «çeçen variantları» ilə qarşılaşa bilmək təhlükəsindən ehtiyat edirdi.

1992-ci ildə Qafqazda ortaya çıxan yeni reallıqlar Qafqaz Dağlı Xalqları Konfederasiyasının daxilində də dəyişkənliyə səbəb oldu. Təşkilat dar çərçivədən daha geniş miqyaslı bir quruma çevrilməyi, Qafqazda yaşayan bütün

xalqları əhatə etməyi qarşısına məqsəd qoydu. Beləliklə, 1992-ci ilin oktyabrında Qroznıda keçirilən fövqəladə sessiyada Qafqaz Dağlı Xalqları Konfederasiyası Qafqaz Xalqları Konfederasiyasına çevrildi. C.Dudayev sessiyada bildirdi ki, möhkəm birləşən Qafqaz onun ərazisində yaşayan bütün xalqların milli maraqlarının müdafiəçisi kimi çıxış edə bilər və qeyd etdi ki, elə etmək lazımdır birləşmə real olsun və böyük templə davam etsin.

Qafqazdakı etnosiyasi proseslərdə digər bir təşkilatın – repressiyaya məruz qalmış xalqların konfederasiyasının da öz yeri var. Bu qurum 1990-cı ilin noyabrında Moskvada yaradıldı və əsasən Şimali Qafqaz xalqlarını özündə birləşdirdi. Balkarlar, yunan-pontiyalılar, qaraçaylar, inquşlar, koreyalılar, kalmıklar, krım tatarları, Volqaboyu almanlar, məhsəti türkləri, fin-indermandlar təşkilata daxil oldular. Çeçenlər, gürcülər, kazaklar isə bu təşkilatda müşahidəçi statusla təmsil olundular. Təşkilatın məqsədi milli hərəkatların fəaliyyətini repressiyaya məruz qalan xalqların siyasi, iqtisadi, ərazi, sosial-mədəni reablitasiyası ilə əlaqələndirmək, bu işə yönəltməkdir. Konfederasıya Qafqazdakı etnosiyasi proseslərə ciddi təsir edə bilmədi, bu quruma daxil olan etnoslar sadəcə əlavə təsir vasitəsi kimi istifadə etdilər və problemləri əsasən öz qüvvələri hesabına həll etməyə çalışdılar.

Təmsil olunmayan xalqlar təşkilatı 1990-cı ildə yaradıldı. Bu qurumun üzvləri Çeçenistan və Abxaziya oldu. Şimali Osetiya və Cənubi Osetiya təşkilatın işində müşahidəçi statusla çıxış etdilər. Bu təşkilat Qafqazın həyatında elə bir nəzərəçarpacaq fəaliyyət göstərmədi. Bu təşkilat əsasən beynəlxalq miqyasda təbliğat üçün nəzərdə tutuldu və istiqaməti də bu yöndə oldu.

Qafqazdakı etnosiyasi proseslərdə türk xalqlarının da öz yeri var. Türk xalqlarının Qafqaz - Qara dəniz birliyi 1992-ci ilin fevralında yaradıldı. Birlik Türk xalqları Assambleyasının (təşkilat 1991-ci ilin aprelində Kazanda yaradılıb. Qazaxıstan, Özbəkistan, Tatarıstan, Başqırdıstan, Azərbaycan, Şimali Qafqaz və keçmiş SSRİ-nin bir sıra regionlarından milli hərəkatları özündə birləşdirir) bir strukturu kimi fəaliyyət göstərdi. 1992-ci ilin yanvarında Türk Xalqları Assambleyası öz dövlətləri olan və dövlətə malik olmayan türk xalqlarının birləşməsinin vacibliyini elan etdi. Nəticədə türk xalqlarının və türk respublikalarının siyasi quruluşunu nəzərdə tutan Türk Xalqları Birliyi ideyası ortaya çıxdı. Qafqaz – Qara Dəniz Türk Xalqları birliyi götürülən istiqamətin bir tərəfi idi və Qafqaz-Qara dəniz bölgəsindəki türk xalqlarının milli mənafelərinin müdafiə edilməsi məqsədilə yaradılmışdı. Təşkilat bir tərəfdən dağlı xalqları ilə açıq və latent münaqişə vəziyyətində olan, digər tərəfdən birliyə daxil olmayan Şimali Qafqaz Türk xalqlarının birgə maraqlarının ifadəçisi rolunu öz üzərinə götürdü.

Beləliklə SSRİ-nin iflasından sonra bütün postsovet məkanında olduğu kimi Şimali Qafqazda da etnosiyasi vəziyyət kökündən dəyişdi, milli oyanış, xalqların özünüdərk, öz etnomədəniyyətinə, dilinə, dininə dönüşü prosesi yüksək templə inkişaf etdi. Buraya xalqların müstəqillik uğrunda mübarizələrini də daxil etsək regionda vəziyyətin necə mürəkkəb olduğunu yəqin etmək olar.

80-ci illərin sonu 90-cı illərin əvvəllərində Şimali Qafqazda müstəqillik hərəkatları təşkilatlanmış formada mübarizəyə başladılar. Bu müstəqillik hərəkatları Rusiya Federasiyasının bütövlüyünə zərbə oldu. Məsələn, çeçenlərin əldə etmək istədikləri müstəqillik Rusiyanın ona vermək istədiyi müstəqillikdən daha çox idi. Çeçenistanın özünü müstəqil elan etməsi digər Qafqaz xalqlarının da tam müstəqillik əldə etməsi üçün müəyyən presedent yaratdı, Qafqaz xalqlarını müstəqillik uğrunda mübarizəyə həvəsləndirdi. Lakin bir faktı da qeyd etmək lazımdır ki, SSRİ-nin iflası mərhələsində çeçenlərdən fərqli olaraq demək olar ki, digər Şimali Qafqaz xalqları tam müstəqillik uğrunda mübarizə aparmadılar.

XX əsrin 90-cı illərinin əvvəllərində Şimali Qafqazda bir sıra ictimai-siyasi təşkilatlar da formalaşdı ki, bunların da fəaliyyəti ümumqafqaz proseslərinə təsir etdi. Hələ 1989-cu ildən Qafqaz xalqlarını özündə birləşdirən bir sıra qurumların

meydana gəlməsi vahid Qafqaz ideyasının yenidən vüsət almasına şərait yaratdı. Qafqaz xalqlarını bir qurumda birləşdirən təşkilatların fəaliyyəti əslində XIX əsrdə meydana gəlmiş Qafqaz evi ideyasının reallaşmasına xidmət edirdi. Düzdür bəzi təşkilatlar bütün Qafqaz xalqlarını özündə birləşdirə bilmədilər. Məsələn, Qafqaz Dağlı xalqları Assambleyası. Lakin 90-cı illərin əvvəllərindən təkcə dağlı xalqlarını yox, ümumilikdə Qafqaz xalqlarını özündə birləşdirən təşkilatlar yaranmağa başladı. Hansı səviyyədə fəaliyyət göstərməsindən asılı olmayaraq bu qurumların ümumi məqsədi Qafqaz xalqlarının birliyinə nail olmaq idi. Qafqaz xalqlarının bir-birinə qarşı deyil, bir mövqedən çıxış etməsi Qafqaz birliyi ideyasının əsas istiqamətidir. Qafqaz xalqları arasında olan etnosiyasi münaqişələrin həlli də əsas məqsəd kimi ortaya qoyulur.

Ümumiyyətlə XX əsrin 90-cı illərinin əvvəllərini vahid Qafqaz uğrunda hərəkatın başlanması kimi qiymətləndirmək olar.

Beləliklə Qafqaz birliyinə nail olmaq üçün:

- Qafqazda yaşayan hər bir xalq milli mənafeyini ümumi Qafqaz mənafeyi ilə əlaqələndirməlidir-uzlaşdırmalıdır;
- Qafqaz xalqları bir-birinə qarşı olan ərazi iddialarından əl çəkməlidir;
- Xalqlar arasında sülh, barış, qarşılıqlı razılaşma əldə olunmalıdır;
- Qafqazda iqtisadi, siyasi, mədəni əlaqələr genişləndirilməlidir;
- Hər bir xalqın təmsil olunduğu Qafqaz Xalq Parlamenti formalaşdırılmalıdır;
- Qafqazın inkişafı üçün uzunmüddətli siyasi strategiya hazırlanmalıdır



# II. MÜSTƏQİLLİK ƏLDƏ ETDİKDƏN SONRA AZƏRBAYCAN-RUSİYA MÜNASİBƏTLƏRİNİN TƏŞƏKKÜLÜ PROSESİNDƏ ETNOSİYASİ FAKTORUN ROLU

## 2.1 Etnosiyasi faktorun müstəqilliyin ilkin mərhələsində Azərbaycan-Rusiya münasibətlərində yeri

1991-ci ildə SSRİ-nin qəti olaraq dağılmasından sonra bütün keçmiş sovet respublikaları kimi Azərbaycan da müstəqil dövlətə çevrildi və beynəlxalq birliyin tamhüquqlu üzvü oldu. Müstəqilliyin ilkin dövründə iqtidarda olan Mütəllibov hakimiyyətinin Rusiya ilə münasibətlərini bərabərsəviyyəli adlandırmaq olmaz. Düzdür İstiqlaliyyət Bəyannaməsi, Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı Mütəllibov hakimiyyəti vaxtı (1991) qəbul edildi, lakin hakimiyyət dövlət idarəçiliyini Rusiyanın dəstəyi ilə aparmağa və hər şeyi SSRİ-nin, başqa formada olsada belə, bərpa olunmasına tabe etməyə çalışdı. 1991-ci il və 1992-ci ilin birinci yarısında Azərbaycan dövlətinin xarici siyasətinin əsasını Rusiyaya meyllilik strategiyası təşkil edirdi. Hakimiyyət regionda gedən ictimai-siyasi proseslərə uyğun siyasət yeritmədi. «SSRİ dağıldıqdan sonra belə Mütəllibov hökuməti xarici siyasətdə yalnız Rusiyaya birtərəfli üstün meyllilik və beynəlxalq münasibətlərdə Moskvanın mövqeyinə uyğun yanaşma xətti götürdü. Bu da sözsüz ki, həmin dövr üçün Azərbaycanın iqtisadi, siyasi, maraqlarını təmin edə bilmədi, onun müstəqilliyinin, təhlükəsizliyinin, ərazi bütövlüyünün, suveren dövlət hüquqlarının qorunmasına və beynəlxalq təminatına imkan yaratmadı» [21, s. 247]. Etnosiyasi problemlərin məsələn, Qarabağ probleminin Rusiyanın gücü ilə həll ediləcəyinə dövlət rəhbərliyində böyük inam var idi və siyasət də bu istiqamətdə qurulmuşdu. Lakin 1992-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdiyi Xocalı soyqırımında rusların ermənilərə, 366-cı motoatıcı batalyonun qırğında

birbaşa iştirakı ilə dəstək verməsi sübut etdi ki, bu siyasət yanlışdır. Hadisələr göstərdi ki, Rusiya Qafqazda etnik münaqişələr yaratmaq, milli nifaq salmaq və onlar vasitəsilə prosesləri öz maraqlarına uyğun idarə etmək kimi tarixi siyasətindən kənara çəkilməyib.

1992-ci ildə Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəldi. Qeyd edək ki, bundan sonra Rusiya ilə qarşılıqlı ittihamlar dövrü başladı. Bunun əsas səbəblərindən biri Rusiyanın Azərbaycana qarşı münasibətdə neoimperiya maraqlarından çıxış etməsi idi. RF hakimiyyət orqanlarında təmsil olunan neoimperiya ruhlu bəzi məmurlar SSRİ-nin dağılması və yeni müstəqil dövlətlərin yaranması ilə barışa bilmirdilər. 1992-ci ildə RF Prezident Şurasının üzvü olmuş Sergey Karaqanovun bu barədə fikirlərinə diqqət yetirək:- «Rusiya aktiv postimperiya rolu oynamalıdır. Rusiya öz ənənəvi roluna qayıtmalıdır, yerli knyazları pulla ələ almaq, qoşun göndərmək, kimi isə xilas etmək və s. Bu xoşməramlı iş deyil, lakin ona bizi tariximiz və tədricən biz özümüz gətirib çıxarmışıq» [89, s. 44]. Karaqanov təklif edirdi ki, Rusiya keçmiş SSRİ-ni tədricən konfederativ çərçivədə yenidən birləşdirməlidir.

Əlbəttə ki, Rusiya Azərbaycanın müstəqil siyasət yeritməsi, məsələn Azərbaycan dövlətinin əsasən Türkiyə ilə əlaqələr qurması, öz siyasətində Qərbə üstünlük verməsi və Rusiyanın nüfuz dairəsindən çıxması cəhdləri ilə barışa bilmirdi, çünki bu vəziyyət birbaşa onun Qafqaz maraqlarına zərbə vururdu. Bütün bunların nəticəsində Azərbaycana qarşı böyük təzyiq kampaniyası başladı. SSRİ-nin iflasından sonra Qafqazda yaranan müstəqil dövlətlərə qarşı Rusiyanın yürütdüyü siyasətin bəzi aspektləri postsovet ölkələrinə ABŞ yardımını 1992-1993-cü illər ərzində əlaqələndirmiş Riçard Armitic və onun müavini olmuş Frederik Hofun «Cornel of Kommers and Kommerşl» (1994) qəzetində dərc etdirdikləri məqalədə göstərilib: - «Rusiya kommunizmi rədd etsə də, pis qonşu olmaq kimi öz tarixi meylindən hələ də əl çəkməmişdir. Məsələn, Rusiya Gürcüstanı, Ermənistanı və Azərbaycanı yenidən öz tərkibinə qatmağa çalışaraq Zaqafqaziyada Amerika diplomatiyasının səylərini canfəşanlıqla sarsıdır. Ağ evin diplomatik vəzifəsi Rusiya imperializmini çəkindirməkdən... ibarətdir. Rusiyanın nöqteyi nəzərincə, Azərbaycan Zaqafqaziyada iri qənimətdir» [18, 30 iyul, 1994]. Rusiyanın keçmiş SSRİ ərazisində milli-siyasi münaqişələrə münasibəti, bu kontekstdə yürütdüyü siyasət barədə D.Malışevanın da fikirləri maraq doğurur:- «Rusiyanın MDB-də baş verən konfliktlərə münasibətdə siyasətində bir neçə aspekt müşahidə edilir: sülhyaratma fəaliyyəti, vasitəçilik, həmçinin hərbi-güc metodları. Bunlara konflikt zonalarına silahların göndərilməsi, orada hərbiçilərin artırılması və həmdə hərbi əməliyyatlarda Rusiya hərbiçilərinin birbaşa iştirakı aiddir... Rusiyanın hazırki vaxta qədər konflikt zonalarındakı aktivliyi ancaq vəziyyətin gərginləşməsinə gətirib çıxarıb» [109, s. 35]. Amerikalı alim Ariel Koen bu xüsusda yazır:- «Sovet İttifaqının ləğv olunması ilə Rusiya Cənubi Qafqazda öz siyasi kursunu müəyyənləşdirməyə tələsmədi. 90-cı illərin əvvəllərində hərbçilər (Rusiya hərbçiləri - R.R.) münaqişələri qızışdırmaqda və regionda qeyri-stabilliyinin «yaradılmasında» maraqlı idilər. Bütün bu dövr ərzində Moskva hərbi əməliyyatların kəsilməsi və Cənubi Qafqaz ölkələrində iqtisadi-inkişafın sülh relsinə keçirilməsi üçün çox az şey etdi. Rusiya hərbi və millətçi - kommunist siyasi elitasının bir hissəsi Gürcüstanı zəiflətməyə, Azərbaycanın siyasətinə təsir etməyə cəhd göstərdi, Qarabağ konfliktinin gedişində Ermənistanı dəstəklədi və müəyyən niyyətli qüvvələrə silah satılmasında iştirak etdi» [96, s. 7].

Rusiyanın Azərbaycana qarşı hərbi-siyasi təzyiqlərinin bir aspektidə Ermənistana hərbi yardım etmək, silah göndərmək idi. 90-cı illərin əvvəllərindən bu ölkədən Ermənistana hərbi köməkliklər göstərilməyə başlanıldı. Keçmiş dövlət müşaviri Vəfa Quluzadə öz məqaləsində göstərir ki, «1991-ci ildə SSRİ dağıldıqdan və onun ərazisində müstəqil dövlətlər yarandıqdan sonra Rusiya Qafqaz ölkələri ilə maliyyə-iqtisadi cəhətdən inteqrasiya olunmaq əvəzinə Qafqaz

regionunda hərbi üstünlüyü əldən verməmək, hərbi bazaların sayını genişləndirmək xəttinə diqqət yetirdi, Qafqaz respublikalarına tam nəzarət etmək üçün onun sərhədlərinin birgə qorunması məsələsini ortaya atdı» [46, s.147]. Maraqlıdır ki, Qarabağ münaqişəsində vasitəçi tərəf olan Rusiya Ermənistan-Azərbaycan müharibəsinin ən qızğın vaxtında, 1992-ci ildə Ermənistanla hərbi müqavilə imzaladı və beləliklə də Ermənistanı Qafqazda öz hərbi plasdarmına çevirdi. Qeyd etmək lazımdır ki, 1992-ci ildə Rusiya ilə Ermənistan arasında imzalanmış «Dostluq və Təhlükəsizlik haqqında» müqavilənin qarşılıqlı hərbi yardım haqqında ayrıca bəndi var idi

1991-1994-cü illər Azərbaycan-Rusiya əlaqələrində ən çətin dövr oldu, ikitərəfli xarakterli həll edilməmiş məsələlərin sayı katostrofik olaraq artdı. Təbbi ki, yeni müstəqillik qazanmış ölkənin bir sıra ciddi etnosiyasi problemləri də elə bu dövrdən etibarən ortaya çıxdı. İlk növbədə Rusiya ilə ikitərəfli münasibətlərin qurulmasında bir sıra çətinliklər yarandı. Bunlara Şimali Qafqazda yaranan yeni etnosiyasi vəziyyətin Azərbaycanla Rusiya arasındakı əlaqələrə təsiri; Çeçenistan hadisələri və bunun nəticəsində Rusiya - Azərbaycan münasibətlərinin mənfi istiqamətdə inkişafı, tərəflər arasındakı əlaqələrdə yaranan qeyri-müəyyən vəziyyət; Rusiya-Azərbaycan arasında sərhəd böhranı, Azərbaycana qarşı Şimali Qafqaz nəqliyyat yollarının kəsilməsi; Rusiya hakimiyyət orqanlarının və kütləvi informasiya vasitələrinin Çeçenistanla əlaqədar Azərbaycana qarşı 90-cı illərin əvvəllərindən başladığı «ittiham kompaniyası»; 1990-cı ildən fəaliyyətinin əsasını ekstremizm və separatçılıq təşkil edən «Sadval», «Ləzgi Milli Şurası» kimi qurumların Rusiyada fəaliyyət göstərərək Azərbaycana qarşı təxribatçılıq, Azərbaycanın ərazi bütövlüyü prinsipini pozan fəaliyyətlə məşğul olmalarını aid etmək olar.

Müstəqilliyin ilk illərində Azərbaycanın öz ərazisindən Rusiya qoşunlarını çıxarması (1992-1993), sərhədlərin birgə qorunması haqqında Rusiyanın təkliflərini qəbul etməməsi və Müstəqil Dövlətlər Birliyinə qoşulmaması Kremlin Azərbaycana qarşı yeni ittihamları ilə nəticələndi. Rusiyanın «Независимая газета» adlı qəzeti yazır:- «90-cı illərin əvvəllərində, SSRİ dağıldığı vaxt Azərbaycan MDB-yə daxil olmaqdan imtina etdi və Rusiya sərhədçilərinin İran sərhəddini qorumasına razı olmadı. Bu isə Rusiya-Azərbaycan sərhəddinin qorunmasını daha da ciddiləşdirdi. Çeçen müharibəsi vaxtı sərhədlər tamamilə bağlandı, nəzarət-buraxılış məntəqələri, kömrük postları yaradıldı» [117, 28 dekabr, 1999].

Rusiya iddia etdi ki, guya Türkiyə və İranla sərhədlər lazımi səviyyədə qorunmadığından bu ölkələrdən Azərbaycan vasitəsilə Rusiyaya narkotik maddələr, silah və digər qaçaqmalları gətirilir. Şimali Qafqaz respublikalarına kriminal ünsürlərin Azərbaycan vasitəsilə daxil olmaları Rusiya tərəfindən dəfələrlə bəyan edildi və Azərbaycan Çeçenistan üçün tranzit ölkə olmaqda günahlandırıldı. 1992-ci ildə Rusiya Prezidenti Boris Yeltsinin Rusiya ilə Azərbaycan arasında olan şimal sərhədlərinin bağlanması haqqında bəyanatı vəziyyəti mürəkkəbləşdirən əsas faktorlardan oldu. Rusiya prezidentinin qərarı Azərbaycana qarşı mövqeyin sərt olduğunu və tərəflər arasıda gərgin vəziyyətin mövcudluğunu tam açıqlığı ilə ortaya qoydu. Sərhəd böhranı yarandı və Azərbaycan-Rusiya sərhəddi 1992-ci ildən etibarən Rusiya tərəfdən hərbiləşdirildı. Rusiya, ittihamlarının ardınca sərhəddə yeni zastavalar yaratdı və nəzarət-buraxılış çətinləşdirildi. «Rusiya ilə Azərbaycan arasında demək olar ki, düşmənçilik münasibəti yarandı, şimal sərhəddində ehtiyat sərhəd zastavaları və kömrük postları yaradıldı» [123, s. 81]. Rusiyanın Azərbaycanla hərbiləşdirilmiş sərhəd rejimi yaratmaqda əsas məqsədlərindən biri sərhədlərin birgə qorunmasına razılıq verməyən Azərbaycanı cəzalandırmaq idi. Məsələn, sərhəddə süni maneələrin yaradılması nəticəsində Azərbaycanın şimal rayonlarında yaşayan ləzgilərlə Dağıstanda yaşayan ləzgilər arasında əlaqələr, gediş-gəliş çətinləşirdi ki, bu da Azərbaycanın şimal bö-

lgəsində etnik səpgidə gərginliklərin yaranmasına gətirib çıxarırdı. Rusiyanın sərhəddə buraxılış rejimini sərtləşdirməsi ilə əlaqədar Azərbaycanda və Dağıstanda yaşayan azərbaycanlılar arasında da əlaqələr məhdudlaşdı. Kömrük məntəqələrində rüşvətxorluq halları baş verdi və bütün bunlar da etnosiyasi vəziyyəti bir qədər də mürəkkəbləşdirdi. Ekstremist və separatçı təşkilatların milli ədavəti qızışdırmaq istiqamətində geniş fəaliyyət göstərməsi üçün əlverişli imkanlar yarandı.

Qeyd edək ki, müstəqilliyini yenicə qazanmış Azərbaycan Qərb dövlətləri ilə yetərincə iqtisadi əlaqələr qura bilməmişdi və keçmiş SSRİ ərazisində mövcud olan iqtisadi-kommunikasiya sisteminin tərkib hissəsi olaraq qalırdı. Buna görə də Rusiyanın blokada siyasəti ölkəyə böyük ziyan vurdu. Rusiya Azərbaycanın digər postsovet respublikaları ilə əlaqələrini kəsməyə, onu təcrid etməyə, Şimali Qafqaz respublikaları ilə Azərbaycan arasında baryer yaratmağa çalışdı.

Şimali Qafqazda Rusiya üçün etnosiyasi, etnososial sahədə ortaya çıxan hər hansı bir çətinlik 90-cı illərdən başlayaraq Azərbaycan-Rusiya münasibətlərində böyük problemlərin meydana çıxmasına səbəb oldu. Bu məsələ barədə Rusiya Ali Soveti respublikalararası əlaqələr komissiyasının sədri Vladimir Podopriqoranın fikirlərinə diqqət yetirək: - «Azərbaycanın Şimal sərhədlərinin açıqlıq əmsalı onun cənubundakı qapalılığından asılıdır» [31, 22 oktyabr, 1992]. V.Podopriqoranin iddialarına görə İran və Türkiyə ilə sərhədləri açıq olan Azərbaycan vasitəsilə Rusiyaya silah gətirilir, narkobiznes və qaçaqmalçılıq artıb.

Bütün bunları isə böyük siyasətin bir istiqaməti adlandırmaq olar, yəni Rusiya keçmiş SSRİ sərhədlərini öz nəzarətinə almaq üçün bütün mümkün təsir imkanlarından istifadə edirdi. Digər tərəfdən, Rusiyanın Şimali Qafqaza nəzarət imkanları minimum səviyyədə idi və hakimiyyət bu regionun kriminallaşmasının qarşısını ala bilmədiyindən bütün günahlar kənarda axtarıldı. Beləliklə Şimali Qafqazda vəziyyətin pisləşməsində, Çeçenistan hadisələrində Azərbaycan hədəfə götürüldü. «Независимая газета» qəzetində dərc olunan «MDB: tarixin başlanğıcı, yoxsa sonu» adlı məqalədə Rusiyanın Azərbaycan barədə niyyətləri aşkar surətdə öz əksini tapıb. Burada «Azərbaycanın Qərb dövlətləri ilə inteqrasiyasının qarşısını almaq və Rusiyadan asılı vəziyyətə salmaq üçün erməni ordusunun Azərbaycan ordusundan üstün olmasına çalışmaq, ləzgi xalqının birləşməsi məsələsini stimullaşdırmaq, Azərbaycanı federalizmə sürükləmək, talış muxtariyyatı problemini aktuallaşdırmağın vacibliyi məsələləri göstərilib [114, 26 mart, 1997]. Bu dövrdə əksər Rusiya KİV - lərində Azərbaycanın və Türkiyənin təhlükəsizlik orqanlarının Şimali Qafqaz respublikalarında aktiv fəaliyyəti, Rusiyada mərkəzi hakimiyyətin zəifləməsi və Dağıstan rəhbərliyinin sayğısızlığı ucbatından Azərbaycanın Türkiyə ilə ittifaqda Dağıstanda və əsasən cənub bölgələrində öz nüfuzunu artıqmaq üçün iş aparması, Azərbaycanın Şimali Qafqazda etnosiyasi vəziyyəti çətinləşdirməsi və Türkiyə ilə Azərbaycanın Şimali Qafqazı Rusiyadan qoparmağa çalışması haqqında periodik olaraq dezinformasiya yayılıb. Rusiya dövlət və hakimiyyət orqanlarında çalışan bəzi rəhbər vəzifəlilər də bu cür çıxışlar ediblər. Türkiyənin Qafqaz və Orta Asiyanın türkdilli ölkələri ilə mədəni, elmi, iqtisadi əlaqələrini nəzərdə tutan xoşniyyətli təşəbbüslərinə Rusiyada mənfi don geyindirildi və bunlar təxribatçılıq kimi qələmə verildi. Türkiyənin köməyi ilə Şimali Qafqaz ölkələrində kolleclərin, institutların və digər müəssisələrin yaradılmasını Rusiya kəşfiyyatçılıq əməli kimi qiymətləndirdi və bu cərgəyə Azərbaycanı da qoşdu. Rusiya Dövlət Duması Müdafiə komissiyasının sədr müavini olmuş Aleksey Arbatovun fikirlərinə diqqət yetirmək maraqlı olar. Arbatov Türkiyəni və Azərbaycanı ittiham edir: - «RF üçün Cənubda təhlükəsizlik, separatizm, İslam radikalizmi ilə əlaqədar böyük çətinliklər yaranır. Beləki, bütün xarici ölkələrdən fərqli olaraq Türkiyə burada aktiv rol oynayır» [112].

Lakin qeyd etmək lazımdır ki, Azərbaycan-Rusiya

münasibətlərində müsbət mənada da bir çox işlər görüldü. Rusiya bir tərəfdən Azərbaycana qarşı təzyiq kampaniyası aparır, digər tərəfdən Qərb dövlətlərinin regiona nüfuzunu azaltmaq üçün Azərbaycanla əlaqələri inkişaf etdirməkdə maraqlı tərəf kimi çıxış edirdi. Yəni silahla əldə edə bilmədiyini siyasətlə əldə etməyə çalışırdı.

1992-ci ilin sentyabrında RF baş naziri Yeqor Qaydar Azərbaycana səfər etdi və Azərbaycanla Rusiya arasında imzalanacaq müqavilənin detalları müzakirə edildi. Rusiyada hakimiyyətə gəlmiş demokratik təfəkkürlü şəxslər təbii ki, neoimperiya ruhunda çıxış etmir və keçmiş Sovet respublikaları ilə əlaqələrin bərabərsəviyyəli şəkildə qurulmasına çalışırdılar. Məsələn, Y.Qaydarın belə bir formulu var idi:- «Rusiyanın iqtisadi maraqları siyasi maraqlarına qurban verilməməlidir» [32, 3 sentyabr, 1994]. O, Bakıda səfərdə olarkən keçmiş Sovet respublikaları ilə bərabərhüquqlu, ikitərəfli əlaqələrin qurulmasının MDB üzvlüyündən asılı olmayacağını bildirdi. Azərbaycanla Rusiya arasında Şimali Qafqaz və dəniz kommunikasiyaları sistemi fəaliyyət göstərirdi və bunun dayanması tərəflər üçün böyük iqtisadi zərər demək idi. Bunun yeni müstəqil Rusiya üçün də xeyri ola bilməzdi.

1992-ci ilin oktyabr ayında Azərbaycan Prezidenti Əbülfəz Elçibəyin Rusiya səfərində Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında «Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında» müqavilə imzalandı. Bu müqavilə bir sıra sahələri əhatə etdi. «Tərəflər bir-birlərinin suverenliklərini tanıdı, dövlətlərin demokratik inkişaf kursunu, insan və milli azlıqların hüquqlarını müdafiə etmək öhdəliklərini üzərlərinə götürdülər» [31, 22 oktyabr, 1992]. Azərbaycanla Rusiya arasında sərhədlər məsələsi də müzakirə olundu və sərhədlərin şəffaf saxlanılması qərara alındı. Azərbaycan Prezidenti Moskva görüşündən sonra keçirdiyi mətbuat konfransında Azərbaycan-Rusiya arasında sərhədlərin şəffaf qalacağını bildirdi:- «Rusiyada yaşayan azərbaycanlılar və Azərbaycanda yaşayan ruslar sərhədlərin bağlanmasından ilk növbədə daha çox əziyyət çəkə bilərlər» [40, 16 sentyabr, 1992].

Mütəllibov hakimiyyətindən fərqli olaraq Elçibəy hakimiyyəti Rusiya ilə bərabərsəviyyəli, ikitərəfli əlaqələrin qurulmasına üstünlük verdi. Lakin Rusiya ilə döstluq və əməkdaşlıq haqqında imzalanan müqavilə və qarşılıqlı əməkdaşlıq üçün edilən cəhdlər effektli olmadı.

Bunun səbəbləri müxtəlifdir. Rusiya hakimiyyət orqanları Azərbaycanın müstəqil siyasət aparması ilə barışa bilmir və belə hesab edilirdi ki, Rusiyanın Azərbaycanda hərbi-siyasi maraqları hər zaman üstün mövqedə olmalıdır. Rusiyanın Qafqazda və Xəzər regionunda hegemonluq niyyətindən əl çəkə bilməməsi Azərbaycanla münasibətlərin bərabər səviyyədə qurulmasına mane oldu. Moskva imperiya psixologiyasından əl çəkmədi və sərhədlərinin itirilməsi ilə barışmadı. Bu yerdə Amerikalı politoloq Zbiqnev Bzejinskinin fikirləri maraq doğurur:- «Yeni imperiya reallıqlarına uyğunlaşmaq üçün Rusiya bu ağrılı prosesdə uzun bir yol keçməlidir. Bu prosesi Britaniya Hindistanın, Fransa Əlcəzairin itirilməsi, Türkiyə Atatürkün rəhbərliyi ilə Avropa tipli müasir dövlət yaratmaqla keçiblər. Postimperiya özünütəyin prosesi çətin və mürəkkəb prosesdir. Ona görə də bu mövzunun bugünkü çətinlik çəkən Rusiyada belə mənfi qarşılanmasını başa düşmək asandır. Lakin bu məsələ axır ki, həllini tapmalıdır» [134, s. 5].

Şimali Qafqaz faktoru da münasibətlərin xarakterinə əhəmiyyətli dərəcədə təsir etdi. 1992-ci ildə yaradılmış Qafqaz evi təşkilatının işində Azərbaycanın da iştirak etməsi və bu ideyanın yüksək qiymətləndirilərək müdafiə edilməsi Rusiyanın Azərbaycana qarşı şübhə ilə yanaşmasına səbəb oldu. Ona görə ki, Qafqaz evi ideyası bütün Qafqazın birliyini nəzərdə tutur, Şimali Qafqaz respublikaları isə Rusiya Federasiyası daxilindədir. Beləki, Qafqaz xalqlarının birliyi ideyası reallaşarsa bu vahid Qafqaz dövlətinin yaradılmasına yol aça bilər.

Beləliklə 1992-1993-cü illərdə hakimiyyətdə olmuş

qüvvələr Azərbaycan-Rusiya münasibətlərini normal səviyyədə saxlamağa çalışsalarda buna nail ola bilmədilər. Bir sıra hallarda yüksək hakimiyyət postlarında çalışanların təcrübəsizliyi bu siyasətə mane oldu. «Xarici siyasət və diplomatik missiya qarşısında duran əsas vəzifələri, Azərbaycan dövlətinin strateji mənafelərini, regional və beynəlxalq münasibətlər sahəsində dövlət siyasətinin əsas mahiyyətini müxtəlif səviyyəli dövlət rəhbərləri fərqli şəkildə izah edərək, bir-biri ilə uzlaşmayan addımlar atırdılar» [21, s. 248]. Azərbaycan rəhbərliyi səviyyəsində Rusiyaya qarşı aqressivlik nümayiş etdirilməsi münasibətlərin normallaşmasına əlavə maneçilik törətdi. AXC hakimiyyəti dövründə Azərbaycanın Rusiyadakı səfiri vəzifəsində çalışmış Hikmət Hacızadənin Azərbaycan-Rusiya münasibətləri (1992-1993) haqqında fikirləri maraq doğurur:- «Əlbəttə ki, müstəqil siyasət yeritməliyik, amma Rusiyanı özümüzdən uzaqlaşdırmaq təhlükəli bir prosesdir. Respublikada özünü «vətənpərvər» hesab edən hər kəs Rusiya tərəfə bir daş tullamağa tələsirdi, bu zaman mümkün nəticələr nəzərə alınmırdı. Mən həmişə özümüzünkülərə deyirdim, «Rusiyaya gəlin, yoxsa Rusiya sizə gələr» [59, 3 sentyabr, 1993].

1993-cü ildə Azərbaycan Respublikasında hakimiyyətə Heydər Əliyev gəldi. H. Əliyev Rusiyanın təzyiqlərinin qarşısını almaq üçün bu ölkənin siyasətçiləri ilə aktiv dialoqa başladı. 1993-cü il avqustun 28-də H.Əliyevin Rusiyanın xüsusi təyinatlar üzrə səfiri Vladimir Kazimirovla görüşündə dediklərinə diqqət yetirək:- «Biz Rusiyanı köməyə çağırmışıq, bunun kiməsə xoş gəlib-gəlməməsi onların öz işidir» [94, 31 avqust, 1993].

Bu dövrdən etibarən Azərbaycan-Rusiya münasibətlərindəki gərginliklərin aradan qaldırılması istiqamətində müəyyən irəliləyişlər oldu. Azərbaycan böyük neft siyasətində Rusiyaya yer ayırdı və 1993-cü ilin noyabrında Rusiya ilə iki müqavilə imzalandı. Rusiyanın «LUKoyl» şirkətinə Azərbaycanın neft payından 10 faiz verildi. Bu məsələlər barədə M.Qasımovun yazdıqlarına diqqət yetirək:- «müəyyən dairələrin bizə (yəni Azərbaycana-R.R) münasibətindən asılı olmayaraq Şimal qonşumuzla münasibətdə mehribanlığa, qarşılıqlı anlaşmaya üstünlük verilməsi, meydan əhval-ruhiyyəsindən imtina edilməsi müsbət haldır» [45, s. 41]. H. Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanın xarici siyasətində MDB məsələsi aktuallaşdı və MDB-yə qoşulmaq istiqamətində həlledici addımlar atıldı. Rusiya və digər MDB ölkələri ilə intensiv siyasi əlaqələr nəticəsində Azərbaycan 1993-cü il sentyabrın 24-də Alma-Ata bəyannaməsini və MDB-nin nizamnaməsini imzalayaraq bu quruma qəbul edildi. MDB-yə qəbul olunmaqla Azərbaycan Rusiyanın təzyiqlərini bir qədər azaltmış oldu. Ona görə ki, artıq Azərbaycan MDB tərkibində bir sıra sahələrdə Rusiyanın tərəfdaşına çevrilmişdi. «1993-cü ilin sentyabrında Heydər Əliyevin Rusiya səfəri nəticəsində Azərbaycan-Rusiya münasibətlərində müəyyən dönüş, kompromislər üçün şərait yarandı. Azərbaycan-Rusiya birgə rəsmi məlumatında tərəflər Azərbaycan-Rusiya dövlətlərarası münasibətlərinin yüksəldilməsinə, iki ölkə arasında siyasi, iqtisadi və digər əlaqələrin daha da inkişaf etdirilməsi və əməkdaşlığın genişləndirilməsinə qarşılıqlı surətdə çalışdıqlarını bildirdilər» [42, 10 sentyabr, 1993].

Azərbaycanın Qərblə əməkdaşlığı Rusiyanı qane etmirdi və H.Əliyevin hakimiyyətə gəlməsindən sonra da bu siyasətin dəyişməməsi Moskvanı narahat edirdi. Rusiyalı alim A.Quşer «Смена стратегических координат» adlı məqaləsində yazır ki, Azərbaycanın Qərbə meyillənməsi tendensiyası Əliyevin hakimiyyətə gəlməsindən sonra da dəyişmədi [80, s. 34].

Azərbaycanın yeni hakimiyyəti regionda yaranmış gərgin etnosiyasi vəziyyətdən çıxış yollarının tapılması istiqamətində də işlər gördü. Artıq bu məsələdə Rusiya rəhbərliyi ilə yanaşı Dağıstan rəhbərliyi ilə də əlaqələr quruldu və Dağıstanın hökumət orqanları, nüfuzlu şəxslərilə dialoqa üstünlük verildi. Azərbaycanda yaşayan ləzgilərin etnik, dil, mədəni-elmi, iqtisadi inkişafına əvvələr olduğu kimi böyük yer verildi. 1993-cü ilin oktyabrında Azərbaycan Prezidenti Heydər Əliyev Dağıstan nümayəndələri – ağsaqqallarla

görüşdü. Burada Azərbaycan Prezidentinin dediklərinə diqqət yetirək:- «aramızda sərhəd şərti xarakter daşıyır. Əsrlər boyu azərbaycanlı, avar, saxur, kumık, dargin, ləzgi və digər millətlərin və etnik qrupların nümayəndələri həmrəylik şəraitində yaşamış və qaynayıb qarışmışlar» [43, 26 oktyabr, 1993]. H.Əliyevin azsaylı xalqlara münasibətdə dediyi fikirlər də yeni müstəqillik qazanmış Azərbaycan dövlətinin digər xalqlara qarşı yürütdüyü siyasətin göstəricisidir:- «Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir» [36, s.103].

Bundan sonra azsaylı xalqların nümayəndələri ilə görüşlərin keçirilməsi daimi xarakter aldı. «H.Əliyevin təşəbbüsü və göstərişi ilə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix, adət-ənənələrinin və.s. qorunub saxlanmasına, inkişaf etdirilməsinə qanuni zəmin yaradıldı. Bu məqsədlə onlara müntəzəm şəkildə maliyyə yardımları göstərildi» [57, s.79].

Beləliklə Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Rusiyanın təzyiqlərinin qarşısı müəyyən qədər alındı. Müxtəlif dövlətlərin bütövlükdə Qafqaz regionu və bilavasitə Azərbaycan üzərində kök1ənmiş ambisiyaları və maraqlarını dəqiq müəyyənləşdirmək, çevik manevrlər etməklə Azərbaycanın mənafelərinin qorunub saxlanması istiqamətində siyasət həyata keçirildi. Azərbaycan Qərb dövlətləri ilə yanaşı Rusiya ilə də əməkdaşlığı inkişaf etdirdi və bu dövlətin siyasi və iqtisadi maraqlarının reallaşdırılmasına imkan yaratdı. Rusiya ilə münasibətləri normallaşdırmaq və onun təzyiqlərinin qarşısını almaq üçün fəal əməkdaşlıq, qarşılıqlı dialoq və kompromislər variantından istifadə edildi.

Lakin təəssüf ki, Qafqaza yiyələnmək niyyətindən əl çəkməyən Rusiyanın yürütdüyü ziddiyyətli siyasət Azərbaycanla tam olaraq normal münasibətlərin qurulmasına imkan vermədi. Ermənistanın silahlandırılması ilə Azərbaycana qarşı təzyiqlər davam etdirildi.



## 2.2 Etnik separatizm problemləri və milli ayrı-seçkilik cəhdləri

Bütün keçmiş Sovet İttifaqı ərazisində olduğu kimi 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Qafqazda da müstəqilləşmə prosesi başladı və bu proses müxtəlif etnosiyasi problemlərin yaranması ilə özünü büruzə verdi. Bəzi təşkilatlar, hərəkatlar və qruplar «hər hansısa bir xalqın, azadlığı, rifahı» pərdəsi altında yaradıldı, siyasi məqsədlər üçün istifadə edildi, sonradan isə bir sıra ölkələr məsələn, Rusiya tərəfindən alətə çevrildi. Qafqazda sırf milli maraqlardan çıxış edən, rasional təfəkkürə əsaslanan hərəkatlar, təşkilatlarla yanaşı, ideologiyasının əsasında separatçılıq dayanan və vasitəyə çevrilən ekstremist təşkilatlar da yarandı. Bu cür qurumlar dövlətlərarası münasibətlərin kəskinləşməsinə gətirib çıxaran, münaqişəyə səbəb olan çıxışlardan, fəaliyyətdən belə çəkinmədilər.

«Ləzgi kartı» SSRİ-nin iflası ilə bir dövrdə ortaya atıldı. Düzdür bir sıra ədəbiyyatlarda «ləzgi məsələsi», «ləzgi amili», «ləzgi problemi» *kimi ifadələrdən istifadə edilir. Lakin* məsələyə bu cür yanaşma düzgün deyil, tarixdə «ləzgi məsələsi», «ləzgi problemi» kimi bir problem olmadığından müasir dövrdə ortaya atılan və Azərbaycan-Rusiya münasibətlərinə birbaşa təsir edən də məhz «ləzgi kartı» dır. Bu problemin süni surətdə yaradılmasında SSRİ-ni və sonradan Rusiyanı günahlandırmaq olar. Bu məsələdə «Sadval» və «Ləzgi Milli Şurası» nın «xüsusi fəaliyyəti» ndən istifadə olundu.

Fəaliyyətinin əsasını separatizm təşkil edən bəzi ləzgi təşkilatları sovet rejiminin çökdüyü bir mərhələdə yaradılmağa başladı. *1990-cı ilin iyununda Dağıstanın Belicə kəndində* «Sadval» ın təsis qurultayı keçirildi və burada belə bir şüar irəli sürüldü ki, ləzgilərin suveren dövləti yaradılmalıdır. Başlıca məqsəd Azərbaycanın şimal, Dağıstanın cənub əraziləri hesabına suveren Ləzgistan dövləti yaratmaq hesab olundu (1991-ci ilin sentyabr ayında Dağıstanın Qasımkənd kəndində Sadvalın qurultayı çağırıldı və burada Ləzgistan dövləti elan edildi). «Sadval» ın proqramında qeyd olunurdu ki, hazırki mərhələdə RSFSR və Azərbaycanda yaşayan

ləzgilərin mədəniyyət, dil, ədəbiyyat, incəsənətin inkişafında çatışmamazlıqlar var [62, s.535]. Proqramda ləzgilərin normal siyasi, mədəni və sosial-iqtisadi cəhətdən inkişaf etməsi üçün RSFSR və Azərbaycanda ləzgilər yaşayan ərazilərin birləşdirilməsi nəzərdə tutulur [62, s.535]. «Sadval» ın 1990-cı ilin noyabrında Belicədə keçirilən II qurultayında Azərbaycan və Dağıstan Respublikalarının suverenliklərini qazanacağı təqdirdə ləzgi xalqının taleyinin necə olacağı məsələsi müzakirə edildi. Qurultayın qəbul etdiyi əsasnamədə yazılıb:- «Dağıstan və Azərbaycanın, ləzgi xalqının konstitusion hüquqlarını, xalqların ümumqəbulolunmuş milli özünütəyin qanun və prinsiplərini, SSRİ tərəfindən imzalanmış xalqların və insanların hüquqları haqda beynəlxalq aktları pozan suverenlik deklarasiyalarını rədd etmək» lazımdır. Əsasnamədə sonra qeyd olunur ki, «Rusiya, Azərbaycan və Dağıstan Ali Sovetlərinin nəzərinə çatdırmaq lazımdır ki, ləzgi xalqı öz torpaqlarının Azərbaycan və Dağıstan arasında bölüşdürülməsinin qanuniləşdirilməsi, siyasi, sosial-iqtisadi, mədəni və digər sahələrdə hüquqlarının pozulması ilə heç vaxt razılaşmayacaq... Əgər bizim səsimiz eşidilməsə ləzgi xalqı məsələnin beynəlxalq hüquq, insan və xalqlar haqqında ümumqəbulolunmuş prinsiplər əsasında həll etmək hüququnu özündə saxlayır. ...mümkün ağırlaşma halları bütünlüklə Rusiya, Azərbaycan, Dağıstan Ali Sovetləri və hökumətlərinin üzərinə düşür» [62, s. 582]. Bununla «Sadval» gələcəkdə millətlərarası münaqişəyə səbəb olacaq kriminal hərəkətlərə və terrorçuluğa gətirib çıxaran hallara haqq qazandırmaq, əvvəlcədən özünü sığortalamaq niyyəti güdürdü. Milli təəssübkeşlik pərdəsi altında əslində sadvalçılar ekstremizmə şərait yaratdılar.

Ləzgistan dövləti qurmaq uğrunda mübarizədə «Sadval» la birlikdə «Ləzgi Milli Şurası» da aktivlik göstərdi. 1990-cı il noyabrın 9-da yaradılan bu quruma 1991-ci ilin martından Nəriman Ramazanov (N. Ramazanov 1996-cı ildə Azərbaycan ərazisində təxribatçılıq üstündə həbs edildi. Konkret olaraq dəmir yolunun kəsilməsi və girov götürmə cinayətlərində ittiham olundu - R. R) rəhbərlik etməyə başladı. «Ləzgi Milli Şurası» «Sadval» la birlikdə vahid mövqedən çıxış etdi və N.Ramazanov «Sadval» ın liderlərindən birinə çevrildi. 1992-ci ilin fevral ayında «Ləzgi Milli Şurası» nın sessiyasında Rusiya, Azərbaycan və Dağıstan respublikalarının Ali Sovetlərinə müraciət qəbul olundu. Müraciətdə deyilir:- «SSRİ-nin ləğvi, MDB xalqlarının suverenliyinin bərpası, sərhədlərin müəyyən edilməsi ilə bağlı olaraq hüquqi nöqteyi-nəzərdən ləzgi xalqının Rusiyanın tərkibinə (Dağıstana) keçməsi avtomatik surətdə bərpa olunur. Beləliklə, Azərbaycan Respublikası öz suverenliyini elan etdiyi və dövlət müstəqilliyi haqqında qanun qəbul etdiyi andan Azərbaycan SSRİ-nin ləzgi əhalisi Azərbaycan Respublikasının qanunvericilik nəzarətindən çıxaraq onların (yəni Azərbaycan qanunlarının - R. R) icrasını ləzgilər üçün hüquqi cəhətdən vacib saymır» [41, 8 iyul, 1993].

Separatçı ləzgilər hərəkatın idealoji əsaslarını da yaratmağa cəhd etdilər. 1990-cı ildə Rizvanov qardaşları Mahaçqalada «Ləzgi xalqının tarixi» adlı kitab (Ризванов А., Ризванов М. История Лезгинского народа. Махачкала, 1989) çap etdirdilər. Burada deyilir ki, albanlar ləzgidillilər idilər və onlar Dərbənddən Araz çayınadək ərazidə yaşayırdılar [səh 82). Ləzgilərin qüvvətli tayfalarından biri olan ləzgilərin özləri Samurdan Kürə qədərki ərazidə hakim idilər. Bakı toponimi ləzgicədir, Arsakda (Dağlıq Qarabağ), Şəkidə, Şirvanda, Gəncədə, Qubada yaranmış xanlıqların torpaqları ləzgidilli xalqların ərazisi idi (səh 49). Görkəmli tarixçi - alim Qiyasəddin Qeybullayev (Q.Qeybullayev. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, Azərnəşr, 1994, 248 səh) Rizvanovların uydurma və tarixi həqiqətlərdən kənar yazılarına cavab verərək qeyd edir ki, hələ eramızdan əvvəl I minillikdə ölkənin (yəni indiki Azərbaycanın - R.R) hər iki hissəsində çoxluğu təşkil edən və ona görə aparıcı rola malik olan türkmənşəli etnoslar yaşayırdı (7). Albaniya heç vaxt indiki Dağıstanı (Quba xanlığı Rusiya

tərəfindən işğal edildikdən sonra Dağıstana birləşdirilmiş Samur – Dərbənd arası bölgəni çıxmaq şərtilə, çünki bu bölgə Dərbənd şəhəri daxil olmaqla tarixən Albaniyaya aid olmuşdur və 522-ci ilə qədər Alban xristian dini mərkəzi də Dərbənddən cənubda Çil şəhərində yerləşirdi) əhatə etməmişdir (səh 22). Alban etnosunun türk mənşəli olması haqqında konsepsiyamızın doğruluğunu eranın əvvəllərindən XI-XII əsrlərə qədər Albaniyanın toponimləri də təsdiq edir. Alazan – Albaniya və İberiya arasında sərhəd çaylarının birinin adı: al türkcə «geniş sahə», «böyük düzən» və özən – çay, vadi. Kür – Albaniyanın içərisindən axan çay. Türkcə Kür – bol (sulu), qüvvətli, sürətli, sarsılmaz, məğrur. Keravn – Albaniyanın şimal-şərqində Qafqaz dağlarında dağ adı. Türkcə qara və nay, nüy – meşə sözündəndir. Talqe – indiki Pirallahının adını e.ə. I əsrdə talqe kimi yazmışlar. Türkcə – saz, bataqlıq, gilli yer. Tosaren – Kür sahili bölgələrindən birinin adı. Türkcə tus – duz və aran – isti yer, düzən yer, qışlaq yer. Artsak – Albaniyanın dağlıq bölgəsinin bir hissəsinin adı. Türkcə art-dağlıq ərazi, yüksəklik sözü və sak etnonimindəndir. (188-189)

Fizik-alim Hacı Əbdürəhimovun «Qafqaz Albaniyası-Ləzgistan» kitabı da ləzgi separatçılarının fəaliyyətinə dəstək vermək və bu fəaliyyəti stimullaşdırmaqdan ibarətdir. 1995-ci ildə çap olunan kitab Azərbaycana qarşı faktlara əsaslanmayan böhtandan ibarətdir və demək olar ki, ekstremist alimin şəxsi təxəyyülünün məhsulu deyil, siyasi sifarişdir.

«Qafqaz Albaniyası-Ləzgistan» kitabı əsasən «Sadval» ın fəaliyyətinin elmi əsaslandırılması niyyəti ilə yazılıb. Kitab əvvəldən axıradək yalan və uydurmalar, faktların saxtalaşdırılması üzərində yazılıb və bu vəsaitinçap olunması millətlərarası münasibətləri korlamaq, ləzgi əhalisində Azərbaycan dövlətinə qarşı mənfi rəy yaratmaq məqsədi daşıyır. Kitabda yazılıb ki, «SSRİ-nin dağılması nəticəsində Dağıstan xalqlarının, xüsusilə Rusiya (Dağıstan) və Azərbaycan arasında ədalətsizcəsinə bölünmüş ləzgi xalqının taleyi faciəyə çevrilir. Rusiya, Azərbaycan və Dağıstan rəhbərliklərinə çoxsaylı müraciətlərə baxmayaraq ləzgi xalqının problemləri həll olunmur – o, (yəni ləzgilər - R. R) parçalanmış formada qalır, assimilasiya və diskriminasiyaya məruz qalır» [62, s. 589]. Əbdürəhimov assimilasiya və diskriminasiya dedikdə konkret nəyi nəzərdə tutur məlum deyil. Bu ifadələri işlətməklə müəllif heç bir faktlara istinad etmir, hər hansı bir assimilasiya yaxud diskriminasiya halını misal çəkmir. Ona görə ki, Azərbaycanda nəinki ləzgilər, ümumiyyətlə heç bir azsaylı xalq zorla hər hansı bir assimilasiyaya və diskriminasiyaya məruz qalmayıb. Buna uyğun hər hansı bir fakt da tapmaq çətindir. Əbdürəhimov yazır ki, Azərbaycanda ləzgilərin taleyi faciəvidir və onların problemləri həll olunmur, lakin misal olaraq Dağıstanı göstərir. O, qeyd edir ki, ləzgilərin yaşadıqları Axtı, Kurax (Dağıstan respublikasının ləzgilər yaşayan kəndləri – R.R) rayonlarında vəziyyət pisdir, işsizlik yüksək səviyyədədir [62, 5]. Kitabda narahatlıq doğurucu məqamlar çoxdur. Onlardan biri də odur ki, guya Azərbaycanda ləzgi tarixi öyrənilmir, xalqın milli ənənələri bütünlüklə unudulub. Onun sözlərinə görə qəzetlərdən və teleradio verilişlərindən söhbət gedə bilməz [62, 5]. Bu fikirlər bütünlüklə yanlışdır. Azərbaycanda ləzgilərin yaşadıqları rayonların məktəblərində ləzgi dili və ədəbiyyatı tədris edilir. Ləzgi uşaqları Azərbaycan, Ləzgi, Rus dilində təhsil almaq imkanlarına malikdirlər. Heç kim ləzgi uşaqlarını azərbaycandilli məktəbdə təhsil almağa məcbur etmir. «Sadval» ın əsassız çıxışları Azərbaycan ləzgilərinin məişət və mədəniyyət səviyyəsini görmək istəməməkdən irəli gəlir. Sadvalçılar iddia edir ki, Azərbaycanda ləzgilərdən təhsil almaları üçün təhsil pulu alınıb. Qeyd edək ki, azsaylı xalqların milli məktəblərinin bağlanması və təhsil almalarına görə pul verməlari sovet rejimi dövründə tətbiq edildi. Bu qanunlar təkcə Azərbaycana və burada yaşayan ləzgilərə deyil, İttifaqın bütün ərazisinə və bütün azsaylı xalqlara şamil edilmişdi. 1956-cı ildə bu qanun ləğv edildi.

Artıq uzun illərdir ki, Azərbaycanda ləzgilər öz etnomədəniyyətlərini, adət-ənənələrini açıq və azad şəkildə inki-

şaf etdirirlər. Ləzgilərin dörd mətbuat orqanı var və respublika səviyyəli radio, yerli səviyyəli radio-televiziyalarda ləzgi dilində verilişlər efirə çıxır. Əbdürəhimov bildirir ki, «Azərbaycan rəhbərliyi tərəfindən gənclər (yəni ləzgi gənslər-R.R) güc yolu orduya çağırılıb...Bütün bu repressiv metodlar Azərbaycanın kiçiksaylı xalqlarına qarşı yönəlib» [62, s. 589]. Guya «Qarabağ döyüşlərində həlak olan ləzgilərin böyük əksəriyyətini arxadan vurublar» və Azərbaycanda «ləzgilərə qarşı əsl genosid həyata keçirilir» [62, 589]. Bütün bunlar əlbəttə ki, xəstə təxəyyülün məhsuludur və millətlərarası münasibətləri korlamaq məqsədi daşıyır. Müəllifin dediklərinin əksinə olaraq Qarabağ döyüşlərinin aktiv dövründə Azərbaycanda yaşayan bütün azsaylı xalqlar Azərbaycan vətəndaşları olaraq orduya çağırılmış və bu məsələdə heç bir ayrıseçkilik edilməmişdir. Ləzgilər Qarabağ döyüşlərində erməni təcavüzkarlarına qarşı qəhrəmanlıqla döyüşüblər. Məsələn Qusar rayonu 41 nəfər şəhid verib, Xaçmaz rayonunun 150 nəfər şəhidinin 23 nəfəri ləzgidir. Qeyd edək ki, Azərbaycan türkləri azsaylı xalqlara nisbətdə daha çox itki verib, genosddən isə söhbət belə gedə bilməz, çünki bunu təsdiq edən hallara rast gəlinməyib və ümumiyyətlə genosid sözünü işlətmək kökündən yanlışdır. Əbdürəhimov qeyd edir ki, «Türkiyə ilə Azərbaycan arasında sərhədlər şəffaf olan təqdirdə vəziyyət bir qədər də ağırlaşacaq. Rusiya imkan verərmi Türkiyədən və digər ölkələrdən arzuolunmayan elementlər azad şəkildə Rusiyaya daxil olsun? Əlbəttə yox! Buna görə də Rusiya mütləq istəyəcək ki, Azərbaycanla ciddi dövlət sərhəd rejimi yaratsın» [62, s. 587].

Göründüyü kimi burada Əbdürəhimov münaqişəyə təhrikedici fikirlərlə dövlətlərarası münasibətləri gərginləşdirmək missiyasında çıxış edir, Rusiyanı Azərbaycana və Türkiyəyə qarşı qoyur. Sonra müəllif yazır:- «Faktiki olaraq Rusiya hakimiyyəti üçün sərhəddin haradan-Samur üzrə yaxud başqa yerdən - keçməsinin elə bir mənası yoxdur. Onun (Rusiya nəzərdə tutulur - R. R) üçün sərhəddin Samur üzrə müəyyənləşdirilməsi daha rahat və az problemlidir. Buna görə də o çalışır ki, bu sərhəddi bütün doğru və yalanlara rəğmən qursun. Sərhəddin Samur çayı üzrə keçməsi Azərbaycana da sərfəlidir, ona görə ki, ləzgi və digər Dağıstan xalqlarının məhsuldar torpaqlarını o (yəni Azərbaycan - R.R), onları işğal etməklə iki mənada udacaq. Faktiki olaraq Azərbaycandakı ləzgi torpaqları Azərbaycan qoşunları tərəfindən işğal edilib, azərbaycanlı-qaçqınların bizim torpaqlara məskunlaşdırılması ilə demoqrafiq vəziyyət dəyişilir» [62, s. 587].

Qeyd edək ki, Azərbaycan qoşunlarının ləzgi torpaqlarını işğal etməsi fikri tamamilə yanlışdır və bu fikrin haradan götürüldüyü, müəllifin hansı faktlara əsaslandığı məlum deyil. Bu tamamilə məntiqsizdir, Azərbaycan dövləti nəyə görə öz ərazisini işğal etməlidir? Azərbaycan qaçqınlarının ləzgilərin yaşadığı ərazilərə məskunlaşdırılması da yanlışdır. Hökumətin belə bir proqramı yoxdur, Azərbaycan vətəndaşları ölkənin hər hansı bir yerində azad surətdə məskunlaşa və yaşaya bilərlər, bu prinsiplər Azərbaycan Respublikası Konstitutsiya ilə qorunur. Göründüyü kimi burada başlıca məqsəd ağılasığmaz yalanlarla ictimai fikri çaşdırmaq, kiçiksaylı xalqlarda Azərbaycan dövlətinə qarşı mənfi rəy formalaşdırmaqdır.

H.Əbdürəhimov «Qafqaz Albaniyası-Ləzgistan» kitabında yazır ki, rəsmi statistikaya görə ləzgilər 634 min nəfərdir, əslində isə onların sayı bir milyondan çoxdur. Guya Azərbaycanın 26 rayonunda ləzgilər (əhalinin kompakt halda yaşaması nəzərdə tutulur – R. R.) yaşayır və Azərbaycanda ləzgilərin sayı 350 mindir.

Lakin bütün bunlar yanlışdır. Ləzgilər başlıca olaraq Qusar, Xaçmaz, Göyçay, Qəbələ, Oğuz, İsmayıllı rayonları ərazisində yaşayırlar. «1989-cu ildə keçirilən Ümumittifaq siyahıyaalınması zamanı SSRİ ərazisində ləzgilərin sayının 466.000 min nəfər olduğu müəyyənləşdi. Bunun 257.270 min nəfəri Rusiya Federasiyasının, 172 min nəfəri Azərbaycanın payına düşür» [34, s.249].

Kitabın əlavə hissəsində «Sadval» ın rəsmi sənədləri,

müxtəlif təşkilatlara müraciətləri haqqında məlumat verilib. Burada «Talış Muğan Respublikası» adlı qondarma bir qurum haqqında da informasiya var. Separatizmi təbliğ etməklə Əbdürəhimovun hansı niyyətlərə qulluq etdiyi, Azərbaycana qarşı təxribatçılığı bir daha sübut olunur. Ümumiyyətlə, kitabda şübhə doğuran və tarixi faktlara uyğun gəlməyən məqamlar kifayət qədərdir.

Qeyd edək ki, Rusiyanın ləzgi məsələsində və «Sadval» ın fəaliyyətinə münasibətdə mövqeyi birmənalı deyildi və ikili standartlardan istifadə olundu. 1990-cı ildən etibarən ləzgi separatçılarının başladığı suveren Ləzgistan dövləti uğrunda mübarizə artıq lokal səviyyədən dövlətlərarası səviyyəyə qədər inkişaf etdi. «Sadval» ın Azərbaycanın suveren dövlət hüquqlarını pozan çıxışlarının, Azərbaycana qarşı ərazi iddialarının qarşısı alınmadı, əksinə bu təşkilat dövlət qeydiyyatından keçirildi və dəstəkləndi. Rusiya Kütləvi İnformasiya Vasitələri «ləzgi məsələsini» dramatikləşdirməkdə xüsusi rol oynadılar. Azərbaycan Rusiya mediası tərəfindən hələ 90-cı illərin əvvəllərindən başlayaraq hədəfə alındı. Qeyd edək ki, kəşfiyyat orqanlarının görə bilmədiyi işi KİV yerinə yetirdi. «Независимая газета», «Комсомолская правда», «Известия», «Литературная газета», «Российская газета» kimi qəzetlər ardıcıl olaraq sadvalçıların çıxışlarına öz səhifələrində yer ayırdı və antiazərbaycan yazılar dərc etdilər. Məsələn, «Литературная Россия» qəzetinin 1991-ci il 13 may tfrixli sayındakı bir məqalədə Azərbaycana qarşı açıq-aşkar ittihamlar irəli sürüldü. Bu yazıda («Отчая земля - не просто почва») ləzgilərin öz tarixi dövlətlərinin olduğu, Rusiya və Azərbaycanda yaşayan ləzgilərin yenidən bir dövlət formasında birləşməsinin vacibliyi göstərilir. Məqalədə qeyd olunur ki, iki yerə ayrılan, təxminən bir milyonluq ləzgi xalqı vahid mədəniyyətlərini inkişaf etdirmək, tarixlərini qoruyub saxlamaq, təsərrüfat, iqtisadi və ekoloji problemlərini həll etmək imkanından məhrum ediliblər. «Российская газета» 1992-ci il 10 sentyabr sayında «Samur çayı qurumağa başlayır» adlı məqalə dərc etdi. Bu yazıda Rusiya-Azərbaycan sərhədləri qovuşağında Ləzgistan muxtar qurumunun yaradılması ideyası ortaya qoyulur.

1992-ci il noyabrın 14-də RF Ali Soveti sədrinin müavini, Millətlər Şurasının sədri Ramazan Əbdülətipovun başçılığı ilə bir qrup deputat Azərbaycana səfər etdi və səfər müddətində deputatlar Azərbaycandakı azsaylı xalqların nümayəndələri ilə görüşdülər. «Onlar «Samur» («Samur» milli mərkəzi 1990-cı ildə yaradılıb və 1992-ci ildə Azərbaycan Respublikası Ədliyyə nazirliyində dövlət qeydiyyatına alınıb - R. R) ləzgi mədəniyyət mərkəzinin nümayəndələri ilə görüşdə təsdiq etdilər ki, Rusiya Kütləvi İnformasiya Vasitələri millətlərarası münasibətləri qızışdıran materiallarla çıxış edir. Bu məsələ barədə R.Əbdülətipovun fikirlərinə diqqət yetirək:- «Rusiya-Azərbaycan münasibətlərindəki soyuqluqdan bəzi siyasi qüvvələr istifadə etməyə çalışırlar. Lakin biz bir-birimizlə tarixi, ərazi, iqtisadi və dini cəhətdən bağlıyıq və heç kimə imkan verməməliyik ki, bizi ayırsın» [65, 14 noyabr, 1992].

Artıq 1992-ci ildən başlayaraq ləzgi ekstremistlərinin Dağıstanda təşkil etdikləri nümayişlər, çıxışlar daimi xarakter aldı. Məsələn, 1992-ci ilin fevralında sadvalçılar Dağıstanın cənub rayonlarında mitinqlər təşkil etdilər və bu mitinqlərdə ləzgilərə qarşı edilən ədalətsizliklərin aradan qaldırılması, parçalanan xalqın hüquqlarının bərpası, Ləzgistan dövlətinin yaradılması şüarları səsləndi. Maraqlıdır ki, «Sadval» ın Azərbaycana qarşı başladığı kompaniyanın belə bir qızğın vaxtında, 1992-ci ildə bu təşkilat Moskvada beynəlxalq qurum kimi qeydiyyatdan keçirildi. Sonradan «Sadval» ın fəaliyyəti Rusiya hakimiyyət orqanlarını qane etmədi və 1993-cü ildə təşkilatın qeydiyyatı ləğv olundu. «Sadval» ın müstəqil Ləzgistan dövləti yaratmaq çıxışları Rusiyanın maraqlarına cavab vermədi, çünki Rusiya ancaq Federasiya tərkibində Ləzgistan muxtariyyatının yaradılmasını dəstəkləyirdi. Tam suverenlik, ayrıca dövlət qurmaq mümkün ola bilməzdi. Maraqlıdır ki, «Sadval» strategiya-

sında düzəlişlər (1993-1994) etdikdən, yəni suveren Ləzgistan dövləti yox, Rusiya Federasiyası daxilində Ləzgistan müxtariyyatı ideyasını ortaya qoyduqdan sonra Rusiya hakimiyyət orqanları tərəfindən bu qurumun qeydiyyatı bərpa olundu.

Azərbaycan nümayəndələrinin «Qafqaz evi» nin fəaliyyətində iştirakı 1992-1993-cü illərdə ləzgi məsələsinin kritik səviyyəyə çatması ilə müşaiət olundu. Bu illərdə «Sadval» Azərbaycana qarşı açıq «hücuma» keçdi. Şübhəsiz ki, Rusiyanın ləzgi məsələsini qloballaşdırmaq, onu böyük bir milli problem səviyyəsinə çatdırmaq cəhdi və «Sadval» a himayədarlıq etməsinin bir səbəbi də Azərbaycanı «Qafqaz evi» ndən kənarda qalmağa məcbur etmək idi.

Beləliklə bütün təxribatçı cəhdlərə baxmayaraq süni surətdə yaradılan etnik separatizm probleminin aradan qaldırılması ilə bağlı 1992-ci ildən etibarən Azərbaycan və Rusiya parlamentarları, hökumət nümayəndələri səviyyəsində danışıqlar keçirildi. 1992-ci ilin oktyabr ayında Rusiya deputat qrupunun tərkibində Dağıstan Ali Sovetinin deputatı, sadvalçı Nəriman Ramazanov da Azərbaycana gəldi. Rusiyalı deputatlarla görüşən Azərbaycan Prezidenti Əbülfəz Elçibəyin fikirlərinə diqqət yetirək: - «Ləzgi məsələsi Azərbaycan və Rusiyanın problemidir, ləzgi xalqını bir-birindən ayırmamaq üçün sərhədləri şəffaf saxladıq» [38, 20 oktyabr, 1992]. Şimali Qafqaz hadisələrinə münasibətdə Azərbaycan Prezidenti Rusiyanın daxili işlərinə qarışmadığını bəyan etdi. Buradan belə nəticə çıxarmaq olar ki, Azərbaycan dövləti rəsmi olaraq Çeçenistan hadisələrində neytral mövqe nümayiş etdirməklə «ləzgi məsələsində» Rusiyanın konstruktiv mövqe tutmasına çalışdı. Ona görə ki, «ləzgi kartı» nı Rusiya öz əlində saxlayırdı və bu məsələdə Rusiya həlledici gücə malik idi.

Azərbaycan-Rusiya sərhəddində sərhəd rejiminin gücləndirilməsi və 1992-ci ildən başlayaraq bu ərazidə əlavə sərhəd zastavalarının, nəzarət-buraxılış məntəqələrinin yaradılması «ləzgi məsələsi» ilə bağlı bir sıra çətinliklər yaratdı. Rusiyanın Azərbaycan-Dağıstan sərhəddini hərbiləşdirməsi ləzgilərin etirazı ilə qarşılandı və «Sadval» yeni təxribatçılıq planları hazırlayaraq günahın Azərbaycanda olduğunu, guya Azərbaycanın Dağıstanda və Azərbaycanda yaşayan ləzgi əhalisinin bir-biri ilə əlaqəsini kəsdiyini bildirdi, Azərbaycana qarşı ittihamlarla çıxış etdi. «Sadval»-ın (1992-1993-cü il) mitinqlərində Azərbaycana qarşı «sərhəd ittihamları» edildi. Əslində isə Azərbaycan hakimiyyəti Azərbaycan-Rusiya sərhəddinin şəffaflığı prinsipini təklif etdi. 1992-ci ilin oktyabrında keçirilən Azərbaycan-Rusiya danışıqlarında sərhəd məsələsi müzakirə edildi və sərhədlərin şəffaf saxlanılması razılığı əldə olundu. Rusiya Dövlət Dumasının «Smena» fraksiyasını təmsil edən Oleq Plotnikov Bakı görüşündə (1992-ci il) bəyan etdi ki, yaranmış vəziyyətdən yeganə çıxış yolu sərhədlərin açıq olmasıdır. Rusiyalı deputat Sergey Markovun fikirləri isə daha böyük maraq kəsb edir:- «sərhədlərin pozulmazlığı prinsipi millətlərin öz müqəddəratını təyinetmə hüququndan yüksəkdə dayanmalıdır» [54, 22 oktyabr, 1992].

Göründüyü kimi sərhədlərin toxunulmazlığı və şəffaflığı prinsipi üzərində bir sıra Rusiya deputatları da dayandılar və bu ümumbəşəri prinsipin pozulmazlığını qəbul etdilər. Azərbaycanın müdafiə etdiyi sərhədlərin şəffaflığı prinsipi ləzgi xalqına münasibətdə çox humanist bir addım idi. Rusiya isə sərhədlərin şəffaf saxlanması prinsipinə riayət etmədi, sərhədlər hərbiləşdirildi.

1993-cü ildə Rusiya hökuməti ləzgi məsələsinə münasibətdə bir sıra taktiki gedişlər eidi. Rusiyanın ortaya qoyduğu planın əsas mahiyyəti Dağıstanla Azərbaycan arasında Azad İqtisadi Zonanın yaradılması idi. 1993-cü ildə Dağıstan hökuməti «Parçalanmış ləzgi və Dağıstan respublikasının digər xalqlarının problemlərinin həlli məsələləri haqqında» əsasnamə qəbul edib. Çox keçmədən RF hökuməti bu tədbirə rəğmən 1993-cü il iyulun 15-də «Dağıstan Respublikasının sosial-iqtisadi inkişafının əlavə tədbirləri haqqında» əsasnamə qəbul etdi və RF Xarici İşlər nazirliyi ilə Dağıstanın Millətlər və Xarici Əlaqələr nazirliyi arasında

Dağıstan tərəfinə regional siyasətin həyata keçirilməsi, respublikalararası, regional müqavilələrin hazırlanması və imzalanmasında müəyyən qədər səlahiyyətlərin verilməsi haqqında protokol da imzalandı. Sonradan 1994-cü ildə Azərbaycanla Rusiya arasında Azad İqtisadi Zona yaradılması barədə müqavilə imzalandı. Gələcəkdə belə bir zonanın yaradılması sərhədyanı bölgələrin inkişafını nəzərdə tuturdu. Lakin bu məsələdə bir çox məqamlar var ki, bunlar da sual doğurur. Qeyd edək ki, Rusiyanın Dağıstan-Azərbaycan sərhəddini hərbiləşdirdiyi, sərhəd rejimini sərtləşdirdiyi bir dövrdə Azad İqtisadi Zonanı yaratmaq praktiki baxımdan mümkün olan bir iş deyildi. Rusiya sərhədlərin şəffaf saxlanılması prinsipinə riaət etmirdi və əslində bunun əksi baş verirdi. Azərbaycan-Dağıstan sərhəddində zastavalar, nəzarət buraxılış məntəqələri tikməklə, sərhədlərin şəffaflığı prinsipi pozulurdu. Rusiyanın Çeçenistanla münasibətlərinin gərginləşməsi Azərbaycanla Rusiya arasında sərhəd problemini bir qədər də kəskinləşdirdi və bu da Azad İqtisadi Zona ideyasının reallaşmasını əngəlləyən əlavə bir faktora çevrildi. Göründüyü kimi o dövr üçün Azad İqtisadi Zonanın yaradılması məsələsi reallıqdan uzaq olub və bu səbəbdən də ancaq kağız üzərində qalıb.

Bir məsələyə xüsusi diqqət yetirmək lazımdır ki, «Sadval» öz fəaliyyətində terrorçuluğa da əl atdı. Bu, çox təhlükəli bir tendensiya idi. Sadvalçıların terrorçuluq fəaliyyəti 1992-ci ildən başlayaraq intensiv xarakter aldı. Həmin ildən etibarən Ermənistanın xüsusi xidmət orqanları «Sadval» ın liderləri ilə sıx əlaqə yaradaraq bu təşkilatın üzvlərini Azərbaycan ərazisində təxribat xarakterli aksiyalar keçirməyə təhrik etdilər.

Azərbaycanın şimal-şərqində «ikinci cəbhənin» açılması, bu bölgədə yeni milli münaqişə ocağının yaradılması məqsədilə sadvalçılarla ermənilər birgə intensiv hazırlıq işləri gördülər. Azərbaycan MTN-nin məlumatlarına görə 1992-ci ilin aprelində Ermənistandan Dağıstanın Axtı rayonuna «Sadval» ın yaraqlıları üçün silah, partladıcı maddələr və s. gətirildi və Azərbaycanın Şimal rayonlarında təşkilatın fəallarına paylandı. 1992-ci ilin aprel-may aylarında «Sadval» vasitəsilə bir qrup Azərbaycan vətəndaşı Ermənistanın Nairi rayonunun Lusoker qəsəbəsində təlim-məşq toplanışı keçdi. 1993-cü ilin iyun ayında, qondarma «Talış-Muğan respublikası» nın yaradılması ərəfəsində «Sadval» öz separatçı niyyətlərini həyata keçirmək üçün Qusar rayonunun Zuxul kəndindəki sərhəd məntəqəsinə silahlı basqın etdi» [20, 16 iyul, 1996]. Ermənistan-Azərbaycan müharibəsi gedişində Azərbaycanın şimalında «Sadval», cənubunda isə «Talış Muğan Respublikası» adlı qondarma qurumun separatçılıq fəaliyyəti ölkədə etnosiyasi vəziyyəti bir qədər də kəskinləşdirdi. Bu dövrdə (1993) Azərbaycanda hakimiyyət dəyişikliyi baş verdi və hakimiyyətə Heydər Əliyev gəldi. Bundan sonra Azərbaycan-Rusiya münasibətlərində yeni mərhələnin başlanması ləzgi məsələsində də özünü göstərdi. Azərbaycan hakimiyyətinin «ləzgi məsələsinə» münasibətdə tutduğu mülayim xətt və konstruktiv mövqe inkişaf etdirildi. Dağıstanın hökumət orqanları, nüfuzlu şəxslər, ağsaqqallar və ziyalılarla dialoqa üstünlük verildi. Azərbaycanda yaşayan ləzgilərin etnik, dil, mədəni-elmi, iqtisadi inkişafına əvvələr olduğu kimi böyük yer ayrıldı. Milli azlıqların nümayəndələri ilə görüşlər mütəmadi xarakter aldı.

Qeyd edək ki, «Sadval» və «Ləzgi Milli Şurası» nın Azərbaycanda həyata keçirməyə çalışdıqları ləzgilərin dövlətə qarşı kütləvi etiraz hərəkatı baş tutmadı. Sadvalçılar əhalini qızışdırmaq üçün 1993-cü il noyabrın 24-də Azərbaycan-Rusiya sərhəddində mitinq keçirdilər. Burada onlar 1993-cü ilin martında Azərbaycanda törətdikləri cinayət əməlinə görə həbs edilmiş 13 nəfər sadvalçının ağır şəraitdə işgəncələr altında saxlanması barədə ictimaiyyətdə mənfi fikir formalaşdırmağa cəhd etdilər. Mitinqlərdə Azərbaycan əleyhinə şüarlar səsləndi, Ermənistanın Azərbaycana təcavüzü açıqdan-açığa müdafiə edildi. Ekstremislər Azərbaycanın ləzgi vətəndaşlarını orduda qulluq etməməyə çağırdılar.

Lakin Azərbaycanda yaşayan ləzgilərin böyük əksəriyyəti «Sadval» ın təxribatlarına qarşı çıxdılar. Məsələn, 1993-cü ilin dekabr ayında «Samur-Ləzgi» mədəniyyət mərkəzinin ümumi yığıncağında belə fikirlər səsləndi ki, «son vaxtlar separatçı qüvvələr düşdüyümüz ağır vəziyyətdən istifadə edib «ləzgi kartı» nı işə salmaq və Azərbaycanın Dağıstanla həmsərhəd bölgələrində milli qarışıqlıq yaratmaq istəyirlər. «Vesti» (Rusiya Dövlət Televiziya Kanalının «Xəbərlər» proqramı - R. R) proqramında bu bölgədəki mitinqlərin nümayiş etdirilməsi, qondarma «Ləzgi dövləti» nin yaradılması ilə əlaqədar «sadval»çıların üzdəniraq təxribatları buna misaldır. ... heç bir qüvvə ləzgi xalqını Azərbaycana qarşı təxribata qaldıra bilməz. Dağıstan ləzgilərinin Azərbaycanda yaşayan ləzgilərin işlərinə qarışmağa haqları yoxdur» [44, 7 dekabr, 1993]. Azərbaycan Respublikasında yaşayan ləzgi ictimaiyyətinin 1993-cü ilin dekabrında keçirilmiş mitinqdə toplantı iştirakçıları Sadval və Dağıstanda elan edilmiş Ləzgi Milli Şurası deyilən təşkilatın separatçı, ekstremist qüvvəllərinin təşkil etdikləri qeyri-qanuni və məsuliyyətsiz mitinqləri, piketləri pisləmiş və Sadvalın, eləcə də Ləzgi Milli Şurasının separatçı, ekstremist qüvvələrinin suveren Azərbaycan dövlətinin daxili işlərinə qarışmaq, Azərbaycan və ləzgi xalqları arasındakı tarixi dostluq, qardaşlıq münasibətlərini pozmaq cəhdlərinə qətiyyətlə etiraz etmişdir. Azərbaycan ləzgi ictimaiyyətinin 1993-cü il dekabr toplantısı ekstremist ləzgi təşkilatlarının 1993-cü ilin oktyabr-noyabrında Azərbaycan-Rusiya sərhəddinin keçid məntəqəsində keçirdikləri mitinqlərdən sonraya təsadüf etdi və bu aksiyalara cavab xarakteri daşıdı. 1994-cü ilin iyun ayında sadvalçılar Azərbaycan respublikasının Qusar rayonunun Piral kəndində ixtişaş törətdilər. Bu hadisə ilə əlaqədar həbs olunanlar arasında Rusiya vətəndaşları da var idi. «Piral hadisələrindən» sonra Qusar rayonunun ləzgi ictimaiyyətinin yığıncağı oldu (1994, iyun) və burada prezident Heydər Əliyevə müraciət qəbul olundu. Müraciətdə deyilir ki, «rayonda sabitliyin... qorunub saxlanılması uğrunda gedən



mübarizənin səmtini şəxsi məqsədlərə, kürsü iddialarına istiqamətləndirmək istəyən qüvvələr hələ də qalmaqdadır. Bu qüvvələr mövcud sosial-iqtisadi problemlərdən istifadə edərək xalqlarımız arasında qarşıdurma yaratmağa çalışırlar... Belə fitnələr, təhriklər heç vaxt xalqlarımızın dostluğunu, qardaşlığını sarsıda bilməyəcəkdir» [3, 29 iyun, 1994].

Azərbaycan hüquq-mühafizə orqanları onlarla sadvalçını təxribatçılıqda, terror aksiyaları törətməkdə, qanunsuz silah gəzdirmək və silah qaçaqmalçılığı ilə məşğul olmaq üstündə həbs etdi. Terrorçuluq əməlləri ilə bağlı kifayət qədər faktlar, sübutlar var. Məsələn, 1994-cü ilin martında Bakı metrosunun partladılmasında sadvalçıların əli olduğu sübut olundu. «Sadval» - ın həbs olunan 11 üzvü cinayət törətdiklərini və Ermənistan Respublikası ərazisində hazırlandıqlarını təsdiq etdilər. Həbs olunan «Sadval» çı Azər Kərimov da təsdiq edib ki, hazırlıq Ermənistan bazalarında keçirilib. Azərbaycan MTN tərəfindən aparılan istintaq vaxtı 1994-cü ilin martın 19-da Bakıda metronun «Sadval» təşkilatının üzvlərinin partlatdığı aydın oldu.

«Sadval» ın liderlərindən olan Ruslan Aşurəliyev də Ermənistan xüsusi xidmət orqanlarının ləzgilərdən istifadə etdiyini etiraf etdi. O, «Nezavisimaya qazeta»ya müsahibəsində bildirdi ki, «erməni xüsusi xidmət orqanları əsəbi ləzgilərdən istifadə edib, onlar maliyyələşdirilib, silahla təhciz olunub və xüsusi bazalarda Azərbaycana qarşı qanunazidd hərəkətlər etmək üçün hazırlanıb» [116, 18 dekabr, 1999]. Əlbəttə ki, R.Aşurəliyev «əsəbi ləzgilər» ifadəsi işlətməklə «Sadval» ın terrorçuluq fəaliyyətinin ört-basdır etməyə çalışdı.

Qeyd edək ki, artıq 1996-97-ci illərdən Dağıstan ərzasində «Sadval» ın hərbi bazalarının olduğu və bu bazalarda təlim keçirilməsi faktları ortaya çıxdı. «Sadval»- ın daha təhlükəli və qorxulu varianta əl atmasını, silahlı münaqişəyə hazırlaşmasını sübut edən tutarlı faktlar Azərbaycan MTN-nin məlumatında göstərilib. Burada deyilir:- «İlin (1996) əvvəllərində separatçı qüvvələr tərəfindən Azərbaycan-Rusiya sərhəddində silahlı aksiya planlaşdırıldığı barədə

mə'lumatlar alınmışdı. ...təxribatın hazırlanmasına Rusiya vətəndaşı, Dağıstan respublikası Süleyman Stalski rayonunun sakini, Rusiya müsəlmanlar ittifaqının fəallarından Kasumov Asul Rasuloviç başçılıq edir. A.Kasumov Dağıstanın müxtəlif rayonlarında və Azərbaycan ərazisində əsasən dindar gənclər arasında qızışdırıcı təbliğat aparmaq, onları Rusiya qanunlarına qarşı «cihada» qaldırmağa cəhd göstərirdi» [48, 4 may, 1996].

Hazırlanmış plana əsasən, təxribatçı dəstələr 1996-cı ilin may ayının ortalarında gizli surətdə sərhəd boyu Azərbaycan və Dağıstan ərazilərində cəmləşməli və sərhəd məntəqələrini dağıtmaq məqsədilə eyni vaxtda silahlı hücuma başlamalı idilər.

Terrorçu A.Kasumov 1996-cı il aprelin 21-də Azərbaycan ərazisində həbs edildi. O, bu aksiyaları həyata keçirmək üçün Dağıstan Respublikasının Axtı, Xiv, Məhərrəmkənd, Qasımkənd, Rutul və digər rayonlarında «dini qurum» adı altında hər biri 25-30 nəfərdən ibarət 10-a qədər silahlı dəstə yaratdığını, onları müxtəlif növ silah, döyüş sursatı və partlayıcı maddələrlə təchiz etdiyini boynuna aldı. «... A.Kasumov 1993-cü ildən etibarən sadvalçılarla birgə dəfələrlə Dağıstan və Azərbaycan sərhəddində icazəsiz mitinqlər, piketlər təşkil etmiş, sərhəd məntəqələrində və nəqliyyat kommunikasiyalarında təxribatlar törətməyə çağıran çıxışlar etmişdir» [48, 4 may, 1996].

Azərbaycan-Rusiya sərhəddində silahlı sadvalçıların toplaşdığını və «Sadval» ın hərbi düşərgələrinin olduğunu Rusiya hərbçiləri də təsdiq etdilər. 1997-ci il sentyabrın 24-də Qafqaz sərhəd dairəsinin rəis müavini Sergey Bondarev Dağıstan rəhbərliyinə xüsusi məktubunda Dağıstanın cənubunda kritik vəziyyətin yarandığını və Məhərrəmkənddə silahlı sadvalçıların toplandığını bildirdi. Məktubda göstərilib ki, silahlı sadvalçılar sərhəddi keçərək Azərbaycanın Qusar, Xaçmaz rayonlarında silahlı təxribat törətmək istəyirlər. «Nezavisimaya qazeta» bu haqda yazır:- «Cənubi Dağıstandakı təlim mərkəzlərində ləzgi döyüşçülərinin hazırlanması vəziyyətin mürəkkəbləşdirilməsində məqsədyönlü aksiyadır. Təlim mərkəzlərində son gurultu 1997-ci ilin payızında Dağıstan DİN və Rusiya sərhədçilərinin bu regionda ləzgi döyüşçülərinin hazırlanması haqqında eyni vaxtda verdikləri xəbər oldu» [116, 18 dekabr, 1999].

1996-cı ilin iyulun 11-də sadvalçı Nəriman Ramazanov Azərbaycanda təxribatçı əməllərinə görə həbs edildi. O, sonradan Rusiya hüquq mühafizə orqanlarına təhfil verildi. Rusiya isə onu azadlığa buraxdı. 1996-cı ilin dekabrında «Sadval»ın 7 üzvü Rusiya sərhədçilərinə qarşı güc işlətdiklərinə görə Azərbaycanda mühakimə edildi. 1997-ci ilin martında daha 7 sadvalçı milli zəmində təfriqə törətməkdə və qəsddə günahlandırılaraq azadlıqdan məhrum edildi.

Beləliklə, «Sadval» ın taktikasında bir sıra cəhətlər - Azərbaycanın ləzgi vətəndaşlarını dövlətə qarşı kütləvi etiraz tədbirlərinə qaldırmaq, azərbaycanlılar və ləzgilər arasında milli nifaq salmaq, Azərbaycan dövlətinə qarşı terrorçuluq aksiyaları həyata keçirmək, silahlı dəstələr yaradaraq Azərbaycan-Dağıstan sərhəddini güc yolu ilə aradan götürməklə «Ləzgistan dövləti» qurmaq cəhdləri özünü daha qabarıq göstərdi.

«Sadval» Xəzər neftinə açıq şəkildə iddia etdi və neftdən gələn gəlirdən ona da çatmalı olduğunu bildirdi. Bu cür çıxışlar 1994-cü ildə imzalanmış «Əsrin kontraktı» ndan sonra daha da intensiv xarakter almışdı. «Sadvalçılar hesab edirlər ki, Xəzər neft şelfinin bir hissəsi onların sahil rayonlarına daxildir və bu da onlara neftin istismarından və satışından gələn gəlirə gələcəkdə malik olmaq üçün müəyyən şans verə bilər» [79, s.53]. Sadvalçılar Cənubi Dağıstanın varlığı və iqtisadi inkişafı üçün Xəzər neftindən bəhrələnməyi qarşılarına məqsəd qoydular və Şimal kəmərindən əldə olunacaq gəlirdən onlara da pay verilməsini tələb etdilər.

1997-ci ildə «Ləzgi xalqının fövqəladə qurultayını hazırlayan təşkilat komitəsi» adından Dağıstan və Azərbaycan hökumətlərinə qarşı hədə dolu bəyanatlar verildi. Burada göstərildi ki, Xəzər neftinin nəqlindən gələn gəlirdən ləzgilə-

rin payı verilməsə etiraz aksiyaları başlanacaq və neft kəməri partladılacaq.

Əlbəttə ki, Xəzər neftindən pay almaq ideyası təkcə sadvalçılara məxsus deyildi. Bu ideya Rusiyanın Xəzər neft siyasətində tutduğu mövqedən, maraqlarından qaynaqlanırdı. Çox ehtimal ki, Rusiya öz Xəzər siyasətində bəzi ekstremist yönümlü ləzgilərdən, konkret sadvalçılardan da istifadə etdi. Bu, Rusiyanın Xəzər neft maraqlarının təmin olunmayacağı təqdirdə Xəzərlə bağlı əlavə problem, münaqişə yaratmaq məqsədilə edildi.

Sonradan (artıq 1996-ci ilin yanvarında ilkin Xəzər neftinin Bakı-Novorossiysk kəməri vasitəsilə daşınacağı haqqında Azərbaycan-Rusiya müqaviləsi imzalandı - R.R) siyasi situasiyanın dəyişməsi və Rusiyanın «neft kəməri» maraqlarının təmin olunması ilə «Sadval» ın neft iddiaları bir araya sığmadı. Bu dövrdə «Sadval» ın antiazərbaycan fəaliyyəti və neftlə, *kəmərlə bağlı hədələrlə* çıxış etməsi Bakı-Novorossiysk neft kəmərinin işə düşməsinə mane ola bilərdi. Belə olan şəraitdə isə «Sadval» a qarşı müəyyən aksiyalar *həyata keçirildi, qurumun hərbi bazalarının* olduğu elə Rusiya tərəfindən aşkarlandı. 1997-ci ilin sentyabrında «Sadval» ın maliyyəçisi Feliks Xıdırov və təşkilatın lideri, özünün barışmazlığı və radikallığı ilə seçilən Muhiddin Qəhrəmanovun həyat yoldaşı qətlə yetirildi. Yəqin ki, «nəzarətdən» çıxan sadvalçıların cəzalandırılması «Sadval» a bir xəbərdarlıq idi.

Artıq 1996-1997-ci illərdə Çeçenistandakı məlum hadisələrdən sonra Dağıstan Azərbaycan və Gürcüstanla sərhəddə özünəməxsus forposta çevrilmişdi, hər şeydən əvvəl Rusiyaya ləzgi məsələsində sakitlik lazım oldu.

«Sadval» Dağıstan hökumətinə qarşı da iqtisadi-siyasi tələblərlə çıxış etdi və bir sıra iddialar irəli sürüldü. Sadvalçılar Dağıstanın cənubundan tranzit daşımalarına görə gələn gəlirin ləzgilərə çatmalı olduğunu bildirdilər. «Sadval» ın məlumatına görə «Yaraq-Qazmalar» gömrük məntəqəsi gündə 700 min rubl gəlir gətirir. «Sadval» lideri R.Aşurəliyevin sözlərinə görə bu pullar şimala (Dağıstanın şimalı nəzərdə tutulur – R.R.) gedir, ləzgilər isə ekzotik simvol kimi qalırlar» [116, 18 dekabr, 1999]. R.Aşurəliyev iddia edirdi ki, Dağıstan rəhbərliyi düzgün kadr siyasəti aparmır, yəni ləzgilər yaşayan Dağıstanın cənub rayonlarında rəhbərliyə və gəlirli işlərə ləzgiləri yox, digər xalqların nümayəndələrini təyin edirlər. «Sadval» respublikanın digər rayonlarından Dərbəndə kadr «ixracını» dayandırmağı tələb etdi.

Beləliklə, «Sadval» ın Dağıstan hökuməti ilə mübarizəsinin məqsədi Dağıstanın cənubunda iqtisadi və siyasi hakimiyyəti ələ almaq idi. Əsas niyyətlər bunlardır: cənub rayonlarında hakimiyyət postlarında ancaq ləzgilərin yerləşməsi; bütün infrastrukturun ələ keçirilməsi; tranzit daşımalarından, kömrükdən gələn gəlirin ələ keçirilərək maddi - maliyyə ehtiyatının artırılması; Dərbənd muxtar qurumunun Rusiya Federasiyasına tabeçilik prinsipi ilə yaradılması və Dağıstanın cənubunun Mahaçqalanın nəzarətindən çıxarılması; Azərbaycanın şimal rayonlarının Dərbənd Muxtar qurumuna daxil edilərək «Böyük Ləzgistan» dövlətinin yaradılması. Bunlar «Sadval» ın «Ləzgistan dövləti» uğrunda strategiyasının taktiki tərəfləridir.

Qeyd edək ki, ekstremist və separatçı ləzgi təşkilatlarının uydurduqları ləzgi məsələsi Azərbaycanla Dağıstanın birbaşa dövlət maraqlarına qarşı idi və dövlətlərin ərazi toxunulmazlığı prinsipini pozurdu. Bundan həm Mahaçqala həm də Bakı eyni dərəcədə əziyyət çəkdi. Bu barədə A.Quşerin fikirləri maraq doğurur:- «Süni yaradılmasına belə baxmayaraq, hazırda ləzgilər arasında inkişaf edən ictimai-siyasi proseslər hazırkı mərhələdə Dağıstanın və Rusiya-Azərbaycan münasibətlərinin, həm də ləzgilərin özləri arasındakı stabillik üçün təhlükəli ola bilən hədələr yaradır. Ləzgi liderləri öz hərəkətlərinin hansı nəticələr verə biləcəyini axıra qədər hesablaya bilmirlər» [79, s.54].

Sadvalçılar uydurduqları «ləzgi problemi» ilə regionda etnosiyasi tarazlığı pozacaqlarının, Dağıstan və Azərbaycan

arasında milli münaqişə yarada biləcəklərinin fərqində deyildilər. «Sadval» və Ləzgi Milli Şurası kimi təşkilatlar milli mədəniyyət, dilin, tarixin inkişafı, sosial problemlərin həlli kimi məsələlərlə məşğul olmaq, xalqın milli-mədəni, sosial, iqtisadi inkişafına nail olmaq əvəzinə «Ləzgistan dövləti» yaratmaq kimi utopik bir ideyanın həyata keçirilməsinə girişiblər, özü də terrorçuluq, hərbi zor gücü ilə. Sadval və digər ləzgi təşkilatlarının proqram tələblərinin reallaşması Dağıstanda onsuz da gərgin olan millətlərarası «partlayış» yarada və regionda böyük iqtisadi layihələrin həyata keçirilməsində çətinlik törədə bilər. «Sadval» ın destruktiv fəaliyyətini ləzgi xalqının nümayəndəsi, Dağıstan Dövlət Şurasının üzvü və respublikanın baş prokuroru olmuş İmam Yarəliyev də tənqid etdi. İ.Yarəliyev bildirib ki, ləzgilərə aidiyyəti olmayan müəyyən qüvvələr mövcud gərgin vəziyyətdən istifadə etmək istəyirlər. Onun fikrincə «Sadval» ləzgi xalqının çox az hissəsinin maraqlarını ifadə edir. «Elə bir problem yoxdur ki, «Sadval» onu həll etmiş olsun, lakin onun yaratdığı problemlər yaxşı məlumdur» [116, 18 dekabr, 1999]. Milli dövlət qurumu, yəni Ləzgistan dövləti ideyasını İ.Yarəliyev utopiya adlandırdı.

«Sadval» ın fəaliyyəti Dağıstan rəhbərliyi üçün siyasi və hərbi problemlər yaratdı. A.Quşer bu barədə yazır:- «Hazırki Dağıstan rəhbərliyi istəməz ki, ləzgi problemi öz inkişafında ləzgi hərəkatlarının və onların siyasi liderlərinin mövqe və nüfuzunun güclənməsinə təkan versin. Elə buna görə də Dağıstan rəhbərliyində bütün milli hərəkatların və onların hərbi birliklərinin «özünüburaxması» ideyası yaranıb» [79, s.55].

«Sadval» Rusiya ilə Azərbaycan arasında ikili vətəndaşlığın tətbiq edilməsinin və kömrük ittifaqının yaradılmasının tərəfdarı kimi çıxış etdi. İkili vətəndaşlıq məsələsi «Sadval» ın VI konqresində (1995) bir tələb kimi bəyan edildi.

İkili vətəndaşlıq məsələsi həm Azərbaycanın həm də Dağıstanın maraqlarından kənardır. Ləzgilərə ikili vətəndaşlıq statusunun verilməsi Dağıstan rəhbərliyinin qəti etirazı ilə qarşılandı. Dağıstanda çoxlu etnos yaşadığından, belə bir addım heç bir xeyir gətirə bilməz, bu, respublikada etnosiyasi tarazlığı pozar və digər xalqlar da imtiyazlar uğrunda mübarizəyə başlaya bilərlər. Bu hal Azərbaycanda da azsaylı xalqların narazılığına səbəb ola bilər. Qeyd edək ki, Azərbaycan Respublikası Konstitusiyasında ikili vətəndaşlıq məsələsi nəzərdə tutulmayıb.

Azərbaycan hakimiyyəti «Sadval» ın təxribatçılıq fəaliyyətinə qarşı həmişə əks tədbirlər görmək məcburiyyətində qalmışdır. Azərbaycanda ləzgilərin hüquqlarının tapdanması haqqında «Sadval» ın yaydığı yalan informasiya, Azərbaycan ləzgilərini dövlətə qarşı kütləvi çıxışlara qaldırmaq cəhdləri «ləzgi məsələsində» hökumətin qarşılaşdığı ən təhlükəli vəziyyətdir.

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanda ləzgi ekstremistləri təxribatçı, hətta terrorçu aksiyalar həyata keçiriblər və bunu təsdiq edən bir çox faktlar var. Lakin bir şeyi qeyd edək ki, bu təxribaçılıq və terrorçuluq əməlləri kütləvi xarakterli yox, lokal və dövri xarakterli oldu. Azərbaycanın ləzgi əhalisi bu hadisələrdə Azərbaycan dövləti ilə həmrəylik nümayiş etdirdi və sadvalçılar Azərbaycanın ləzgi əhalisi arasında öz dayağını tapa bilmədi. Bu onu sübut edir ki, Azərbaycan ləzgiləri «Ləzgistan dövləti» ideyasını kütləvi şəkildə və birmənalı olaraq qəbul etmədilər.

Azərbaycan hökuməti mütəmadi olaraq ləzgi ictimaiyyətinin nümayəndələri, Dağıstan hakimiyyət orqanları, Rusiya hakimiyyət orqanları ilə «ləzgi məsələsi», etnik separatizm problemlərinin aradan qaldırılması barədə danışıqlar apardı və ictimaiyyət nümayəndələri ilə keçirilən görüşlər böyük effekt verdi. Məsələn, 1995-ci ilin fevralında Azərbaycan Prezidenti Heydər Əliyevin ləzgi ziyalıları ilə görüşündə belə bir fikir irəli sürüldü ki, «Azərbaycan və ləzgi xalqının qarşılıqlı münasibətləri ilə bağlı heç bir problem yoxdur və ola da bilməz ... istər daxildə, istərsə də xaricdə belə bir problemi süni sürətdə yaratmaq istəyənlər heç bir

şeyə nail ola bilməyəcəklər və öz layiqli cavablarını alacaqlar. Çünki ölkəmizdə yaşayan hər bir millətin nümayəndəsi üçün Azərbaycan doğma vətəndir» [5, 21 fevral, 1995]. 1995-ci ildə Quba, Xaçmaz, Qusar rayonunun ləzgi ictimaiyyəti ilə böyük müşavirə keçirildi. Burada milli siyasət məsələləri üzrə prezidentin müşaviri Hidayət Orucov dedi ki, «Quba, Xaçmaz və Qusar rayonları Şimal qonşumuzla həmsərhəddir, burada bir çox xalqların, etnik qrupların nümayəndələri birgə yaşayır. Daxili və xarici düşmənlərimiz hər dəfə bizə təzyiq göstərmək ... niyyətinə düşəndə, öz muzdlu nökərlərinin əli ilə milli zəmində ara qızışdırmağa, ixtişaş yaratmağa cəhd göstərir.» Qusar RİH-nin başçısı çıxışında bildirdi:- «Prezidentimiz Heydər Əliyevin ləzgi xalqını bu torpağın doğma vətəndaşı adlandırmasına cavab olaraq bildirirəm ki, iki xalqın arasını heç kəs vura bilməyəcək» [39, 4 aprel, 1995]. Burada o da qeyd olunub ki, məsələn, Qubada toy, yas, molla, qəbristanlıq eynidir. Ləzgi uşaqları azərbaycan, rus, ləzgi dillərində təhsil alırlar.

Azərbaycanla Dağıstan hökumət rəhbərləri arasında ilk yüksək səviyyəli görüş 1996-cı ilin martında oldu və Rusiyanın sərhəddə yaratdığı çətinliklər müzakirə edildi. Burada Azərbaycan Prezidenti H.Əliyev qeyd etdi ki, «bizim aramızda sərhəd olmamalıdır, o çox böyük çətinliklər yaradır. Azərbaycan blokada şəraitindədir. Bildiyimiz kimi Azərbaycanın əsas nəqliyyat kommunikasiyaları Dağıstan və Şimali Qafqazdan keçir. Şimali Qafqazda yaranmış vəziyyət iqtisadiyyatımıza çox güclü ziyan vurur və adamların həyat səviyyəsinə zərər gətirir. ... sərhəd nəinki dövlətlərin, həm də adamların həyatını çətinləşdirir. Onlar bir-birilə normal ünsiyyətdə ola bilmirlər, bir-birinə qonaq gedə-gələ bilmirlər» [6, 6 mart, 1995]. 1996-cı ildə Azərbaycanla Dağıstan arasında kommunike, dostluq və əməkdaşlıq haqqında deklorasiya, ticarət-iqtisadi, elmi-texniki və mədəniyyət sahəsində razılaşma imzalandı. Dağıstanla geniş spektrli əlaqələrin yaradılması, əlbəttə ki, sadvalçı ekstremist və separatçılara qarşı birgə mübarizəni də nəzərdə tuturdu. Ona görə ki, ləzgi separatçılığı Azərbaycan üçün necə təhlükədirsə Dağıstan üçün də bir o qədər təhlükəlidir.



1997-ci ildə Azərbaycanın Şimal marşrutu ilə neftin nəqlinə başladığı mərhələdə «Sadval» buna əngəlliklər yaradacağını, neft kəmərini partladacağını bəyan etdi. Digər tərəfdən Dağıstanın cənub rayonlarında, Azərbaycan - Rusiya sərhədində «Sadval» döyüşçülərinin hazırlanması haqqında faktların ortaya çıxması regionda etnosiyasi vəziyyəti mürəkkəbləşdirdi və münaqişənin yarana bilmə ehtimallarını artırdı.

Bu dövrdə Məhərrəmkənd (Dağıstan respublikası) qəsəbəsində baş verən hadisələr - ləzgilərin dövlətə qarşı kütləvi etiraz hərəkatının hazırlanması, hüquq-mühafizə orqanlarına qarşı təxribatlar, zor tətbiq etmək Azərbaycanın Şimal rayonlarını təxribata sürükləyə bilərdi. Belə bir vaxtda, 1997-ci ilin oktyabrında Azərbaycan nümayəndə heyəti Dağıstana səfər etdi. Dağıstan Dövlət Şurasının sədri M.Məhəmmədov hadisələrin gərgin dövründə Dağıstan hakimiyyətinin mövqeyini bildirərkən demişdir: - «Biz Dağıstanla Azərbaycan arasında gərginliyə heç vaxt yol verməyərik. Baş vermiş hadisələrə gəldikdə isə bunların siyasi çaları yoxdur, yalnız xuliqanlıq, quldurluq səpkili hadisələrdir» [19, 7 oktyabr, 1997]. Əlbəttə ki, Məhəmmədov baş verən hadisələrin xuliqanlıq olduğunu bildirsə də, faktları kiçiltsə də, onu demək olar ki, əslində «Sadval» ın fəaliyyəti böyük faciələrlə nəticələnə, həlli müşkülə çevrilən milli münaqişəyə səbəb ola bilərdi.

Azərbaycan Respublikası milli siyasət məsələləri üzrə dövlət müşaviri Hidayət Orucovun bu məsələlərə dair fikirlərinə diqqət yetirək:- «Dağıstanın cənubunda müəyyən separatçı anti-azərbaycan qüvvələr var. Ancaq onlar heç də Dağıstan xalqlarının maraqlarını və mövqelərini təmsil etmirlər, çünki Yerevandan idarə olunan cinayətkar qruplardır» [19, 7 oktyabr,1997]. Ümumiyyətlə, onu qeyd etmək olar ki, «Sadval» ın Azərbaycanda ləzgilərin hüquqlarının tapdanması, onlara təzyiqlər göstərilməsi haqqında infor-

masiya və bəyanatları tamamilə absurddur. «Sadval» bunları əldə bayraq edərək «Ləzgistan dövləti» nin yaradılmasının vacib olduğunu bildirir. Lakin bir şey faktdır ki, ləzgilər Azərbaycanda Dağıstanda olduğundan daha çox imtiyazlara malikdirlər. Hüquqlarının tapdalanmasından isə söhbət belə gedə bilməz. Azərbaycanda yaşayan ləzgilərin milli-mədəni, dil, təhsil, iqtisadi, elmi-texniki sahədə inkişafı üçün heç bir maneə yoxdur. Konstitusiyada göstərilən hüquqlardan bütün Azərbaycan vətəndaşları kimi ləzgilər də istifadə edirlər.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, Azərbaycanda yaşayan ləzgilər arasında azalma yox, inkişaf tempi müşahidə olunur. Ləzgilər əsasən Qusar, Xaçmaz, Göyçay, Qəbələ, Oğuz, İsmayıllı rayonlarında yaşayırlar. Statistik hesablamalara görə «1926-89-cu illər ərzində Azərbaycan respublikasında yaşayan ləzgilərin sayı 134,1 min nəfər, yəni 4,6 dəfə artaraq 37,3 min nəfərdən 171,4 min nəfərə çatıb» [50, s. 53]. «Dağıstanın özündə isə artım üç dəfə azdır. (1989-cu ildə ümumi say 295,5 min nəfər)» [120, 20 fevralğ, 1993].

Ləzgilər yaşayan rayonların bütün məktəblərində ləzgi dili və ədəbiyyatı tədris edilir. Azərbaycanda ləzgi uşaqlarını heç kim azərbaycandilli məktəbdə təhsil almağa məcbur etmir. Ləzgi uşaqları üçün azərbaycan, ləzgi, rus dilində təhsil almaq mümkündür. I-IV - cü sinif şagirdləri üçün ləzgi dilində dərsliklər çap olunur. Ümumiyyətlə dövlət Azərbaycanda yaşayan azsaylı xalqların dilində dərslik və müxtəlif ədəbiyyatlar çap etmək üçün maliyyə vəsaiti ayırır. Dağıstan təhsil sistemində isə belədir ki, ibtidai tədrisdən başqa bütün tədris rus dilində aparılır.

Azərbaycanda ləzgilər etnomədəniyyətlərini inkişaf etdirmək üçün hər bir imkana malikdirlər. Ləzgilərin iki respublika və iki rayon səviyyəli mətbuat orqanları var. Dövlət radiosunda periodik olaraq ləzgi dilində, Xaçmaz rayonundakı yerli radioda isə həm ləzgi həm də tat dilində verilişlər efirə verilir. Qusar və Xaçmaz rayonlarında fəaliyyət göstərən yerli televiziyalarda isə ləzgi dilində verilişlər göstərilir. Ləzgilərin milli teatrı və rəqs kollektivləri var. Ləzgi Milli Dram teatrı 1992-ci ildə Qusar rayonunda yaradılıb. Azərbaycan Pedaqoji Universitetinin Qusarda filialı yerləşir ki, burada da əsasən ləzgilər təhsil alırlar. Azərbaycan hökuməti etnik azlıqların dilində dərsliklər və digər ədəbiyyatlar nəşr etmək üçün mütəmadi olaraq vəsait ayırır.

Azərbaycanda yaşayan ləzgilər insan inkişafı baxımından ön sıralarda olub. «50-60-cı illərdə Azərbaycanda yetişən müəllim, həkim, hüquqşünas və s. sahələrdə çalışan kadrların sayına görə Qusar rayonu birincilər sırasında olub» [34, s.279]. Azərbaycan ləzgiləri arasında 120-dən artıq elmlər doktoru və elmlər namizədi var. Ləzgilər yüksək hakimiyyət orqanlarında da çalışırlar və ictimai həyatda onların özünəməxsus yeri var.

Azərbaycanda «Samur» ləzgi milli mərkəzi, Dağıstan mədəniyyət mərkəzi fəaliyyət göstərir. «Samur» ləzgi milli mərkəzi 1990-cı ildə yaradılıb və 1992-ci ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində dövlət qeydiyyatından keçib. Qeyd edək ki, bu qurum siyasi oyunlardan kənarda qaldı və milli-mədəni inkişaf məsələləri ilə məşğul oldu. 1992-ci ildəki qurultayında «Samur» özünün yeni nizamnamə və proqramını qəbul etdi. «Samur» un Azərbaycanın ləzgilər yaşayan rayonlarında bölmələri təşkil olundu.

«Qafqaz Albaniyası – Ləzgistan kitabında «Samur» təşkilatı satqınçılıq etməkdə və ləzgilərin iradələrinin əksinə fəaliyyət göstərməkdə günahlandırılır. Qeyd olunur ki, 1996-cı ildə «Samur» ləzgi milli mərkəzinin qurultayında 1992-ci ildən bəri görülən işlər haqqında mərkəzin sədri Əli Musayev bildirdi ki, son illər Qusarda ləzgi dilində müntəzəm verilişlərə başlanılması, «Samur» qəzetinin nəşri və maliyyə yardımı ayrılması, orta məktəblərdə ana dilinin tədrisinin gücləndirilməsi, ləzgi dilində kitabların çap olunması, bütün kommunal xərclərdən azad olunmaqla «Samur» ləzgi mərkəzinin yerlə təmin edilməsi və s. tədbirlər respublika rəhbərliyinin qayğısı kimi qiymətləndirilməlidir. «Sadval» təşkilatının res-

publikada siyasi sabitliyin pozulmasına yönəldilmiş əməlləri qurultayda qətiyyətlə pisləndi. Sadvalçılar isə «Samur» təşkilatına qarşı mübarizə apardılar, onun fəaliyyətini pisləyən bəyanatlarla çıxışlar etdilər və onu satqınçılıqda günahlandırdılar. Sadvalçıları narahat edən əsas məsələ «Samur» un Ləzgistan dövləti ideyasının həyata keçirilməsinə qarşı olması idi. H.Əbdürəhimov da narahatlıqla yazır ki, «Samur» təşkilatının nümayəndələri Ləzgistan dövlətinin yaradılmasının əleyhinə fəaliyyət göstərirlər» [62, s. 482].

Azərbaycan XX əsrin 90-cı illərinin əvvəllərindən yəni müstəqil dövlət olandan etibarən etnik azlıqlarla bağlı siyasət həyata keçirir və bu, Konstitusiyada və bir çox qanun və fərmanlarda öz əksini tapıb. 1992-ci il sentyabrın 16-da Azərbaycan respublikasının prezidenti Ə.Elçibəy «Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətinin inkişafı üçün dövlət yardımı haqqında» Fərman verdi. Fərmanda «Milli azlıq, azsaylı xalq və etnik qrupların mədəni, dil və dini özgünlüyünün qorunub saxlanması və inkişaf etdirilməsi; milli ənənə və adətlərə əməl, dini mərasim və ayinlərin tam azad icra edilməsi, ibadət yerlərinin qorunub saxlanılması və onlardan istifadə olunması; milli sənətkarlığın, peşəkarlıq və özfəaliyyət yaradıcılığı və xalq sənətlərinin sərbəst inkişaf etdirilməsi; bütün millətlərin tarix və mədəniyyət abidələrinin qorunması» [40, 16 sentyabr, 1992] hakimiyyət orqanları qarşısında bir vəzifə kimi qoyuldu. Burada Azərbaycan Respublikası Nazirlər kabinetinə tapşırılır ki, «bütün millətlərin öz mədəniyyət və dini müəssisələrini, cəmiyyətlərini təşkil etmək və fəaliyyət göstərmək hüququnun təmini üçün» [40, 16 sentyabr, 1992] şərait yaratsın, onlara dövlət yardımı göstərsin. Azsaylı xalqların gənclərinin ali və orta ixtisas məktəblərinə güzəştli qəbulu, M.A. Əliyev adına Azərbaycan Dövlət İncəsənət Universitetinin Quba filialında, M.Ə. Sabir adına Pedaqoji Məktəbin Qusar filialında Dağıstan türkləri, yerli əhali və azsaylı xalqlar üçün kadrlar hazırlanması məsələləri də fərmanda öz əksini tapdı. Göründüyü kimi Azərbaycan Respublikası öz müstəqilliyini qazandıqdan az sonra etnik azlıqlar haqqında demokratik bir qanunvericilik aktı qəbul etdi. Burada demək olar ki, bütün azsaylı xalqların hüquqlarının qorunması, onlara dövlət qayğısı göstərilməsi barədə məsələlər hərtərəfli və geniş səpgidə göstərildi. 1993-ci il martın 12-də Preziden Apparatında Milli Siyasət departamenti yaradıldı (lakin bu qurum faktiki olaraq fəaliyyət göstərmədi - R. R), sentyabrın 20-də isə millətlərarası münasibətlərlə əlaqədar Dövlət komitəsi formalaşdırıldı. Azərbaycan Respublikası milli siyasət məsələləri üzrə Dövlət müşaviri yanında etnik azlıqların nümayəndələrindən ibarət Məsləhət Şurası yaradıldı. Milli Məclisdə də milli məsələlərlə əlaqədar qurum təşkil edildi. Bütün bu orqanların yaradılmasında məqsəd əlbəttə ki, azsaylı xalqlara və etnik azlıqlara dövlət qayğısı göstərmək, onlara mədəniyyətlərini, dillərini inkişaf etdirmək, dini görüşlərini qoruyub saxlamağa şərait yaratmaq idi.

Azərbaycan Respublikasının Konstitusiyasında da milli məsələ ilə bağlı maddələr öz əksini tapıb. 1995-ci ildə qəbul edilən Azərbaycan respublikası Konstitusiyasının 5-ci maddəsində göstərilir:- «Azərbaycan xalqının vahidliyi Azərbaycan dövlətinin təməlini təşkil edir. Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz vətənidir» [22]. 25-ci maddədə isə qeyd olunur ki, «Hamı qanun ilə məhkəmə qarşısında bərabərdir... Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqları və azadlıqlarının irqi, milli, dini, dil, cinsi, mənşə, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır» [22].

Respublika İnsan haqları haqqında 1948-ci il BMT deklorasiyasına əməl edir və 1975-ci il ATƏT-in Helsinki

Yekun Aktının 10 baza prinsipini qəbul edib. Avropa Şurasının «Etnik azlıqlar» haqqında Konvensiyasını (Strasburq, 1995) Azərbaycan da imzalayıb.

Beləliklə 90-cı illərin əvvəllərində kəskin münaqişə həddinə çatmaq təhlükəsndə olan ləzgi məsələsi 90-cı illərin ortalarından səngiməyə başladı. Bu, Azərbaycan hakimiyyət orqanlarının ləzgi məsələsində apardığı açıq və şəffaf siyasətin nəticəsində əldə olundu. Azərbaycan həm Rusiya, həm də Dağıstanla ləzgi məsələsində ortaq məxrəcə gələrək bəzi ekstremist təmayüllü sadvalçıların, Moskvada və Mahaçqalada yüksək postlardakı bir sıra vəzifəlilərin uydurduqları «ləzgi problemini» aradan qaldıra bildi. Qeyd edək ki, bu məsələdə Azərbaycanda yaşayan ləzgilər hakimiyyəti müdafiə etdi, bütünlükdə Azərbaycan dövlətinin apardığı siyasət qəbul olundu.



# III. ŞİMALİ QAFQAZDA YARANAN YENİ ETNOSİYASİ REALLIQLARIN AZƏRBAYCANA TƏSİRİ (1994-1997)

## 3.1. Rusiya – Çeçenistan müharibəsinin başlanması

İçkeriya Çeçen Respublikası ilə Rusiya Federasiyası arasında üç il davam edən "soyuq müharibə" dövrü 1994-cü ilin sonlarında bitdi. Çeçenistanı yenidən öz nəzarətinə qaytarmaq üçün Rusiya hökumətinin bütün tədbirləri puça çıxmışdı. Diplomatik cəhdlərlə yanaşı hərbi tədbirlər də, ilk növbədə antidudayevçi qüvvələrin silahlandırılması və onların vasitəsilə Çeçenistan hökumətinin devrilməsi planları heç bir nəticə verməmişdi. Çeçenistan Rusiya ilə ancaq bərabərhüquqlu tərəf kimi münasibətlər qurmağa razılıq verərək Rusiya tərəfdən ortaya atılan hər hansı səlahiyyət bölgüsünü rədd etdi. Rusiya-Tatarıstan müqaviləsi haqda Çeçenistanın Rusiyadakı nümayəndəsi Sultan Gelisxanov Çeçen hökumətinin adından bildirmişdi ki, Rusiya-Tatarıstan müqaviləsinin Qroznıda "diqqətlə öyrənilməsinə" baxmayaraq, Çeçenistan Respublikası Tatarıstandan fərqli olaraq "bütünlüklə müstəqil dövlətdir, beynəlxalq hüququn subyektidir. (Азия и Африка сегодня. 1995, №5, стр. 28.) Buna baxmayaraq, Rusiya ilə Federasiya müqaviləsi imzalamayan Çeçenistan respublikası Rusiya Federasiyası ilə əlaqələri birdəfəlik qırmaq niyyətində də olmayıb. İÇR prezidenti Cöhər Dudayev Rusiya ilə vahid iqtisadi sistem qurmaq, yanacaq – energetika sahəsində əməkdaşlığa hazır olduğunu dəfələrlə bildirib. Onu da qeyd etmək lazımdır ki, 1991-1992-ci illərdə Çeçenistan neftayırma zavodlarında Rusiyadan göndərilən xam neft emal edilirdi və sənayenin bu sahəsində əməkdaşlıq müharibəyə qədər davam etdi. Artıq müharibədən əvvəl RF baş nazirinin müavini Sergey Şaxrayın planına əsasən Çeçenistanla yanacaq-energetika sahəsində əməkdaşlığa və 1993-cü ildən başlayaraq bu res-

publikaya neft məhsullarının daxil olması və çıxışına da qadağan qoyuldu.

Rusiya hökuməti ona tabe olmayan Çeçenistanla açıq müharibəyə girmək qərarına 1994-cu ilin sonlarında gəldi. Artıq bu vaxt Dudayevə qarşı çıxan Çeçenistanın hərbi müxaltifəti məğlub olmuş və darmadağın edilmişdi.

"Труд" qəzeti yazır: - "1994-cu ilin noyabrında "tanınmaz adamların, tanınmaz tanklarla" Qroznını tutmaq cəhdinin uğursuzluğa düçar olmasından sonra Moskvada RF Təhlükəsizlik Şurasının iki təcili iclası keçirilib. Burada Çeçenistana qoşun yeridilməsi haqqında qərar çıxarılıb." ("Тайны странной войны". – Труд, 02.XII.1998.)

1994-cü il noyabrın 30-da RF prezidenti Boris Yeltsin "Çeçenistan Respublikasında Konstitusiya qaydasının və qanunçuluğun bərpa olunması tədbirləri haqqında" 2137 saylı məxfi fərman imzaladı. «1994-cü il dekabrın 1-dən başlayaraq tanınmaz təyyarələr və vertolyotlar Qroznını bombardıman etməyə başlayıb. Lakin Rusiya HHQ və HHM qərargahları hücum faktını təsdiq etmək istəməyiblər». (Россия-Чечня: цепь ошибок и преступлений. – М 1998. стр. 33-34.)

Qeyd edək ki, Rusiya Prezidentinin Çeçenistan Respublikasına qarşı başladığı hərbi kampaniya RF Dövlət Duması deputatları tərəfindən müdafiə edilmədi və Rusiya icra hakimiyyəti ilə qanunvericilik hakimiyyəti arasında "Çeçen məsələsində" fikir ayrılığı yarandı.

1994-cü il dekabrın 8-də Dövlət Dumasının qapalı iclası keçirildi və burada qərara alındı ki, çeçen münaqişəsi siyasi yolla həll edilməlidir. Duma "ÇR-də vəziyyət və onun siyasi yolla həlli tədbirləri haqqında" qərar qəbul etdi. «Bir qrup deputat RF prezidenti B.Yeltsinə teleqram vuraraq, ona Çeçenistanda qan tökülməsinə görə məsuliyyət daşıması xəbərdarlığını və öz mövqeyinin aydınlaşdırılmasını tələb ediblər». (Россия-Чечня: цепь ошибок и преступлений. - М.1998. стр. 33-34.)



RF Dumasının bir neçə deputatı prezidentin 1994-cu il 30 noyabr və 9 dekabr fərmanlarının, RF hökumətinin 1994-cu il 9 dekabr tarixli qərarının Rusiya Federasiyası Konstitusiyasına uyğunluğunu aydınlaşdırmaq üçün RF Konstitusiya Məhkəməsinə sorğu göndərdilər. Bu sorğuda göstərilib ki, prezidentin verdiyi fərmanlar, hökumətin qəbul etdiyi qərar Konstitusiyaya uyğun gəlmir. Hərbi qüvvələrin istifadə edilməsi Çeçenistan vətəndaşlarının və Çeçenistana yaxın olan rayonların vətəndaşlarının Konstitusiya hüquqlarının və azadlıqlarının kütləvi surətdə pozulmasına gətirib çıxarıb. (Чеченский феномен, Алманах, 1996. I)

Federal hökumət Çeçenistana hərbi qüvvə yeritməyi "Çeçenistan respublikasında Konstitusiya qaydasını bərpa etmək" niyyəti ilə əsaslandırdı. Bundan başqa Rusiya hökuməti Çeçenistan rəhbərliyini kriminal elementlərə şərait yaratmaq və terrorizmdə ittiham edərək vətəndaşların təhlükəsizliyini təmin etmək üçün belə sərt tədbirlərə əl atmağa məcbur olduğunu bildirdi.

Əlbəttə ki, I Rusiya-Çeçenistan müharibəsinin əsas səbəbləri heç də bunlar deyildi. Müharibəyə gətirib çıxaran vəziyyət Rusiyanın Qafqazda olan strateji maraqlarının itirilməsi təhlükəsi idi. Digər tərəfdən Rusiyanın mövcudluğunun qorunub saxlanması üçün Çeçenistanın müstəqilliyinə son qoyulmalı və o RF tərkibinə qaytarılmalı idi. Beləliklə də həm siyasi, həm iqtisadi, həm də hərbi mənafelərin qorunub saxlanması Çeçenistana hərbi qüvvə yeritməklə nəticələndi.

Rusiyanın strateji maraqlarını belə təsnifləndirmək olar:

1. Rusiya Federasiyasının ərazi bütövlüyünü qoruyub saxlamaq;
2. Çeçen seperatizminin qarşısını almaq və milli-azadlıq hərəkatının digər regionlara yayılmasını əngəlləmək;
3. Şimali Qafqazdan keçən nəqliyyat kommunikasiyalarına nəzarəti bərpa etmək – Xəzər neftini daşıyan tranzit

ölkəyə çevrilmək;

4. Qafqazda itirilmiş mənafeləri bərpa edərək bu regionda hegemon dövlətə çevrilmək.

Rusiya Federasiyası etnik tərkibinə görə çox mürəkkəb bir ölkədir və burada mürəkkəb etnosiyasi proseslərin baş verməsi labüddür. Elə təkcə Şimali Qafqaz xalqları arasında gizli münaqişələr kifayət qədərdir. Milli-ərazi, siyasi statusla bağlı bir çox problemlər var. Ümumilikdə götürdükdə, Rusiya miqyasında iqtisadi, geosiyasi və etnik-demoqrafik faktorların öyrənilməsi nəticəsində üç iri potensial separatizm ocağını müəyyənləşdirmək mümkündür. Birinci münaqişə ocağı – Çeçenistan mərkəz olmaqla Qafqazdır; ikinci – Volqa-Ural bölgəsi, tam müəyyənləşməsə də Tatarıstanın liderliyində; üçüncü – Buryatiya, Altay, Xakasiya, Çita vilayəti və Yakutiya-Tuva liderliyində Sibir blokudur. (Стратегические интересы России на Кавказе – из специального аналитического бюллетеня "Россия регионов" №3, (Известия 12.01.1995).

## 3.2 Şimali Qafqazda etnosiyasi gərginliyin yaranması nəticəsində Rusiya-Azərbaycan münasibətlərinin kəskinləşməsi

1994-cü ilin son rübündən etibarən Azərbaycan Rusiyanın növbəti təzyiq kompaniyası ilə üzləşdi, regionda etnosiyasi gərginlik artdı. Şimali Qafqazda Çeçenistana qarşı hərbi əməliyyatlara başlayan Rusiya eyni zamanda sərhədləri bağlamaqla və nəqliyyat vasitələrinin hərəkətini kəsməklə Azərbaycanı blokada vəziyyətinə saldı (1994-1997-ci illər). Azərbaycanı Rusiya ilə birləşdirən bütün sərhədlər – quruda və dənizdə – bağlandı. Azərbaycan gəmilərinə Volqa-Don kanalından istifadə edərək Rusiya ərazisinə daxil olmaq da qadağan olundu. Bütün bunların nəticəsində Azərbaycanın iqtisadiyyatına külli miqdarda ziyan dəydi, ticarət dövriyyəsi azaldı. «Nezavisimaya



qazeta» nın yazdığına görə, «sərhədlərin bağlanması hər iki dövlətə (Azərbaycan və Rusiya nəzərdə tutulur - R. R) böyük miqdarda maddi ziyan vurdu. Bir sıra göstəricilərə görə ümumi zərərin miqdarı 6,1 milyard dollardır» [76, 9 yanvar, 1997].

Rusiya Azərbaycanla sərhədləri hələ I Rusiya-Çeçenistan müharibəsi başlamamışdan bir az əvvəl bağlamışdı. 1994-cu ilin noyabrında Azərbaycan Prezidenti Heydər Əliyev RF Prezidenti Boris Yeltsinlə görüşündə Şimali Qafqaz nəqliyyat kommunikasiyalarının bağlanması problemini müzakirə etdi. O vaxt Azərbaycan dövləti rəsmi danışıqlarda öz narazılığını Rusiya tərəfinə çatdırdı. «Azərbaycan prezidenti Rusiya dövlət başçısına Şimali Qafqaz dəmir yolunun bağlanması nəticəsində yaranmış və Azərbaycanla Rusiya arasında iqtisadi əməkdaşlığın inkişafına, o cümlədən Azərbaycan əhalisinin çörək məhsulları ilə təminatına mənfi təsir göstərən mürəkkəb vəziyyət haqqında məlumat verdi» [4, 19 noyabr, 1994].

Azərbaycan 1993-cü ildən MDB-nin üzvü idi. Lakin buna baxmayaraq bir ildən sonra, 1994-cü ildə o, Rusiyanın böyük təzyiqlərinə məruz qaldı, blokadaya alındı. İki dövlətin eyni bir qurumda təmsil olunmasına, tərəfdaşlıq etməsinə baxmayaraq Rusiya Azərbaycana Çeçen müharibəsi dövründə rəqib mövqeyindən yanaşdı. Yəni həqiqətəndə eyni bir iqtisadi birliyin üzvü olan dövlətlərin bir-birinə qarşı iqtisadi sanksiyaya əl atması anormal haldır.

Beləliklə 1994-cü ilin oktyabr-noyabr aylarından Azərbaycanı sərhəd blokadasına alan Rusiya sonradan daha sərt tədbirlərə əl atdı və sərhədlər 1994-cü il dekabrın 19-da tamamilə bağlandı. Qeyd edək ki, Azərbaycan Çeçenistanla heç bir quru və su sərhəddinə malik deyil və bu iki respublikanı bir-birindən Dağıstan ayırır. Çeçenistan hərbi blokada vəziyyətində idi və onun Dağıstanla olan sərhədləri Rusiya tərəfindən qorunurdu. Yəni Rusiyanın Azərbaycanı Çeçenistanla hərbi əməkdaşlıqda ittiham

etməsinin elə bir əsası yox idi, «Çeçenistan məsələsi» sadəcə olaraq Azərbaycana təzyiq göstərmək üçün Rusiyanın istifadə etdiyi bəhanə idi.

Rusiya Qafqazda hegemon dövlət olmaq üçün bu regiona daha çox hərbi qüvvələr yerləşdirmək xətti götürdü, iqtisadi ekspansiya yox, hərbi ekspansiya siyasətinə üstünlük verdi. Belə bir siyasət Azərbaycan tərəfindən rədd edildikdə isə Azərbaycana qarşı müxtəlif səviyyələrdə təzyiqlər göstərilməyə başlandı. Rusiyanın əsas məqsədi Azərbaycanı cəzalandırmaq, beynəlxalq miqyasda onun cinayətkarlığı, terrorizmi dəstəkləməsi haqqında rəy formalaşdırmaq, bu ölkəni silah, narkotika qaçaqmalçılığında günahlandırmaqla Qərb neft şirkətlərinin Azərbaycandan çıxıb getməsinə, Xəzər neft müqaviləsinin iflasa uğramasına nail olmaq idi. Azərbaycanın balanslaşdırma siyasətini həyata keçirməsi, Qərblə əlaqələri inkişaf etdirməsi Rusiyanı qane etmədi.

I Rusiya-Çeçenistan müharibəsi nəticəsində Azərbaycana qarşı olan təzyiqlər, sərhədlərin bağlanması ilə başlayan blokada 1994-1997-ci illərdə Azərbaycanla Rusiya arasında olan münasibətlərdə anlaşılmazlığın, gərginliyin yaranmasına səbəb oldu. Müxtəlif səviyyəli görüşlərdə – həm ikitərəfli, həm də MDB daxilində – Azərbaycan rəhbərliyi sərhədlərin açılmasını, Çeçenistanla bağlı ittihamların kəsilməsini Rusiyadan tələb etdi, bunu onun qarşısında həlli vacib olan bir məsələ kimi qoydu. Azərbaycanla Rusiya arasındakı bütün yüksək səviyyəli görüşlərdə Çeçenistan böhranından yaranan problemlərə toxunuldu. Məsələn, Rusiya prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi Dmitri Ryurikovla görüşündə (1995, aprel) Azərbaycan prezidenti Heydər Əliyev problemə münasibətini bildirərkən demişdir: - «Çeçenistanda baş verən hadisələrlə əlaqədar bir neçə ay əvvəl sərhəd bağlanıb, beləliklə də Azərbaycanın əsas kommunikasiyaları – Rusiyanın Şimali Qafqaz regionundan keçən kommunikasiyalar kəsilmişdir. Bu



respublikanın iqtisadiyyatına ciddi zərər vurmuşdur» [7, 11 aprel, 1995]. Azərbaycan prezidenti Rusiya Xarici İşlər nazirinin müavini Albert Çernışev ilə görüşündə (1995, iyun) Rusiyanın birtərəfli qaydada bağladığı ümumi sərhəddin açılmasının mümkünlüyünü qeyd etdi. «Prezident əminliyini bildirdi ki, iki dövləti birləşdirən bütün nəqliyyat kommunikasiyalarının açılması Azərbaycan-Rusiya əlaqələrinin inkişafında mühüm rol oynayacaqdır» [8, 7 iyun, 1995].

Lakin bütün cəhdlərə baxmayaraq 1995-ci il ərzində Rusiya-Azərbaycan arasında yaranmış sərhəd problemi həll edilmədi. Azərbaycan və Rusiya dövlət nümayəndələri arasında keçirilən görüşlər heç bir nəticə vermədi, Rusiya Çeçenistanla bağlı Azərbaycana qarşı öz kəskin mövqeyindən geri çəkilmədi.

1995-ci ilin noyabr ayında Rusiyada MDB hökumət başçıları Şurasının iclası keçirildi və bu toplantıda Azərbaycan Şimal nəqliyyat yolları məsələsini Rusiya ilə müzakirə etdi. «Azərbaycanın baş naziri F. Quliyev RF baş naziri V. Çernomırdinlə danışıqlarda dəmir yolunun işləməsinə qoyulan məhdudiyyətin davam etməsi, xüsusən MDB üzvü olan Azərbaycandan ötrü dəniz yolunun bağlanması ilə əlaqədar təəccübünü bildirdi» [9, 7 noyabr, 1995].

Rusiya hakimiyyəti sərhədlərin açılması və Şimal nəqliyyat yolları probleminin həll ediləcəyini bildirsədə, əslində bu məsələ uzadıldı və nəticədə heç bir problem həll edilmədi. Konkret olaraq V.Çernomırdin Şimal nəqliyyat yolları, sərhəd problemləri ilə məşğul olacağını bildirsədə (1995, noyabr), bu məsələ yubadıldı və əslində konkret heç bir iş görülmədi.

Əlbəttə Rusiya hakimiyyət nümayəndələri arasında reallığı dərk edənlər, konstruktiv yol tutanlar və Azərbaycanla münasibətlərin pisləşməsini istəməyənlər də var idi. Məsələn, Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Vladimir Şumeyko belə hesab edirdi ki, ölkələr arasında əlaqəsizlik hər iki xalqa, Rusiyanın və

Azərbaycanın iqtisadiyyatına böyük ziyan vurur.

Bir faktı qeyd edək ki, 1995-ci ilin sonlarına yaxın Çeçenistanda hərbi üstünlük artıq Rusiyanın tərəfində idi və Çeçenistan Respublikası ərazisinin böyük əksəriyyətinə Rusiya Silahlı Qüvvələri nəzarət edirdi. 1995-ci ilin dekabrında Çeçenistanda hətta qanunverici və icraedici hakimiyyətə seçkilər də keçirildi. Əlbəttə ki, hakimiyyətə rusiyapərəst qüvvələr yiyələndilər. Rusiya antidudayevçi qüvvələrdən istifadə edərək bu respublikada öz hərbi hakimiyyəti ilə yanaşı, siyasi hakimiyyətini də bərqərar etməyə çalışdı və buna müəyyən qədər nail də oldu. Lakin Çeçenistana, tamamilə olmasa da nəzarət edən Rusiya Azərbaycana qarşı təzyiqlərinə yenə də son qoymadı. Azərbaycanla olan sərhədlər açılmadı, Şimali Qafqaz nəqliyyat kommunikasiyaları işə düşmədi.

Buradan belə nəticə çıxır ki, Çeçenistanda hərbi əməliyyatların gedişindən asılı olmayaraq Azərbaycana qarşı münasibət dəyişmədi. Amma məsələn, Çeçenistanla təxminən 80 kilometrlik quru sərhəddinə malik olan Gürcüstan Respublikası I Rusiya-Çeçenistan müharibəsi dövründə, Azərbaycan Respublikasına qarşı olduğu kimi Rusiyanın təzyiqlərinə məruz qalmadı və blokadaya alınmadı. Halbuki bunun üçün müəyyən əsaslar da tapmaq olardı. Məsələn, Gürcüstanın Pankis dərəsində etnik çeçenlər yaşayırlar və bu ərazi Çeçenistanla sərhəddə yerləşir.

Beləliklə, 1996-cı il yanvarın 9-da çeçen səhra komandirləri Salman Raduyev və Xunqarpaşa İsrapilovun başçılığı ilə müqavimət dəstələrinin həyata keçirdikləri Pervomaysk (Dağıstan respublikası) əməliyyatından sonra Azərbaycana qarşı ittihamların sayı artdı. Maraqlıdır ki, Pervomaysk hadisələrində Azərbaycan günahlandırıldı, Rusiya generalları birbaşa Azərbaycanı ittiham etdilər.

Azərbaycan hakimiyyəti Rusiya tərəfdən edilən ittihamlara ən yüksək səviyyədə öz cavab reaksiyasını göstərdi. Azərbaycan Prezidenti H.Əliyevin Rusiya hərbiçiləri ilə görüşündə (1996, yanvar) Pervomaysk hadisələrində Azərbaycanın adının hallandırılmasının əsassız olduğunu bildirərkən dediyi fikirlərə diqqət yetirək:- «General Barsukov deyəndə ki, hər şey Azərbaycandan gəlir, heç kim ayrı-ayrı adamları deyil, ölkəni, dövləti təsəvvür edir. Ona görə də ifadələrin seçilməsinə diqqətlə, ehtiyatla yanaşmaq lazımdır...Azərbaycanın Dağıstanla sərhədi Rusiya sərhədçiləri tərəfindən möhkəm qorunur. Üstəlik, Çeçenistandakı hadisələrlə əlaqədar bir ildən artıqdır ki, Dağıstan ərazisində Rusiyanın güclü hissələri var. Əgər hətta Azərbaycandan hansısa cinayətkar oraya keçmişdirsə, onu tutub ifşa etmək əvəzinə boş bəyanətlər verirlər» [23, 26 yanvar, 1996]. Azərbaycan Rusiyanın təzyiqlərinin və ittihamlarının qarşısını almaq üçün öz ərazisində Rusiya hərbi mütəxəssislərinin iştirakı ilə yoxlanışlar təşkil etdi (1996-cı il) və bu yoxlanışların nəticəsində Azərbaycanın Çeçenistana silah göndərmədiyi, çeçen yaraqlılarının Azərbaycan ərazisində hərbi-təlim bazalarının olmadığı sübut olundu.

Birgə yoxlanışların keçirilməsi haqqında saziş Azərbaycan və Rusiya təhlükəsizlik idarələri arasında hələ 1995-ci ilin iyun ayında imzalanmışdı. O vaxt Azərbaycana səfər etmiş RF FTX-nin direktoru Sergey Stepaşin Azərbaycan Prezidenti Heydər Əliyevlə görüşündə Xəzər dənizi vasitəsilə narkotik alveri edilməsinə qarşı birgə tədbirlərin görülməsi məsələlərini müzakirə etmişdi.

1996-cı ilin yanvar ayında Azərbaycan MTN-nin rəhbəri Namiq Abbasov Rusiya Federal Sərhəd Xidmətinin direktoru Andrey Nikolayevlə danışıqlar apardı və iki ölkə arasında əməkdaşlıq barədə protokol imzalandı. Elə həmin ay Rusiya Federal Sərhəd Xidməti direktorunun müavini Aleksandr Kojevnikov Azərbaycana səfər etdi və Rusiyalı hərbi mütəxəssislərə onların şübhəli hesab etdikləri bütün yerlər göstərildi. Azərbaycan MTN-nin rəhbəri Namiq Abbasov bildirdi ki, «Rusiya Sərhəd xidmətinin nümayəndələri Hacı Zeynalabdin qəsəbəsi yaxınlığında dəniz sahilində silah, döyüş sursatı yüklənib yola salınan hansısa bir körpü olması barədə siqnal olduğunu deyirdilər. Onlar belə bir

körpünün olmadığını yəqin etdilər. Bundan əlavə biz onlara dənizin bütün akvatoriyası ilə tanış olmağı, bütün körpülərə baxmağı təklif etdik. Xəstəxanalarda guya yaralı çeçenlərin olması barədə şayiə ilə əlaqədar bu obyektlərə də getdilər və heç nə tapmadılar. Hansısa anqarlarda təyyarələrin olması barədə siqnalları təsdiq edən sübutlar da tapa bilmədilər» [23, 26 yanvar, 1996]. Rusiya tərəfi qəti əmin olanda ki, onların tədbirlərinin mənası yoxdur və Azərbaycan çeçen yaraqlılarına silah yardımı etmir və digər hərbi köməkliklər göstərmir, aparılan yoxlamalar Rusiya sərhəd xidməti nümayəndələrinin təşəbbüsü ilə dayandırıldı.

Azərbaycanın Rusiya ilə bu cür açıq dialoqa başlaması, hətta bu dərəcədə güzəştə gedərək öz ərazisində yoxlanışların keçirilməsini təşkil etməsi və yoxlanışlar nəticəsində Azərbaycanın Çeçenistana hərbi köməkliklər göstərməsi kimi ittihamların həqiqətə uyğun olmadığının sübut olunması respublikanın mövqeyini möhkəmləndirdi. Rusiya hərbi nümayəndələrinin birbaşa iştirakı ilə keçirilən yoxlanışların nəticəsini əlbəttə ki, Rusiya nümayəndələri də təsdiq etdilər.

1996-cı ilin yanvarında Rusiya hərbi mütəxəssislərinin Azərbaycanda yoxlanışlar keçirməsindən sonra həmin ilin fevral ayında Rusiya Federal Sərhəd Xidməti direktoru Andrey Nikolayevin başçılığı ilə digər bir nümayəndə heyəti Azərbaycana səfər etdi. Azərbaycanla Rusiya arasında sərhəd qoşunları xətti üzrə əməkdaşlıq məsələləri müzakirə edildi. RF ilə Azərbaycan arasında əməkdaşlığın gələcək inkişafı haqqında saziş paraflandı. Andrey Nikolayev Azərbaycanda olarkən bildirib:- «... sərhəd əməkdaşlığına dair Rusiya ilə Azərbaycan arasında hazırlanmış saziş böyük perspektivlər açır, sərhədlərdə münasibətlərin yeni ideologiyasını yaradır. Eyni zamanda bu saziş sərhədlərdə üçüncü ölkələrlə əməkdaşlığı nəzərdə tutur» [10, 15 fevral, 1996].

1996-cı ildə siyasi şərait artıq müəyyən qədər dəyişilmişdi ki, bu da Azərbaycan-Rusiya münasibətlərinə təsirsiz ötüşə bilməzdi. Bir sıra məsələlərdə qarşılıqlı razılığın əldə olunması digər məsələlərin həlli üçün də, prinsip etibarilə şərait yaratmalı idi. Məsələn, 1996-cı ilin yanvarında Azərbaycanla Rusiya arasında ilkin Azərbaycan neftinin Rusiya ərazisi ilə daşınması haqqında müqavilə imzalandı. Lakin Azərbaycan tərəfindən edilən güzəştlərin nəticəsində Rusiya mövqeyində elə bir ciddi dəyişiklik etmədi, Azərbaycana qarşı sərhəd blokadası aradan götürülmədi. Bu çox məntiqsiz idi ki, Bakı-Qroznı-Novorossiysk neft kəməri vasitəsilə Xəzər neftinin daşınmasında iştirak edən Rusiya Azərbaycanla sərhədləri bağlı saxladı, Şimali Qafqaz nəqliyyat kommunikasiyaları işə salınmadı, xalqlar arasında yaradılan süni manеələr olduğu kimi saxlanıldı. Buradan belə bir nəticə çıxır ki, vəziyyətin tam normallaşması üçün Azərbaycanın çoxsaylı güzəştlərinə baxmayaraq Rusiya ikili standartlardan istifadə edərək vəziyyətə bütünlüklə nəzarət etməyə və Azərbaycanı təzyiq altında saxlamağa çalışdı. Rusiyanın bu siyasətinin əsas məqsədi əslində bütün maraqlarını reallaşdırmaq üçün idi və Azərbaycana edilən kiçiksaylı güzəştlər də belə deməyə əsas verirdi.

Beləliklə Rusiya Azərbaycana qarşı sərhəd blokadası illərində bir sıra kiçik güzəştlər etdi. Məsələn, 1995-1996-cı illərdə qısa vaxt, bir ay ərzində Bakı-Mahaçqala marşrutu ilə gəmilər üzməyə başladı. Qeyd edək ki, Azərbaycan gəmilərinə Rusiya limanlarına yan almaq qadağan edilmişdi. 1996-cı ildə RF baş naziri V.Çernomırdin Azərbaycan gəmilərinin Rusiya limanlarına yan alması haqqında sərəncam verdi. Lakin bu da məsələni həll etmədi, Rusiya Həştərxan limanından Azərbaycan gəmilərinin öz daxili sularına daxil olmasını qadağan etmişdi. Bu cüzi güzəştlər problemləri həll edə bilməzdi və Rusiyanın bu gedişləri blokadanı aradan qaldırmamaq üçün kifayət qədər düşünülmüşdü. Yəni elə bir şərait yaradıldı ki, Rusiyanın Azərbaycanı blokada vəziyyətində saxlaması o qədər də hiss olunmasın və Azərbaycan Rusiyadan qəti olaraq üz döndərməsin.

1996-cı ilin yanvarında keçirilən MDB dövlət və hökumət başçıları Şurasının iclasında da Azərbaycan-Rusiya

sərhədlər problemi, Şimali Qafqaz nəqliyyat məsələləri Azərbaycan və Rusiya rəsmiləri arasında müzakirə mövzusuna çevrildi. Moskva görüşlərində (1996, yanvar) Azərbaycan öz mövqeyini kifayət qədər aydın və qəti şəkildə bildirdi. Azərbaycan Prezidenti H.Əliyev bu haqda çıxışında dedi:- «Guya Azərbaycanın çeçen separatçılara onların döyüş əməliyyatlarında kömək göstərdiyi barədə hər cür uydurmaları qəti şəkildə təkzib etmək istəyirəm. Bu, yalan və böhtandır. ... Azərbaycan ilə Rusiya arasında sərhəd Rusiya sərhəd qoşunları tərəfindən möhkəm qorunur. Biz bundan zərər çəkirik. ... Azərbaycan ilə Rusiya arasında sərhəd Dağıstanda tamamilə bağlanıb. Belə isə Azərbaycan hansısa separatçılara necə kömək göstərə bilər» [24, 24 yanvar, 1996]. 1996-cı ilin sentyabr ayında Rusiya Dövlət Dumasının deputatları ilə görüşündə Azərbaycan prezidentinin fikirlərinə diqqət yetirək:- «... istərdim ki, Rusiya tərəfindən düşünülməmiş addımlar atılması, məsələn, guya Azərbaycanın ərazisindən Çeçenistana silah göndərilməsi barədə Rusiyanın kütləvi informasiya vasitələrində ölkəmizin ünvanına daim səslənən əsassız ittihamlara son qoyulsun». Rusiyanın sərhədi bağlamasını məntiqsiz addım adlandıran prezident H.Əliyev vurğuladı ki, «bu Azərbaycanı çox ağır vəziyyətə salıbdır... Sərhədləri bağlamaq yox möhkəmləndirmək lazımdır» [25, 27 sentyabr, 1996].

1996-cı ilin avqust ayında artıq I Rusiya-Çeçenistan müharibəsi sona çatmaq üzrə idi, Rusiya hakimiyyət orqanları ilə Çeçenistan rəhbərliyi arasında danışıqlar gedirdi. Rusiya döyüşlərdə bir sıra uğursuzluqlara düçar olmuşdu, böyük itkilər verilmişdi və bununla bağlı ictimaiyyət arasında hökumətə qarşı narazılıqlar var idi. Müharibə əleyhidarlarının sayı durmadan artırdı. Hətta Dövlət Dumasında Yeltsin siyasətinin əleyhinə olanlar kifayət qədər idi. Bütün bunlar isə Yeltsinin elektoratının zəifləməsinə gətirib çıxarar və o seçkilərdə məğlub ola bilərdi. Burada beynəlxalq təzyiqləri də nəzərdən qaçırmaq olmaz. Dünya ictimaiyyəti Çeçenləri öz azadlıqları uğrunda mübarizlər kimi qəbul edirdilər və ona görə də Rusiya üçün vaxt qazanmaq və çeçenlərlə danışıqlara getmək zərurətə çevrildi. 1996-cı il avqustun sonlarında Rusiya ilə Çeçenistan arasında sülh müqaviləsi imzalandı. Müqavilənin şərtlərinə görə döyüşlər kəsilir, RF silahlı qüvvələri Çeçenistandan çıxarılır, Çeçenistan rəhbərliyi qanunsuz silahlı qruplaşmaların ləğv olunmasına nail olur, Çeçenistanla Rusiya arasında səlahiyyət məsələlərinin həlli üçün beş il vaxt nəzərdə tutulurdu. Bu hadisələr Azərbaycanla Rusiya arasında Moskva danışıqlarına təsadüf etdi. Azərbaycanla Rusiya arasında Şimali Qafqaz nəqliyyat kommunikasiyaları probleminin həll edilməsi üçün müəyyən şərait yarandı. Artıq Rusiyanın sərhəd blokadasını davam etdirməsinin heç bir əsası ola bilməzdi. Lakin Rusiyanın niyyəti Azərbaycanı hələ uzun müddət blokadada saxlamaq idi. Müharibə başa çatsa da Azərbaycana olan münasibət yenə də qəti olaraq dəyişmədi. 1996-cı ilin avqust ayında Azərbaycan-Rusiya danışıqlarında sərhədlər məsələsi, kommunikasiyalar problemi yenidən müzakiə edildi. Azərbaycan tərəfi sərhədlərin açılması məsələsini yenidən qəti şəkildə ortaya qoydu. Bu barədə Azərbaycan Respublikası Prezidentinin fikirlərinə diqqət yetirək:- «Azərbaycan-Rusiya arasında sərhəddi hökmən açmaq lazımdır, çünki kommunikasiyalarımızı belə vəziyyətdə saxlamaq üçün əsas yoxdur» [11, 9 avqust, 1996]. «1994-cü ilin sonunda Çeçenistanda baş verən hadisələr Azərbaycanın iqtisadiyyatına çox böyük zərər vurur - yollar, kommunikasiyalar bağlanıbdır. O ki, qaldı mətbuatda vaxtaşırı dərc edilən həqiqətdən uzaq xəbərlərə, şübhəsiz ki, bunlar əməkdaşlığın inkişafına xidmət etmir, əksinə zərər vurur» [12, 13 avqust, 1996]. 1996-cı ilin dekabrında MDB parlamentlərarası komissiyasının üzvləri ilə görüşündə Azərbaycan prezidenti H.Əliyev ədalətsiz olaraq bağlanmış Azərbaycan-Rusiya sərhəddindəki vəziyyətdən narahatçılığını bildirdi. Görüşdə Rusiya sərhəd qoşunlarının hərbi Gürcüstan yolunda sərhədi bağlamasının, Azərbaycandan gedən avtomaşınların buraxılmamasının, lakin Ermənistan-

dan gedən yüklərin buraxılmasının təəccüb doğurduğu bildirildi. «Prezidentin (Azərbaycan prezidenti nəzərdə tutulur - R. R.) fikrincə belə məsələlərə bu və ya digər komandirin, yaxud rəhbər işçinin subyektiv əhval-ruhiyyəsini əsas götürməklə deyil, dövlət mövqeyindən yanaşmaq lazımdır» [26, 24 dekabr, 1996]. 1996-cı ildə RF nazirlər kabineti səviyyəsində Azərbaycanla bağlı sərhədlər və nəqliyyat məsələləri ilə əlaqədar layihə hazırlandı və elə həmin il də Azərbaycan və Rusiya tərəfləri arasında sərhəddə əməkdaşlıq məsələlərini nəzərdə tutan saziş imzalandı.

1997-ci ilin yanvarında Azərbaycanın Rusiya ilə nəqliyyat yolları, sərhədlər probleminin həllinə dair apardığı danışıqlar elə bir effekt verməsə də problemlər qismən həll olundu. 1997-ci il yanvarın 7-də Azərbaycan-Rusiya hökumətlərarası komissiyasının işində əsasən nəqliyyat məsələləri müzakirə edildi. Azərbaycan tərəfi dəniz və çay nəqliyyatı ilə bağlı bütün məhdudiyyətlərin tezliklə aradan qaldırılmasında, habelə Moskvaya sərnişin qatarlarının hərəkətinin bərpa olunmasında təkid etdi.

Azərbaycan Dövlət Dəmir Yolu İdarəsi ilə Rusiyanın Yollar Nazirliyi arasında 1997-ci ilin yanvarında əldə olunan razılaşma nəqliyyat probleminin həllində müəyyən irəliləyişin yaranmasına imkan verdi. Bu razılaşmaya görə müəyyən güzəştlər əldə edildi, lakin nəqliyyat kommunikasiyaları yenə də tam bərpa olunmadı. «Tərəflər Yalama-Samur dəmir yolu keçid məntəqəsinin işinin tənzimlənməsinə, Bakı-Moskva sərnişin qatarının hərəkətinin bərpa edilməsinə dair tədbirlər, Bakı-Mahaçqala sərnişin qatarının hərəkət cədvəlinin dəyişdirilməsi imkanları, keçid məntəqəsində sərnişin və yük qatarlarının buraxılmasında məhdudiyyətlərin aradan qaldırılması, gömrük və sərhəd qoşunları əməkdaşlarının işinin əlaqəli qurulması barədə razılıq əldə etdilər» [13, 17 yanvar, 1997]. 1997-ci ilin sentyabrında tərəflər arasında əldə olunmuş razılığa görə ikinci tankerin Volqa-Baltika yolu ilə hərəkətinə icazə verildi. 1997-ci ildə Rusiya öz siyasətində müəyyən düzəlişlərə başladı. Azərbaycanla müttəfiqlik münasibətində olaraq və regional layihələrdə birlikdə çıxış edərək ona qarşı blokada şəraitini uzun müddət saxlamaq mümkün ola bilməzdi. Artıq Şimali Qafqazda da vəziyyət dəyişmişdi, 1997-ci ildə Rusiya və Çeçenistan prezidentlərinin Moskva danışıqları və sülh sazişinin imzalanması ilə I Rusiya-Çeçenistan müharibəsi birdəfəlik başa çatmışdı.

Rusiya Çeçenistanın müstəqil bir respublika olması ilə hüquqi olmasa da, faktiki olaraq razılaşmışdı. Digər tərəfdən, ilkin Azərbaycan neftinin nəqlində müstəqil bir tərəf kimi çıxış edən Çeçenistan, Rusiya və Azərbaycan arasında üçtərəfli müqavilə imzalanmışdı (1997). Bu məsələdə belə nəticəyə gəlmək olar ki, Azərbaycan, Rusiya və Çeçenistan bir tərəfdaş olaraq çıxış etdilər. 1997-ci ildə Azərbaycan və Rusiya arasında «Dostluq və Qarşılıqlı Əməkdaşlıq haqqında» müqavilə imzalandı. Bu müqavilə əməkdaşlığın yeni prinsiplərini ortaya qoydu.

Bütün bunlardan sonra Azərbaycana qarşı blokada vəziyyətinin saxlanılması qarşılıqlı əməkdaşlıq normalarının Rusiya tərəfindən kobud surətdə pozulması demək olardı. Artıq Rusiya reallıqla barışmaq, blokadanı aradan qaldırmağa məcbur idi. 1997-ci ilin sonlarında nəhayət ki, Azərbaycana qarşı blokada şəraiti aradan qalxdı. Şimali Qafqaz nəqliyyat kommunikasiyaları, təxminən üç illik (1994-1997) fasilədən sonra Azərbaycanın üzünə açıldı.

Beləliklə I Rusiya-Çeçenistan müharibəsi Şimali Qafqazda və ondan kənarda da böyük problemlərin yaranmasına şərait yaratdı. Rusiya-Gürcüstan və Rusiya-Azərbaycan arasında münasibətlər kəskinləşdi, Gürcüstan və Azərbaycan Rusiyanın hədələri və təzyiqləri ilə üzləşdi. Hər iki dövlət Çeçenistanla əməkdaşlıqda, müharibədə çeçenlərə köməklik göstərməkdə günahlanıdırıldı. Əsas təzyiqlər Çeçenistanla heç bir sərhəddə malik olmayan Azərbaycana qarşı yönəldi.

I Rusiya-Çeçenistan müharibəsi başlayandan Rusiya ilə Azərbaycan arasında müəyyən anlaşılmazlıqlar yarandı.

Rusiya KİV-ləri Azərbaycana qarşı böhtan komponiyasına başladılar. Rusiya hakimiyyət orqanları və kütləvi informasiya vasitələri Rusiya-Çeçenistan müharibəsi ərəfəsində və müharibə gedişində Azərbaycana qarşı təbliğat kompaniyası apardı. Azərbaycanın simasında düşmən obrazı yaratmaq üçün Rusiya tərəfdən bir sıra cəhdlər göstərildi. Məsələn, iddia edildi ki, guya Çeçenistanda azərbaycanlı muzdlular döyüşür, yaxud Çeçenistana Azərbaycan vasitəsilə muzdlular və silah göndərilir. Təbii ki, burada məqsəd Azərbaycanı dünya ictimaiyyətinə qeyri-sabit, sərhədlərini müdafiə edə bilməyən, ekstremizmi dəstəkləyən ölkə kimi təqdim etmək, onun siyasi nufuzuna xələl gətirmək idi.

Rusiya Azərbaycanı Çeçenistana, çeçen yaraqlılarına kömək göstərməkdə ittiham etməklə yanaşı, əks informasiya yayaraq çeçen xalqının Azərbaycana qarşı düşmənçiliyinə nail olmağa da çalışdı. Məsələn, Rusiya KİV-də Azərbaycan və Rusiya xüsusi xidmət idarələrinin Çeçenistan prezidenti C.Dudayevin həyatına sui-qəsddə günahlandırıldığı haqqında mə'lumatlar yayıldı. Azərbaycanın Dudayevi Türkiyəyə qaçırmağa hazırlıq gördüyü barədə həqiqətə uyğun olmayan yalan informasiyalar verildi. Azərbaycan qəzeti bu haqda yazır:- «Bu onu göstərir ki, Moskvada Rusiya-Azərbaycan münasibətlərinin yaxşılaşmasını istəməyən qüvvələr var və həmin qüvvələrin «ilhamvericisi», şübhəsiz erməni lobbisidir» [27, 25 yanvar, 1995].

Beləliklə, 1996-cı ildə I Rusiya-Çeçenistan müharibəsinin başa çatması regiondakı siyasi-hərbi gərginliyin aradan qalxmasına səbəb oldu. Müharibənin bitməsi regional əməkdaşlığın yaranması və inkişaf etməsinə təkan verdi.



## 3.3 Rusiya-Çeçenistan müharibəsinin başa çatması və regionda yaranmış yeni etnosiyasi vəziyyətin xarakteri

1995-ci ilin sonu, 1996-cı ilin əvvəllərindən etibarən Rusiya Çeçenistan ərazisinin böyük hissəsinə hərbi nəzarət etməklə yanaşı burada rusiyapərəst hakimiyyət orqanları da yaratdı. Lakin buna baxmayaraq İçkeriya Çeçen Respublikasının hərbi qüvvələri və siyasi hakimiyyəti real qüvvə kimi Rusiyaya qarşı mübarizə apardı. Çeçenistanın əsasən cənub dağlıq bölgələri dudayevçilərin nəzarətində idi. Demək olar ki, siyasi qələbə də dudayevçilərin tərəfinə keçdi. Bütün I Rusiya-Çeçenistan müharibəsi gedişində beynəlxalq təşkilatlar Doku Zavqayevin qondarma hakimiyyətini yox, ümumxalq səsverməsi ilə seçilmiş prezident Cövhər Dudayevin hakimiyyətini tanıdılar. Rusiyanın Çeçenistanda keçirdiyi seçkilərin nəticələri də beynəlxalq ictimaiyyət tərəfindən tanınmadı. Belə ki, ATƏT 1995-ci ilin dekabrında ÇR icra rəhbərliyinə və 1996-cı ilin iyununda ÇR parlamentinə keçirilən seçkilərdə qanun pozğunluqları olduğunu bildirdi. Beynəlxalq ictimaiyyət Rusiyanın Çeçenistan Respublikasında apardığı hərbi əməliyyatları təcavüzkarlıq kimi qiymətləndirdi və I Rusiya-Çeçenistan müharibəsi dövründə beynəlxalq ictimai rəy Rusiyaya qarşı yönəldi.

Çeçenistan respublikasında vətəndaşların Konstitusiya hüquqlarına və azadlıqlarına riayət edilməsi üzrə müvəqqəti müşahidə komissiyasının üzvü, general Nikolay Stolyarovun dediklərinə diqqət yetirək: - «Biz MDB-də təkləndik, Qafqazda müharibə apardıq, on illər üçün nifrət toxumu səpdik» [14, 17 yanvar, 1995]. Faktlara əsaslanaraq demək olar ki, Rusiya Silahlı Qüvvələrinin Çeçenistanda yerli əhaliyə qarşı zorakılığı çeçenlərin Rusiya dövlətinə qarşı nifrətinə səbəb oldu. Beləliklə də Rusiya hökuməti,

antidudayevçi qüvvələri çıxmaq şərtilə, çeçen xalqı arasında özünə dayaq tapa bilmədi. Bu da I Rusiya-Çeçenistan müharibəsinin gedişinə və nəticələrinə təsir edən mühüm faktor idi. 1995-ci ilin fevralında Sergey Kovalyovun rəhbərliyi ilə RF İnsan hüquqları üzrə səlahiyyətli qrupun üzvləri Qroznıda dinc əhali arasında həlak olanların 25000 nəfər olduğunu elan etdi [124, s. 45].

Beləliklə, I Rusiya-Çeçenistan müharibəsinin 1994-cü ildən başlayaraq kiçik fasilələrlə iki il davam etməsi Rusiya dövlətinin mənafelərinə zidd şəkildə inkişaf etdi və onun müharibədə məğlubiyyətini şərtləndirdi. Artıq 1996-cı ildə müharibənin sülh yolu ilə həlli variantı daha çox reallığa uyğun gəldi. Sülh variantını həm beynəlxalq təşkilatlar, həm Rusiya Dövlət Dumasında əksəriyyət deputatlar, bu ölkədəki müəyyən siyasi qüvvələr, həm də dudayevçilər müdafiə etdilər.

RF Dövlət Duması Çeçenistanda hərbi əməliyyatlar başladığı vaxtdan etibarən bir neçə dəfə Rusiya hökumətini hərbi əməliyyatları dayandırmağa və siyasi danışıqlara başlamağa çağırıb. Hələ 1994-cü il dekabrın 23-də Dövlət Duması hərbi əməliyyatlara moratoriyum qoyulması və danışıqlara başlanılması haqqında bəyanət verib, 1995-ci il aprelin 12-də isə Çeçen böhranının aradan qaldırılması haqqında qanun qəbul edib. Bu qanun Rusiya-Çeçenistan münaqişəsində Silahlı Qüvvələrdən istifadəni qadağan edirdi və hökumətə Dudayev administrasiyası ilə döyüş əməliyyatlarının dərhal, qeyd-şərtsiz dayandırılması haqqında danışıqlara başlamağı tövsiyyə edirdi. 1995-ci il iyulun 12-də RF Dövlət Duması Çeçen münaqişəsinin siyasi yolla həlli haqqında qanun qəbul etdi. 1996-cı il fevralın 20-də Dövlət Dumasının bir qrup deputatı döyüş əməliyyatlarının kəsilməsi, hərbi, həm də siyasi məsələlərin həll edilməsi üçün danışıqlara başlanılmasını nəzərdə tutan sənədi bəyan etdilər. Rusiya Prezidenti isə Dumanın Çeçen



problemini siyasi yolla həll etmək təklifini, tövsiyyəsini rədd etdi. Demək olar ki, Parlamentin hökumətə etdiyi tövsiyyələr, qəbul olunan qanunlar nəzərə alınmadı. Məsələn, Dumanın 1995-ci il iyulun 12-də "Çeçenistan respublikasında siyasi tənzimlənmənin müvəqqəti tədbirləri haqqında" qəbul etdiyi qanun 1995-ci il avqustun 14-də RF prezidenti Boris Yeltsin tərəfindən rədd edildi.

Bu bəyanat o vaxt verilmişdi ki, artıq 1995-ci ilin dekabrında Çeçenistan respublikasında rusiyapərəst qüvvələrin hakimiyyəti yaradılmışdı. Lakin bunun əksinə olaraq beynəlxalq təşkilatlar, xüsusilə ATƏT Dudayev hökumətinin real qüvvə olduğu qənaətinə gələrək onunla danışıqların vacibliyini bildirdi.

Ümumiyyətlə, Rusiya və Çeçenistan tərəfləri arasında müxtəlif səviyyəli görüşlər və danışıqlar 1995-ci ildən etibarən ATƏT-in vasitəçiliyi ilə keçirildi. Bu danışıqlarda bir sıra məsələlər - məsələn, döyüşlərin müəyyən müddətə dayandırılması, əsirlərin dəyişdirilməsi və s. həll edilsədə, Rusiya-Çeçenistan münaqişəsinin birdəfəlik həll edilməsi üçün elə bir fundamental razılaşma əldə olunmadı.

I Rusiya-Çeçenistan müharibəsində dönüş yarada biləcək hərbi əməliyyatlar 1996-cı ilin martında baş verib. 1996-cı il martın 6-da çeçen səhra komandiri Ruslan Gelayevin komandanlığı altında olan çeçen hərbi qüvvələri Qroznıya daxil oldular, şəhərin böyük hissəsi onların nəzarətinə keçdi. Federal qüvvələr ciddi təlafat verdi. Hərbi əməliyyatların bitdiyini bildirən Rusiya Qroznı məğlubiyyətindən sonra tutduğu mövqeyində müəyyən düzəlişlər etməyə məcbur oldu, Dudayev hökuməti artıq bir tərəf kimi tanındı və onunla danışıqlar aparmağın gərəkliyi bildirildi. 1996-cı il martın 31-də prezident B.Yeltsin "Çeçenistan Respublikasında böhranın aradan qaldırılması proqramı" haqqında fərman verdi. Burada Çeçen Respublikasının müharibə aparan tərəf kimi göstərilməsi və onunla danışıqların vacibliyi

bildirilsə də, o da qeyd olundu ki, Çeçenistan Respublikası parlamentinə seçkilər keçirilməli və Federal mərkəzlə Çeçenistan Respbulikası arasında səlahiyyətlərin bölgüsü haqqında müqavilə imzalanmalıdır. Bu fərmandan sonra İÇR prezidenti Cöhər Dudayev bildirib: - "Biz realistik və əminik ki, rəsmi Moskva heç bir normal danışıqlara hazır deyil. Yeltsin komandası bizdən ancaq kapitulyasiya gözləyir. ( "Россия-Чечня: цепь ошибок и преступлений" - 1998, M., c. 70.)

Qeyd etmək lazımdır ki, Rusiya-Çeçenistan münaqişəsinin siyasi yolla həll edilməsində ATƏT-in böyük rolu oldu və I Rusiya-Çeçenistan müharibəsi illərində ATƏT tərəfləri siyasi dialoqa çağırdı və bütün fəaliyyətini də bu istiqamətdə qurdu. 1996-cı ilin yanvarında ATƏT-in Çeçenistan missiyasının rəhbəri Tim Quldiman bəyan etdi ki, respublikada sülhün əldə olunması üçün bütün maraqlı tərəflərin genişmiqyaslı danışıqları vacibdir [124, s. 66].

1996-cı il mayın 1-də Çeçenistan prezidenti vəzifəsini icra edən Zəlimxan Yandarbiyev (1996-cı il aprelin 22-də prezident Cöhər Dudayev Rusiya Silahlı Qüvvələri tərəfindən təşkil olunmuş əməliyyatda öldürülmüşdü - R.R) bəyan etdi ki, danışıqların başlanması üçün şərt Rusiya Silahlı Qüvvələrinin Çeçenistandan bütünlüklə çıxarılması ola bilər. Rusiya və Çeçenistan prezidentləri arasında görüş və danışıqlar 1996-cı ilin mayında baş tutdu. Bu, Rusiya və Çeçen tərəfləri arasında yüksək səviyyəli ilk görüş oldu, prinsipial razılıqların əldə olunması üçün qarşılıqlı güzəştlər nəzərə alındı. 1996-cı il mayın 27-də ATƏT-in vasitəçiliyi ilə Moskvada RF prezidenti Boris Yeltsin və İÇR prezidenti Zəlimxan Yandarbiyev arasında keçirilən görüşdə «Döyüşün, hərbi əməliyyatların dayandırılması və Çeçenistan Respublikası ərazisində hərbi münaqişənin həll edilməsi haqqında» razılaşma imzalandı. Bundan sonra Nazranda (1996, 9-11 iyun, İnquşetiya Respublikası) hərbi məsələlərin həll edilməsi haqqında danışıqlar keçirildi. Lakin 1996-cı ilin iyun



ayında Rusiyada prezident seçkiləri keçirildikdən sonra (RF Prezidenti ikinci müddətə Boris Yeltsin seçildi) Rusiya danışıqlar prosesindən geri çəkilməyə başladı və passiv mövqe tutdu. 1996-cı il iyulun 10-dan isə Çeçenistan ərazisində komendant saatı tətbiq edildi, 9-10 iyulda Mahketi, Qehi kəndləri RF Silahlı Qüvvələrinin hücumuna məruz qaldı.

Beləliklə, Rusiya danışıqları və əldə olunan razılaşmaları pozaraq döyüş əməliyyatlarını bərpa etdi. Qeyd edək ki, Çeçen tərəfi danışıqların davam etdirilməsinin lehinə olub. 1996-cı il iyulun 6-da İçkeriya Çeçen Respublikası prezidentinin köməkçisi Əhməd Zakayev Çeçen tərəfinin Moskva və Nazranda əldə olunmuş razılaşmanın şərtlərini yerinə yetirməyə hazır olduğunu bəyan etmişdi və bildirmişdi ki, Yeltsinin seçkilərdə qələbəsi Çeçenistanda sülhün yaranmasına kömək edəcək. ("Россия-Чечня: цепь ошибок и преступлений" - 1998, M., c. 80.)

1996-cı ilin avqust ayı bir sıra hərbi əməliyyatlar və siyasi danışıqlarla müşahidə olundu. Rusiya hərbi uğursuzluğa düçar oldu və Qroznı itirildi. Çeçenlər Rusiya Silahlı qüvvələri üzərində hərbi üstünlüklər əldə etdilər. Münaqişənin siyasi yolla həlli variantı daha da aktuallaşdı və tərəflər arasında I Rusiya-Çeçenistan müharibəsinə son qoyan Xasavyurt razılaşması imzalandı. 1996-cı il avqustun 15-də sülh planı ilə regiona gələn RF prezidentinin Çeçenistan Respublikasında səlahiyyətli nümayəndəsi Aleksandr Lebed Köhnə Ataqı kəndində Zəlimxan Yandarbiyev və Aslan Məshədovla görüşdü. 1996-cı il avqustun 30-da isə Dağıstan Respublikasının Xasavyurt rayonunda A.Lebed və A.Məshədov «Birgə bəyanat» imzaladılar. Bu bəyanatda sülh danışıqlarının bundan sonra da davam etdirilməsi haqqında prinsiplər göstərildi və 2001-ci il dekabrın 31-nə qədər Rusiya və Çeçenistan arasında siyasi müqavilənin imzalanması müddəti razılaşdırıldı.

Xasavyurt müqaviləsi Rusiya və Çeçen tərəfləri arasında siyasi danışqların başlanğıcı və əsas bazisi idi. Bu müqavilə I Rusiya-Çeçenistan müharibəsinin yekunu oldu və Rusiya ordusu 1996-cı il dekabrın 31-nə qədər Çeçenistan Respublikası ərazsindən çıxarıldı. Siyasi danışıqlar 1997-ci ildə də davam etdirildi. Bu dəfə tərəflər arasında görüş iki dövlətin prezidentləri səviyyəsində keçirildi. 1997-ci il mayın 12-də RF prezidenti Boris Yeltsin və İçkeriya Çeçen Respublikasının prezidenti Aslan Məshədov Moskvada danışıqlar apardılar. Artıq A.Məshədov 1997-ci il yanvarın 27-də İÇR ərazisində keçirilən prezident seçkilərində İÇR prezidenti seçilmişdi. 1997-ci ildə prezidentlər B.Yeltsin və A.Məshədov RF və İÇR arasında sülh və qarşılıqlı münasibətlərin prinsipləri haqqında müqavilə imzaladılar.

Beləliklə, 1996-cı il Xasavyurt, 1997-ci il Moskva müqaviləsinə görə I Rusiya-Çeçenistan müharibəsi sona çatdı, Rusiya İçkeriya Çeçen Respublikasını bir tərəf kimi tanıdı və İÇR öz mövcudluğunu de-fakto və de-yure (Rusiya ilə imzalanmış qarşılıqlı müqavilələrə görə - R. R) təsdiq etdi. Rusiyanın İçkeriya Çeçen Respublikası ilə 1994-cu ilin dekabrından başladığı müharibə onun məğlubiyyəti ilə bitdi, İçkeriya Çeçen Respublikası Rusiya Federasiyasının subyektinə çevrilmədi və öz suverenliyini qoruyub saxladı.

Rusiyanın Çeçenistan ərazisində 1995-ci ildə yaratdığı oyuncaq hökumət də ləğv olundu, Çeçenistana bütünlüklə İÇR hökuməti nəzarət etməyə başladı. I Rusiya-Çeçenistan müharibəsinin başa çatması nəticəsində Çeçenistan Respublikası Şimali Qafqaz regionunda Rusiyanın tərkibində olmayan suveren bir dövlətə çevrildi. Rusiya heç bir vəchlə bununla barışmaq istəmədi və hərbi uğursuzluqlarının əvəzini siyasi sahədə çıxmağa çalışdı. Çeçenistan RF subyekti hesab edildi və onunla səlahiyyət bölgüsünün aparılması məsələsi irəli sürüldü. Düzdür, çeçenlərin müstəqilliyi dünya



dövlətləri tərəfindən tanınmamışdı və Çeçenistan beynəlxalq hüququn subyektinə çevrilməmişdi. Lakin Rusiyanın müharibədəki uğursuzluğu və Çeçenistanla siyasi müqavilələr imzalaması bu respublikanın müstəqilliyi üçün mümkün şərait yaratdı.

Həmin dövrdə (1996-1997) regiondakı vəziyyət Rusiya ilə Çeçenistan arasında heç də Rusiyanın dövlətçilik maraqlarına uyğun gəlməyən münasibətlərin qurulmasına səbəb oldu. Əsas məsələlərdən biri də Çeçenistanın Şimali Qafqazdan keçən strateji kommunikasiya sistemləri üzərində yerləşməsi idi. Qeyd edək ki, Çeçenistan neft ölkəsi olmaqla yanaşı ərazisindən kommunikasiya xətləri də keçir. Məsələn, Çeçenistan ərazisindən Bakı-Qroznı-Novorossiysk kommunikasiya xəttinin bir hissəsi keçir ki, buna da nəzarətin itirilməsi və yaxud həmin xəttin təhlükəsizliyi məsələsinin nəzarətdən çıxması Rusiyanın Xəzər neft siyasətində tutduğu mövqeyə uyğun gəlmir, yəni Rusiya neft maraqlarını Çeçenistanla bölmək istəmirdi. Bəllidir ki, Rusiya Azərbaycan, eləcə də Orta Asiya neftinin Çeçenistan ərazisindən keçməklə Novorossiysk limanına nəqli variantı üzərində israr edir və neft kəmərinə nəzarəti ələ keçirməklə Qafqaz və Orta Asiyanı öz nüfuz dairəsində saxlamağa çalışırdı. Bu haqda Azərbaycan qəzeti yazır:- «Rusiya yaxşı başa düşür ki, neft kəməri təkcə Şimali Qafqaz regionuna deyil, həm də Azərbaycan və digər dövlətlərə təzyiq və təsir göstərmək üçün prinsipial əhəmiyyətə malikdir» [27, 25 yanvar, 1995].

Beləliklə I Rusiya-Çeçenistan müharibəsindən sonra regionda heç bir dövlət tərəfindən tanınmayan yeni bir ölkənin yaranması və yaxud yenidən özünü təsdiq etməsi ilə yanaşı yeni münasibətlər də quruldu. Artıq Çeçenistan regional layihələrdə bir tərəf kimi çıxış etməyə başladı və belə olan təqdirdə Çeçenistanın da bir ölkə kimi maraqları nəzərə alınmalı idi. Məsələn, Xəzər neftini daşıyacaq Bakı-

Qroznı-Novorossiysk kəmərinin fəaliyyətə başlaması üçün təkcə Azərbaycan və Rusiyanın yox, həm də Çeçenistanın razılığı zərurəti yarandı. Şimal Qafqaz kommunikasiya xətlərinin taleyi haqqında təkcə Rusiyanın yox, həm də Çeçenistan rəhbərliyinin qərar verməsinin vacibliyi ortaya çıxdı. Rusiyanın Xəzərdəki yeni yataqlardan çıxarılacaq neftin daşınmasında iştirakı imkanları onun Şimali Qafqazdan keçən kommunikasiya xəttinə necə nəzarət etməsi ilə müəyyən edilirdi. Neftin daşınması üçün marşrutların seçilməsi barədə Rusiya nümayəndələrinin çeçen hakimiyyət orqanlarının iştirakı olmadan apardıqları danışıqlar Moskva ilə Qroznının münasibətlərində əlavə gərginlik yaratdı.

Aydın məsələ idi ki, Bakı-Qroznı-Novorossiysk kəmərinin Çeçenistandan keçən hissəsinə Çeçenistan rəhbərliyinin təhlükəsizlik təminatı olmasaydı bu kəmərin işə düşməsi də reallığa çevrilməzdi. Ona görə ki, Çeçenistan müharibədən yenicə çıxmışdı və insanların əlində çoxlu silah-sursat toplanmışdı. Müxtəlif hərbi qruplaşmaların və 30-dan artıq təriqətin fəaliyyətinə nəzarət etmək elə də asan bir proses deyildi. Çeçenistanda güclü hakimiyyət və bu hakimiyyətin verdiyi təminatlar stabilliyin və regiondakı təhlükəsizliyin qarantı ola bilərdi. Bu məsələ Azərbaycan üçün də böyük prinsipial əhəmiyyət daşıyırdı. Belə ki, Azərbaycanın bir çox kommunikasiya xətləri Şimali Qafqazdan keçirdi və o dövrdə Şimali Qafqazı Azərbaycanın kommunikasiya arteriyası adlandırmaq olardı.

I Rusiya-Çeçenistan müharibəsindən sonra Çeçenistanın Xəzər neft kəməri layihələrində iştirakı artıq onun Xəzər neft siyasətində bir tərəf kimi çıxış etməsinə dolayısı ilə yol açdı. Beləliklə, Şimal neft kəməri layihəsi yeni beynəlxalq münasibətlərin bir tərəfi olmaqla yanaşı, yeni regional əlaqələrin də əsasını qoydu. 1996-cı ildən başlayaraq Azərbaycan, Rusiya və Çeçenistan arasında Şimal kommunikasiya xətləri layihəsi üzrə əməkdaşlıqdan irəli gələn yeni



münasibətlər formalaşdı, Rusiya Çeçenistanla ikitərəfli əlaqələr qurmağa məcbur oldu. Bu şimal neft kəməri layihəsinə aid olan müqavilələrdə özünü daha çox büruzə verdi. Rusiyanın Çeçenistanla dialoqu, bu ölkə ilə düşmənçilikdən əl çəkməsi Rusiyanın mövcud neft maraqları baxımından çox vacib oldu. Azərbaycan üçün də Çeçenistanla əməkdaşlıq vacib idi, çünki bu ölkənin Rusiya və digər ölkələrlə əlaqələrində Şimali Qafqaz nəqliyyat kommunikasiyaları böyük yer tuturdu. Ən vacib məsələ isə Bakı-Qroznı-Novorossiysk kommunikasiya layihəsini reallaşdırmaq idi. Ona görə ki, ilkin Xəzər neftini məhz bu kəmər vasitəsilə daşımaq nəzərdə tutulurdu. Qeyd edək ki, Xəzər neft konsorsiomunun çıxaracağı ilkin nefti daşımaq üçün digər kəmərlər məsələn, Bakı-Supsa hələ hazır deyildi. Bakı-Qroznı-Novorossiysk layihəsinin iflasa uğraması ilə isə konsorsiumun fəaliyyətinə əngəl yaranar, ilkin neftin nəqli gecikdirilə bilərdi. Bu da Qərb neft şirkətlərinin Azərbaycana olan etibarlılığını azaldar, Azərbaycanın iqtisadi siyasəti uğursuzluğa düçar olardı.

Ümumiyyətlə götürdükdə, Xəzər neft siyasəti və bunun bir hissəsi hesab olunan neft kəmərləri strategiyası Qafqazda yeni reallıqların və siyasi vəziyyətin nəzərə alınmasını tələb etdi. Belə demək olar ki, I Rusiya-Çeçenistan müharibəsinin başlaması səbəblərindən olan neft kəmərləri maraqları bu müharibənin başa çatmasına da səbəb oldu. «Çeçenistanda döyüşlərin kəsilməsində - energetika sisteminin siyasi təsiri az rol oynamadı» [118, 6 aprel, 1996].

Müharibənin bir neçə il də davam etməsi Rusiyanı Xəzər neftinin daşınmasında iştirakdan məhrum edə bilərdi ki, bu da Rusiyanın regional siyasəti, Xəzər neft siyasəti ilə uyğun gəlmirdi. Elə buna görə də 1994-cü ildə «Əsrin kontraktı» adlı neft müqaviləsi imzalandıqdan sonra Rusiyanın xarici siyasətində Şimal neft kəməri layihəsinin reallaşdırılması məsələsinə daha çox üstünlük verilməyə başlandı. «Ne-

zavisimaya qazeta» bu barədə yazır: - «Rusiya cəhd edir ki, neft Qroznı vasitəsilə Novorossiyskə, oradan da tankerlərlə Bosfor və Dardanel boğazlarından Aralıq dənizinə ixrac edilsin» [130, 10 oktyabr, 1995]. Çox ehtimal ki, Çeçenistanda döyüşlərin kəsilməsinə edilən cəhdlər ilkin Xəzər neftini daşıyacaq Şimal marşurutunun fəaliyyətə başlaması kimi aydın bir məqsədə xidmət edirdi. Belə ki, «RF prezidenti Boris Yeltsin Rusiyanı Zaqafqaziya ilə bağlayan kommunikasiya vasitələri, boru kəmərləri üzərində nəzarətin bərpa edilməsinə işarə etmişdi. Bakı-Qroznı-Novorossiysk neft kəməri layihəsinin reallaşdırılması haqqında müqavilə 1995-ci ilin sonlarında artıq imzalanmalı idi. Lakin bu baş vermədi, ilkin Xəzər neftinin Rusiya ərazisindən daşınması haqqında Azərbaycan-Rusiya arasında müqavilə 1996-cı ilin yanvarında, Moskvada imzalandı. RF baş naziri Viktor Çernomırdin qeyd edirdi ki, ilkin neftin nəqli haqqında sənədin imzalanması münasibətlərin yaxşılaşdırılması yolunda əhəmiyyətli addımdır» [28, 19 yanvar, 1996].

Şimal marşrutu haqqında Azərbaycan və Rusiya arasında sazişin imzalanması bu marşrutun fəaliyyətə başlaması üçün kifayət deyildi. Yəni, Rusiya-Çeçenistan müharibəsi başa çatmadığı üçün Rusiya Çeçenistan ərazisindən keçən kommunikasiya xətlərinə nəzarət edə bilmirdi. Şimali Qafqazda sabitliyin bərqarar olmaması neft kəməri haqqında Azərbaycan-Rusiya sazişinin kağız üzərində qalacağına bir işarə oldu. Bakı-Qroznı-Novorossiysk kəmərinin hər vaxt partladılma ehtimalı yüksək idi. Məsələn, hələ 1995-ci il iyunun 14-də Moskvada neftin Bakı-Qroznı-Novorossiysk kəməri ilə ixrac edilməsi haqqında niyyət protokolu imzalandığı gün çeçen müqavimət dəstələri Budyonovskda (Rusiya) xəstəxananı ələ keçirdilər. Qeyd edək ki, elə həmin gün Rusiyanın ORT kanalında Bakı-Qroznı-Novorossiysk kəmərini müdafiə xarakterli şərh də verilmişdi, Çeçenistanın böyük hissəsində qanun-qayda və stabillik yaradıldığı bildirilmişdi [130, 10 oktyabr, 1995].

Rusiya ilkin Xəzər neftinin nəqli məsələsində Çeçenistan problemini düzgün qiymətləndirmədi və bunun hansı nəticələrə gətirib çıxaracağını nəzərə almadı. «Rusiya Çeçenistanda yerləşdirdiyi silahlı qüvvələrinə və qondarma Zavqayev hökumətinə ümid edərək Çeçenistandan keçən Bakı-Qroznı-Novorossiysk kəmərinin təhlükəsizliyinin təmin olunduğunu nəzərdə tutub. 1996-cı ilin fevralında «Transneft» şirkətinin prezidenti V.Çernyayev Çeçenistandan keçən kəmərin təhlükəsizliyi haqqında bildirib ki, Çeçenistanda hadisələrlə əlaqədar Rusiya ərazisi ilə ilkin Azərbaycan neftinin nəqli məsələsində narahatçılığa heç bir əsas yoxdur» [119, 6 aprelğ, 1996].

Bunun əksinə olaraq 1996-cı ilin fevralında, ilkin Azərbaycan neftinin nəqli haqqında saziş imzalandıqdan bir neçə gün sonra Çeçenistandan keçən boru kəmərlərində partlayışlar baş verdi. 1996-cı il fevralın 21-də Qroznıda neft boru xətti partladıldı. İkinci hadisə isə Dağıstan respublikası ərazisində törədildi. Fevralın 22-də Qroznı-Mahaçqala qaz xətti partladıldı. Qeyd edək ki, Azərbaycan üçün əsas təhlükələrdən biri də Dağıstanda aktiv fəaliyyət göstərən, Azərbaycan dövlətçiliyinə qarşı təxribatçılıq törədən ekstremist yönümlü sadvalçılardır. Dağıstanda fəaliyyət göstərən «Sadval» təşkilatının neft kəməri üçün əlavə təhlükə törədəcəyi məlum idi. Ona görə ki, «Sadval»ın strategiyasında Xəzər neftindən pay almaq məsələsi mühüm yer tuturdu. Rusiya hakimiyyət orqanlarının bu bölgədə nəzarəti zəif idi və burada təxribatçı qrupların fəaliyyəti üçün mümbit şərait var idi.

1996-cı ilin əvvəllərində Şimali Qafqazda fəaliyyət göstərən «Qafqaz Milli-azadlıq hərəkatı» bəyanatla çıxış etdi. Bəyanatda Rusiyanın Çeçenistandan əl çəkməsi, qoşunların bu respublikadan geri çəkilməsi, Qafqazda etnoslararası konfliktlərin qızışdırılmasının dayandırılması ilə yanaşı

böyük layihələrin xalqın rəyi ilə uyğunlaşdırılması tələbləri irəli sürüldü. Burada, «Əsrin müqaviləsi» ilə bağlı hissədə göstərilib ki, neft kəmərlərinə qarşı ehtiraz mitinqləri keçiriləcək, aksiyalar Rusiya qoşunlarının Çeçenistandan çıxarılmasına qədər davam edəcək. Bu, hərəkatın tədbirlərinin birinci mərhələsi hesab olundu. Sonrakı mərhələdə nəzərdə tutulurdu ki, əgər tələblərin müddətindən on gün keçərsə neft kəmərinin üç yerində partlayış törədiləcək. «Etiraz aksiyalarının növbəti mərhələlərində neft kəmərinin digər yerlərində, nasos stansiyalarında partlayış törədilməsi, neft emalı zavodlarının, boru kəmərlərinin sıradan çıxarılması üçün boru kəmərlərinə aktiv, toksik kimyəvi maddələrin axıdılması nəzərdə tutuldu» [86, 13 январь, 1996].

Beləliklə də şimal neft kəməri marşrutunun təhlükəsizliyi məsələsi Azərbaycan dövlətində və Xəzər konsorsiumunda iştirak edən şirkətlərdə narahatlığa səbəb oldu. Qeyd edək ki, Şimali Qafqazda müharibə bitməmişdi, Rusiyanın neft boru kəmərinin təhlükəsizliyinə təminat verməsi real deyildi, çünki Dudayev hökuməti Çeçenistanda real qüvvə olaraq qalırdı. 1996-cı ilin yanvarında, Moskvada Bakı-Qroznı-Novorossiysk kəməri haqqında sazişin imzalanması dövründə Bakıda mətbuat konfransı keçirən Çeçenistan parlamentinin deputatı Əhməd Malsaqov bildirdi ki. - «Biz Rusiya ordusunun Çeçen şəhərlərinin dağıdılmasının və əhalisinin məhv edilməsinin cavabında adekvat tədbirlər görəcəyik». Neft kəmərindən danışan Ə.Malsaqov da qeyd etdi ki, «Çeçenistan ərazisindən keçən neft kəmərinin təhlükəsizliyinə ancaq Çeçenistanın qanuni prezidenti təminat verə bilər» [111, 27 январь, 1996]. Beləliklə hədələr və partlayışlar Azərbaycana, ümumilikdə Xəzər neft konsorsiumuna təhlükə yaratdı. Xəzər neftini daşıyacaq kəmərlərin konkret olaraq Şimal kəmərinin təhlükəsizliyi məsələsinin həll edilməmiş qalması Xəzər konsorsiumu iştirakçılarının işini əngəlləyən faktora çevirdi.



Artıq 1996-cı ilin əvvəllərindən başlayaraq ilkin Xəzər neftinin Rusiya ərazisindən nəqlinin Çeçenistandakı hadisələrlə əlaqədar yubadılacağı narahatlığa səbəb oldu. Şimal neft kəmərinin fəaliyyətə başlamasının I Rusiya-Çeçenistan müharibəsinin sona çatmasından asılı olması daha çox reallığa uyğun gəlirdi. Artıq 1996-cı ilin fevralında Bakıda Azərbaycan və Rusiya arasında 1996-cı il yanvarın 18-də ilkin neftin nəqli haqqında imzalanmış saziş paraflandı.

1996-cı ilin fevralında Azərbaycan hökuməti neftin Çeçenistan ərazisi ilə nəqlində yaranan çətinliklərin Rusiyanın və onun hökumətinin öz problemi olduğu haqqında açıqlama verdi və bildirdi ki, neftin Novorossiysk limanına çatdırılmasında vasitə və yollar Azərbaycan tərəfini maraqlandırmır.

Azərbaycan Prezidenti H.Əliyev ilkin Azərbaycan neftinin nəqlində Çeçenistan faktorundan danışarkən bildirdi:- «Biz onsuz da narahat zamanədə yaşayırıq və əgər mancələrdən qorxsaq, onda ümumiyyətlə, iş görmək lazım deyildir. Əlbəttə Çeçenistanda baş verən hadisələr bizi narahat edir, lakin biz öz işimizi görməliyik» [15, 18 yanvar, 1996].

Bakı-Qroznı-Novorossiysk kəmərinin təhlükəsizliyinin təmin edilməsindəki problemlər Rusiyaya siyasi və iqtisadi ziyan vura bilərdi. Məsələn, əgər neftin nəqli vaxtı kəmər partladılarsa Rusiya Azərbaycandan nəql olunan nefti - öz nefti hesabına olsa da belə - eyni miqdarda, yəni heç bir itkisiz Novorossiysk limanına çatdırmalıdır. Neftin nəqlinin təhlükəsizliyini təmin edə bilməmək Rusiyanın Azərbaycan və Qərb dövlətləri qarşısında etibarlılığını azalda bilərdi ki, bu da Rusiyanın Qafqaz siyasətinə zərbə olar və belə olan təqdirdə isə Şimali Qafqaz kommunikasiya xətləri öz əhəmiyyətini itirərdi. I Rusiya-Çeçenistan müharibəsinin sona çatması ilə, 1996-cı ildə Azərbaycan və Rusiya arasında ilkin Azərbaycan neftinin nəqli haqqında imzalanmış sazişə Çeçenistan müstəqil tərəf kimi ya əlavə olunmalı, yaxud bu

sazişə yenidən baxılmalı idi. Yəni, saziş artıq ikitərfli yox, Azərbaycan-Rusiya-Çeçenistanın iştirakı ilə üçtərəfli olmalı idi. Bu isə o demək idi ki, ilkin Azərbaycan neftinin Şimal kəməri ilə nəqli gecikəcək, neft nəzərdə tutulan vaxtda nəql edilməyəcəkdi. Belə də oldu. Rusiya Şimal neft kəmərini 1997-ci ilin fevralına qədər və ondan sonra da hazır vəziyyətə gətirə bilmədi və götürdüyü öhdəliyi vaxtında yerinə yetirmədi. Bunun nəticəsində isə Azərbaycan ziyan çəkdi.

Beləliklə, 1997-ci ilin əvvəllərində Rusiya və Çeçenistan arasında mübahisəli vəziyyət yarandı. Rusiya Çeçenistanın üçtərəfli müqavilədə iştirakını qəbuledilməz hesab etdi. Ona görə ki, Çeçenistanın Azərbaycan-Rusiya sazişinə qoşulması onun müstəqilliyinin tanınmasına bərabər hesab oluna bilərdi. Bu isə Rusiyanın dövlət maraqlarına uyğun gəlmirdi. Çeçenistanla bərabərhüquqlu səviyyədə müqavilə imzalanması müəyyən presedent yarada bilərdi ki, bu da digər dövlətlərin Çeçenistanla bərabərhüquqlu səviyyədə əlaqələr qurmasına, onu tanımasına səbəb olardı. Digər tərəfdən, ilkin Azərbaycan neftinin nəqlində müstəqil tərəf kimi çıxış edən Çeçenistan neftin daşınmasından əldə olunacaq gəlirdən, beynəlxalq tarif dərəcələrinə uyğun öz payını tələb edəcəkdi. Bu da iqtisadi cəhətdən Rusiya üçün sərfəli deyildi və ona görə də Çeçenistanın neftin nəqlindən əldə olunacaq gəlirə şərik çıxması onu qane edə bilməzdi.

1996-cı ilin sonlarında Çeçenistan Cənub Neft Şirkətinin prezidenti Xoc-Əhməd Yarıxanov RF Yanacaq və Energetika Nazirliyini neft, xüsusilə Çeçen neftinin istehsalı və Bakı neftinin nəqli sahəsində əməkdaşlığı nəzərdə tutan Çernomırdin – Məshədov razılaşmasını pozmaqda günahlandırdı. «Çeçen siyasətçisinin bəyanatı ondan xəbər verir ki, Azərbaycan neftinin Çeçenistandan nəqli məsələsi hələ çox müzakirə olunacaq» [76, 9 yanvar, 1997].

1997-ci ilin yanvarında Rusiya Federasiyası Yanacaq və Energetika nazirinin müavini Anatoli Şatalov Azərbaycanda oldu və o, ilkin Azərbaycan neftinin fevraldan (1997) başlayaraq nəqlində problem yaranmayacağını bildirdi. A.Şatalov da bu fikirdə idi ki, Çeçenistanda prezident seçkilərindən sonra neftin Şimal marşrutu ilə nəqlində heç bir problem olmayacaq [76, 9 yanvar, 1997]. Lakin Rusiya və Çeçen tərəfinin fikir ayrılıqlarına və razılığa gəlmədiklərinə görə ilkin Azərbaycan neftinin nəqli baş tutmadı. 1997-ci ilin fevralında Rusiya hökuməti ilkin nefti nəql edə bilmədiyini etiraf etdi. Bəhanə kimi o göstərildi ki, 1996-cı il yanvarın 18-də imzalanmış müqaviləyə görə Rusiya ancaq «Azəri», «Çıraq», «Günəşli» yataqlarından çıxarılan nefti nəql edə bilər. Daha sonra bildirildi ki, guya 70 min ton neft Novorosiyskdə tankerlərin doldurulması üçün bəs deyil. Rusiya tərəfinin müqaviləni düzgün şərh etmədiyini bildirən Azərbaycan Dövlət Neft Şirkəti qeyd etdi ki, Azərbaycan və Rusiya arasında imzalanmış müqavilədə heç bir həcm göstərilməmişdir [64, 1 noyabr, 1997].

Artıq 1997-ci ilin əvvəllərindən etibarən Rusiya-Çeçenistan və Azərbaycan-Rusiya-Çeçenistan arasında intensiv danışıqlar, münasibətlərin aydınlaşdırılması, Şimal kommunikasiya xətləri məsələsində qarşılıqlı kompromislərin qəbul olunmasına doğru cəhdlər dövrü başladı. Tərəflər arasında danışıqlar gərginliklə müşahidə olundu. Kommunikasiya xəttinin işə düşməsi yenə də problemə çevrildi və Azərbaycan Rusiyanın problemlərindən yenə də ziyan çəkdi.

1997-ci ilin birinci yarısından etibarən Azərbaycan tərəfi Bakı-Qroznı-Novorossiysk kəmərinin işə düşməməsinə görə birbaşa Rusiyanı ittiham etməyə başladı, məsuliyyətli tərəf kimi regional layihənin həyata keçirilməsini ondan tələb etdi. Qeyd etmək lazımdır ki, ilkin Azərbaycan neftinin daşınması üçün Azərbaycan-Rusiya sazişi mövcud idi, Çeçenistanla bağlı olan problemlər Azərbaycanın yox, Rusiyanın məsuliyyət dairəsində idi. Müqavilə tərəfləri Azərbaycan və Rusiya olduğundan Azərbaycan Rusiyadan

üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyi tələb etdi.

Azərbaycan Prezidenti Heydər Əliyev 1997-ci il martın 28-də RF baş naziri Viktor Çernomırdinlə görüşündə neft boru kəmərinin Rusiyadan keçən hissəsinin istismara hazırlığı haqqında söhbət apardı. Burada qeyd edildi ki. «Ötən il imzalanmış sazişə görə, bu boru kəməri ilin əvvəllərində hazır olmalı idi. Lakin bəzi səbəblərə görə onun istismara verilməsi yubadılır» [29, 1 aprel, 1997]. H.Əliyev 1997-ci il martın 29-da RF Yanacaq və Energetika naziri Pyotr Radionovla görüşündə bildirdi ki, ... boru kəməri 1997-ci ilin əvvəlindən hazır olmalıdır. Biz öz tərəfimizdə hər şeyi tamamilə hazırlamışıq. Bu layihəyə 50 milyon dollar qoyan konsorsiumun səhmdarları boru kəmərinin işə salınmasının yubadılması ilə əlaqədar öz narahatlığını bildirməyə başlayıblar [29, 1 aprel, 1997].

1997-ci ilin mart ayında Azərbaycan prezidentinin Rusiya səfəri müddətində RF Yanacaq və Energetika naziri P.Radionov Azərbaycan prezidentinə boru kəmərinin ilin (1997) üçüncü rübündə hazır olacağını bildirdi. 1997-ci ilin əvvəllərindən başlayaraq iyul ayına qədər intensiv olaraq Rusiya, Çeçenistan və Azərbaycan arasında danışıqlar getdi. Şimal kommunikasiya xəttinin Çeçenistandan keçən hissəsinin hüquqi statusu, tariflərin dərəcəsi haqqında bu danışıqların əsas iştirakçıları Rusiya və Çeçenistan oldu. Məhz bu iki tərəfin problemin həllindəki ümumi razılığı Şimal neft kəmərinin fəaliyyətə başlaması üçün təkan ola bilərdi, çünki həmin borunun vaxtında işə düşməməsində əsas səbəbkarlar - Rusiya və Çeçenistan idi. Rusiya artıq Çeçenistanla kompromislərə getməyə hazır idi.

Bunun təsdiqi olaraq İ.Rotarın «Nezavisimaya qazeta» dakı fikirlərinə diqqət yetirək:- «Xəzər neftinin Çeçenistandan nəqlinin şərtləri haqqında Moskva və Qroznı arasında mübahisə bu respublikada hərbi əməliyyatların başa çatmasından e'tibarən davam edir. Danışıqlar nəticə verməyəndə belə hesab olunurdu ki, hələ danışıqlar uzun aylar davam edəcək. Lakin Moskvada artıq qərara aldılar ki, növbəti gecikdirmə qəbuledilməzdir və neftin nəqli məsələsini hər hansı bir kompromis hesabına olsa da həll etmək lazımdır» [125, 9 iyul, 1997].

Şimal neft kəmərinin taleyinin müəyyənləşdirilməsində güzəştsiz ötüşmək mümkün deyildi. kəmərin işə düşməsi üçün tərəflər mütləq ümumi razılığa gəlməli idi. Yəni, Rusiya Çeçenistanın ilkin Azərbaycan neftinin Bakı-Qroznı-Novorossiysk kəməri ilə nəql edilməsi üçün üçtərəfli Azərbaycan, Rusiya və Çeçenistan arasında müqavilə imzalanması təklifini qəbul etməli idi. Bu həm neftin nəqli probleminin həll edilməsini reallaşdırar, həm də regional əməkdaşlığın əsasını qoyardı. Bu barədə «Ayna» qəzeti yazır:- «Bakı-Qroznı-Novorossiysk neft kəmərinin tezliklə istifadəyə verilməsində həm Moskva, həm də Qroznı eyni dərəcədə maraqlıdır, hərçənd burada hər bir tərəfin öz mövqeyi var. Moskva yaxşı başa düşürdü ki, əgər neft kəmərinin Çeçenistan şaxəsi vaxtında istifadəyə verilməsə və onun təhlükəsizliyi təmin edilməsə, Bakı-Novorossiysk marşrutu üzrə «böyük» neft kəmərinin inşası planlarının üstündən xətt çəkmək lazım gələr. Üstəlik də, Xəzər neftinin Çeçenistan ərazisindən daşınmasının pozulması onun Zaqafqaziya və Xəzəryanı bölgədə onsuz da laxlamış mövqelərinə daha bir zərbə endirər [55, 5 iyul, 1997].

Beləliklə, Şimal neft kəməri haqqında müqavilənin ikitərəfli olaraq qalacağı, yoxsa Çeçenistanın bu müqaviləyə qoşulması ilə üçtərəfli olacağı məsələsi Rusiya və Çeçenistan arasında danışıqlarda ən prinsipial məqam oldu. Yeni bir üçtərəfli müqavilənin imzalanması ilə Rusiya ilk öncə razılaşmadı. Məsələn, RF baş naziri Viktor Çernomırdin və Çeçenistan prezidenti Aslan Məshədov arasında Soçidə (1997) keçirilən görüşdə Çeçenistanın Şimal marşrutu ilə neftin nəqlində bərabərhüquqlu tərəf kimi çıxış etməsi və müqavi-

lənin üçtərəfli olması haqqında tərəflər razılığa gələ bilmədilər [125, 9 iyul, 1997]. Problemin həllini çətinləşdirən və fikir ayrılığına səbəb olan əsas məsələ Çeçenistanın statusu ilə bağlı idi. Rusiya hökuməti qeyri-standart gedişlərə əl atıb, məsələni elə həll etmək istəyirdi ki, tərəflər arasında müqavilə və yaxud razılaşma imzalanmasından Çeçenistan siyasi təsir vasitəsi kimi istifadə etməsin, yaxud da Çeçenistan üçün müstəqil bir dövlət kimi çıxış etməyə imkan yaranmasın.

Neftin tranziti haqqında müqavilə iştirakçılarının sayı məsələsində Rusiya hökumət dairələrində fərqli mövqe yarandı. Məsələn, Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi İvan Rıbkin bildirdi ki, müqavilə üçtərəfli olacaq. Baş nazirin birinci müavini Boris Nemtsov isə belə hesab edirdi ki, neft tranziti üçün hər hansı siyasi saziş ümumiyyətlə gərək deyil, neft şirkətlərinin sayı isə üç ola bilər [55, 5 iyul, 1997]. Çeçenistan hökuməti isə üçtərəfli müqavilənin imzalanması və Çeçenistanın müstəqil tərəf kimi neft tranzitində iştirak etməsi tələblərindən geri çəkilmədi. Bu o demək idi ki, Çeçenistan üçtərəfli müqavilənin siyasi xarakterli olmasına çalışır və yaranmış real şəraitdən istifadə edərək respublikanın müstəqilliyini bir daha təsdiq etmək istəyirdi. Bu məsələ barədə İçkeriya Çeçen Respublikası baş nazirinin müavini Mövladi Uduqov bildirdi ki, Çeçenistan neftin nəqli məsələsində müstəqil partnyor kimi çıxış edəcək. Üçtərəfli müqavilənin imzalanmasının vacibliyindən danışan M.Uduqov isə bu məsələdə ciddi fikir ayrılığının olmadığını bildirdi. «RF TŞ-nin katibi İvan Rıbkin də təsdiq edir ki, neftin Bakıdan Novorossiyskə nəqli haqqında RF, Azərbaycan və Çeçenistan arasında üçtərəfli müqavilədə Çeçenistan müstəqil tərəf kimi çıxış edir» [104, 2 iyul, 1997]. Çeçenistan prezidenti Aslan Məshədov «ANS-press»-ə verdiyi müsahibədə bildirdi ki, «Əgər müqavilə üçtərəfli olsa, boru kəmərini qorumaq bizim üçün asan olacaq» [55, 5 iyul, 1997].

Nəhayət ki, 1997-ci ilin iyun ayında Rusiya və Çeçenistan arasında ilkin Azərbaycan neftinin Çeçenistan ərazisi ilə nəqli məsələsində qarşılıqlı razılıq əldə olundu və üçtərəfli sazişin imzalanması artıq reallığa çevrildi. Çeçenistan Cənub Neft Şirkətinin prezidenti Xoc-Əhməd Yarıxanovun 1997-ci il iyun ayında Rusiyaya səfəri və onunla RF baş nazirinin birinci müavini Boris Nemtsov arasında «Çeçenistanın neft kompleksinin bərpası və Çeçenistan ərazisindən keçən neft kəmərlərinin təmiri haqqında» müqavilə imzalanması Rusiya və Çeçenistan hökumətləri arasında əsas narazılıqların aradan qalxmasına səbəb oldu. Rusiyalı müəllif A.Kasayev yazır ki, Qroznı ilə Moskva arasında bir-birini başa düşməməyin əsas səbəbi aradan qalxdı. Müharibə bir daha olmamalıdır, neft razılaşması imzalandıqdan sonra müharibəni aparmağın mənası yoxdur [91, 7 iyun, 1997].

1997-ci ilin iyul ayında Azərbaycan Prezidenti H.Əliyevin Rusiyaya səfəri müddətində üçtərəfli sazişin imzalanması məsələsi həll edildi. Azərbaycan və Rusiya müqavilənin üçtərəfli olması haqqında yekdil fikrə gəldilər. Qeyd edək ki, Azərbaycan Prezidenti H.Əliyev Rusiya səfərindən (1997, 2 iyul) əvvəl Çeçenistan prezidenti A.Məshədovla Bakıda danışıqlar aparmışdı. Bu məsələ barədə H.Əliyevin Moskvada mətbuat mərkəzindəki çıxışındakı fikri maraq doğurur: «Aslan Məshədov Bakıya gəldi, başlıca məsələ bu neft kəməri ilə bağlı idi. Sazişi iki ölkə imzalayıb və bu sazişdə Çesenistan da iştirak etmək istəyir belə bir yekdil rəyə gəldik ki, üç şirkət – «Transneft», Azərbaycan Dövlət Neft Şirkəti və Çeçenistan neft şirkəti bu neft kəmərindən istifadə olunması haqqında kommersiya sazişi imzalasınlar» [16, 10 iyul, 1997].

Beləliklə neft kəməri haqqında sazişin siyasi deyil, kommersiya xarakterli bir saziş olması haqqında razılıq əldə olundu. Bu saziş hər halda Çeçenistanın tələb etdiyi kimi üçtərəfli oldu, lakin onu prezidentlər yox, neft şirkətlərinin başçıları imzaladılar və sənəd siyasi səciyyəli olmadı. Üçtə-

rəfli sazişin imzalanması Azərbaycan üçün çox vacib idi. Əgər tərəflər yenə də ortaq məxrəcə gəlməzdilərsə və razılıq əldə olunmazdısa Şimal kəməri ilə ilkin Azərbaycan neftinin nəqli yubadıla bilərdi.

1997-ci ilin iyul ayında Bakıda Azərbaycan, Rusiya və Çeçenistan tərəfləri arasında görüş keçirildi. Danışıqların başlanğıcında Azərbaycan tərəfi öz mövqeyini kəskin şəkildə ortaya qoydu və məsələnin yubadılacağının qarşı tərəfə xeyir gətirməyəcəyini bildirdi. Azərbaycan Prezidenti H.Əliyev görüşdə kəskin şəkildə qeyd etdi:- «Əgər kimsə Rusiya vasitəsilə neftin nəql olunmasının əleyhinədirsə, onda neft Gürcüstan və Türkiyə ərazisindən nəql ediləcəkdir» [49, 19 iyul, 1997]. Bu ilk növbədə Çeçenistan və Rusiya nümayəndələrinə xəbərdarlıq idi və əlbəttə ki, Azərbaycanın kəskin mövqeyi danışıqların gedişinə təsir etməyə bilməzdi. Beləliklə 1997-ci il iyulun 11-də Bakıda Azərbaycan Prezidenti H.Əliyevin iştirakı ilə ARDNŞ, Rusiya Yanacaq və Energetika nazirliyi və İçkeriya ÇR-in Cənub Neft Şirkəti arasında ilkin Azərbaycan neftinin Bakı-Qroznı-Tixoretsk-Novorossiysk kəməri ilə nəql olunması haqqında saziş imzalandı. Sazişi ARDNŞ-in prezidenti Natiq Əliyev, RF hökuməti sədrinin birinci müavini Boris Nemtsov və Çeçenistan Cənub Neft Şirkətinin prezidenti Xoc-Əhməd Yarıxanov imzaladılar.

İçkeriya ÇR Cənub Neft Şirkətinin prezidenti X. Ə. Yarıxanov öz növbəsində Azərbaycan neftinin nəqlində Çeçen Respublikasının bərabər səviyyədə iştirakını nəzərdə tutan sənədin imzalanacağını, Çeçenistanın Azərbaycan neftinin nəqli yolunda maneə ola biləcəyi haqqında hər cür söz-söhbətə son qoyacağını bildirdi [30, 12 iyul, 1997].

Beləliklə, uzun və gərgin danışıqların nəticəsində Rusiya və Çeçenistan yekdil fikrə gəldilər. Tərəflər arasında siyasi məğlubiyyətlə bağlı heç bir problem yaranmadı. Kommersiya sazişi yeganə çıxış yolu oldu.



I Rusiya-Çeçenistan müharibəsinin başa çatması Şimali Qafqazda yeni reallıqların ortaya çıxması ilə müşahidə olundu. Azərbaycan, Rusiya və Çeçenistan arasında üçtərəfli kommersiya sazişinin imzalanmasından sonra ortaya yeni problemlər çıxdı. Belə ki, ilkin Azərbaycan neftinin Şimal kəməri ilə nəql edilməsi məsələsi bütünlüklə həll edilməmişdi. Əsas narazılıqlar yenə də Rusiya ilə Çeçenistan arasında yarandı, belə ki, tərəflər bir neçə prinsipial məsələdə ümumi fikrə gələ bilmədilər. Bunlar əsasən, neftin nəqli üçün tətbiq edilən tariflər və yeni neft kəməri marşrutları ilə əlaqədar idi.

Qeyd edək ki, üçtərəfli sazişin imzalanmasından sonra Bakı-Qroznı-Novorossiysk kəmərinin Çeçenistandan keçən hissəsinin bir ay müddətinə reabilitasiya olunacağı müəyyənləşdirilmişdi. Kəmərin Çeçenistandan keçən hissəsi 20 gün müddətinə bərpa olunmalı, 10 gün müddətinə isə neftlə doldurulmalı idi. Bununla əlaqədar Azərbaycan prezidenti H.Əliyev ümidvar olduğunu bildirirdi ki, bir aydan sonra neft bu kəmərlə gedəcək.

Lakin bütün bunların əksinə olaraq yenə də qeyri-müəyyən şərait yarandı, neftin 1997-ci ilin son rübündə nəql ediləcəyi də şübhə doğurmağa başladı. Rusiya və Çeçenistan qarşılıqlı şəkildə bir-birlərini ittiham etməyə başladılar. Məsələn, Çeçenistan Cənub Neft Şirkətinin prezidenti Xoc-Əhməd Yarıxanov bildirdi ki, Bakı-Novorossiysk kəmərinin Çeçenistan hissəsinin istismarına, qabaqcadan müəyyənləşdirildiyi kimi, bir aya başlamaq olmaz. «Rusiya-Azərbaycan-Çeçenistan arasındakı üçtərəfli saziş iyulun 11-də Bakıda imzalandı. Ancaq o zamandan bu işə hər vasitə ilə əngəl olan Rusiya dövlət strukturlarının günahı üzündən bərpa işlərinə hələ də başlanmayıb. Bu strukturlar arasında ilk yeri Mərkəzi Bank tutur. Bank Çeçenistanın hesablarını açmayıb. Bu da «YUNKO» ya neft kəmərinin bərpası üçün texnika, avadanlıq almağa imkan vermir [33, 6 avqust, 1997].

Digər bir problem isə Çeçenistanda yarandı. Məsələn,

İÇR prezidenti A.Məshədov neft kəmərinin Çeçenistandakı hissəsinin mühafizəsi üçün 450 nəfərlik batalyon yaradılması haqqında fərman versə də, Rusiya hökuməti batalyonun maliyyələşdirilməsi üçün vəsait ayırmadı. Bu da kəmərin təhlükəsizliyi məsələsinin həll edilməməsi hesab oluna bilərdi. Müharibədən çıxmış bir ölkə üçün ərazisindən keçən neft kəmərinin təhlükəsizliyi ən aktual məsələ idi.

Rusiya ilə Çeçenistan arasında mübahisə doğuran məsələlərdən ən başlıcası tariflərlə əlaqədar oldu. Tərəflər tarif məsələsində qarşılıqlı güzəştlərə getmədilər və bu məsələdə qarşılıqlı razılıq uzun və gərgin danışıqlar hesabına əldə olundu. RF Yanacaq və Energetika nazirinin müavini Sergey Kiriyenko bildirdi: - «tariflərin həcmi haqqında məsələ Rusiya və Çeçenistanın daxili işdir. Bunun başqalarına aidiyyatı yoxdur, öz aramızda isə biz razılaşacağıq» [125, 9 iyul, 1997]. Digər tərəfdən isə Çeçenistan Rusiyadan tələb edirdi ki, müharibə vaxtı sıradan çıxarılmış neft kəmərlərinin təmirini maliyyələşdirsin, onu neftlə doldursun və mühafizəsinin təşkil edilməsi üçün maliyyə resursları ayırsın.

RF Yanacaq və Energetika nazirliyi bu tələblərlə razılaşsa da bildirdi ki, xərcləri ümumi bərpa proqramı çərçivəsində federal büdcə ödəsin [92, 30 avqust, 1997]. Bir problem də onda idi ki, Çeçenistan hökuməti 1995-1996-cı illərdə öz neftinin eksportu üçün gömrük rüsumunu - yəni 10 milyon dolları Rusiyadan tələb edirdi. Rusiya bu tələbləri yerinə yetirməkdən boyun qaçırmaqla münasibətləri daha da gərginləşdirdi. Nəticədə Şimal neft kəməri haqqında əldə olunmuş razılığın iflasa uğraması təhlükəsi yarandı. Qarşılıqlı iddialarla müşahidə olunan danışıqların nəticəsizliyi ilkin Azərbaycan neftinin 1997-ci il oktyabrın 1-də də nəql edilməsinə imkan vermədi.

Rusiya ilə Çeçenistan arasında iqtisadi problemlərlə yanaşı siyasi problemlər də mövcud idi. Məsələn, Rusiya Çeçenistanı Federasiya subyekti hesab edərək müqavilə



şərtlərini də federal mərkəzlə subyektlər arasında olan münasibətlərə uyğun tərtib etməyə çalışırdı. Rusiya elə bir hüquqi baza yaratmağa cəhd göstərirdi ki, burada Çeçenistanın suverenliyi və müstəqilliyi arxa plana keçsin, bununla da Çeçenistan Federasiyanın subyekti olduğu təsdiq olunsun. Çeçenistan isə Rusiyanın bu mövqeyi ilə hesablaşmadı və bütün bunlar gərginlik yaradan əlavə faktora çevrildi. YUNKO şirkətinin prezidenti Xoc-Əhməd Yarıxanov bununla əlaqədar bildirdi ki, «müqavilədə elə bölmələr var ki, onların altından heç vaxt imza atmaram - bunlar Çeçenistanın federasiya subyekti olması haqqında müəyyən xatırlamalardır [92, 30 avqust, 1997]. Boris Yeltsin üçün ölkənin ərazi bütövlüyünü və Konstitusiyanı pozmadan Çeçenistanla müqavilə bağlamaq çox vacib idi.

İlkin Azərbaycan neftinin nəqlində problemlərdən biri də Rusiyanın əlavə kəmər variantı oldu. Rusiya Çeçenistandan yan keçməklə yeni neft kəməri çəkməyi planlaşdırdı. Bu məsələ isə ilkin Azərbaycan neftinin Rusiya ərazisi ilə nəqli mərhələsində əlavə bir ziddiyyət yaratdı. Bundan məqsəd Çeçenistanın siyasi təzyiq imkanlarına son qoymaq, ona təsir imkanları qazanmaq, Çeçenistan problemindən birdəfəlik yaxa qurtarmaq, Xəzər neftinin nəqlində Çeçenistansız yeganə dövlət kimi çıxış etmək idi. Rusiya iki variantı məqsədəuyğun hesab etdi. Bunlardan biri Çeçenistan ərazisində neft kəmərinin təmiri, digəri və ən vacibi isə Çeçenistandan yan keçməklə yeni kommunikasiya xəttinin çəkilməsi idi.

Rusiyaya ilk növbədə Çeçenistan ərazisində neft kəmərinin bərpası və ilkin Azərbaycan neftinin Bakı-Qroznı-Novorossiysk kəməri ilə nəql etmək lazım idi. Ona görə ki, Çeçenistandan yan keçən 283 km-lik kəmərin tikintisi çox vaxt aparar və ilkin Azərbaycan neftinin nəqli bir daha gecikərdi. Bu gecikmələrin nəticəsində isə konsorsium iştirakçıları Şimal variantından birdəfəlik imtina edə bilərdilər. Rusiya onsuz da götürdüyü öhdəlikləri vaxtında yerinə ye-

tirməmişdi.

Beləliklə, Rusiya üçtərəfli sazişin imzalanmasına (1997, iyul) qədər əlavə kəmər variantını bir o qədər qabartmadı. Saziş imzalandıqdan sonra isə Çeçenistandan yan keçəcək yeni kəmər variantı bir daha gündəliyə gətirildi. 1997-ci ilin sentyabrında RF baş nazirinin birinci müavini Boris Nemtsov bildirdi ki, Çeçenistan ərazisindən yan keçməklə yeni boru kəmərinin tikintisi haqda qərar artıq qəbul olunub. «O (yəni B. Nemtsov – R.R), hesab edir ki, bu nəqliyyat yolunun Çeçenistandan kənara çəkilməsi Rusiya hökumətinin ağıllı, ehtiyatlı tədbiridir. Belə ki, yeni təməl bir tərəfdən Rusiyanın iqtisadi maraqlarına təminat verəcək, digər tərəfdən Çeçen liderlərinin Moskvaya siyasi təzyiqini azaldacaq» [61, 17 sentyabr, 1997]. Çeçenistandan yan keçməklə yeni neft boru kəmərinin çəkilməsinə qərar verməklə Rusiya Qərb dövlətlərinə və Azərbaycana təhlükəszlik təminatı vermək istədi, çünki, Rusiya əsas ixrac boru kəmərinin də Rusiya ərazisindən keçməsinə çalışırdı. Bu məsələdə isə Çeçenistan proseslərdən mütləq kənarda saxlanmalı idi.

Rusiyanın Çeçenistana qarşı yürütdüyü siyasətə qarşı Çeçenistan da adekvat tədbirlər gördü. Çeçenistan öz maraqlarını heç bir vəchlə Rusiyaya güzəştə getmək niyyətində deyildi. Kəmərin Çeçenistandan yan keçirilməsi planı asanlıqla baş tuta bilməzdi və təhlükəsizlik baxımından perspektivli deyildi. İnquşetiya prezidenti Ruslan Auşevin müsahibəsində bunu aydın görmək olar. Əgər boru kəməri Çeçenistandan yan keçsə o, hər həftə partladılacaq. Kəmərin təhlükəsizliyini təmin etməyi isə Çeçenistan yalnız o halda üzərinə götürəcək ki, boru kəmərinə dair saziş üçtərəfli olsun. Çeçenistan prezidenti Aslan Məshədov Rusiyanın yeni kəmər variantına münasibətində dedi ki, bu cür söz-söhbətlər ya Rusiyanın Çeçenistanla əldə etdiyi razılığı pozmaq, ya da Rusiyanın Azərbaycan neft konsorsiumu qarşısında öz üzərinə götürdüyü öhdəlikdən qaçmaq məqsədi daşıyır [61, 17 sentyabr, 1997].



Rusiyaya cavab olaraq Çeçenistan da öz neft boru kəməri layihələri ilə çıxış etdi və regional əməkdaşlıq çərçivəsində yeni neft kəməri çəkməyi planlaşdırdı. Çeçenistandan Gürcüstan sahillərinə çəkilməsi nəzərdə tutulan kəmər Bakı-Novorossiysk neft kəmərini əvəz etməklə Rusiyanı neftin nəqlindən kənarda qoymaq məqsədi daşıyırdı.

Rusiya və Çeçenistan arasında danışıqların gərgin vaxtında (1997-ci il, avqust) İÇR - in vitse-prezidenti Vaxa Arsanov bildirdi ki, Çeçenistan yaxın vaxtlarda Çeçenistandan Gürcüstan sahillərinə neft kəmərinin çəkilişinə başlayacaq. Arsanovun sözlərinə görə alternativ neft kəmərinin çəkilməsi Azərbaycan, Çeçenistan və Gürcüstanı Xəzər neftinin nəqli məsələsində Rusiyanın monopoliyasından azad edəcək [92, 30 avqust, 1997].

Qeyd etmək lazımdır ki, Çeçenistan hökumətinin yeni neft kəməri variantını reallaşdırmaq cəhdləri o dövr üçün qeyri-real səslənirdi və bu Rusiyaya təzyiq etmək və öz maraqlarını reallaşdırmaq üçün idi. Ona görə ki, Çeçenistan siyasi və iqtisadi nüfuzuna görə kiçik bir ölkə idi və müharibədən təzəcə çıxmışdı və ölkənin iqtisadiyyatı bərbad gündə olduğundan yeni neft kəmərinin çəkilməi üçün maliyyə vəsaiti tapmaq elə də asan məsələ deyildi. Elə Vaxa Arsanovun dediyinə görə Çeçenistanın dağıdılmış iqtisadiyyatını bərpa etmək üçün 150-180 milyard dollar vəsait lazım idi [105, 23 avqust, 1997].

Bütün bunlarla bir sırada, Şimali Qafqazdakı gərgin vəziyyət də Şimal kəmərinin işə düşməsinə əngəl törədən faktor oldu. Demək olar ki, Şimali Qafqaz respublikalarının əksəriyyətində münaqişə və yaxud münaqişəyə səbəb ola biləcək gərgin vəziyyət mövcud idi. Bakı-Qroznı-Novorossiysk kəməri təkcə Çeçenistandan deyil, Dağıstan, Şimali Osetiya, İnquşetiya, Kabarda-Balkar, Qaraçay-Çərkəz, Adıgey respublikalarının da ərazisindən keçir. Bu respublikalarda isə siyasi və krimonogen vəziyyət sabit dey-

ildi və regionda bir sıra potensial etnosiyasi konfliktlər mövcud idi və zaman-zaman qızışırdı. Məsələn, 1997-ci ilin iyul-avqust aylarında Şimali Osetiyanın Priqorodnı rayonunda vəziyyət kəskinləşdi, inquşlarla osetinlər arasında silahlı toqquşma baş verdi. Digər tərəfdən, Dağıstan da ilkin Azərbaycan neftinin öz ərazisindən nəqlinə görə rüsum ödənilməsini tələb etdi.

Azərbaycan-Rusiya-Çeçenistan arasında üçtərəfli saziş imzalandığı dövrdə (1997) Dağıstan parlamentinin spikeri bəyan etdi ki, Dağıstan tərəfi ilə də maliyyə və digər məsələlər barədə razılaşmaq lazımdır [58, 13 sentyabr, 1997].

Beləliklə, Şimali Qafqazdakı mürəkkəb vəziyyət Azərbaycan-Rusiya əlaqələrinə mənfi təsir göstərdi və ikitərəfli əlaqələrin inkişafını ləngitdi.

Şimali Qafqazdakı vəziyyət Azərbaycan Rusiya münasibətlərində mənfi tendensiya yaratmaqla bərabər Azərbaycana çox böyük ziyan gətirdi, onun iqtisadi vəziyyətinə zərbə vurdu. Azərbaycan Rusiya variantına etibar etdiyindən həm özü ziyan çəkdi, valyuta gəlirini itirdi, həm də konsorsiumun fəaliyyətinə təhlükə yarandı, layihə uzun bir zaman müddətində həyata keçirilmədi.

1997-ci ilin avqust ayında Azərbaycan Prezidenti H.Əliyev İçkeriya Çeçen Respublikasının Vitse-prezidenti V.Arsanovu qəbul edərkən ona öz narazılığını bildirdi: - «üçtərəfli müqavilə imzalanıb, ancaq müqavilənin həyata keçirilməsi uzanır. Artıq gələn ay «Çıraq» yatağından neft hasilatına başlanılacağı gözlənilir. Odur ki, neftin nəqli ilə bağlı problemlər həll edilməlidir» [17, 26 avqust, 1997]. Üçtərəfli müqavilənin imzalanmasından sonra Çeçenistan respublikası da Şimal marşrutunun fəaliyyət göstərməsi üçün məsuliyyət daşıyırdı və bu məsələdə müəyyən öhdəliklərə malik idi. Demək, belə nəticə çıxır ki, kəmərin gecikməsinin bir günahı da Çeçenistanın üzərində oldu. Lakin Çeçenistan bütün günahların Rusiyada olduğunu bildirir və Rusiyanı ittiham edirdi. Məsələn, İÇR vitse-prezidenti V.Arsanov bəyan etdir ki, Çeçenistan neft kəmərinin öz ərazisindən keçən hissəsinin təmiri ilə bağlı üzərinə düşən öhdəlikləri yerinə yetirib. Lakin Rusiya tərəfi üçtərəfli müqavilənin şərtlərinə əməl etmir. Belə ki, hələ indiyə qədər Rusiyadan Çeçenistana boru kəmərinin bərpası üçün heç bir maddi vəsait daxil olmayıb. Bu səbəbdən kəməri istifadəyə vermək mümkün olmur [17, 26 avqust, 1997]. Rusiya ilə Çeçenistan arasında mübahisəli vəziyyət və bunun nəticəsində Şimal kəmərinin reabilitasiya edilməsinin yubadılması ABƏŞ-ə daxil olan şirkətləri də narahat etməyə başladı (1997-ci il). Konsorsiuma daxil olan şirkətlər Azərbaycan neftinin nəqli ilə bağlı yeni marşrutlar axtarması üçün ABƏŞ-ə təzyiq etməyə başladılar. Böyük Britaniyanın Kral institutunun Xəzər dənizi üzrə mütəxəssisi Con Roberts isə neftin nəqli ilə bağlı bildirdi ki, bu büsbütün Rusiyanın işidir. Müqaviləyə əsasən ABƏŞ nefti Rusiya sərhədlərinə qədər nəql edir. Bundan sonra isə o, bu nefti Novorossiysk limanında tələb edəcək [58, 13 sentyabr, 1997].

ABƏŞ Rusiya və Çeçenistan arasında neftin nəqli ilə bağlı problemləri nəzərə alaraq bildirdi ki, Bakı-Novorossiysk neft kəmərinə alternativ marşrutların çəkilməsi nəzərdə tutulmur, lakin müəyyən siyasi vəziyyətin yaranacağı təqdirdə belə alternativ variantlar müəyyənləşdiriləcək.

«Независимая газета» qəzeti yazırdı ki, neft kəmərinin çeçen hissəsinin normal işləməsi problemini Moskva və Qroznı fikir ayrılığına diqqət yetirmədən tez həll etməlidirlər. Bu payız (1997-ci il nəzərdə tutulur - R. R.) bərpa işlərini başa çatdırmaq vacibdir, əks halda beynəlxalq konsorsium neftin nəqlində alternativ yollar axtarmağa məcbur olacaq [92, 30 avqust, 1997].

Rusiya hökuməti Çeçenistanla ümumi razılığın əldə olunmayacağı təqdirdə neftin nəqlindən kənarda qala biləcəyi ehtimalını inkar edə bilməzdi. Artıq 1997-ci ilin son

rübündə Konsorsiumda iştirak edən şirkətlərin güzəşt limiti də bitəcəkdi. Nəhayət, 1997-ci ilin sentyabr ayında Xəzər neftinin nəqli ilə bağlı Rusiya-Çeçenistan danışıqları Bakı-Qroznı-Novorossiysk boru kəmərinin bərpası və Şimal marşrutu ilə ilkin Azərbaycan neftinin nəqli üzrə müvafiq sazişlərin (dörd saziş-R.R.) imzalanması ilə başa çatdı. Rusiya neftin nəqli ilə bağlı heç bir yubanma olmayacağını və öhdəliklərə vaxtında əməl ediləcəyini bildirdi. Məsələn, RF baş nazrinin birinci müavini Boris Nemtsov bəyan etdi ki, Rusiya tərəfi ilkin Xəzər neftinin nəql edilməsi üzrə Azərbaycan qarşısında götürdüyü öhdəlikləri mütləq yerinə yetirəcəkdir [58, 13 sentyabr, 1997]. Lakin Rusiya öhdəliklərinin yerinə yetirilməsini növbəti dəfə də gecikdirdi. Belə ki, Bakı-Qroznı-Novorossiysk kəməri ilə ilkin neft nəzərdə tutulduğu müddətdə, oktyabrın 1-də deyil, 25-də nəql etdi.

Rusiya ilə Çeçenistan arasında olan ziddiyyətlərin kəskinləşməsi ucbatından Şimal neft kəmərinin Çeçenistan ərazisindəkti hissəsinin təmirinə vaxtından gec başlanıldı. Bu səbəbdən Rusiya oktyabrın axırında neftin nəql ediləcəyini bildirdi. RF baş nazirinin 1-ci müavini Boris Nemtsov bununla əlaqədar bildirdi ki, Qroznı-Xasavyurd sahəsindəki bərpa işləri normal gedir və Bakı-Qroznı-Novorossiysk neft kəməri vasitəsilə ilkin neftin nəqli oktyabrın axırlarına nəzərdə tutulub. Çeçenistan cənub neft şirkətinin prezidenti Xoc-Əhməd Yarıxanov da bildirdi ki, neft kəmərinin Çeçenistan ərazisindəki hissəsinin təmiri oktyabrın 20-də sona çatacaq [35, 16 sentyabr, 1997].

Rusiyanın Azərbaycana neftin daşınması ilə bağlı verdiyi bir sıra təkliflər içərisində neftin tankerlərlə və dəmiryolu ilə daşınmasını xüsusi qeyd etmək olar. Bunun nəticəsində isə Rusiyanın Çeçenistanla razılığa gələ bilməməsi sübut olunur və Şimal marşrutunun taleyinin necə olacağı şübhə doğururdu. Rusiya Azərbacan neftinin Xəzər dənizi vasitəsilə tankerlərlə Volqoqrad limanına daşınması, oradan isə



«Lukolyl-1» neft şirkətinin neftayırma zavodlarının kəməri vasitəsilə Novorossiysk limanına nəql etməyi təklif etdi. Bu variant reallaşacağı təqdirdə Rusiya hər ton üçün əlavə kompensasiya istəyirdi. Lakin Azərbaycan bununla razılaşmadı. ARDNŞ prezidenti Natiq Əliyev bu məsələyə münasibətinə belə aydınlıq gətirir: «bizim ölkə artıq çoxdan tankerlər vasitəsilə və ya dəmir yolu daşımaları ilə bu əməliyyatları yerinə yetirə bilərdi. Hazırda söhbət «Şimal» ixrac boru kəmərinin fəaliyyətindən gedir. Neftin göndərilməsinin qalan digər üsulları birdəfəlik əməliyyatlardan başqa bir şey deyildir və yaranmış vəziyyətdən heç də optimal çıxış yolu hesab edilə bilməz» [1, 4 oktyabr, 1997].

«Əsrin kontraktı» ndan əldə olunacaq ilkin neftin Rusiya ərazisi ilə nəqlinin əleyhinə Qərb dövlətləri prinsip etibarilə çıxış etmədilər. Məlumdur ki, Qərb dövlətlərinin Xəzər neft siyasətində əsas üstünlük verdikləri məsələ neftin Qərb marşrutları ilə nəqli idi. Qərb ölkələri çoxşaxəli alternativ neft kəmərləri sisteminin yaradılmasına çalışırdı. Yəni neft marşrutlarının seçilməsi məsələsində Qərb dövlətlərinin güzəştlərə getməsi və bütünlüklə Rusiyaya üstünlük verməsi Qərbin maraqlarına uyğun gəlmirdi. Əgər belə olardısa Xəzər neft siyasətinin Qərb üçün heç bir əhəmiyyəti ola bilməzdi. Rusiyadan keçən kəmər variantına üstünlük verilməsi və əsas neft marşrutunun bu ərazidən keçməsinin müdafiəsi Qərb ölkələrinin Rusiyadan asılılığına gətirib çıxarardı.

Bu məsələdə Azərbaycanın maraqları Qərb maraqlarına uyğun gəlirdi və ümumi məqsəd bu idi ki, əsas neft marşrutu Rusiyadan yox, Türkiyədən keçməlidir. Bakı-Ceyhan Xəzər neftinin Qərb bazarlarına daşıyacaq əsas marşrut hesab olundu. Lakin reallıqlar da nəzərə alınmaya bilməzdi, Bakı-Ceyhan çəkilməmişdi, 1997-ci ildə çıxarılacaq ilkin neft isə daşınmalı idi. Bakı-Supsa kəməri də çəkilib qurtarmamışdı və ilkin nefti daşıyacaq gücdə deyildi. Yeganə variant Bakı-Qroznı-Novorossiysk idi və ilkin

Azərbaycan neftinin nəqlində bu kəmər real maraqlara cavab verirdi. Bakı-Qroznı-Novorossiysk kəmərinin iqtisadi tərəfləri ilə yanaşı siyasi mənası da var idi. Bunlar Rusiyanın Xəzər neft konsorsiumunun işinə olan təsirini azaltmaq, maneçiliyinin qarşısını almaq, Rusiyanı daha sıx tərəfdaşa çevirməklə əslində ondan müdafiə olunmaq məqsədi daşıyırdı.

ABƏŞ-in prezidenti bəyan etdi ki, bu neft ehtiyatlarının istismar edilməsinin qanuniliyinin qarantı Rusiyanın özünün lahiyədə iştirakı faktıdır [37]. Lakin Şimal marşrutunun təhlükəsizliyi məsələsi həll edilməmişdi və I Rusiya-Çeçenistan muharibəsindən irəli gələn böyük bir problem Şimali Qafqazı neftin nəql edilməsində təhlükəli zona hesab etməyə tam əsas verirdi. Qeyd edək ki, qərb dövlətləri bu məsələdə də güzəştə getdilər.

ABƏŞ prezidenti Terri Adams bildirdi ki, neftin münaqişəli ərazilərdən nəqli praktikası dünyada mövcuddur. ARDNŞ prezidenti Natiq Əliyev isə sazişin imzalanmasından sonra (1996) dedi ki, neft və siyasət bir-birindən asılıdr, heç kim hazır Şimal kəmərini qoyub Qərb kəmərini gözləməyəcək [47, 24 avqust, 1996].

Rusiya isə Xəzər neft siyasətindəki destruktiv fəaliyyətini neftin Rusiya vasitəsilə nəql edilməsi qərara alındıqdan sonra da davam etdirdi. Məsələn, 1996-cı ildə Rusiyada ilkin Azərbaycan neftinin Rusiya ərazisi ilə nəqli haqqında saziş imzalandığı dövrdə RF xarici işlər nazirinin müavini Albert Çernışev bildirdi ki, Xəzərin statusu hələlik həll edilməyib və heç kim investorlara pullarının qaytarılacağı təminatını vermir və kimsə Xəzərdə birtərəfli addımlar atsa bizim də birtərəfli addımlar atmağa vasitələrimiz var [111, 27 yanvar, 1996]. RF baş naziri Viktor Çernomırdin sazişin imzalanması mərasimindən sonra (1996) Xəzər probleminin həll edilmədiyini bildirdi və bununla da Rusiyanın əvvəlki destruktiv mövqeyində qaldığını bir daha təsdiq etdi. Rusiya həm Xəzər neft siyasətində iqtisadi-siyasi maraqlarını reallaşdırmağa çalışdı, bu mümkün olmadıqda isə siyasi təsir göstərdi və hərbi təzyiq etməklə hədələdi. Rusiya ənənəvi olaraq öz ikili standart siyasətinə sadiq qaldığını nümayiş etdirdi.

Bütün bunlarla yanaşı, Rusiya əsas ixrac neft kəmərinin də öz ərazisindən keçməsinə çalışdı. Bu, Rusiyanın Xəzər neft siyasətində əldə etməyə çalışdığı ən böyük qələbə olardı. Bu siyasətini həyata keçirmək üçün də Rusiya neft kəmərinin Çeçenistandan yan keçirilməsi məsələsini ortaya atdı. Bu məsələ heç də kağız üzərində qalmadı, Rusiya kəmərin Çeçenistandan yan keçirilməsi işinin praktiki tərəflərini də həll etdi.

RF baş nazirinin birinci müavini Boris Nemtsov neft kəmərinin Çeçenistan ərazisindən yan ötən qolunun tikintisinə toxunaraq qeyd edirdi ki, şübhəsiz, neftin nəql olunmasında dünyanın iri neft şirkətləri konsorsiumunun narahat olmaması üçün təminatlar müəyyən ediləcəkdir. Əlbəttə, bu təminatları yaratmaq çox vacibdir və biz onları yaradacağıq [53, 15 noyabr, 1997]. Lakin Rusiyanın arzuları reallaşmadı, Qərb ölkələri və Azərbaycan Qərb marşrutu üzərində dayandılar, onlar əsas ixrac neft kəmərinin Rusiyadan keçirilməsinin əleyhinə oldular.

1997-ci ilin noyabrında Bakıda keçirilən konfransda Qərb ölkələrinin, Türkiyənin, Azərbaycanın rəsmiləri əsas ixrac neft kəməri məsələsində Şimal marşrutuna deyil, Qərb marşrutuna (Bakı-Ceyhan) üstünlük verdilər. Məsələn, ABŞ-ın Energetika naziri Federiko Penya göstərirdi ki, neftin dünya bazarlarına çatdırılması marşrutlarının təhlükəsizlik məsələsini həll etmək lazımdır. Bununla əlaqədar F.Penya Bakı-Ceyhan marşrutunu dəstəkləmişdir. Türkiyənin baş naziri Məsud Yılmaz da fikirləri maraq doğurur: «Biz Azərbaycandan bir neçə neft kəmərinin çəkilməsi ideyasını dəstəkləyir, həm də hesab edirik ki, Bakı-Ceyhan marşrutu iqtisadi

və strateji nöqteyi-nəzərdən ən sərfəli marşrutdur» [53, 15 noyabr, 1997]. Azərbaycan Pprezidenti Heydər Əliyev bu məsələyə münasibətdə bildirdi:- «Biz Bakı-Ceyhan marşrutunu dəstəkləyirik. Lakin son söz hər halda konsorsium iştirakçılarının olacaqdır» [53, 15 noyabr, 1997].

Beləliklə, I Rusiya-Çeçenistan müharibəsinin başa çatması regionda sabitliyin bərqarar olmasına şərait yaratdı, hərbi əməliyyatlar sülh danışıqları ilə əvəz olundu. 1996-1997-ci illərdə Rusiya və Çeçenistan böyük siyasi razılaşmalar əldə etdilər. Bu razılaşmalara görə tərəflər arasında siyasi problemlərin birdəfəlik olaraq 2001-ci ilə qədər həll edilməsi nəzərdə tutuldu.

Artıq müharibənin bitməsi bir sıra nəticələrə gətirib çıxardı. Bunlardan Rusiya ilə Çeçenistanın artıq düşmənçilik deyil, tərəfdaşlıq etməsi üçün şəraitin yaranması; regional layihələrin həyata keçirilməsinə başlanılması; Şimali Qafqaz naqəliyyat kommunikasiyalarının işə düşməsi; Xəzər neftini daşıyacaq Şimal neft kəmərinin fəaliyyətə başlamasına imkan yaranması; Rusiyanın Azərbaycana qarşı tətbiq etdiyi sərhəd blokadasının aradan qaldırılması; Çeçen məsələsində Rusiyanın Azərbaycana qarşı tutduğu ədalətsiz mövqedən əl çəkməsini qeyd etmək olar.

Maraqlı faktdır ki, müharibənin bitməsi ilə Çeçeinstan ilkin Xəzər neftinin nəql edilməsi məsələsində Rusiya ilə birlikdə, bərabər tərəf kimi çıxış etməyə başladı, neft kəmərinin Çeçenistandan keçməsi Qroznıya şans yaratdı. Beləliklə 1996-cı ildə ilkin Xəzər neftinin Bakı-Qroznı-Novorossiysk boru kəməri ilə nəql edilməsi haqqında ikitərəfli Azərbaycan-Rusiya sazişinə əlavə olaraq, 1997-ci ildə Azərbaycan-Rusiya-Çeçenistan arasında üçtərəfli kommersiya sazişi də imzalandı. Bununla da Azərbaycan-Rusiya-Çeçenistan arasında regional əməkdaşlığın əsası qoyuldu. Üçtərəfli sazişin imzalanması Rusiyanın Çeçenistanı bir tərəf kimi artıq qəbul etməsi demək idi.



I Rusiya-Çeçenistan müharibəsinin sona çatması Şimali Qafqaz nəqliyyat kommunikasiyalarının yenidən fəaliyyətə başlaması ilə nəticələndi. I Rusiya-Çeçenistan müharibəsinin başlamasından sonra Rusiyanın ədalətsiz olaraq Azərbaycana qarşı bütün kommunikasiya vasitələrinin fəaliyyətini dayandırmasına və Azərbaycanı faktiki olaraq sərhəd blokadasına alınmasına 1997-ci ildə son qoyuldu. 1997-ci ildə həm Rusiya və Çeçenistan arasında siyasi razılaşma, həm də Azərbaycan və Rusiya arasında Dostluq və Əməkdaşlıq haqqında yeni müqavilə imzalandı.

# NƏTİCƏ

Qafqazdakı problemlər çoxşaxəlidir və bir-birilə hökmən müəyyən əlaqəyə malikdir. Etnik baxımdan rəngarəng olan regionda hər bir etnosiyasi problem digərinə təsirsiz və əks təsirsiz ötüşmür. Qafqazın hansı bölgəsində baş verməsindən asılı olmayaraq hər bir etnosiyasi münaqişə digər bölgənin və ümumilikdə bütün regionun siyasi, iqtisadi sisteminə təsir göstərir, etnosiyasi disbalans yaradır. Bu isə son nəticədə yeni etnik problemlərin yaranmasına gətirib çıxarır.

SSRİ-nin iflasından sonra bütün postsovet məkanında olduğu kimi Şimali Qafqazda da etnosiyasi vəziyyət kökündən dəyişdi. Milli oyanış, xalqların özünüdərk, öz etnomədəniyyətinə, dilinə, dininə dönüşü prosesi yüksək templə inkişaf etdi. Buraya xalqların müstəqillik uğrunda mübarizələrini də daxil etsək regionda vəziyyətin necə mürəkkəb olduğunu yəqin etmək olar. Tədqiqatın nəticəsi kimi inamla qeyd etmək olar ki, XX əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq Qafqaz xalqları arasında münasibətlərin pozulmasında, düşmənçiliyin, ərazi çəkişmələrinin, ümumiyyətlə etnosiyasi problemlərin yaranmasında Rusiyanın özünəməxsus yeri var.

Rusiyanın imperiya siyasətindən geri çəkilməməsi, bütün keçmiş ərazilərinin əldən çıxması, xüsusilə Qafqazda müstəqil dövlətlərin yaranması ilə barışa bilməməsi, davamlı olaraq Qafqazda hərbi hegemonluğa can atması, keçmiş SSRİ sərhədlərini artıq başqa adlar altında qoruyub saxlamaq istəyi, ayrı-ayrı millətlər arasında mübahisəli vəziyyətlər, münaqişələr, sərhəd çəkişmələri yaratması Qafqaz xalqları ilə Rusiya arasında dərin uçurum yaratdı. Uzun bir tarixi dövr ərzində bir ölkə daxilində, bir ideoloji mühitdə yaşadıqları Rusiyalı ilə Qafqaz xalqları arasında inamsızlıq formalaşdı, Rusiya Qafqaza Qafqaz isə Rusiyaya rəqib gözü ilə baxmağa başladı. Əlbəttə, Rusiyanın Qafqaza ikili standartlarla yanaşmasını onun separatçı yönümlü rejimləri himayə etməsi ilə xarakterizə etmək olar. Moskvanın erməniləri silahlandırması və onların təcavüzkar separatçılığına dəstək verməsi XX əsrin 90-cı illərinin əvvəllərindən etibarən Azərbaycanla Rusiya arasında gərgin münasibətlərin gərginləşməsinə səbəb oldu. Bu isə Rusiyanın Qafqazla olan qeyri-sağlam rəqabətində ən təhlükəli faktor idi.

Aparılan araşdırmaların nəticəsi kimi qeyd etmək olar ki, Sovetlər İttifaqının süquta uğramasından sonra Şimali Qafqazda müstəqillik hərəkatları yarandı və demək olar ki, azadlıq mübarizəsi Qafqazı bütünlüklə əhatə etdi. Bu mübarizəyə XIX əsrdəki Şamil hərəkatının bir növ davamı kimi də baxmaq olar. XX əsrin 80- ci illərinin sonu 90- cı illərinin əvvəllərindən başlayaraq Qafqaz xalqları artıq öz müstəqillikləri uğrunda təşkilatlanmış formada mübarizə apardılar. Müstəqillik hərəkatları iki fazada inkişaf etdi. Birincisi: Rusiya Federasiyası daxilində öz müstəqilliklərini təsdiq etməyə çalışan etnosların müstəqillik uğrunda mübarizəsi, ikincisi tam müstəqillik əldə etmək istəyən xalqların mübarizəsi. Şimali Qafqaz etnoslarının müstəqillik hərəkatı Rusiyanın Qafqaz siyasətinə bütövlüklə zərbə oldu. Etnosların müstəqilliyə nail olmaq istəyi Şimali Qafqaz regionunu münaqişələr, müharibələr ocağına çevirdi. Xalqların azadlıq istəyi Rusiyanın Qafqaz maraqları ilə əlbəttə ki, uyğun gəlmədi, digər tərəfdən Rusiyanın ərazi bütövlüyü prinsipi də pozuldu.

Beləliklə Rusiya Şimali Qafqaz xalqları ilə açıq mübarizəyə başladı. Ümumiyyətlə XX əsrin 90-cı illərin əvvəllərindən etibarən Şimali Qafqazda etnosiyasi sabitlik tamamilə pozuldu vəm bir neçə hərbi konflikt yarandı. Şimali Qafqazda ən böyük münaqişə hesab olunan Rusiya-Çeçenistan konflikti Azərbaycan-Rusiya münasibətlərinə təsir edən amillərdən ən əsası oldu. Belə nəticəyə gəlmək olur ki, Rusiya-Çeçenistan münaqişəsi dövründə Rusiyanın Azərbaycana qarşı təzyiqlərinin əsas səbəblərindən biri bu ölkənin Azərbaycanda öz hərbi-siyasi monopoliyasını bərqərar

edə bilməməsi idi. Rusiya-Çeçenistan konflikti sadəcə olaraq Azərbaycanı cəzalandırmaq üçün bir bəhanə oldu. Münaqişə dövründə Azərbaycanla Rusiya arasında siyasi və iqtisadi sahədə böyük problemlər ortaya çıxdı. Rusiya – Çeçenistan münaqişəsi dövründə Azərbaycan Şimali Qafqaz nəqliyyat kommunikasiyaları sistemindən məhrum oldu və dövlətin iqtisadiyyatına külli miqdarda ziyan dəydi. Azərbaycanın Rusiya ilə siyasi (MDB çərçivəsində) və iqtisadi (Xəzər neft konsorsiumu çərçivəsində) tərəfdaşlığına baxmayaraq Rusiya Çeçen konflikti dövründə Azərbaycana rəqib mövqeyindən yanaşdı. Bu isə onu sübut edir ki, 90-cı illərin əvvələrində Azərbaycan-Rusiya münasibətləri qənaətbəxş səviyyədə deyildi və münasibətlərin aydınlaşdırılması üçün uzun bir dövr lazım oldu.

Tədqiqatın nəticəsi kimi qeyd etmək olar ki, 1996-cı il Qafqazda siyasi və hərbi şəraitin dəyişməsi və münasibətlərdə dönüşün yaranması ilə müşahidə olundu. Artıq Rusiya və Çeçenistan arasında I Rusiya-Çeçenistan müharibəsi başa çatdı və siyasi müqavilə imzalandı. Qeyd edək ki, regionda siyasi şəraitin dəyişməsi Azərbaycan-Rusiya münasibətlərinə də öz təsirini göstərdi. Beləliklə mövcud gərginliklər aradan qalxdı və əməkdaşlıq üçün mümbit şərait yarandı. Rusiyanın öz subyekti hesab etdiyi Çeçenistanla bərabərsəviyyəli müqavilə imzalaması Çeçenistanı regional əməkdaşlığın bir tərəfinə çevirdi, Azərbaycan-Rusiya tərəfdaşlığı Azərbaycan-Rusiya-Çeçenistan tərəfdaşlığına çevrildi. Demək olar ki. Rusiya-Çeçenistan konfliktinin yaranması ilə Rusiya-Azərbaycan arasında yaranan gərgin münasibətlər və anlaşılmazlıqlar 1996-1997 illər ərzində artıq aradan qalxdı

Azərbaycan-Rusiya münasibətlərində Şimali Qafqaz amilini təhlil edərkən ləzgi problemindən yan keçmək olmaz. Beləliklə, 1990-cı ildən etibarən qondarma «ləzgi məsələsi» periodik olaraq qabardılaraq konflikt həddinə qədər yüksəldildi. Əslində ləzgi məsləsini təxribaçıların böyük oyunu adlandırmaq olar. Ləzgi məsələsinin ortaya atılması Azərbaycanın şimal ərazilərinin qopardılması, Qarabağdan sonra ikinci cəbhənin açılması niyyətini güdürdü. «Sadval», «Ləzgi Milli Şurası» kimi qurumlar yarandığı ilk dövrlərdə Azərbaycanın Şimal, Rusiyanın (Dağıstan) cənub rayonlarının hesabına müstəqil Ləzgistan dövlətinin yaradılması ideyasını ortaya atdılar və Azərbaycanın ərazi bütövlüyü prinsipi təhlükə altında qaldı. Araşdırmanın nəticəsində belə qənaətə gəlmək olar ki, bəzi kiçik təxribatçılıq elementlərini çıxsaq «Sadval», «Ləzgi Milli Şurası» fəallarının təxribaçılıq əməllərinin nəticəsində ləzgilərlə azərbaycanlılar arasında böyük münaqişə yaranmadı və toqquşmalar, kütləvi qarşıdurmalar baş vermədi. Azərbaycanın şimalında yaşayan ləzgi əhalisi separatçılara gəstək vermədilər və Azərbaycan dövlətinə qarşı loyallıq nümayiş etdirdilər.

Belə nəticə çıxarmaq olar ki, «Sadval», «Ləzgi Milli Şurası» kimi təşkilatlar əslində bir alətə çevrildilər, dövlətlər arasındakı münasibətlərdə Rusiyanın təsir elementi kimi çıxış etdilər. Heç bir şübhə doğurmur ki, ləzgi məsələsi SSRİ-nin iflasından sonra Azərbaycanın suverenliyinə təhlükə yaradan əsas faktorlardan oldu.

SSRİ-nin iflası ilə bir dövrdə Şimali Qafqazda XVIII əsrin sonlarından meydana çıxmış Azad Qafqaz ideyasının davamı olaraq Qafqaz birliyi ideyası inkişaf etdi. Bu məfkurənin reallaşdırılması uğrunda müasir dövrdə çoxlu sayda regional ictimai-siyasi təşkilatlar meydana çıxdı və Qafqaz xalqlarını özündə birləşdirməyi qarşıya məqsəd qoymuş təşkilatların yaranması öz-özlüyündə vahid Qafqaz ideyasının təşəkkül tapmasına mümkün şərait yaratdı. Bu təşkilatlardan ən nüfuzluluları Qafqaz Dağlı Xalqlar Assambleyası (sonradan Qafqaz Xalqları Assambleyası adlandı) və Qafqaz evi forumu oldu. Əslində bu təşkilatların fəaliyyətlərinin məntiqi nəticəsi Vahid Qafqaz ideyasının reallaşmasına xidmət idi. Hansı formada fəaliyyət göstərməsindən asılı olmayaraq Qafqaz xalqlarını bir təşkilat çərçivəsində birləşdirməyə çalışan bu qurumlar Qafqaz xalqlarını problemlə-

rini birlikdə həll etməyi qarşıya məqsəd qoydular və xalqlar arasında mədəni, etnik, dini, siyasi səpgidə konsolidasiya yarandı. 1992-ci ildə yaradılan Qafqaz evi forumu yeni keyfiyyətdə meydana çıxdı və Qafqazın bütün xalqları bu qurum çərçivəsində fəaliyyət göstərməyə başladılar. Şimali Qafqaz xaqları ilə yanaşı cənubi Qafqaz xalqları da Qafqaz evində təmsil olundular. Bu faktı müasir Qafqazın tarixində böyük bir yenilik hesab etmək olar. Düzdür, müəyyən millətlər kənarda qalmalı oldular, məsələn, ermənilər. Onlar Qafqaz xalqları arasında parçalanma yaratdıqlarına, Qafqaz birliyini pozduqlarına görə Qafqaz evində təmsil olunmaqdan məhrum olundular. Lakin bu, Qufqaz evi forumunun işinə mane ola bilmədi.

Aparılan tədqiqatın nəticəsi kimi qeyd etmək olar ki, Vahid Qafqaz uğrunda hərəkat daxilində dini ayrıseçkiliyin rədd edilməsi əlamətdar bir hadisədir və bunu sağlam təfəkkürün məhsulu kimi qiymətləndirmək olar. Qafqazda mövcud olan bütün dini konfessiyalar bir birlik daxilində fəaliyyət göstərə bildilər və bu fakt onu sübut edir ki, Qafqaz birliyinin yaradılması düzgün istiqamətdə olub. Qeyd edək ki, Qafqaz evi forumu Qafqaz respublikalarının da gələcəkdə bir təşkilatda rəsmi qaydada təmsil olunmalarını nəzərdə tuturdu. Bu artıq Qafqaz evinin böyük bir regional siyasi təşkilata çevrilməsi demək idi. Belə bir mülahizə yürütmək olar ki, Qafqaz evi forumu Qafqazın konfederativ əsasda birləşdirilməsi ideyasının həyata keçirilməsi üçün bazis rolunu oynadı.

Beləliklə, hansı səviyyədə fəaliyyət göstərməsindən asılı olmayaraq bu qurumların ümumi məqsədi Qafqaz xalqlarının birliyinə nail olmaq idi. Qafqaz xalqlarının bir-birinə qarşı deyil, bir mövqedən çıxış etməsi Qafqaz birliyi ideyasının əsas istiqamətidir. Burada Qafqaz xalqları arasında olan etnosiyasi münaqişələrin həlli də əsas məqsəd kimi ortaya qoyulur.



XX əsrin 90-cı illərinin əvvəllərində Qafqaz birliyinin yaradılması istiqamətindəki fəaliyyət Rusiyanı narahat edən bir məsələyə çevrildi. Qeyd edək ki, Azərbaycan Qafqazda ən böyük müsəlman ölkəsidir. Digər tərəfdən Qafqaz türk xalqları içərisində də ən böyük xalq Azərbaycan xalqıdır. Siyasi mövqeyi, iqtisadi və insani potensialı, təbii və milli-mədəni sərvətlərinə görə Azərbaycan bütün Qafqazda digər müsəlman və türk ruspublikalarını üstələyir. Buradan belə bir nəticə çıxır ki, Azərbaycan Qafqaz müsəlman ruspublikaları içərisində iqtisadi və siyasi güc mərkəzi rolu oynamaq imkanına malikdir. Araşdırmaların nəticəsi onu deməyə əsas verir ki, Rusiya bu faktdan ehtiyat edir və Qafqaz birliyinin yaradılmasının qarşısını hər bir vasitədən istifadə etməklə almağa çalışır.

Tədqiqat işində maraq doğuran məqamlardan biridə Qafqazda sülh və sabitlik uğrunda mübarizənin başlanması faktlarının olmasıdır. Maraqlıdır ki, bu mübarizənin önündə dövlət rəhbərləri dayandılar. Azərbaycan və Gürcüstan prezidentləri H.Əliyev və E.Şevardnadze Qafqazda sülh və sabitlik uğrunda böyük bir işin başlanğıcını qoydular. Bu iki ölkə arasında sülh və təhlükəsizlik deklorasiyasının imzalanması (1996-cı il) konfliktlər və böyük milli qarşıdurmalar məkanına çevrilmiş Qafqazın gələcəyi üçün əlverişli peresedent yaratdı. Bir-birilə münaqişədə olan bir sıra Qafqaz xalqları qarşılıqlı dialoq aparmaq, ümumi təhlükəsizlik mövqeyindən çıxış etmək üçün mümkün imkanlar qazandılar. Bütün tərəfləri sülhə və təhlükəsiz yaşamağa dəvət edən Tbilisi bəyannaməsinin bir müsbət cəhəti də o idi ki, sənəd bütün Qafqaz ölkələri üçün açıq elan edildi. Bu bəyannamə ilkin olaraq Qafqazda yaranmış real situasiyanı əks etdirir və etnosiyasi gərginliyi aradan qaldırmaq üçün böyük əhəmiyyətə malikdir.

Tədqiqatın nəticəsi onu deməyə əsas verir ki, Qafqazda yaranmış etnosiyasi gərginliyin aradan qaldırılması, Qafqaz xalqlarının normal yaşayışının təmin olunması bir

sıra konseptual məsələlərin həll edilməsindən sonra reallaşa bilər. Bunun üçün:

- Rusiya Qafqaz ölkələri və xalqlarına öz vassalı kimi münasibət göstərmək, keçmiş sovet sərhədlərini bərpa etmək niyyətindən və tarixi imperiya siyasətindən birdəfəlik əl çəkməlidir;

- Rusiya Qafqaza ikili standartlarla yanaşmamalı, təcavüzkar seperatizm dəstəklənməməli, etnosiyasi problemlərin həllində ədalət prinsipinə üstünlük verilməlidir;

- Qafqazda yaranan etnosiyasi problemlər, münaqişələr silah, zor gücünə deyil, sivil qaydada məsələn, xalqların rəyinin öyrənilməsi, referendumların keçirilməsi, tərəfsiz siyasi vasitəçiliyin göstərilməsi, dövlətlərin ərazi bütövlüyü prinsipinə riayət olunması yolu ilə həll olunmalıdır;

- Süni surətdə etnik problemlərin yaradılması, milli hisslərin qızışdırılması, milli ədavətin yaradılması siyasətindən əl çəkilməli, Qafqazda münaqişə tərəflərindən hər hansı biri silahlandırılmamalıdır;

- Rusiya Qafqazda maraqlarını silah, hərbi qüvvələr hesabına deyil, iqtisadi sahədə mövqelərini və siyasətini gücləndirməklə əldə etməlidir;

- Rusiya-Qafqaz münasibətləri düşmənçilik müstəvisində deyil, sağlam rəqabət şəraitində inkişaf etməlidir;

- Qafqazda hərbi qüvvələr yerləşdirmək siyasətindən. sürətlə silahlanmadan əl çəkilməli, region silahsız zona elan edilməlidir;

- Qüvvə tətbiq olunması vasitəsilə əldə edilmiş hər hansı üstünlüklər tanınmamalıdır;

- «Etnik cəhətdən təmiz zonalar» siyasəti pislənilməlidir;

- Terrorizm və terrorizmdən irəli gələn hallara qarşı birgə mübarizə aparılmalı, problemlər terrorla hədələməklə deyil. sivil qaydada, danışıqlar yolu ilə həll edilməlidir;

- Qafqazafobiya, Qafqaz xalqlarından olan insanlara qarşı ayrıseçkiliyə gətirib çıxaran halların qarşısı alınmalıdır, bu hallara gətirib çıxaran səbəblər aradan qaldırılmalıdır;



- Qafqazda yaşayan hər bir etnosun milli-mədəni dəyərlərini inkişaf etdirməsi üçün hər cür imkanlar yaradılmalı, lakin bütün bunlar separatçılıq üçün əsasa çevrilməməlidir;

- Qafqaz xalqları, etnik qruplar arasında etnomədəni əlaqələr genişləndirilməli, xalqlar arasında mədəniyyətlərin davamlı dialoqu yaradılmalıdır;

- Dinc yanaşı yaşamanın yeni demokratik forma və sistemləri hazırlanmalıdır;

- Tarixi Qafqaz xalqlarının birliyi ideyası qəti olaraq formalaşdırılıb başa çatdırılmalıdır

## Северно Кавказский фактор в азербайджано-российских отношениях (1991-1997)

## РЕЗЮМЕ


Монография посвящена вопросам влияния, сложившейся в 1991-1997-х гг. XX века, этнополитической обстановки на Северном Кавказе на азербайджано-российские отношения.

Здесь также широко анализируются этнические конфликты, этнополитические проблемы, имевшие место на Северном Кавказе и в северных районах Азербайджана; обстановка, создающая условия для экстремизма и сепаратизма на границе Азербайджана с Дагестаном; характер азербайджано-российских отношений в период российско-чеченского конфликта, а также возникшие проблемы.

Монография состоит из введения, 3-ех глав, полглавы, заключения и списка литературы.

Во введении монографии раскрывается актуальность темы, цель, задачи, новизна и практическое значение темы.

Первая глава называется: «Влияние развала СССР на этнополитические процессы на Северном Кавказе».

В первой главе показаны исторические корни и причины напряжённой этнополитической ситуации и этнических конфликтов, возникших на Кавказе, исследуются региональные конфликты и их характер.

Вторая глава называется: «Роль этнополитического фактора в процессе развития азербайджано-российских отношений после обретения независимости».

В этой главе показаны проблемы, возникшие в отношениях, недавно получившего независимость Азербайджана с Россией, а также уровень влияния на эти отношения этнополитической напряжённости на Северном Кавказе.





Кроме того, здесь описываются проблема этнического сепаратизма, сепаратистические попытки и сложнейшая ситуасия создавшиеся в Азербайджано-Дагестанской пригрничных районах в Дагестанской стороне, а также попытки создат государства под названием «Лезгистан» засчет северных территорий Азербайджана и южных территорий Дагестана.

В главе под названием «Влияние этнополитической реальности, установившейся на Северном Кавказе, на Азербайджан» исследуются вопросы обострения отношений между Азербайджаном и Россией в связи с возникновением этнополитической напряженности на Северном Кавказе. А также изучается характер новой этнополитической обстановки, возникшей в регионе. В этой главе нашли отражение следующие моменты: влияние на ситуацию в регионе военного конфликта между Россией и Чечнёй, проблемы, возникшие у Азербайджана с использованием транспортных коммуникаций Северного Кавказа, а также формирование новой этнополитической обстановки в регионе после окончания первой Российско-Чеченской войны.

В заключении монографии обобщены основные результаты, сформулированы основные положения исследования.

## North Causasus factor in Azerbaijan-Russian relations (1991-1997)

## SUMMARY

The monographi is devoted to the questions of the influence of ethno political conditions to Azerbaijan-Russian relations in Northern Caucasus, developed in 1991-1997 of XX century.

Here also widely analyze the ethnic conflicts having a place in Northern Caucasus and in northern areas of Azerbaijan; situation creating conditions for extremism and separatism in border of Azerbaijan with Dagestan; character of the Azerbaijan-Russian relations during the Russian - Chechen conflict; also arisen problems.

The monographi consists of introduction, 3 chapters, the half-chapter, the conclusion and the list of the literature.

In introduction of the monographi opens the urgency of a theme, the purpose, the tasks, newness and practical significance (importance) of a theme.

The title of the first chapter named: "Influence of disintegration of the USSR on ethno political processes in Northern Caucasus".

In the first chapter are shown the historical roots and the reasons of intense ethno political situation and the ethnic conflicts which have arisen on Caucasus, regional conflicts and their character are investigated.

The title of the second chapter named: "Role of a political factor in development process of the Azerbaijan-Russian relations after finding independence".

In this chapter are shown the problems which have arisen between Azerbaijan and Russia, which recently have acquired independence; also level of influence of ethno political tension



to these relations in Northern Caucasus. Besides there describes the problem of ethnic separatism in the north of Azerbaijan, and also attempts to kindle international hostility.

Here, in the chapter named «Influence of the ethno political reality which have been established in Northern Caucasus, to Azerbaijan» are investigated the questions of strain of relations between Azerbaijan and Russia in connection with occurrence of a political tension in Northern Caucasus.

There are also studying the character of the new ethno political conditions, which have arisen in regions. In this chapter have found reflection the following moments: influence of the military conflict between Russia and the Chechen Republic to the situation in regions, the problems which have arisen for Azerbaijan in connection with use of transport communications of Northern Caucasus, also formation of new ethno political conditions in region after the ending of the first Russian - Chechen war.

In the conclusion of the monographi are generalized the basic results, are formulated fundamental provisions of research.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

### Azərbaycan dilində


1. Abbasov Ş, Mirqədirov R. Çeçenistan Azərbaycana daxil olmaq istəyir. «Ayna» qəz., Bakı, 1997, 4 oktyabr, №39
2. Abbasbəyli A. Azərbaycan mənim ürəyimdir. Bakı: Azərnəşr, 2002, 517 s.
3. «Azərbaycan» qəz., Bakı, 1994, 29 iyun, №124
4. «Azərbaycan» qəz., Bakı, 1994, 19 noyabr, №225
5. «Azərbaycan» qəz., Bakı, 1995, 21 fevral, №35
6. «Azərbaycan» qəz., Bakı, 1995, 6 mart
7. «Azərbaycan» qəz., Bakı, 1995 11 aprel, №66
8. «Azərbaycan» qəz., Bakı, 1995, 7 iyun, № 105
9. «Azərbaycan» qəz., Bakı, 1995, 7 noyabr
10. «Azərbaycan» qəz., Bakı, 1996, 15 fevral, №32
11. Azərbaycan Prezidenti Heydər Əliyevin Moskvaya səfəri. «Azərbaycan» qəz., Bakı, 1996, 9 avqust, №152
12. «Azərbaycan» qəz., Bakı, 13 avqust, №154
13. «Azərbaycan» qəz., Bakı, 1997, 17 yanvar, №11
14. «Azərbaycan» qəz., Bakı, 1995, 17 yanvar, № 11
15. «Azərbaycan» qəz., Bakı, 1996, 18 yanvar, №12
16. «Azərbaycan» qəz., Bakı, 1997, 10 iyul, №143
17. «Azərbaycan» qəz., Bakı, 1997, 26 avqust, №183
18. «Azərbaycan» qəz., Bakı, 1994, 30 iyul, №147
19. «Azərbaycan» qəz., Bakı, 1997, 7 oktyabr, №219
20. Azərbaycan Respublikası Prokurorluğunun və Milli Təhlükəsizlik Nazirliyinin məlumatı. «Azərbaycan» qəz., Bakı, 1996, 16 iyul, №134
21. Azərbaycan Respublikası 1991-2001. Bakı: XXI-yeni nəşrlər evi, 2001, 360 s.
22. Azərbaycan Respublikasının Konstitusiyası.Bakı:1997.94 s.
23. Azərbaycan Prezidenti Heydər Əliyev Rusiya Federal sərhəd xidməti direktorunun müavinini qəbul etmişdir. «Azərbaycan» qəz., Bakı, 1996, 26 yanvar, №18
24. Azərbaycan Prezidenti Heydər Əliyevin və Rusiyanın baş naziri Viktor Çernomırdinin birgə mətbuat konfransı. «Azərbaycan» qəz., Bakı, 1996, 24 yanvar, №16
25. Azərbaycan Prezidenti Heydər Əliyev Rusiya Dövlət Dumasının deputatlarını qəbul etmişdir. «Azərbaycan» qəz., Bakı, 1996, 27 sentyabr, №187
26. Azərbaycan Prezidenti Heydər Əliyev MDB parlamentlərarası Assambleyası komissiyasının üzvlərini qəbul etmişdir. «Azərbaycan» qəz., Bakı, 1996, 24 dekabr, №246
27. Azərbaycan-Rusiya: sağlam təfəkkür qalib gəlməlidir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı. «Azərbaycan» qəz., Bakı, 1995, 25 yanvar, №16
28. Azərbaycan Prezidenti Heydər Əliyevin Moskvaya səfəri. «Azərbaycan» qəz., Bakı, 1996, 19 yanvar, №13
29. Azərbaycan Prezidenti Heydər Əliyevin Moskvaya səfəri. «Azərbaycan» qəz., Bakı, 1997, 1 aprel, №60
30. Azərbaycan prezidenti Heydər Əliyev Rusiya nümayəndə heyətini qəbul etmişdir. «Azərbaycan» qəz., Bakı, 1997, 12 iyul, № 145
31. «Azadlıq» qəz., Bakı, 1992, 22 oktyabr
32. «Azadlıq» qəz., Bakı, 1994, 3 sentyabr
33. «Azadlıq» qəz., Bakı, 1997, 6 avqust, № 159
34. Cavadov Q. C. Azərbaycanın azsaylı xalqları və milli azlıqları. Bakı: Elm, 2000, 439 s.
35. «Ekspress» qəz., Bakı, 1997, 16 sentyabr
36. Əliyev H.Ə. Müstəqillik yolu. Bakı: Azərbaycan Universiteti Nəşriyyatı, 1997, 136 s.
37. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir».Bakı: Azərnəşr, 1998, XV Cilddə, V kitab, 483 s.
38. Əmrahqızı E. Yaxın uzaq Rusiya. «Azadlıq» qəz., Bakı, 1992, 20 oktyabr, №96
39. Əzimzadə Ə. Azərbaycanda milli ədavət salmaq cəhdi əbəsdir. «Azərbaycan» qəz., Bakı, 1995, 4 aprel, №61
40. «Həyat» qəz., Bakı, 1992, 16 sentyabr, №184
41. Həziyev B. Sadval bağlandı, məsələ açıq qalır. «Azadlıq» qəz., Bakı, 1993, 8 iyul, № 75
42. «Xalq» qəz., Bakı, 1993, 10 sentyabr, №139
43. «Xalq» qəz., Bakı, 1993, 26 oktyabr, №164
44. İnqilab. Ləzgilər etiraz edir. «Xalq» qəz., Bakı, 1993, 7 dekabr, №173

45. Qasımov M. C. Azərbaycanın xarici siyasəti (Konsepsiya məsələləri). Bakı: Mütərcim, 1997, 124 s.
46. Quluzadə V. Gələcəyin üfüqləri: Azərbaycan Respublikasının xarici siyasəti barədə mülahizələr, müsahibələr, şərhlər. Bakı: Azərbaycan, 1999, 286 s.
47. Quluzadə K. Çeçen problemi Azərbaycan neftinin nəqlinə təhlükə yaradırmı? «Ayna» qəz., Bakı, 1996, 24 avqust. №34
48. Milli təhlükəsizlik nazirliyinin məlumatı. «Azərbaycan» qəz., Bakı, 1996, 4 may, №85
49. Mokin. S. Blits-səfər və ...neft axdı? «Ayna» qəz., Bakı, 1997, 19 iyul, №28
50. Muradov S. Demoqrafiq vəziyyət və milli məsələnin həllində onun nəzərə alınması problemləri / Azərbaycan Respublikasının milli siyasəti: Problemlər, perspektivlər. Respublika elmi – nəzəri Konfransının materialları. Bakı: Azərbaycan, 1994, s. 50-54
51. Mustafayev Ə. Qafqaz evi yaradılacaqmı? «Həyat» qəz., Bakı, 1992, 8 sentyabr, №176
52. Mustafayev R. Fikir azaddır. Bakı, 2000, 282 s.
53. Mürsəloğlu Ş. Rusiyanın dolayı manevləri. Rusiya Azərbaycan üzərindən nəqliyyat blokadasını tamamilə götürəcəkmi? «Ayna» qəz., Bakı, 1997, 15 noyabr, №45
54. Naibov Ə. Ləzgi separatizmi: Moskvadan və Bakıdan baxış. «Ayna» qəz., Bakı, 1992, 22 oktyabr
55. Nurani. Qafqazda ikinci «neft ittifaqı? Xəzər neft kəmərinin Çeçenistan marşrutu yeni geosiyasi durum yaradır. «Ayna» qəz., Bakı, 1997, 5 iyul, №26
56. On ikinci Şeyxülislam. Bakı: Əlhudə nəşriyyatı, 2000, 448 s.
57. Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı: Şərq-Qərb nəşriyyatı, 2002, 171 s.
58. Rusiya və Çeçenistan razılığa gəldilər. «Ayna» qəz., Bakı. 1997, 13 sentyabr, №36
59. Səfər İ. Ya rəqiblə birləşməliyik ya düşmənlə. «Azadlıq» qəz., Bakı, 1993, 3 sentyabr, №96
60. Siyasi tarix. Bakı: Azərbaycan Ensklopediyası NPB, 1998. 420 s.
61. «Yeni Azərbaycan» qəz., Bakı, 1997, 17 sentyabr



## Rus dilində

62. Абдурахимов Г.А.Кавказская Албания-Лезгистан. С.Петербург, 1995, 608 с.
63. Авторханов А. Империя Кремля. Минск-Москва: Полифакт Дружба народов, 1991, 112 стр.
64. Али К. Садвал среди простых людей Гусары и Дагестана не популярен. Газ.«Зеркало»,Баку,1997,1 ноября, №43
65. Алескеров К. Азербайджан – Россия: Парламентские связи укрепляются. Газ. «Бакинский рабочий», Баку, 1992, 14 ноябрь, № 205
66. «Аргументы и факты», 1995, №5
67. Арутюнян В.Ю, Л. М. Дробиъева, А.А. Сусокулов. Етносоциология. Москва: Аспект пресс, 1999, 271 с.
68. «Бакинский рабочий», Баку, 1992, 27 ноябрь
69. «Бакинский рабочий», Баку, 1992, 5 октябрь, № 178
70. Боташев.М. Этнический конфликт в Карачаево – Черкессии // Россия и мусульманский мир, 2001, №3, с. 35-39
71. Бубенок О. Межэтнические конфликты на Центральном Кавказе: предпосылки, развитие и прогнозы на будущее // Центральная Азия и Кавказ, 2001, №3, с.108-122
72. Барисов М. Новые времена и новые проблемы // Азия и Африка сегодня, 1997, №5, с.7-9
73. Гаджиев К. Геополитика Кавказа. М., Логос,2001,464 с.
74. Гаджиев К. Введение в геополитику. Москва: Логос, 2001, 432 с.
75. Гаджиев К. Геополитические перспективы Кавказа в стратегии России // Мировая экономика и международное отношение, 1993, №2, с. 20-37
76. Гафарлы М. Новый этап в судьбе нефтепровода. Газ. «Независимая газета», 1997, 9 январь, №1
77. Геллнер Э. Нации и национализм // Вопросы Философии. 1989, №7, с. 119-131

78. Горбачев М.С. Перестройка и новое мышление для нашей страны и для всего мира. Москва: Политиздат, 1988, 270 с.
79. Гушер А. Ключ к Кавказу // Азия и Африка сегодня, 1999, № 5, с. 52-56
80. Гушер А. Смена стратегических координат //Азия и Африка сегодня,1999, №8, с.34-39
81. Гушер А. Лезгинский фактор // Азия и Африка сегодня, 1999, №7, с. 2-12
82. Дарчиашвили Д. Южная Грузия: вызовы и задачи безпасности // Центральная Азия и Кавказ, №1, 2001, с.178-188
83. Дегоев В.В. Большая игра на Кавказе: история и современность. Статьи, очерки, эссе. Москва: Русская панорама, 2001, 448 с.
84. Дипломатия мира. Баку: Азербайджан, 1997, 392 с.
85. Добаев И. Состояние и перспективы развития исламского движения на Северном Кавказе // Россия и мусульманский мир, №11, 2002, стр. 47-59
86. Закирова Б. Национально освободительное движение Кавказа угрожает взрывами нефтепровода. Газ. «Зеркало». Баку, 1996, 13 января, №2
87. Здравомыслов А.Г. Межнациональные конфликты в пост советском пространстве. Москва: Аспект-пресс, 1999, 286 с.
88. Игнатенко А, Салмин А. Конфедерация народов Кавказа в политическом комплексе Кавказского региона Мировая экономика и международное отношение, 1993, № 9, с.96-107
89. Караганов С. Проблемы интересов российско-ориентированного населения в ближнем зарубежье Дипломатический вестник, 1992, № 21, с. 42-50
90. Карпов Ю.Ю. К проблеме ингушской автономии // Советская этнография, 1990, №5, с. 29-33
91. Касаев А. Бакинскую нефть решено пустит через Чечню. Газ. «Независимая газета», 1997, 7 июнь, №103
92. Кашкарева Т, Нарзикулов Р. Москва и грозный вынуждены искать нефтяной компромисс. газ. «Независимая газета», 1997, 30 август,№162
93. Кисриев Э. Дагестан: Причины конфликтов и факторы стабильности // Центральная Азия и Кавказ, 2000, № 4, стр. 143-152.
94. «Красная звезда», 1993, 31 август
95. Краснов А. Чеченский феномен. Выпуск №I,1996.с.11-24
96. Коэн.А. Причины для беспокойства: Последние тенденции Российской политики на Южном Кавказе // Центральная Азия и Кавказ, 2001, №2, с. 7-12
96. Крупник И.И. Национальный вопрос в СССР: поиски объяснений // Советская этнография, 1990, №4, с.3-15
97. Кудрявцев А. Конфедерация народов Кавказа. Солидарность на основе, каких целей? // Азия и Африка сегодня, 1993, №7, с. 2-6
98. Кудрявцев А. Ваххабизм: Проблемы религиозного экстремизма на Северном Кавказе // Центральная Азия и Кавказ, 2000, № 3, с. 115-122
100. Кузнецов А.И. Автономия или самоуправление? // Советская этнография, 1990, №2 с. 3-14
101. Ланда Р. Ест ли угроза единству России // Азия и Африка сегодня, 1998, №.7, с.40-43
102. Лысенко В. Региональные конфликты в странах СНГ: опыт урегулированис // Полис, 1998, №2, с. 147-157
103. Магомедов М. Дагестан: Национальный и конфессиональный факторы // Россия и Мусульманский Мир, 2000, №4, с. 68-72
104. Максаков И. Масхадов разделяет позицию Ельцина. Газ. «Независимая газета», 1997, 23 август, №157
105. Максаков И. Россия и Чечня оказывают давление на Баку. Газ. «Независимая газета», 1997, 2 июль, № 119

106.Малашенко А. Исламские ориентиры Северного Кавказа. Москва: Гендальф, 2001, 180 с.
107. Малашенко А. Тренин Д. Время Юга: Россия в Чечне Чечня в России. Москва: Гендалф, 2002, 267 с.
108. Малышева Д.Б. Проблемы безопасности на Кавказе // Центральная Азия и Кавказ. 2001, №1, с. 41-56
109.Малышева Д.Б. Этнические конфликты на юге СНГ и национальная безопасность России // Мировая экономика и международное отношение, 1994, №3, с. 30-41
110. Мукомель В. Паин Э. Попов А. Союз распался – межнациональные конфликты остались. Газ. «Независимая газета», 1992, 10 января
111. Миркадыров Р. Чечня выбрала себя вождя. Газ. «Зеркало», Баку, 1997, 27 января, №4
112. «Независимое военное обозрение», 1997, №24
113. «Независимая газета», 1997, 19 июль
114. «Независимая газета», 1997, 19 июль
115. «Независимая газета», 1997, 19 июль
116. «Независимая газета», 1999, 18 декабрь
117. «Независимая газета», 1999, 28 декабрь
118. Нурани. Чечня между миром и войной. Газ. «Зеркало». Баку, 1996, 6 апреля, №14
119. Нурани. Заложники на свободе. Вопросы остаются. Газ. «Зеркало», Баку, 1997, 23 август, № 33
120. Оруджев И. У Кавказских народов общая судьба. Газ. «Вышка», Баку, 1993, 20 февраль
121. Паин Е. Попов А. Чеченская политика России с 1991 по 1994 гг // Мировая экономика и международные отношения, 1995, №5, стр. 19
122. Перевозкина М. Дагестан - не вторая Чечня, но последний Ноев ковчег.
123. «Россия и мусульманский мир», 1999, №10, с. 79-84
124. Россия-Чечня: цепь ошибок и преступлений. Москва: Мемориал, 1998, 151 с.



125. Ротарь И. Грозный диктует свои условия. Газ. «Независимая газета», 1997, 9 июль, №124
126. Скоков А. Кабардино-Балкария: угрозы стабильности // Центральная Азия и Кавказ, 2001, №1, с. 193-202
127. Тишков В.А. Национальность - коммунист (этнополитический анализ КПСС) // Полис, 1991, №2, с.31-42
128. Шахин А. Чеченский президент второй раз побывал в Баку. Газ. «Зеркало», Баку, 1997, 29 ноября, №47
129. Шахиноглы Э. Если вы не дадите нам дорогу, мы найдем другую. Газ. «Азадлыг», Баку, 1997, 13 июнь
130. Ульянов Н. Чеченский кризис вновь становится общенациональным. Газ. «Независимая газета», 1995, 10 октябрь, №95
131. Усманов Л. Непокоренная Чечня. Москва: Парус, 1997, 414 с.
132. Черноус В. Цихоцкий С. Кавказский вопрос в истории Российской геополитики // Россия и мусульманский мир, 1998, №12, с. 37-38

## İngilis dilində

133. Bzecinski Z. Post - communist nationalism // Foreign affairs, 1989/90, vol.68, h 5, p.2
134. Bzecinski Z. The Great Change // The National Interest, 1993, no 33, p. 3-13
135. Huntinqton. S.P. The unqovemability of democrasy? // Democrasy in the 1990, Vienna: Humber, Yanuary, 1994, p.34

**Mətbəə müdiri:** *Əvəz İdrisoğlu*
**Dizayner:** *Vəfa Nağıyeva*
**Texniki redaktorlar:** *Şahin Abbasov*
*Ramin Abbasov*
**Operator:** *Şahin Salmanov*

Çapa imzalanıb 16.01.2009-cu il
Tiraj 500. Həcmi 12,5 çap vərəqi.
Formatı 60x84 1/16. Əla növ kağız.

***Hazır diapozitivlərdən AzTU-da çap olunmuşdur.***